# RƏBBİN DƏRGAHINDA

**(“İftitah”, “Əbu Həmzə” və “Məkarimul-əxlaq” dualarından seçmələrin şərhi)**

**MÜƏLLİF:
MƏHƏMMƏD TƏQİ MİSBAH YƏZDİ**

**TƏRCÜMƏ EDƏN:
MƏHƏMMƏD ƏHMƏD**

بسم الله الرحمن الرحیم


نام کتاب:..........................به درگاه دوست
مولف:..........................آیت... مصباح یزدی
مترجم:..........................محمد احمد
ناشر:.......................... .شهریار
تاریخ چاپ:..........................1385
نوبت چاپ:..........................اول
تیراژ:..........................2000

Kitabın adı:...................Rəbbin dərgahında
Müəllif:........Məhəmməd Təqi Misbah Yəzdi
Tərcümə edən:.......................Məhəmməd Əhməd
Nəşr edən:..........................................Şəhriyar
Çap növbəsi:.......................................Birinci
Tiraj:..........................................................2000

**964-5934-91-5**

*Rəhman və Rəhim Allahın adı ilə*

## *Ön söz*

***"Bəndələrim səndən Mənim yaxınlığım və uzaqlığım barədə soruşduqda bilsinlər ki, Mən onlara yaxınam. Hər kim Məni çağırarsa onun duasını qəbul edərəm."***[1].

İnsan öz həyatının eniş-yoxuşlarında, acılı-şirinli hadisələrində bə`zən elə bir ruhi sıxıntıya düşür ki, heç bir maddi vasitə ilə sakitlik tapmır. Bütün imkanlıların imkanını, sərvətlilərin sərvətini və dünyəvi ləzzətlər üçün olan vasitələrin hamısını onun ixtiyarında qoysalar belə, ruhi sıxıntısından zərrəcə azalmaz.

Belə bir halda insan ürək sözlərini demək üçün ən yaxın dostunun, özü üçün ən əziz olan şəxsin sorağına gedir. Bə`zən isə heç kəsi məhrəm və e`tibarlı saymayaraq tənhalığın bir küncündə öz-özü ilə pıçıltıya qapılır. Bütün hallarda sakitlik və şəfa üçün yeganə yol məhbub ilə ünsiyyət və mə`şuq yanında qəlb süfrəsini açmaqdır.

Əgər insan pisliklərə aludə halda günah çirkabı səbəbindən qəm-qüssə və qəlb sönüklüyünə düçar olub özünə nifrət edərsə, hara sığınmalı və kiminlə dərdləşməlidir? Məhz bu məqamda insan bütün paklıq və yaxşılıqların qaynağı, məhəbbət və səfa yaradanı olan xaliqinə pənah aparıb Onunla ünsiyyət məclisinə qatılmalı, Onun eşqi və zikri ilə sakitlik tapmalıdır.

Zəlil bir bəndənin öz əziz Mə`budu qarşısında duraraq, aludə canını Onun söhbəti çeşməsində təmizləməsi və təlatümlü ruhunu O bir olanın zikri ilə aram etməsindən üstün bir ləzzət varmı?! Bu, duanın ən üstün və ən gözəl bəhrəsidir!

---

[1] "Bəqərə" surəsi, ayə 186.

Avam dilində duanı “bəndənin tələbi və istəyi” kimi təfsir edirlər. Lakin duanın həqiqi mə`nası belədir: “Aşiq bəndə tərəfindən məhbubun çağırılması, onun mə`şuq ilə xəlvətdə qalması və onun haqq axtaran ariflər məqamı ilə sirdaşlıq və qonşuluq etməsi”.

Zəlil və alçalmış bəndə öz günahla dolu qəlb evini paklıq və yaxşılıqlardan uzaq gördükdə dost və mə`şuqun məclisinə qovuşmaq üçün daha yaxın bir yol axtarır. O hansı xəlvət guşədə öz mə`budunu tapa bilər? O heyrət içindədir. Bu an nida olunur: ***“Şübhəsiz, Mənəm yaxın.”***[1].

Həqiqətən də, Onunla yoldaşlıqda heç bir fasilə yoxdur: ***“Biz ona şah damarından da yaxınıq.”***[2]

Bəndə belə bir halla haqqa yaxınlığa çataraq Onun məclisinə bir addım yaxınlaşarsa, bu an Mə`bud onu sevər və bu bəndə haqqın məhbubu olar; nida gələr: “Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər.”[3]

Ümid edirik ki, biz də dua məclisinə qovuşmuş ariflərdən olaq və haqqın hüzurunda Onun zatından başqasını istəməyək. Haqqı tanıma bəndənin ibadətinin ən üstün qəbul dərəcəsidir.

Qarşınızdakı kitab Ustad Misbah Yəzdinin dua barəsindəki söhbətlərindən seçmələrdir.

Bu məcmuə üç hissədən ibarətdir. Birinci hissə dua barəsində ümumi mövzulara aiddir. Bu hissə ustadın dua barəsindəki söhbətlərindən tərtib edilmişdir.

İkinci və üçüncü hissə hörmətli alimin hicri qəməri 1398-ci il ramazan ayında Qum şəhərinin məhdiyyəsində keçirdiyi 15 söhbət məclisindən ibarətdir. Bu söhbətlər azacıq dəyişikliklə verilmişdir. Bu məclislərin iştirakçıları

---

1 ”Bəqərə” surəsi, ayə 186.

2 “Qaf” surəsi, ayə 16.

3 “Bəqərə” surəsi, ayə 186.

müxtəlif təbəqələrdən olduqları üçün söhbətin səviyyəsi hamı üçün nəzərdə tutulmuşdur. Eyni zamanda, faydalı və dəyərli nöqtələr çoxdur. Şübhəsiz ki, heç bir natiq söhbət məqamında yazdığı kimi danışmağa qadir deyil.

İkinci hissədə "İftitah" duasından seçmələrin şərhi verilmişdir. Üçüncü hissədə isə "Əbu-Həmzə" duasından seçmələr şərh və təfsir olunmuşdur. Ümid edirik ki, mö`minlərin istifadəsi üçün yararlı olsun.

*Abbas Qasimi 1418, şə`ban*

# BİRİNCİ HİSSƏ

## *DUA BARƏSİNDƏ SÖHBƏTLƏR*

***"De ki, əgər sizin duanız olmasa, Rəbbim sizə heç bir qədir-qiymət qoymaz."***[1]

İnsanın Allah ilə ən sadə və ən təbii əlaqəsi Onu zikr etməsidir. Bunun nəticəsində insanın qəlbi ixtiyari olaraq Allahı xatırlayır, ruhu tə`sirlənir. Arabir bu xatırlamanın tə`siri dildə də özünü göstərir.

Dua mö`minin silahı, Allaha yaxınlaşma vasitəsi, ibadətin mahiyyəti, haqqı xatırlama və aləmlərin Rəbbi ilə söhbətdir; dua dost evinə getmək bəhanəsi, ehtiyacsız və tək mə`budla raz-niyazdır; dua can üçün həyat, ruhun şadlıq mayası və ilahi bəxşişlərin açarıdır; dua haqq rəhmətində qərq olma və ilahi bərəkətlərin nazil olma səbəbidir.

Dua İslamda daha çox diqqət yetirilən məsələlərdən biridir.

Bu mövzuya İslamda çox tə`kid olunmuşdur. Ona görə də duanın həqiqətinin aşkarlanması lazımdır.

Dua ilə bağlı bir çox məsələlər araşdırılır. O cümlədən: Duanın həqiqəti nədir?

Dua qəbul üçün müstəqil bir səbəbdir, yoxsa qəbul vasitələrinin, təbii və adi səbəblərin kənarında əlavə vasitədir? Əgər dua müstəqil bir səbəbdirsə, Allahın təkvini (təbiət) sünnələrində, qanunlarında istisna yaratmırmı? Məgər dua insanların süstlük və tənbəlliyinə səbəb olmurmu? Duanın tə`sirləri nədir və hansı dərəcədədir? Duanın faydası nədir? Dua tərbiyəvi cəhətdən insan həyatında nə kimi rol oynayır? Məgər bə`zilərinin

---

[1] "Furqan" surəsi, ayə 77.

dediyi kimi, duanın tə`siri yalnız onun məzmunudur; yə`ni dua təlqini tə`sirə malikdir və buna görə də şəxsin istəyə doğru hərəkətinə səbəb olur? Yoxsa onun başqa tə`sirləri də var? Nə üçün Allah Qur`anda bəndələrinin dualarını qəbul edəcəyini və`d etdiyi halda bizim dualarımız çox az qəbul olunur? Məgər duanın şərtləri və qaydaları var? Əgər varsa, dua və onun qəbul olma şərtləri nədir? Qur`anın yasaq etdiyi "duaya təkəbbür" nə deməkdir?

Sadaladıqlarımız və digər mövzuları bu hissədə araşdıracağıq.

## *DUANIN HƏQİQƏTİ NƏDİR?*

Dünya həyatı elədir ki, istər-istəməz insanın diqqətini maddi işlərə cəlb edir. Lakin həqiqət budur ki, insan Allaha yaxınlaşmaq üçün yaradılmışdır. O, həyatın bütün yönümlərindən bu məqsədə çatmaq üçün istifadə etməlidir. Bu məqsədə çatmaq üçün ən yaxşı yollardan biri hər gün ömrün bə`zi anlarında diqqəti xaliscəsinə ilahi dərgaha yönəltməyə sərf etməkdir. İlahi dərgaha olan bu diqqət daha çox namazda əks olunur. Namazda qunut və digər hallarda dualar oxunur. Rəvayətlərdə namazdan əvvəl və namazdan sonra üçün dualar nəql olunmuşdur. Lakin namazın özünü də bir növ dua hesab etmək olar. "Səlat" (namaz) sözünün lüğət mə`nası "dua"dır.

Duanın həqiqəti həzrət Mə`budun dərgahına nəzər salmaqdan ibarətdir. Dua mö`minlər üçün bir növ ruhi və mə`nəvi me`racdır. Dua yalnız bir sıra sözləri ifadə etmək və bə`zi xüsusi qaydalara riayət etmək deyil. Duanın ruhu və həqiqəti insanın qəlbən aləmlərin yaradanına diqqət yetirməsidir. Bu diqqətin gücü insanın Allaha məhəbbət və mə`rifətinin dərəcəsindən asılıdır. Buna görə də duadan

əvvəl və dua zamanı Allahın sifətlərinə nəzər salmaq lazımdır.

Dua həqiqətdə ibadətdən savay bir şey deyil. Hətta bu ibadət Allaha diqqət baxımından bir çox ibadətlərdən üstün tutulmuşdur. Peyğəmbərdən nəql olunmuş bir rəvayətdə deyilir: ***"Dua bütün ibadətlərin məğzi kimidir".***[1]

Qur`ani-Kərimdə də Allah "duaya təkəbbürlə yanaşma" məsələsini qeyd edərkən buyurur: ***"Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! Mənə ibadət etməyi mənliyinə sığışdırmayanlar tezliklə, zəlil olaraq cəhənnəmə girəcəklər".***[2]

Bu ayədə, Allah "yəstəkbirunə ən duai" buyurmamış, "dua" yerinə ibadət tə`birini işlədərək rəsmi olaraq duanı ibadət ünvanında tanıtdırıb onu bəndəlik üçün lazım olan şərtlərdən saymışdır. Çünki yalvarışı tərk etmiş şəxs üçün gəlmiş cəhənnəm odu əzabı duanı tərk edən şəxsin cəzasına yox, daha çox ibadəti tərk etmiş şəxsin cəzasına uyğundur...[3]

Mümkündür ki, zehnimizdə belə bir sual yaransın: İnsanın Allahdan bir şey istəməsi onun üçün ibadət ola bilərmi? Bu sualı cavablandırmaq üçün ibadətin həqiqəti açıqlanmalıdır.

İbadətin həqiqəti budur ki, insan özünü Allahın bəndəsi və Onun hökmü altında bilsin, özünə heç bir hakimiyyət aid etməsin və Allah qarşısında özünü müstəqil iradə sahibi saymasın. Əksinə, özünü və öz varlığını

---

[1] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar" 93-cü cild, 14-cü bab, səh.300, rəvayət 37.

[2] "Mu`min" surəsi, ayə 60.

[3] Əllamə Təbatəbai, "Təfsirul-Mizan" 2-ci cild, səh.33.

Allaha məxsus hesab etsin. İnsan tamamilə Onun iradəsinə təslim olmalı, Allah qarşısında öz bəndəliyini e`tiraf etməli və azad şəkildə öz təkvini bəndəliyini göstərməlidir. Başqa sözlə, Allah qarşısında göstərməlidir ki, "Sən mənim Allahımsan, mən isə Sənin bəndənəm; Sən əzizsən, mən isə zəliləm; Sən hakimsən, mən isə Sənin mülkünəm; Sən Rəbsən mən isə tərbiyə alanam."[1] Namazın həqiqəti də elə bu mətləbi bildirməkdir: "İlahi, mən bəndəyəm, bəndəlik mənim şə`nimdədir və Sən mənim malikimsən!"

İbadət əslində yuxarıda sadalanan mətləbləri göstərməkdir. İstər qəlbdə olsun, istər dil ilə göstərilsin, istərsə də əzalarla! Rüku və səcdələr də bu növ qəlb halının göstəricisi olduğu üçün ibadət hesab olunur: Allahın sonsuz əzəməti müqabilində zəlillik nümunəsi! Dil zikri də bu həqiqəti bəyan edir.

Bütün ibadətlərin əsası və ruhu qəlbin diqqətidir. Hərəkətlər və dil zikri isə bu həqiqətin göstəricisidir. Dua Allahın malikiyyətinə, Rəbliyinə, izzətinə və qüdrətinə əməli e`tiqaddır.

Əllərini ilahi dərgaha açıb, qarşısında boyun əyib başını aşağı endirən, üzünü torpağa sürtən, gözlərindən yaş axıdan və öz duası ilə hacətlərini istəyən şəxs İlahi əzəmət qarşısında bütün zəlillik və zəifliyini əməli olaraq göstərmişdir. Özünü fəqir, zəif, zəlil və biçarə, Allahı isə varlı, qüvvətli, əziz və qadir bilmişdir. O bu haləti ilə sadalanan həqiqətləri bəyan etmişdir.

Dua zahirən maddi və mə`nəvi ehtiyacların tə`min olunması istəyi olsa belə, əslində bəndəliyin, insanın acizlik və fəqirliyinin e`tirafıdır. Adətən, dua sözlərlə ifadə olunur. Amma əsas bu sözlər yox, onların arxasında duran

---

[1] Həzrət Əlinin (ə) münacatlarından bir hissə. "Biharul-ənvar" 95-ci cild, səh.391, rəvayət 31.

gizli mə`nadır. Elə də deyil ki, bu sözlərin deyilişi dünyanın hadisələrində tə`sir etsin və kim bu sözləri tələffüz etsə tə`sirli olsun.

Başqa sözlə dua qəlbə aid bir işdir və dil yalnız ürəkdə olanı göstərir. Beləliklə, dua insanın qəlbindən gəlməlidir. Qəlb diqqəti olmadan, dil ilə sözlərin tələffüzü dua hesab olunmur. Buna görə də dua ciddi qəlb istəyi ilə müşayiət olunmalıdır.

Deyilənlərdən mə`lum oldu ki, dua həqiqətdə ibadətdən savay bir şey deyil. Bəlkə də, peyğəmbərdən nəql olunan bir hədisə əsasən, dua bütün ibadətlərin məğzidir. Dua Allahın mütləq hakimiyyəti qarşısında bəndəliyi göstərməkdir.

## *DUANIN MÜSTƏQİL TƏ`SİRİ*

Dua müstəqil şəkildə qəbul səbəbi ola bilərmi? Heç bir adi səbəbsiz, sırf duanın tə`siri nəticəsində hansısa bir hadisə baş verə bilərmi? Bu mövzu e`tiqadi və fəlsəfi məsələlərə aiddir. Burada isə bu məsələyə yalnız qısaca işarə olunur.

Qur`an bu suala müsbət cavab verir. Qur`anda zahiri vasitələrdən istifadə etməməklə duanın hansısa bir işin səbəbi olmasını göstərən nümunələr verilmişdir. O cümlədən, həzrət Zəkəriyyanın duası səbəb oldu ki, Allah qoca vaxtında ona övlad (Yəhya (ə)) əta etdi. Heç bir adi vasitə olmadan, yalnız duanın tə`siri nəticəsində baş vermiş işlər haqda başqa nümunələr də tapmaq olar. Beləliklə, bu məsələ Qur`an baxımından inkar olunmamışdır.

Məgər bu məsələ ilahi qanunlarda istisnaya və səbəbiyyət qanununun pozulmasına səbəb olmurmu? Allah belə qərarlaşdırmışdır ki, işlər təbii səbəblər nəticəsində

baş versin: “Allah istəmir ki, əşya qeyri-təbii yolla vücuda gəlsin.”[1]

Bu məsələ mö`cüzə və kəramət kimidir. Necə ki, mö`cüzə barəsində belə deyilmişdir: “Təbii və adi qanunlara hakim olan bir qanun var”. Duanın qəbul olması da İlahi bir qanun olaraq bütün qanunlara hakimdir. Beləliklə, “Fatir” surəsinin 43-cü ayəsini (“Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişiklik tapmazsan.”) mö`cüzənin inkarı üçün dəlil saymaq düzgün deyildir.

Qeyd olunmuş dəlillərə əsasən duanın tə`sirini inkar etmək üçün yuxarıdakı ayə və hədisi sübut gətirmək olmaz. Beləliklə, qeyri-adi işləri inkar etmək Qur`an ilə uyğun gəlmir.

Bu məsələ mö`cüzə və kəramətin ilahi e`tiqad və dini üsullardan biri olması ilə izah edilir. Maddiyyatçı məktəblərdə belə bir e`tiqad yoxdur. Bu ilahi məktəblərə, xüsusi ilə də İslama tutulan nöqsanlardan biridir. Bu e`tiqadda olanları isə səbəbiyyət prinsipini parçalamaqda ittiham edirlər.

Onlar deyirlər: “Bu məsələni qəbul etmək səbəbiyyət prinsipinə ziddir. Əgər səbəbiyyət prinsipi qəbul olunarsa, gərək bütün şeylər təbii yolla və öz xüsusi şəraiti ilə yaransın. Başqa yolla hansısa bir hadisənin baş verməsi mahaldır. Necə qəbul etmək olar ki, təbii səbəblər olmadan hansısa bir hadisə baş versin? Beləliklə, bu e`tiqad səbəbiyyət prinsipini inkar edir”.

---

[1] Məhəmməd Baqir Məclisi, əvvəlki mənbə, 2-ci cild, 14-cü bab, səh.90, 14 və 15-ci rəvayət.

## *DUANIN SƏBƏBİYYƏT PRİNSİPİ İLƏ ZİDDİYYƏTİ VARDIRMI?*

Məgər mö`cüzə və ya qeyri-adi işləri qəbul etmək səbəbiyyət prinsipini inkar etməkdirmi? Məgər səbəbiyyət prinsipi ümumi bir qanundur? Bu qanunu qəbul etmək üçün mö`cüzə və duanın tə`sirini inkar etmək lazımdırmı?

Səbəbiyyət prisipinin istisnasız, ümumi və zəruri bir qanun olmasına heç bir şübhə yoxdur. Əlbəttə, bu məsələni izah etmək üçün geniş fəlsəfi bəhslərə ehtiyac vardır. Məsələyə aydınlıq gətirmək üçün yalnız bir neçə işarə ilə kifayətlənirik.

**Sual olunur:** Əgər səbəbiyyət prinsipi ümumi və zəruri bir prinsipdirsə, mö`cüzələri və duanın tə`sirini necə qəbul edə bilərik? Bu sualın cavabının izahı üçün müqəddimə vermək lazımdır: Səbəbiyyət qanununu gerçək saymaqla bütün hallarda xüsusi səbəblərin olmasını qəbul etmək və səbəbi, tanıdığımız səbəblərə həsr etmək arasında fərq vardır. Burada isə bu iki mövzu bir-birindən ayrılmamışdır.

Fəlsəfədə inkarolunmaz və aşkar bir səbəbiyyət qanunu vardır. Bunun məfhumu isə aşağıdakı kimidir:

Varlıq aləmində olan bə`zi mövcudlar başqa mövcudların olmasına ehtiyaclıdır və onların varlığı başqa mövcudların varlığı ilə şərtlənmişdir. Məsələn, nəfsə bağlı və onun nəticəsi olan iradə. Bu məsələnin fəlsəfi qaydası ehtiyaclı mövcud və vücudu mümkün olan (mümkünəl-vücud) nəticənin onun ehtiyacını ödəyəcək mövcuda ehtiyaclı olmasından ibarətdir. Yə`ni əgər ehtiyaclı bir mövcudun ehtiyacı tə`min olunursa, mə`lum olur ki, onun bu ehtiyacını ödəyən bir səbəb vardır. Beləliklə, hadisələr və varlığı özündən olmayan bütün şeylər başqa bir amilin tə`siri nəticəsində yaranmalıdır.

Bu şübhəsiz və aşkar bir qanundur. Bu qaydaya əsasən, alimlər hər bir elmdə hadisələrin səbəbini axtarmaqla məşğuldurlar. Tarix boyu alimlər hadisələrin səbəbini belə bir qaydaya əsasən axtarıblar ki, nəticə səbəbsiz ola bilməz. Bəşəriyyətin indiyə qədər kəşf etdikləri də bu qanunun bərəkəti nəticəsindədir.

Bu mövzuda yaranmış qatışıqlığın səbəbi xüsusi səbəblərin tanınmasındadır. Yə`ni səbəbsiz olaraq nəticənin yarana bilməməsi qanununu qəbul etdikdən sonra, növbə xüsusi nəticələr üçün xüsusi səbəblərin tə`yin olunmasına çatır. Hər bir hadisənin xüsusi səbəbini tanımaq fəlsəfənin əhatəsindən xaric olaraq elmin əhatəsinə daxil olur.

Beləliklə, fəlsəfi səbəbiyyət qanunu hər bir nəticənin səbəbə ehtiyaclı olmasını bəyan edir. Bu qanun üçün fəlsəfə ümumi şərh verir. Lakin fəlsəfə xüsusi bir nəticənin öz xüsusi səbəbini göstərmir və bu işdə təcrübə ilə səbəbləri tanımağı elmin vəzifəsi sayır. (Öncə qeyd olundu ki, səbəbləri tanıma yolu amil və şərtləri müəyyənləşdirməkdir). Səbəbiyyət qanunu əqli qanun olaraq deyir: Məhdud, şərtli və ehtiyaclı olan mövcudların arxasında başqa bir şey olmalıdır ki, onunla əlaqə vasitəsi ilə varlıq tapsınlar. Lakin bu şeyin hansı xüsusiyyətlərə və hansı tə`sirə malik olduğunu səbəbiyyət qanunu müəyyənləşdirmir. Başqa sözlə, hər bir hadisənin xüsusi səbəblərini səbəbiyyət qanunu vasitəsi ilə tanımaq olmur. Deyildiyi kimi, xüsusi səbəbləri tanımaq elm və təcrübənin işidir; səbəbiyyət qanunu isə əqli qanun olaraq təcrübədən öndə gəlir və ondan asılı deyil.

Misal üçün fərz edin: Təcrübə otağında bir alim şərtləri dəyişmək ilə hadisənin səbəbini kəşf etmək istəyir. Gözlənilmədən yeni bir hadisə baş verir; məsələn, işıq

saçılır, səs gəlir və ya başqa bir maddi hadisə baş verir. Alim eşidən və ya görən kimi bu hadisənin baş verməsindən xəbər tutur və bu hadisənin səbəbsiz olmadığını anlayır. O bu mövzunu əqli səbəbiyyət qanununa əsasən anlayır və heç bir təcrübəyə də ehtiyac duymur. Lakin ağıl öz-özlüyündə bu hadisənin yaranma səbəbini tə`yin edə bilməz. Əgər belə olmasaydı heç vaxt təcrübəyə ehtiyac qalmazdı və təkcə ağıl hadisələrin baş vermə səbəbini tə`yin etmək üçün kifayət edərdi. Bu hadisənin baş vermə səbəbini tapmaq üçün təcrübəyə ehtiyac vardır. Beləliklə, işin xüsusi səbəblərini tanımaq ağılın yox, elm və təcrübənin işidir.

Bə`zi şəxslər maddi bir hadisənin səbəbini bilmədikdə və ya öz təcrübələrində bu hadisənin baş vermə səbəbini göstərə biləcək bir şey tapmadıqda, səbəbiyyət qanununda istisna yarandığını güman edirlər.

Bə`zi fiziklər bir sıra hadisələrin gizli səbəblərini tapa bilmədikləri üçün (məsələn; necə olur ki, xüsusi bir elektron öz orbitindən xaric olur) bu hadisələrin səbəbsiz olduğunu deyir və bu yerdə səbəbiyyət qanununun pozulmasına inanırlar; baxmayaraq ki, səbəbiyyət qanunu pozulmaz bir qanundur! Onların axtarmalı olduqları baş vermiş hadisənin öz xüsusi səbəbidir. Əgər bu səbəb tanınmamışsa, demək, təcrübə naqisdir.

Beləliklə, xüsusi səbəbi tanımaq təcrübənin işidir. Lakin (ikinci dolaşıq düşmüş) məsələ budur ki, hadisənin ona həsr olunmuş səbəbini təcrübə vasitəsi ilə tapmaq olarmı? Xüsusi bir şəraitdə təcrübə aparırıq və bir şeyin yaranışının digər bir şeyin əhatəsində olması, bu iki şey arasındakı əlaqə bizə mə`lum olur. Məsələn, təcrübə yolu ilə müəyyənləşdiririk ki, “a” olarsa, “b” də yaranacaq. Eyni zamanda əgər “a”-nı götürsək, “b” də yox olacaq.

Məgər bu təcrübə “b”-in “a”-dan başqa bir yolla yaranmadığını deyirmi?

Bəşəriyyət uzun illərdi ki, od hazırlamaq üçün xüsusi vasitələrdən istifadə edir. Demək olarmı ki, od bu vasitələrdən başqa heç bir yolla yaranmır? Başqa sözlə hərarət yaratmaq üçün oddan istifadə edirik. Məgər deyə bilərik ki, hərarət oddan başqa heç bir yolla yaranmır? Məgər iddia etmək olar ki, hərarət dünyanın hər yerində və hər bir zamanda od vasitəsi ilə yaranır? Təcrübə bizə bu nəticəni verir? Yoxsa təcrübə xüsusi şəraitlərdə hərarətin odun nəticəsi olduğunu göstərir? Biz yalnız onu deyə bilərik ki, bildiyimizə görə hərarətin yaranma səbəbi oddur. Lakin hərarətin yaranması üçün başqa səbəblərin olmasını mümkünsüz saya bilmərik. Bu iddia cahilanədir və tədqiqatçı şə`nindən uzaqdır. Hiss olunmayan və tanınmayan bir səbəbin tə`sirini inkar etmək olmaz.

Beləliklə, təcrübə (elm) bəşəriyyətə əşyanın yeganə mümkünlük səbəbi olduğunu öyrədə bilməz. Təcrübə yalnız hisslərin duyduğu şeyləri sübut edir. Amma təcrübə hisslərdən yuxarı həqiqətləri inkar edə bilməz. Demək, elmin peyğəmbər buyuruqlarını və duaların tə`sirini müstəqil şəkildə inkar etməsi əsassızdır. Elm təcrübə əsasında insanın ata-ana vasitəsi ilə yarandığını deyir. Lakin elm insanın başqa bir yolla yaranmasını mahal, mümkünsüz saya bilməz.

Ümumiyyətlə, təcrübə nəyinsə mahal olmasını sübut edə bilməz. Mümkünsüzlük (mahal olma) təcrübə ilə müəyyənləşdirilmir. Mümkünsüzlük fəlsəfəsi bir məfhumdur və yalnız ağıl yolu ilə sübut olunur. Təcrübə yolu ilə hansısa bir hadisənin olmaması sübuta yetir. Lakin bu hadisənin mümkünsüzlüyü təcrübə ilə müəyyənləşdirilə bilməz. Demək, elm nə qədər inkişaf etsə də, mö`cüzə,

duanın tə`siri və bu kimi məsələləri inkar edə bilməz. Bu müqəddimədən sonra aşağıdakılar mə`lum olur:

Mö`cüzə və ya hər bir qeyri-adi işi qəbul etmək səbəbiyyət qanununun inkarı və ya bu qanunda istisna olmasını qəbul etmək deyil. Bu işlər Allaha aid olduğu üçün varlıq səbəbi onların özlərindədir. Yə`ni bu işlərin mümkünlüyünü qəbul etmək, Allahın səbəbiyyətinin mümkünlüyünü qəbul etməkdir. Təbii səbəblər barəsində: Əgər təbii bir səbəb olmadan nəticə yaranırsa, bu səbəbiyyət qanununun pozulması deməkdirmi? Verilmiş müqəddiməyə əsasən, iddia etmək olmaz ki, bizim tanıdığımız təbii səbəb hansısa bir nəticənin yaranmasının yeganə mümkün səbəbidir. Bunun üçün başqa yollar da vardır. Çünki qeyri-adi işlərin yaranmasında Allahdan başqa bizim tanımadığımız başqa səbəblər də vardır.

Bundan başqa təbii işlər üçün olan qeyri-təbii səbəbiyyət səbəbiyyət qanunu ilə inkar olunmur. Heç bir elm təbii bir işin yaranmasında qeyri-təbii bir işin tə`sirini inkar edə bilməz. Lakin bu cür tə`sirləri elm həmişə isbat edə bilmir. Riyazətlə (nəfsi sıxıntıya salma) məşğul olub güclü nəfsani qüvvə əldə edən şəxslər bə`zi maddi hadisələrə tə`sir göstərə bilərlər. Onların bə`zi işləri təbii vasitələrlə görüləsi iş deyil. Bu məsələ bu gün şübhə doğurmayan məsələlərdəndir.

Beləliklə, qeyri-təbii işlərin yaranması səbəbiyyət qanununun pozulması (fəlsəfi səbəb və nəticə qanunu) demək deyil. Demək, bunun inkarı üçün "Fatir" surəsinin 43-cü ayəsini ("Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişiklik tapmazsan.") dəlil gətirən şəxslərin sözləri əsassızdır. Bununla da mə'lum olur ki, qeyri-adi işlər ilahi qanunun pozulması demək deyildir. Bu ayə bəşər cəmiyyəti haqqındadır. Ayədə bildirilir ki, bir qövm üsyan

qaldırsa, ilahi ayələri təkzib etsə, ilahi ayələrin inkarı mövqeyini tutsa, cəmiyyətdə fəsad yayılsa, haqq yol bağlansa və xalq çətinliyə düşüb haqq yolu tapa bilməsə, Allahın belə hal üçün nəzərdə tutulmuş qanunu işə düşür. Bu qövmə möhlət verilmir. Onlar göy və ya yer əzabı ilə yaxalanır və məhv edilir. Ayə bu sayaq hallar üçün nəzərdə tutulub və təbiət qanunları ilə heç bir əlaqəsi yoxdur. Ayədə hər bir maddi hadisənin maddi bir səbəbdən doğmasının (məsələn, hərarətin həmişə oddan hasil olmasının) ilahi qanun olması nəzərdə tutulmur.

İşarə olunmuş ayənin dünyaya hakim bütün qanunlara aid olduğunu fərz edib, soruşuruq: Məgər Allahın qanunları yalnız bizim tanıdığımız qanunlardır? Yox əgər bizim tanımadığımız qanunlar vardırsa, bunlar da Allahın qanunlarıdırmı?

İlahi qanunlardan biri budur ki, hər zaman məsləhət olarsa, iş qeyri-təbii yolla baş tutsun. Elm və ya fəlsəfə nə vaxt sübut etmişdir ki, hər bir təbii hadisənin yalnız adi və maddi səbəb yolu ilə baş verməsi Allahın qanunudur?

Beləliklə, mö`cüzə və duanın tə`sirinin sübut olması baş vermiş hadisələrin səbəbsiz olması demək deyildir. Əksinə, bu iş bəşəriyyətin tanıdığı səbəblərin arxasında başqa səbəblərin də dayandığını sübut edir; səbəbiyyət qanunu ümumi və zəruri bir qanun olaraq mö`cüzə və qeyri-təbii işlərlə cəmləşir və onlarla heç bir ziddiyyəti yoxdur. (Bu barədə müəllifin "Qur`an maarifi" kitabına müraciət edin.)

## *MƏGƏR DUA XALQ ÜÇÜN SÜSTLÜK VƏ TƏNBƏLLİK SƏBƏBİDİR?*

Dua ilə bağlı mövzulardan biri də ictimai və psixoloji yönümdə olan mövzudur. Bə`ziləri belə güman edirlər ki,

xalqın duanın tə`sirinə inanması ictimai və şəxsi fəaliyyətlərdə süstlüyə səbəb olur. Bu süstlük istər-istəməz ictimai tənəzzülə aparasıdır. Bu da, zülmkarlar üçün yaxşı bir vasitədir. Onlar xalqın başını dua və ibadətlə qataraq onların sərvətlərini qarət etməklə məşğul olurlar.

Lakin həqiqət budur ki, hər bir gerçəkdən hansısa şəkildə sui-istifadə etmək mümkündür. Əgər hansısa bir həqiqətdən sui-istifadə olunarsa, bu həqiqətin əsassız olmasını demək olmaz. Dua istər ictimai, istərsə də fərdi məsələlərdə quruculuq və çalışqanlıqdan əl çəkmək demək deyil. Duanın mə`nası budur ki, mö`min insan həqiqi səbəbkar Allahı bilir. Hər zaman ehtiyac hiss etdikdə öz ehtiyaclarını aradan qaldırmaq üçün Allahına üz tutur. Eyni zamanda Allahın verdiyi maddi vasitələrdən bu sahədə öz həddində istifadə edir. Çünki Allah özü belə istəmiş və belə qərarlaşdırmışdır. Lakin bu vasitələri işin tə`sirində müstəqil saymaq olmaz.

Mö`min insan maddi vasitələrdən faydalanmasına baxmayaraq, onlara güvənmir. Nəticədə maddi vasitələr olmayan yerdə naümid olmur. Çünki Allahın onun ehtiyaclarını qeyri-təbii yolla ödəyə biləcəyinə inanır. Bu həqiqətlərə nəzər saldıqda aydın olur ki, duanın tə`sirinə inam süstlük və tənbəllik səbəbi yox, təlaş və ümid səbəbidir.

İnsan yalnız maddi vasitələrə inamlı olarsa, bu vasitələr olan yerdə fəaliyyət göstərə bilər. Lakin mö`min insan maddi vasitələr olmayan yerdə də həvəsdən düşmür.

Bədr döyüşündə müsəlmanlar son dərəcə çətinliyə düşmüşdülər, qüvvə və döyüş vasitələri düşməndən qat-qat az idi. Lakin onlar duaya başladılar: «İz təstəcisunə rəbbəkum...». Beləliklə, Allah onların duasın qəbul etdi və onlara kömək üçün 1000 mələk göndərdi. Bununla da

müsəlmanlar qələbə çaldılar. Əgər müsəlmanlar duaya inanmasaydılar, öz ruhiyyələrini itirib, geri çəkilər, məğlub olardılar.

Beləliklə, duaya inam məğlubiyyət və gerilik səbəbi deyil. Əksinə, bə`zən duaya inanmamaq məğlubiyyət və gerilik səbəbi olur. Əslində bu şübhə dua ilə yetərsiz tanışlığın nəticəsidir. İnsanın yalnız dua edib heç bir fəaliyyət göstərməməsi təsəvvürü yanlış təsəvvürdür.

Allahdan bir şey istədikdə Onun özünü həqiqi səbəbkar bilməliyik. İxtiyarımızda olanları da Ondan bilməliyik. İxtiyarımızda olanları özümüzünki bilib başqa yerlərdə Allahdan kömək istəməməliyik. Məgər insanın vücudu və hər nəyi Allahın deyilmi?!

Dua insanın Allahdan onun işlərini qeyri-təbii yolla görməsini istəməsi deyil. Əslində bu iş Allaha məsləhət vermək kimidir; məsələn, süfrəsində çörək olan şəxs deyir: "İlahi, mənə başqa yolla ruzi ver". Bu həqiqi dua deyildir!

İnsan həqiqətən Allahı tədbir və hikmət sahibi bilərək Ondan nəsə istəyirsə, Allahın ona verdiklərindən razı qalmalıdır. Əgər bu şeylərdə azlıq hiss edərsə, Allahdan onu tə`min etməsini istəsin. Beləliklə, Allahın göz əta etdiyi, lakin gözlərini yumaraq Allahdan onu gözübağlı məqsədə çatdırmasını istəyən şəxsə demək lazımdır ki, məgər Allah sənə göz verməyibmi?! Nə üçün ondan istifadə etmirsən?! Dua Allahın hikmət əsasında əta etdiyi ne`mətləri kənara qoyub, Allahdan başqa yolla ne`mət istəməsi deyil. Bu yanaşma əslində "İlahi, mən Sənin məsləhətini qəbul etmirəm" mə`nasını verir: "Sən dedin göz ilə gör, mən isə qulaq ilə görmək istəyirəm!" Nəql olunur ki, həzrət Musa (ə) xəstələnmişdi. Bəni-İsrail ona dedi: Əgər filan bitkidən istifadə etsən, yaxşılaşarsan. Musa (ə) dedi: "Mən dərman qəbul etməyəcəm. Allah özü

mənə şəfa versin”. Bir müddət keçdi, lakin sağlamlıqdan bir əsər görünmədi. Allah tərəfindən ona vəhy olundu: “And olsun izzət və cəlalıma, sənə o bitkidən istifadə etməyincə şəfa verməyəcəyəm. Ey Musa, sən təvəkkülünlə Mənim hikmətimi batil etmək istəyirdin?! Məgər bitkilərin kökünə şəfa xüsusiyyətini Məndən başqasımı vermişdir?!”

Təbii ki, Allah öz hikmətli tədbirlərini bizim istək və həvəslərimizə tabe etməyəcək: ***“Əgər haqq onların istək və həvəslərinə tabe olarsa, şübhəsiz, göylər və yer puç olar.”***[1]

Beləliklə, Allahın ixtiyarımızda qoyduğu şeylərdən tələb olunan qaydada istifadə etməli, Allahın tədbir və hikmətinə boyun əyməliyik. Allah əbəs yerə və hikmətsiz heç bir iş görmür. Aləmdə olan bütün vasitələr Onun hikməti əsasındadır. Bütün vasitələr bizim xeyirimiz üçündür və bizim problemlərimizin həllində tə`sirlidir. Beləliklə, bu şeyləri kənara qoyub, başqa yolla ruzi istəməməliyik. Tədbir Onun əlindədir, hər şeyi Ondan istəməliyik; O isə məsləhət bildiyi yolla əta edəcəkdir. Əgər bizim ixtiyarımızda qoyduğu şeylərdən istifadə etsək, Allahın əvvəlcədən qəbul vasitələri hazırladığını görəcəyik. Biz isə yalnız onlardan istifadə etməliyik.

Əlbəttə, Allah başqa vasitələr qərar verməkdə aciz deyil. Lakin insanın ixtiyarında qoyulmuş vasitələrdən istifadə etməməsi dua və təvəkkül hesab olunmur. Bu yanaşmalar bəlkə də bə`zi şəxslərin İslam məfhumlarından sui-istifadəsindən və pis təfsirlərindən qaynaqlanır. Təvəkkül Allaha güvənib maddi vasitələrdən istifadə etməmək deyil. Maddi vasitələri bizim istifadəmiz üçün Allah qərar vermişdir.

---

[1] “Mu`minun” surəsi, ayə 71.

Bəli, həqiqi təvəkkül əhli başqalarından daha fəaldır. Allaha təvəkkül ilə cəbhəyə gedib düşmən ilə döyüşən mücahidlərin çalışqanlığı başqalarından daha çoxdur. Eyni zamanda, onlar qələbəni Allahdan bilirlər: ***"Qələbə qüdrət və hikmət sahibi olan Allahdan başqası tərəfindən deyildir."***[1]

Həqiqi mücahid qələbə və köməyi Allahdan istəyir. Eyni zamanda, Allahın ona əta etdiklərinə göz yummur və onlardan istifadə edir. Beləliklə, həqiqi dua Allahın qərar verdiyi vasitələrdən istifadə edənlərin duasıdır. Düzgün deyil ki, bu vasitələri kənara qoyub, duanın başqa yolla qəbul olmasını istəyək. Rəvayətə əsasən, belələrinin duası qəbul olmur. Bə`zi rəvayətlərdə nəql olunmuşdur: Pis əxlaqlı zövcəsi olan şəxs Allahdan onu bu qadının şərindən qorumasını istəyərsə, duası qəbul olmaz. Çünki Allah onun üçün təlaq (boşanma) qərar vermişdir. Əgər həqiqətən də onun qadını pis əxlaqlıdırsa və onunla yaşamaq dünya və axirət xeyirinə ziddirsə, onu boşaya bilər. Əgər onun dua etməkdə məqsədi belə bir qadının qarşısında Allahın ona dözüm və səbir verməsi, qadının islahı olarsa, dua qəbul olunar; başqa hallarda dua faydasızdır; çünki bu qadının şərindən xilas olmaq üçün Allah onun ixtiyarına vasitə vermişdir və o bu vasitədən istifadə etmir. Əgər bu şəxs öz istəyində ciddidirsə, Allahın onun ixtiyarında qoyduğu vasitədən istifadə etməlidir.

Allahın peyğəmbəri buyurmuşdur: *"Əməl etməyərək dua edən kəs, ipsiz kamanla ox atmaq istəyən kəs kimidir."*[2]

---

[1] "Ali-İmran" surəsi, ayə 126.

[2] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 93-cü cild, səh.312, 17-ci rəvayət.

Başqa bir rəvayətdə buyurulur: *"Evdə oturub Allahdan ruzi tələb edən şəxsin duası qəbul olunmaz."*[1]

Deməк, İslam duanı bəşəriyyətin əlində olan vasitələrin əvəzedicisi saymır. Dua insana bildirir ki, vasitələr müstəqil deyil. Bütün vasitələrin tə`siri Allahın əlindədir. Beləliklə, vasitələr olduqda belə insan Allahı unutmamalıdır. İnsan bütün ehtiyaclarını Allahdan istəməlidir; hətta bu ehtiyaclar üçün adi vasitələr hazır olsa belə! Təkallahçı insan süfrəsində çörək olsa belə Allahı unutmur və Allahdan istəyir ki, onun aclığını aradan götürsün. Onun fikrincə, bütün şeylər vasitədir və son tə`sir Allahın tərəfindəndir. Mə'lum olur ki, bütün hallarda dua lazımdır, istər insan üçün adi vasitələr olsun, istərsə də onun əli adi vasitələrə çatmasın. Adi vasitələr olan yerdə dua bu vasitələri müstəqil bilməmək nişanəsi, Allahın istiqlaliyyətinə və insanın ilahi fəzilətlərə ehtiyaclı olmasına e`tiqaddır. Adi vasitələr olmayan yerdə isə dua Allahın qüdrətinin adi vasitələrlə məhdudlaşmadığını göstərir. Dua Allahın qeyri-təbii yolla da insanın ehtiyaclarını ödəməyə qadir olmasına inamdır. Beləliklə, dua istənilən bir halda zəruridir.

Ac insan güclü iman sahibi olduqda Allahdan onu doyuzdurmasını istəyib süfrəyə oturur. Bu halda onun qidalanması etdiyi dua ilə heç bir ziddiyyət təşkil etmir. Yə`ni o bu işi ilə yalnız Allahı öz ehtiyaclarının ödənməsində əsil səbəbkar bilir. O, Allahın istəyi nəticəsində yeməyin insanın toxluğuna səbəb olmasına inanır, buna görə də ondan istifadə edir. Əgər belə olmasaydı yeməyin olub-olmaması onun üçün fərqsiz olardı. O inanır ki, Allah istədiyi yolla onu doyurda bilər.

[1] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 71-ci cild, səh.344, 1-ci rəvayət.

Allah həzrət Musaya (ə) vəhy etdi: ***“Ey Musa, bütün ehtiyacını məndən istə, hətta yeməyinin duzunu da”.***

Hər bir şeyi Allahdan istəmək bu mə`nada deyil ki, insan heç bir çalışqanlıq göstərmədən desin: “Gərək yalnız Allahdan istəyək! Hər şeyi O yoluna qoymalıdır”. Belə bir düşüncə səhvdir. Duanın həqiqəti insanın, özünün heç bir şeyi olmadığını və hər bir şeyin Allahdan olduğunu anlaması, bunu e`tiraf etməsidir. İş və təlaş gücü Ondadır, bütün vasitələri O hazırlayır, düşüncə və təfəkkür qüvvəsini O verir. Bunlar hamısı hacətlərin tə`min olunması üçün işlənməli olan ilahi ne`mətlərdir. Əslində duanın mə`nası budur ki, insan bütün vasitələrin Allah tərəfindən olduğunu e`tiraf edir. Bu, şərti itaət olan həmin bəndəlik həqiqətidir.

Beləliklə, duaya inam insanı tənbəllik yox, çalışqanlığa sövq edir.

## *DUANIN TƏ`SİRLƏRİ*

### a) Tərbiyəvi tə`sirlər

Tərbiyəvi cəhətdən dua nə kimi rol oynayır? Ümumiyyətlə, dua insan həyatında rol oynayırmı?

Bə`ziləri elə təsəvvür edirlər ki, duanın tərbiyəvi tə`siri yalnız nəfsə təlqin etməkdir; yə`ni insan dilinə yaxşı sözlər gətirərək özünə təlqin edir ki, həqiqətən də belə olmalıdır. Məsələn, “Məkarimul-əxlaq” duasını oxumaqla nəfsə təlqin olunur ki, gərək öz əxlaqımızı islah edək, yaxşı sifətlər kəsb edək və pis sifətlərdən uzaqlaşaq. Beləcə, duanın yalnız tərbiyəvi tə`sirini qəbul edir və bu sayaq tə`sirə malik olmayan duaları alçaldıcı sayırlar.

Bu təsəvvür dar baxışlılıq və İslam maarifindən xəbərsizlikdən qaynaqlanır. Duanın ən böyük tə`siri ondakı ibadət həqiqətidir. Bu da insanın mə`nəvi

kamilliyinə səbəb olur. Əlbəttə bə`zi duaların ruha təlqin və bunun kimi tə`sirlərə malik olması mümkündür. Lakin bu tə`sirlər yemək zamanı damağların hərəkətinə bənzəyir. Damağlar yeməyi çeynəmək işini görməklə yanaşı özləri də idman edir və bu onların möhkəmlənməsinə səbəb olur. Damağların bu hərəkətini, idmanın qidalanmanın əsas faydası hesab etmək olmaz. Yeməkdə əsas fayda bədən üçün lazım olan maddələri tə`min etməkdir.

Duanın da həqiqi faydası Allaha diqqət və Ona bəndəlikdir. Əvvəldə qeyd etdiyimiz tə`sirlərin bə`zi dualarda olması mümkündür. Lakin bu tə`sirlərin faydası duanın əsas faydası ilə ölçüdə çox cüz`i hesab olunur.

İnsanın kamilliyi Allah qarşısında öz fəqirliyini dərk və e`tiraf etməsindədir: ***"Ey insanlar, siz Allaha möhtacsınız. Allah isə möhtac deyildir və hər cür şükrə, tə`rifə layiqdir."***[1] İnsan bu həqiqəti e`tiraf edib, öz ehtiyacını lazımınca başa düşənədək kamilliyə çatmayacaqdır.

İnsanın belə bir mə`rifətə çatması və onun mə`rifətinin kamilləşməsi səbəblərindən biri də duadır. Dua özü ibadətdir və ibadət insanın yeganə təkamül yoludur. Beləliklə, dua insan üçün təkamül yollarından biridir.

Allah "Mənə ibadət etməyi mənliyinə sığışdırmayanlar" ayəsində buyurur: ***"Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim."***[2] Sonra isə belə buyurur:

***"Təkəbbür göstərərək Allaha ibadətdən boyun qaçırıb, ilahi əzəmət qarşısında tə`zim etməyi özünə sığışdırmayan kəslər zəlil və xar olaraq cəhənnəmə daxil olacaqlar".*** Ayədə zikr olunmuş iki cümlə **"suğra"** və

---

[1] "Fatir" surəsi, ayə 15.
[2] "Mu`muin" surəsi, ayə 60.

**“kubra”** (kiçik və böyük) hökmündədir: Dua Allaha ibadətdir; hər kəs Allaha ibadətdən boyun qaçırarsa, şiddətli əzaba mübtəla olacaq. Nəticədə hər kəs duadan boyun qaçırsa, ilahi əzaba düçar olacaq.

Deyildiyi kimi, duanın əsas fayda və tə`siri insanın Allah qarşısında öz möhtaclığını və bəndəliyini e`tiraf edərək mə`nəvi kamilliyə çatmasıdır. Lakin duanın ikinci dərəcəli tə`sirləri də vardır. Bunlardan bə`zilərinə işarə edirik.

**b) İkinci dərəcəli tə`sirlər:**

**1-Allahı tanımaq:** Duanın ümdə dəlillərindən biri Allahı tanımaqdır. Bu mə`rifət (tanışlıq) bütün səadətlərin kökü və bütün islahatların səbəbidir.

Bir dəstə insan imam Sadiqin (ə) hüzuruna gəlib dedi: “Niyə biz dua edirik lakin qəbul olunmur?” Həzrət (ə) buyurdu: “Çünki siz çağırdığınız kəsi tanımırsınız.”[1] Pərəstiş etdiyimiz və Allahı çağırdığımız mübarək ilahi adlar müxtəlif mə`nalarla zəngindir. ***“Ən gözəl adlar Allahındır. Onu bu adlarla çağırıb dua edin.”***[2] Bu adları təkrarlamağın bir çox faydaları var. O cümlədən, adların vəsfedici mə`nasına diqqət və Allaha qarşı insanın mə`rifətinin kamilləşməsi!

Allahın Rəhman, Rəhim, Səmi, Bəsir, Mün`im, Ğəfur və sair kimi adlarını dilimizə gətirdikdə mehriban, eşidən, görən və bağışlayan Allahımızın olması yadımıza düşür. Nəticədə Allahın rəhmətinə və bağışlamasına ümidvar oluruq. Dua edən şəxs bu sifətlər haqda düşünüb, diqqət edərək özünü qüdrəti qarşısında heç bir çətinlik olmayan Allah ilə əlaqədə görür. Ümumiyyətlə, Allah üçün asan və

---

[1] Məhəmməd Baqir Məclisi, əvvəlki mənbə, 93-cü cild, 24-cü bab, səh.368, 4-cü rəvayət.

[2] “Ə`raf” surəsi, ayə 180.

ya çətin məsələsi yoxdur. Bu həqiqət hər yerdən əli üzülmüş şəxs üçün yeni bir ümid və sevincdir.

Bu qısa araşdırmada ümidin həyata, sevincə, işə və çətinliklərə dözümə tə`sirlərini xatırlatmağa ehtiyac yoxdur. Allahın bizim danışıq və rəftarımızı eşidib və görməsi yaxşı işlər görməyimizə, pis danışıq və pis əməldən çəkinməyimizə səbəb olur. Bundan əlavə, bə`zi dualar yüksək səviyyəli bir kurs, Allahşünaslıq və tövhid dərsidir. İmam Hüseynin (ə) "Ərəfə" duası, "Səbah", "Əbu-Həmzə" və bir çox başqa dualar xüsusi ilə də "Səhifeyi-Səccadiyyə"də olan dualar deyilənlərə misal ola bilər.

**2-İlahi əxlaq kəsb etmək:** Məzhəb göstərişləri və şərafətli hədislərdə tövsiyə olunmuşdur ki, ilahi əxlaq kəsb edəsiniz: "Təxəlləqu bi əxlaqillah."[1]

Dua edən şəxs öz duası vasitəsi ilə özündə ilahi sifətlər yaradıb və bu sifətləri gücləndirmək üçün çalışır. Necə ki, Allah mehriban və güzəşt edəndir. O məxluqu ilə mehriban və güzəştlə davranmaq istəyir.

**3-Pak–pakizəlik:** Dua şərtlərindən biri də paltarın paklığı, qidaların halallığı və dua olunan yerin mübah olmasıdır. Həzrət Peyğəmbər (s) buyurmuşdur: *"Duasının qəbul olmasını istəyən şəxs yemək və qazancını təmiz saxlamalıdır."*[2]

Dua edən şəxs haram yolla ruzi qazanmazsa, əyri yolla qazanc əldə etməzsə, mə`nəvi kamilliyə çatar. İnsanları bu sayaq dua ilə məşğul olan cəmiyyət necə də xoşbəxtdir. Belə bir şəhər necə də fəzilətli bir şəhər olacaqdır!

---

[1] Məhəmməd Baqir Məclisi, əvvəlki mənbə, 61-ci cild, 42-ci bab, səh.129.

[2] Məhəmməd Baqir Məclisi, 93-cü cild, səh.320, əvvəlki mənbə, 30-cu rəvayət.

**4-Nəfsi öldürmək:** Duanın, hətta bütün ibadətlərin ən böyük faydası nəfs tüğyanının qarşısının alınmasıdır. Həzrət Əli "Qasiə" xütbəsində təkəbbürün pislənməsi barəsində uzun bir mövzu bəyan etmişdir. Xütbənin bir hissəsində buyurur: *"Bu çirkin xüsusiyyət şeytanın ən böyük tələsi və ən güclü hiylə vasitəsi sayılır"*.

Eqoistlik və təkəbbürü məhv etmək bütün əxlaqi eyblərin kökünü kəsməyə və insanın özünü bütün fəzilətlərin kəsbi üçün hazırlamasına bərabərdir. Allah Qur`anda buyurur: ***"Hər kəs nəfsini təmizləsə, mütləq nicat tapacaqdır."***[1]

Dua edən şəxs Allah qarşısında durmaqla, Onun əzəmətinə diqqət yetirməklə, öz zəiflik və kiçikliyini nəzərdə tutmaqla aşıb-daşan ehtiyaclarını göstərir. O bu vasitə ilə özünü hər bir yaranmışdan ehtiyacsız, yalnız Ona ehtiyaclı görür. Beləliklə, dua təvazökarlıqla yanaşı ucalıq və izzət gətirir.

## *DUANIN QƏBUL OLMA ŞƏRTLƏRİ*

Allah Qur`anda duaların qəbul olunacağını və`d verərək buyurmuşdur: ***"Məni çağırın, sizi qəbul edim."***[2]. Amma dualarımız adətən qəbul olmur. Məgər duanın qəbul olması üçün şərtlər var?

Allah əmri ilə dua edən bütün şəxslər üçün belə bir sual yaranır.

Kəlam elmi alimləri deyirlər: Əzab və`di dəyişə bilər və belə bir iş əqlən qəbahət deyil. Lakin və`ddə dəyişiklik etmək əqlən qəbahətlidir və Allahın qəbahətli iş görməsi mahaldır. Demək, bu ayədə və`də verilmiş "qəbulolmada"

---

[1] "Şəms" surəsi, ayə 9.

[2] "Mu`min" surəsi, ayə 60.

dəyişiklik əqlən qəbahətlidir. Bu məsələyə heç bir əqli dəlil olmadığını fərz etsək belə, Qur`an özü bu haqda buyurur: ***"Allah və`dəsinin əksinə çıxmaz."***[1]

Bu ayə kifayət edir ki, biz bütün dualarımızın Allah tərəfindən qəbulunun intizarında olaq. Və`də əməl olmalıdır və bu işdə ilahi tə`kid var. Əgər beləsə, dualarımızın qəbul olmamasının səbəbi nədir?

Bu mövzu pak imamlardan təkrar-təkrar sual olunurdu. O böyük şəxslər də sual verən şəxsin düşüncəsinə uyğun olaraq müxtəlif şəkildə cavablar verirdilər. Bə`zi rəvayətlərdə dua edən şəxs üçün şərtlər qoyulmuş, dua üçün xüsusi vaxtlar və qaydalar tə`yin olunmuşdur.

Sadalanan hallar ayələrin göstərişlərinə şərt qoyurmu? Yə`ni bizim duamız yalnız filan zamanda, filan məkanda, filan halda qəbul olunur? Əgər duamız xüsusi halət və xüsusi vaxtlarda olmazsa Allahın və`dəsi yerinə yetirilməyəcəkdirmi? Yoxsa bu rəvayətin başqa bir izahı var?

Ayədən zahirən belə görünür ki, onun tətbiqində məhdudiyyət yoxdur. Məsələni aydınlaşdırmaq üçün misal çəkək: Əgər səxavətli bir insan bir dəstə insanı qonaq çağırıb onlardan bir hissəsini qəbul etməzsə, ona öz və`dinə əməl etmədiyinə görə e`tiraz olunmayacaqmı? Onun qonaqlara "sizin paltarlarınız təmiz deyil" və ya "bir neçə dəqiqə gec gəlmisiz" deyə rədd cavabı verməsi qəbul olunası deyil. Çünki onun də`vəti mütləq və ümumi olmuşdur və bu də`vətdə heç bir şərt müəyyənləşdirilməmişdir. Onun sözündə hansısa bir qeydin olmasına möhkəm dəlil yoxdursa, bütün qonaqları qarşılayıb, öz və`dəsinə əməl etməlidir.

---

[1] "Rə`d" surəsi, ayə 31.

Ayəni yaxşı başa düşmək üçün daha çox diqqət etməliyik:

1. “Ud`u” yə`ni nə? Dua belə bir mə`na verirmi ki, mə`nasını bilməsək də istəklərimizi dilə gətirək, onun mə`nasını bildikdə yenə də bu mə`naya diqqət yetirməyək, yaxud mə`nasına diqqət yetirək, lakin daxilən bu işlə razılaşmayaq?

Adətən, istəklə yanaşı olan sözlərə dua deyilir. Məsələn, kimisə çağırıb, ondan nəsə istəmək. Lakin bu sözlər insanda olan gizli bir istəkdən danışır. Sözlər öz-özlüyündə bünövrə təşkil etmir. Belə deyil ki, sözlərin forması dünyəvi hadisələrə tə`sirli olsun və hər kəsin dilindən çıxan söz tə`sir qoysun. Əvvəldə deyildiyi kimi, dua qəlbə aid bir işdir, dil isə yalnız qəlbdə olanı bildirmək üçündür. Demək, dua qəlbən və ruhən oxunmalıdır. Dua edərkən insan həqiqətən də hansısa bir şeyin istəyində olduğunu bildirməlidir. Əgər insan yalnız dildə bə`zi sözləri deyib, qəlbən diqqətsiz olarsa, duası ciddi deyil və yaxud dua etməmişdir.

Dua ciddi qəlb istəyi ilə yanaşı olmalı və insan dua vaxtı nə istədiyi barədə düşünməlidir. Əslində dualarımızın bir çoxunu bir növ adət hesab etmək olar. Ciddi yanaşma və Allahdan heç bir həqiqi istəyimiz olmadan namazdan sonra bir neçə kəlmə dua etməyə adət etmişik.

2. Dua “ud`uni” (“Məni çağırın”) nümunəsi olmalıdır; istək yalnız Allahdan istənilməlidir. Əgər insan xatırlanmış şərtlərə əməl etsə, lakin qəlbən Allahı düşünməsə həqiqətdə dua etməmişdir; məsələn, biz elm istəyir, elmi sevirik və öz istəyimizdə ciddiyik. Lakin elə təsəvvür edirik ki, alim olmağın Allaha heç bir aidiyyatı yoxdur. Bu iş yalnız öz çalışmağımıza və əziyyətimizə bağlıdır.

Deyirik: "İlahi, Səndən saleh əməl və faydalı elm istəyirik".

Lakin qəlbimizin dərinliyində Allahın insana elm verməsinə inanmırıq. Başqa sözlə, duanın yalnız təlqin tə`sirinə inanırıq, düşünürük ki, elm yaxşı bir şeydir və onun sorağınca getmək lazımdır. Əksər işlərimizdə "əllahummə", "inşaallah" tə`birlərini yalnız dəbdəbə xatirinə işlədirik. Necə ki, bir çox işləri gördükdə "Bismillahir-rəhmanir-rəhim" sözünü yalnız dəbdəbə üçün deyirik. Çox az hallarda həqiqətən Allahı düşünərək bütün işləri onun adı ilə başlayırıq. Dualarımızın da bir çoxu bu qaydada olur. Zahirdə Allahdan hansısa bir şeyi tələb edirik, lakin həqiqətdə, Allahın bu şeyi bizə əta etməsinə inanmırıq. Belə bir vəziyyətdə dualarımızın qəbul olacağını gözləməməliyik.

Həqiqətən, Allaha yalvarışdan uzaq yalnız bə`zi sözlərin tələffüzündən ibarət olan dualar heç vaxt qəbul olunmayacaq. Çünki bizim həqiqi istəyimiz Allahdan deyil. Biz maddi vasitələr və öz gücümüzə inanırıq. Hətta, bu sayaq dua edən şəxslərin özündən də Allahın insana elm əta etməsi və ya ona əməl üçün tövfiq verməsi barədə soruşsaq, yox cavabı verərək, bu işin Allahla heç bir əlaqəsi olmadığını deyəcəklər.

Bu cür duaların qəbul olmamasının səbəbi dua edən şəxslərin Allahın qüdrətinə inanmamaları və həqiqətdə Ondan bir şey istəməmələridir. Həqiqi dua ehtiyacın Allahdan istənilməsi və bu istəkləri yalnız Onun əta edə biləcəyinə inamdır. Dua başqa şəkildə olarsa, dəbdəbə sayılar. Lakin bu dəbdəbələrin də hansısa bir həddə faydalı olması ayrıca bir mövzudur. Xülasə, belə dualar həqiqi dua deyil və bir-birimizə göstərdiyimiz nəzakət kimidir. Məsələn, dostumuzdan soruşuruq: "Sizin halınız necədir?"

Cavab verir ki, “əlhəmdulillah, sizin duanızla pis deyiləm!” Lakin mümkündür ki, bu barədə dua olunmayıb və bu söz yalnız nəzakət üçün deyilib.

Biz bu cür dualara görə Allah dərgahından bağışlanma diləməliyik; çünki bu sayaq dua etməklə və bu düşüncə ilə Allahı zəif və qüdrətsiz hesab etmiş oluruq. Onun barəsində şə`ninə yaraşmayan səciyyələr düşünmüş oluruq.

“Ud`uni əstəcib ləkum” (“Məni çağırın, sizi qəbul edim”) ayəsi əmr formasında işlənmiş şərtdir. Əslində bu cümlə “in təd`uni əstəcib ləkum” formasındadır. Ayədəki bu şərt o vaxt gerçəkləşir ki, öz istəyimizdə ciddi olaq, intizarımız yalnız Allahdan olsun və dualarımızın gerçəkləşməsində Onu tə`sirli bilək. Bu qayda ilə duanın qəbul şərtləri gerçəkləşəcəkdir. Məgər belə bir duanın qəbul olmayacağını demək olarmı?

Nəql olunur ki, Bəni-İsrail uzun müddət qıtlığa düçar olmuşdu. Həzrət Musa (ə) bir dəstə ilə yağış namazı üçün şəhərdən çıxdı. Vəhy gəldi: “Bu camaatın duasını necə qəbul edim ki, günahlar onların üzərinə kölgə saldığı halda Məni çağırırlar və inanmırlar (Allahın onların istəklərini yerinə yetirməyə qadir olmasına inanmırlar).

Mümkündür ki, Allahdan istəyimiz olsun və öz məsləhətimizi bu duanın qəbulunda bilək. Bu duanın qəbulunu özümüz üçün kamal kəsbi zənn edək. Lakin nəticə seçimində səhv edə bilərik. Duamızın gerçəkləşəcəyi halda hansı nəticələrin olacağını bilmirik. Görəsən bu nəticələr bizim xeyirimizədir, yoxsa yox? Əgər biz duanın nəticələri barəsində mə`lumatlı olsaq, şübhəsiz, duamız başqa şəkildə olacaq. Başqa sözlə, əgər Allah bizdən duamızın başqa nəticələrlə qəbuluna razılığımız haqqında soruşarsa, şübhəsiz, mənfi cavab verəcəyik.

Bizim Allahdan bu sayaq istəklərimiz uşağın öz valideynindən zərərini bilmədiyi bir şeyi istəməsinə bənzəyir. Əgər uşaq istədiyi şeyin zərərindən agah olsaydı, valideynindən bu xahişi etməzdi.

Ümumi məsləhəti istəyib, lakin nəticə seçimində səhvə düçar olduğumuz məqamlarda Allahın bizim duamızı qəbul etməsi mümkündür. Lakin bu dua bizim nəzərdə tutduğumuz həqiqi məsləhət əsasında qəbul oluna bilər. Allah-təala bu halda bizim səhvimizə göz yumub Ondan istədiyimiz ümumi məsləhət əsasında dualarımızı qəbul edə bilər. Yə`ni bizə elə bir şey əta edər ki, əgər anlasaydıq özümüz də Allahdan bunu istəyərdik. Bu qayda ilə Allah həm bizi öz lütf və mərhəmətindən mə`yus etmir, həm də səhvlərimizi islah edir.

Ayədəki bu üç nöqtəni (ciddi istək, Allahdan istəmək, bizim həqiqi məsləhətimiz) nəzərə almaqla, demək olar ki, ayədə heç bir qeyd və şərt tətbiq olunmamışdır.

Rəvayətlərdə deyilmiş bir çox şərtlər xatırladıqlarımıza şəhadət verir. Bunlardan bə`ziləri dua və Allaha diqqətin kamilliyinə tə`sirlidir və ayə üçün heç bir qeyd-şərt qoymur.

Bə`zən Allah insanın duasını bu dünyada qəbul etmək əvəzinə ona axirətdə bə`zi məqamlar verir. Bu, ayədən götürülmüş üçüncü nöqtəyə aiddir. Axirətə inanan şəxs, dünyəvi işlər barəsindəki istəyinin axirət mükafatı ilə müqayisəyə gəlmədiyini düşünərsə, şübhəsiz, öz səadətini istəyəcəkdir. Lakin insan qafillik nəticəsində dünyəvi məsələlərə daha çox diqqət yetirir. Əgər onun üçün həqiqət aşkarlanarsa və axirətdə bu şeylərə daha çox ehtiyaclı olduğunu bilərsə, bunları öz axirəti üçün istəyər. Allah-təala mö`minin iman səbəbindən axirət işlərinə daha çox diqqət yetirdiyini nəzərə alıb, bə`zən onun dünya işləri

barəsində olan duasını axirəti üçün azuqə edir. O da axirət dünyasında necə uca məqamlara çatdığını gördükdə Allaha təşəkkür edəcək, Allahla etdiyi müamiləyə görə xoşhal olacaq. “İftitah” duasında bu mövzuya işarə olunmuşdur:

*“Bəlkə də mənim dualarımın qəbulunu tə`xirə salmağın mənim öz məsləhətim üçündür və bu mənə daha yaxşıdır. Çünki Sən işlərin aqibətindən, həyatın zərər və xeyirlərindən xəbərdarsan”.*

Allahın rəsulundan belə nəql olunur: *“Elə bir müsəlman yoxdur ki, Allahı çağırsın, Allah isə ona bu üç şeydən birini əta etməsin. Ya onun duasını qəbul edər, ya onun duasını axirəti üçün azuqə edər, ya da bu duanın əvəzində pislik və bəlanı ondan uzaqlaşdırar.”*[1]

Bu böyük bir lütfdür ki, Allah bəndələrinin duasının təkcə zahirinə diqqət yetirmir. O əvvəlcə bəndələrinin səadətini nəzərə alır, sonra istəklərini yerinə yetirir; bə`zilərinin istəyini tez yerinə yetirir, bə`zilərini tə`xirə salır, bə`zilərini isə axirət üçün azuqə olaraq qiyamət gününə saxlayır.

Rəvayətlərdə, duanın qəbul olmaması üçün sadaladıqlarımızdan əlavə başqa səbəblər də göstərilmişdir; məsələn, bə`zi rəvayətlərdə bildirilir ki, “əmr be mə`ruf” (yaxşılığa də`vət) və “nəhy əz munkər” (pisliklərdən çəkindirmə) göstərişlərini tərk edən xalqa Allah tərəfindən iki bəla gələr:

Onların duası qəbul olmaz;

Onlara ən pis və ən günahkar insanlar hakim olar.

Bir şəxs Əmirəl-mö`mininin yanında dualarının qəbul olmamasından şikayətlənir. Həzrət onun səbəbini belə

---

[1] Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar”, 39-cu cild, səh.366, 16-cı rəvayət.

açıqlayır: “Sizin qəlbiniz səkkiz şeyə xəyanət etmişdir. Bunun üçün də dualarınız qəbul olmur:

Allahı tanıdınız, amma Onun haqqını lazımınca əda etmədiniz;

Onun peyğəmbərinə iman gətirdiniz, sonra sünnəsində ixtilaf yaratdınız;

Kitabını oxudunuz, lakin ona əməl etmədiniz;

Onun əzab və cəzasından qorxduğunuzu deyirsiniz, lakin həmişə sizi bu əzaba yaxınlaşdıran işlər görürsünüz;

Allahın mükafatına müştaq olduğunuzu deyirsiniz, amma daim sizi ondan uzaqlaşdıran addım atırsınız;

Allahın ne`mətlərindən faydalanırsınız, lakin onun şükrünü yerinə yetirmirsiniz.

Sizə “şeytanın düşməni olun” deyildi, siz isə onunla dostluq edirsiniz;

Xalqın eybini dilə gətirir, öz eybinizdən isə qəflətdə qalırsınız.

Dualarınızın qəbul olmağını necə istəyə bilərsiniz ki, özünüz onların qapılarını bağlamısınız?!” Sonra buyurur: “Duanızın qəbulu üçün təqvalı olun, əməllərinizi islah edin, niyyətiniz xalis olsun, əmr be mə`ruf və nəhy əz munkəri unutmayın.”[1]

Bundan əlavə, biz adətən adi yolla əldə etdiyimiz şeyləri duanın, qəbulu və Allah tərəfindən bilmirik; hansı ki, Qur`an bütün işləri Allaha aid etmişdir. Bizim fikirləşdiyimiz kimi duanın qeyd-şərtsiz olaraq icrası Qur`anın bəyanına əsasən Allahın öhdəsində deyildir. Əgər hər kəsin duasının qəbul olacağı qərar verilsəydi ziddiyyətli bir cəmiyyət yaranar və dünyanın nizamı pozulardı. Allah buyurur: “Əgər haqq onların nəfs

---

[1] Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar”, 93-cü cild, səh.376.

istəklərinə tabe olsa, göylər, yer və onlarda olan hər şey məhv olar”.[1]

Allah öz peyğəmbəri həzrət Nuhun (ə) övladının xilası ilə bağlı duasını nəinki qəbul etmədi, hətta onu bu istəyinə görə məzəmmət etdi: “Ey Nuh, sənin övladın sənin ailəndən deyil. Çünki o pis iş görmüşdür. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahillərdən olmamağı nəsihət edirəm.”[2]

“Əstəcib ləkum” (“sizi qəbul edim”) ayəsinin zahirinə əsasən duanın qeyd-şərtsiz qəbul olunduğunu fərz edək. Lakin duanın qəbul olma vaxtı Allah tərəfindən tə`yin olunur. Allahın peyğəmbəri həzrət Yə`qub Rəbbinə Yusifi ona qaytarması üçün dua etdi. Onun duası qəbul oldu. Lakin Allahın Yusifi ona qaytarması 40 il çəkdi.

Bə`zi rəvayətlərdə bildirilir ki, bə`zən mö`min bir bəndə Allaha dua etdikdə Allah mələklərə buyurur: “Onun duası qəbuldur, lakin duasının qəbulunu tə`xirə salın. Çünki mən onun səsini eşitmək istəyirəm.”[3]

Mə`lum olur ki, dua və Allahla əlaqə sayəsində insan nəfsani kamilliyə çatır; Allah da insanı daha yüksək kamilliyə çatdırmaq istəyir və buna görə də duanın qəbulunu tə`xirə salır. Əslində insanın həqiqi kamilliyi onun duasının qəbulunda yox, Allahla olan əlaqəsindədir. Məsələn, xəstəliyə tutularaq, öz şiddətli ağrısından Allaha pənah aparıb, Onun dərgahına dua edib və Ondan şəfa tələb edən şəxsin duası onun mə`nəvi kamilliyinə, Allaha yaxınlaşmasına və ruhunun yüksəlməsinə səbəb olur. Lakin bu şəxs birinci gündən şəfa tapsaydı, ya duası

---

[1] “Mu`min” surəsi, ayə 71.

[2] “Hud” surəsi, ayə 46.

[3] Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar”, 93-cü cild, səh.374, 16-cı rəvayət.

kəsilər, Allahı düşünməzdi, ya da Allaha olan diqqəti azalardı.

Bir şəxs Allahdan sərvət istəyir ki, Onun yolunda infaq edib savaba çatsın. Lakin Allah bu şəxsin dövlətə çatdıqda Onu yaddan çıxaracağını bildiyindən duasını qəbul etmir; həmin savaba çatmaq üçün başqa bir yolla infaq etmək üçün ona vasitələr yaradır.

Hər halda, Allah öz mö`min bəndələrinə münasibətdə bu sayaq hökmlər tətbiq edir. Bunlar Allahın mö`minlərə münasibətdə vilayət (hakimiyyət) şə`nindəndir.

## *ALLAHIN MÖ`MİNLƏR ÜZƏRİNDƏ VİLAYƏTİ*

Allahın insanlar üzərində bir neçə növ hakimiyyəti (vilayəti) vardır:

Mütləq hakim olduğu üçün bütün insanlar üzərində ümumi hakimiyyəti vardır və O hər şeyə hakimdir.

Mö`minlər üzərində xüsusi vilayət. Qur`an Allahın bu növ hakimiyyəti barəsində buyurur: ***"Allah iman gətirmiş kəslərin vəlisidir."***[1] Bu hakimiyyət mö`minlərə məxsusdur. Allahın hidayəti də iki növdür:

Tanıma vasitələri və ağıl verdiyi insanlara aid olan ümumi hidayət.

Mö`minlərə aid xüsusi hidayət. Yə`ni peyğəmbərlərin və Allahın də`vətini qəbul edən şəxslər bu hidayət ilə haqq yolu taparlar. Allah onlara daha çox nuraniyyət, düzgün düşüncə, dərin mə`rifət əta edər. Bu hidayət Allaha iman gətirən və bütün işlərini Onun öhdəsində qoyan şəxslər üçündür. "Ərəfə" duasında oxuyuruq: *"İlahi, öz seçiminlə*

[1] "Bəqərə" surəsi, ayə 257.

*məni seçim etməkdən ehtiyacsız et".* (Mənim işimi özün idarə et və məni öz tədbirimə möhtac qoyma).[1]

Allah bu mərhələyə çatmış şəxslərə öz xüsusi hakimiyyətini tətbiq edər. Onların həyatlarının bütün sahələrində hakim olar, dünya işlərini idarə edər və onları öz tədbirləri ümidinə qoymaz. Buna görə də bə`zən öz mö`min bəndəsinə sağlamlıq əvəzinə xəstəlik, var-dövlət əvəzinə fəqirlik verər. Hətta bə`zən mö`min şəxs xəstələnib öz sağlamlığı üçün dua etdikdə bu duanın nəticəsində onun xəstəliyi daha da şiddətlənir! Beləliklə, xəstəliyin şiddətlənməsi Allahın ona bəxş etdiyi bir ne`mətdir. Duanın tə`xiri nəticəsində insan daha çox dözüm və hazırlıq əldə edir və səbir etmək nəticəsində daha üstün kamilliklərə yetişir. Buna görə də bizim dünyəvi işlərə aid bə`zi dualarımız axirətimiz üçün azuqə olur, ya da fərdin xeyirinə başqa bir şəkildə bu dünyada gerçəkləşir.

Əlbəttə, bu sayaq hallar hamının qavrayacağı şəkildə deyil və yalnız bu məqama çatmış şəxslər uyğun sözləri dərk edə bilərlər.

Bu növ hakimiyyəti Allah bütün şəxslərə yox, yalnız öz xüsusi bəndələrinə tətbiq edir. Əlbəttə, Allah xəsislikdən uzaqdır. Lakin başqaları istəmədiyi üçün uyğun hakimiyyət onlara tətbiq olunmur. İnsan ixtiyari şəkildə qabağa getməli və könüllü olaraq özünü Allahın ixtiyarında qoymalıdır ki, Allah məsləhət bildiyi hər bir şeyi onun barəsində tətbiq etsin. Allah istəməyən şəxslər üçün öz xüsusi hakimiyyətini məcburi tətbiq etmir.

---

[1] Şeyx Abbas Qummi, "Məfatihul-Cinan", İmam Hüseynin "Ərəfə" duası.

## *NƏTİCƏSİNDƏN ASILI OLMAYARAQ DUA ETMƏK*

Qəbuldan daha mühüm duanın özü və Allah ilə raz-niyazdır. Baxmayaraq ki, biz adətən istəklərimizin və maddi ehtiyaclarımızın tə`min olunması üçün dua edirik. Yə`ni yaşayışımızda problem və ya narahatçılıqla qarşılaşdıqda ilahi dərgaha əl açıb Ondan kömək istəyirik.

Əlbəttə, bu iş Allahın rəbliyinə e`tiqad və bəndəlik nümunəsi olmaqla yanaşı insan üzərində tərbiyəvi rol oynayır. Lakin duanın fəlsəfəsi ümumi şəkildə münacat, raz-niyaz, yalnız hacətlərin, xüsusilə də dünyəvi hacətlərin istənilməsi deyildir. Mə`sumlardan nəql olunmuş bir çox duaların məzmununda göstərilir ki, əsas duanın özü, Allah ilə raz-niyazdır. Onun qəbul olub-olmamasını düşünməməliyik. "İstəmək" "istənilən şeydən" daha mühümdür.

Allahla münacat və əlaqə o qədər ləzzətli və dəyərlidir ki, bunu dərk edən kəs heç vaxt maddi və dünyəvi məsələlər barədə düşünməz. Beləliklə, dua da daha çox əhəmiyyət kəsb edən Allah ilə danışıq və raz-niyazdır. Bu, Allahdan tələb olunan şeylərdən qat-qat üstündür. Bəndənin Ağası ilə xəlvətə çəkilib, raz-niyaz etməyə nail olması onun öz istəklərinə çatmasından daha dəyərlidir. Ona nəinki aləmlərin rəbbi ilə söhbətə icazə verilmişdir, hətta Allah özü onu "ud`uni" ("çağırın Məni") sözü ilə də`vət etmişdir.[1] Bu, bəndə üçün necə də böyük səadətdir!

Beləliklə, duada maddi istəklərin tə`min olunması yox, duanın özü və Allah ilə raz-niyaz daha üstündür.

Duanın xarici gerçəkliklərini, qəbulunu və nəticələrini nəzərə almadan ona inam və əminlik insan şəxsiyyətinin formalaşmasına, insani duyğuların güclənməsinə səbəb

[1] "Bəqərə" surəsi, 126.

olur. Dua edən şəxsin öz daxili və psixoloji aləmində çatdığı ləzzətlər və tövfiqlərə dua etməyən şəxsin çatması və bu halı dərk etməsi mahaldır. Bu həqiqətlər mö`min insanın şəxsiyyət və inkişaf səviyyəsini tanıtdırır.

## *DUANIN QAYDALARI*

İmam Sadiq (ə) buyurur: *«Duanın qaydalarını gözlə...»*[1]

Necə dua edək? Məgər dua etməyin qayda və şərtləri var? Yoxsa xüsusi yer və xüsusi vaxta ehtiyac var?

Qur`an və pak Əhli-beyt (ə) rəvayətlərindən mə`lum olur ki, Allahın dərgahına çatmaq üçün heç bir xüsusi yer və xüsusi vaxt lazım deyildir. Allahın rəhmət qapısı Onun yolçularının üzünə həmişə açıqdır. İnsan hər zaman Allaha qəlbini açarsa, Allah onun cavabını verər.

Əlbəttə, cümə axşamı və Qədr gecəsi kimi zamanlarda, Məscidül-həram, imam Hüseynin və başqa imamların məzarları kənarında dua etməyin fərqli xüsusiyyətləri var. Lakin Qur`an və rəvayətlər dua etmək üçün başqa qaydalar da göstərir. Bunlardan ən mühümü dua zamanı və duadan qabaq Allahın əzəməti haqda düşünməkdir.

Allah-təala buyurur: ***"Rəbbinizi inilti ilə və ahəstə çağırın."***[2]

Bu ayədə dua etmək əmr olunur. Lakin ayə buyurur ki, dua inilti ilə və ahəstə şəkildə olsun. Bu ayədə iki nöqtə qeyd olunur: Ahəstə dua etmək, yalvarış və inilti halında olmaq:

---

[1] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 93-cü cild, səh.322, 16-cı rəvayət

[2] "Ə`raf" surəsi, ayə 55.

Allah bəndələrinə yaxındır, onların duasını eşidir. Buna görə də qışqırıq və fəryada ehtiyac yoxdur. Mö`minlərə peyğəmbərin yanında səslərini qaldırmamaq tapşırılmışdı. Bəs qarşı tərəf Allahdırsa necə?! Özünü Allahın qarşısında hiss edən kəs Onun hüzurunda səsini qaldırmaqdan həya etməlidir.

Qur`ani-Kərimdə "təzərru" (yalvarış, ahu-zar) dəfələrlə zikr olunmuş bir nöqtədir. Bu nöqtələrin zikri, bə`zilərinin təsəvvürünə zidd olaraq, duanın sırf nəfsə təlqin olmadığını göstərir. Duada başqa bir nöqtə də var. Əks-təqdirdə təlqin "təzərru"dan da üstün digər bir şəkildə mümkün olardı. Qur`ani-Kərimin iki ayəsində "təzərru" ilə bağlı oxşar məfhumlar ifadə olunur. Ayələrdən birində buyurulur: "Səndən əvvəl də ümmətlərə (peyğəmbərlər) göndərdik. Sonra onları müsibət və fəlakətə düçar etdik ki, bəlkə yalvaralar."[1]

Başqa bir ayədə isə belə buyurulur: "Biz hansı bir məmləkətə peyğəmbər göndərdiksə, onun əhalisini müsibət və bəlaya saldıq ki, bəlkə, Allaha yalvarıb-yaxarsınlar!"[2]

Bu iki ayədə xalq tə`kid ilə Allaha yalvarmağa və ah-naləyə də`vət olunur.

Nə üçün "təzərru" (inilti)? İnildəməyin bizə hansı faydaları var? Allah nə üçün bu hala çox tə`kid edir? Bu mövzu barəsində çox mübahisələr olmuşdur. Hazırda isə bu mövzu ilə bağlı geniş araşdırmaya imkanımız yoxdur. Elə ona görə də xülasə izahat verəcəyik.

Bəşəriyyətin ruhu elə yaradılıb ki, insan üzü ilahi dərgaha yalvarıb-yaxarmasa bəlaya düçar olar.

---

[1] "Ən`am" surəsi, ayə 42.
[2] "Ə`raf" surəsi, ayə 94.

İnilti və yalvarış insanı xudbinlik və təkəbbürdən uzaqlaşdırır, onu Allah qarşısındakı vəziyyətindən agah edir. Çünki inilti və yalvarış halı şəxsiyyətin sınması ilə əldə olunur. İnsanın göz yaşı, inilti və yalvarışla özünü sındırması Allah hüzurunda bəndəliyin ən gözəl nümayişidir.

Qüdsi hədisdə nəql olunur ki, Allah İsaya buyurdu: “Ey İsa Məni yalvarışsız çağırma.”[1]

Başqa bir hədisdə Allah-təala buyurur: “Ey İsa özünü kiçilt.”[2]

Yalvarış və inilti halına çatmaq Allahın istəyi ilə mümkündür. İstədiyimiz vaxt yalvarış və iniltiyə müvəffəq ola bilmərik.

Əlbəttə, bizim yalvarışlarımız, ah-nalələrimiz, təvazökarlığımız və kiçikliyimizin Allah üçün heç bir faydası yoxdur. İnsan öz əməlləri ilə Allaha fayda vermək gücündə deyil.

Allah öz yaradıcılığı, feyz verməsi və lütfü ilə bə`zi halətlər əta edir və bunun nəticəsində iman, hidayət və mə`rifətimizi artırır. Allah bizə öz günahlarımızı tanıyıb onları e`tiraf etmək üçün tövfiq verir. Bunlar ilahinin lütflərindəndir.

Təkəbbür və qürurumuz Allahla aramızda olan maneədir. İnsan bu maneə və ya pərdələri götürsə, özünü Allahın qarşısında zəlil və biçarə görəcəkdir. Bununla da, o, Allahın geniş rəhmətinə daxil olacaqdır.

Allahın rəhməti şəlalə kimi daim cərəyandadır. Biz öz günahlarımızı e`tiraf edib, daim yalvararaq özümüzü geniş ilahi rəhmətə şamil edə bilərik. Öz mənliyimizi

---

[1] Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar”, 14-cü cild, səh.290, 14-cü rəvayət.

[2] Həmin mənbə, səh.298.

sındırmaqla qabiliyyət tapıb, ilahi rəhmətdən daha çox faydalanarıq. Başqa yolla işlərimizə rəhmət kölgəsi düşməyəcəkdir.

Deyildiyi kimi, duanın həqiqəti Allahın qarşısında bəndəlik və kiçikliyin göstərilməsidir. Bu kiçiklik hissi hər nə qədər böyük olarsa, insan Allaha bir o qədər yaxınlaşar. Əlbəttə ki, Allah bəndələrinin Onun qarşısında kiçilməsindən ləzzət almır. Allahın heç kəsə heç bir ehtiyacı yoxdur. Hətta heç bir mövcudu yaratmasaydı da, qorxu və tənhalıq hiss etməyəcəkdi. Necə ki, bu mövcudları yaratmamışdan əvvəl də belə idi. Allah öz zatında bütün kamilliklərin sonsuz şəklinə sahibdir. Başqalarının kiçilməsi Onun üçün hansısa bir hissin yaranmasına səbəb olmur və bu kiçilmə Allah üçün elə bir kamillik dərəcəsi yaratmır ki, əvvəllər onda olmamış olsun.

Əlbəttə, Allah bizim ibadətimizdən razı və şad olur. Çünki ibadət bizim üçün kamillik səbəbidir. İnsanın ən üstün kamillik dərəcəsi Allah qarşısında öz eyiblərini tanımasında, Allah ilə əlaqəsində, kiçiklik göstərməsində, Ona qarşı məhəbbətli olmasında və bu həqiqətləri dərk etməsindədir. İnsan bu mə`rifət və tanışlıq nəticəsində hər şeyə yiyələnə bilər. Bu, insanın Allaha qovuşmasının sirridir. İnsan bu yolla Allahın görüşünə gedə bilər. İnsan öz kiçiklik və ehtiyacını anlayıb, bunları Allah qarşısında e`tiraf etməyənədək Allaha doğru yol tapmayacaqdır. Çünki insanın varlığı Allah qarşısında kiçilmə və Onunla əlaqədən ibarətdir. Bu mövzu öz yerində sübut olunmuşdu.

Qorxu və ümid halında olmaq duanın digər şərtlərindəndir. Dua insanın Allaha diqqəti və bəndəlik əlaqələrinin möhkəmlənməsindən ibarətdir. Bu əlaqədə iki tərəf var. Birinci tərəf böyük Allahdır, ikinci tərəf isə

günahkar bəndə. İnsan öz günahını yada saldıqda xəcalət hissi keçirir, Allahın rəhmətini gördükdə isə ümidvar olur. İnsan bir tərəfdən Allahın əzabından qorxub nigaran olmalı, başqa bir tərəfdən bütün günahları bağışlansa belə Allahdan heç bir şey azalmayacağını nəzərə almalıdır. Bu insan üçün həmişə gərəkli olan qorxu və ümid halıdır. "Əbu-Həmzə Somali" duasında bu nöqtəyə diqqət yetirilmişdir.

Dua üçün başqa qaydalar da deyilmişdir. O cümlədən, imam Sadiqdən (ə) bir rəvayətdə nəql olunur: "Duanı Allahın həmd sənası ilə başlayın. Sonra onun ne`mətlərini sayın. Daha sonra öz günahlarınızı yada salıb onları e`tiraf edin və Allahdan bağışlanma və əfv tələb edərək Məhəmməd və onun ailəsinə salavat göndərin."[1]

Dəstəmazlı olmaq, batini və zahiri paklığa və səliqəyə riayət etmək, qəlbin mö`minlərə münasibətdə kindən təmizlənməsi, duadan qabaq sədəqə vermək, başqalarının səhvini bağışlamaq, duada başqalarına önəm vermək, duadan əvvəl və duanın sonunda Məhəmməd (s) və onun ailəsinə salavat göndərmək İslam rəvayətlərində dua üçün göstərilmiş qaydalardandır. Bütün bunlar insanın Allah ilə əlaqəsinin möhkəmlənməsi və dua zamanı qəlb üçün hazırlıq səbəblərindəndir. Əsas nöqtə budur ki, Allahın hər şeyə qadir olduğunu və bütün olanlarımızın Ona məxsusluğunu anlayaq.

## *DUA EDƏNLƏRİN NÖVLƏRİ*

İnsanlar Allaha diqqət baxımından eyni səviyyədə deyillər. Onları bu baxımdan dörd dəstəyə bölmək olar.

---

[1] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 93-cü cild, səh.317, 21-ci rəvayət.

Əlbəttə, bu dörd dəstənin hər biri ayrılıqda daha xırda qruplara bölünür:

1. Birinci dəstə bütün hallarda, istər rifah içində, istərsə də giriftarçılıq və bəla zamanı Allaha diqqətli olur, Onun dərgahına dua edir. Qur`anın dediyi kimi, hər sübh və şam öz Allahlarını yad edirlər və onların duası çətinliklərinə görə deyil: ***“Sübhlər və axşam...”***[1]

Bəlkə də bu halın səbəbi bütün ne`mətlər ixtiyarlarında qoyulduğu halda onların yenə də Allahdan ehtiyacsız olmadıqlarını, ən aşağısı bu ne`mətlərin sonunda Ona möhtac olduqlarını dərk etmələridir. Əlbəttə, hər kəs öz mə`rifət dərəcəsinə görə ehtiyacını dərk edir. Bu dəstə üçün ne`mət və ya bəlanın fərqi yoxdur.

Onlar həmişə Allahı yad edən və Ona diqqətli olan ləyaqətli bəndələrdir: ***“Onlar xeyir işlər görməyə tələsər, ümid və qorxu ilə bizi çağırar və həmişə bizim qarşımızda müt`i olarlar.”***[2]

2. İkinci dəstəyə əksər mö`minlər daxildir. Bu şəxslər ne`mət və rifah zamanı qürur və qəflətdə olurlar. Lakin qarşıya bəla çıxdıqda ayılaraq öz ehtiyaclarını hiss edir və Allaha münasibətdə ehtiyaclı olduqlarını göstərirlər. Bu dəstədən olanlar nisbətən yaxşı bəndələr sayılır. Lakin Allah onlardan narazıdır ki, nə üçün ne`mət verilən zaman Allahı unudurlar və ne`mətlərin onlardan alındığı zaman dua edirlər: “İnsana bir ne`mət əta etdiyimiz zaman üz döndərər və uzaqlaşar. Ona şər və bəla üz gətirən zaman geniş dua edər.”[3]

---

[1] “Ə`raf” surəsi, ayə 205; “Rə`d” surəsi, ayə 141; “Nur” surəsi, ayə 36.

[2] “Ənbiya” surəsi, ayə 90.

[3] “Fussilət” surəsi, ayə 51.

Xalqın əksəriyyəti belədir. Çox az insanlar ne`mət zamanı Allahı unutmur.

3. Üçüncü dəstə bə`zi bəlaların Allah tərəfindən gəldiyini düşünür. Buna görə də bu növ bəlalar onlara nazil olarkən dua edirlər. Çünki bu bəlanın qeyri-təbii vasitələrdən doğduğunu və ilahi əzabın nişanəsi olduğunu bilirlər. Məsələn, Yunusun qövmü ilahi əzab nişanələrini gördüyü zaman bu əzab çatmazdan öncə özünə gəldi və tövbə etdi. Allah da onlara nicat verdi.

Bu qism insanlar müəyyən bəlaların Allah tərəfindən gəlmədiyini təsəvvür edib həmin bəlalara qarşı diqqətsiz olurlar. Yalnız hər yerdən naümid olaraq heç bir kəsdən kömək gəlmədiyini gördükləri zaman Allahı çağırırlar.

4. Dördüncü dəstə o kəslərdir ki, hətta bəla və müsibət zamanı Allahı yada salmırlar. Allah bu qisim insanların rəftarını pisləmiş və onları əvvəlki dəstələrə nisbətən daha çox əzaba layiq bilmişdir. Qur`ani-Kərim bu insanlar barəsində belə buyurur: ***"Nə üçün bizim bəlamız onlara çatan zaman yalvarıb-yaxarmadılar? Çünki onların qəlblərini qəsavət tutmuş və şeytan pis əməllərini onlara gözəl göstərmişdir."***[1] Başqa bir yerdə isə belə buyurulur: ***"Bundan sonra qəlbləriniz yenə sərtləşərək daş kimi, bəlkə, daha da bərk oldu. Həqiqətən, bə`zi daşların içərisindən nəhrlər axar, bə`zisi yarılıb içindən su fışqırar və bə`zisi də Allahın qorxusundan yuvarlanıb düşər. (Amma nə sizin qəlbləriniz Allahın qorxusundan çırpınar və nə də gözlərinizdən bir qətrə yaş axar) Allah sizin etdiklərinizdən xəbərsiz deyil."***[2] Əvvəldə dediyimiz kimi, həqiqi mö`min heç bir halda duadan uzaqlaşmır. İstər rifah içində olsun, istərsə çətinlik içində! Onun nəzərində

---

[1] "Ən`am" surəsi, ayə 43.
[2] "Bəqərə" surəsi, ayə 74.

dua insanın kamillik səbəbidir. İstər adi vasitələr olsun, istərsə də olmasın! O, duadan əl çəkmir! Adi vasitələrin hazır olduğu yerdə bu vasitələri həqiqi səbəb bilməyərək dua edir və həqiqi səbəbə doğru əl açır. Allahı səbəbkar bildiyindən süfrəsində çörək olmasına baxmayaraq, doymağını Onun iradəsindən asılı bilir. Çünki öz ehtiyaclarının ödənməsində həqiqi səbəbkar yalnız Allahı hesab edir və maddi vasitələrin tə`sirini Onun icazəsindən asılı olduğunu anlayır. Adi vasitələr olmayan yerdə isə dua Allahın qüdrətinin adi vasitələrlə məhdudlaşmadığını göstərir. O inanır ki, Allah adi vasitələrsiz də onun ehtiyaclarını tə`min edə bilər.

İndi isə baxaq görək, özümüz sadalanan hansı dəstədənik?! Allah eləməmiş, üçüncü və ya dördüncü dəstədən olaq! Allah insana bol-bol ne`mətlər vermişdir. Lakin bə`zən əvvəlcədən təsəvvür olunmadığı halda bu ne`mətlər azalır və çətinliklər qarşıya çıxır. Məgər bunları təsadüfi hesab etmək olarmı? Məgər bu hadisələrin Allah ilə heç bir əlaqəsi yoxdurmu?

Bu işləri Allahla əlaqələndirmə ölçüsü bizim mə`rifət səviyyəmizə bağlıdır. Mö`min insan heç bir şeyi Allahın tədbir və iradə dairəsindən xaric bilmir. Hətta əgər başı ağrıyarsa, əvvəlcə Allahdan şəfa istəyir, sonra həkim və ya dərmanın ardınca gedir. Dərman istifadə edərkən də onun Allahın icazəsi ilə tə`sir göstərdiyini düşünür. Əgər Allah istəməsə dərmanın heç bir tə`siri olmaz. Qısası, bütün işlərin kökünün Allahın əlində olduğunu hesab edir və Allahdan başqa heç bir kəsi ilahi hakimiyyətdə və varlıq aləmində müstəqil səbəbkar bilmir. Bütün aləm Onun mülküdür və Onun izni olmadan heç kəsin sahiblik və səbəbkarlıq hüququ yoxdur.

Biz, adətən, öz e`tiqadi mübahisə və söhbətlərimizdə deyirik ki, Allahın tədbir və iradəsi ümumidir, hər şeyə şamil olur. Heç bir şey Onun tədbir və qüdrət dairəsindən xaric deyildir.

Fəlsəfədə də “fe`li tövhid” haqqında çox rahat bəhs edirik. Bu mövzunun digər mövzular kimi zehnimizdə çox rahat yer tutması mümkündür. Lakin, adətən, əməl zamanı bu həqiqəti unuduruq. Bir çox başqa e`tiqadlar kimi, Allahın hər yerdə hazır olmasına da inanır, lakin əməldə bu həqiqəti unuduruq. Fe`li tövhidə əqli yolla, ayə və rəvayətlərlə dəlil gətirərək onu sübut edirik. Lakin əməl zamanı bunları yaddan çıxarırıq.

Buna görə də çətinliklərlə qarşılaşdıqda bu çətinliklərdə Allahı tə`sirsiz hesab etmək olmaz. Bu çətinliklərdə Allahın nə dərəcədə tə`sirli olduğuna gəldikdə isə ən aşağısı inanırıq ki, əgər Allah istəsəydi bu çətinliklərin qarşısını alar və onların baş verməsinə mane olardı.

Bir tərəfdən insanın qarşılaşdığı bütün çətinliklər Qur`anın dediyi “bə`suna” (“bizim qəzəbimiz” –“Ən`am” surəsi, ayə 43, 148; “Ə`raf” surəsi, ayə 4, 5, 97, 98; “Yusuf” surəsi, ayə 11; “Ənbiya” surəsi, ayə 12; “Ğafir” surəsi, ayə 84, 85) sözünə əsasəndir. Bə`zi bəlaların Allah tərəfindən, bə`zilərinin isə Allahdan qeyrisi tərəfindən olması fikri düzgün deyil. Çünki bütün işlərin ixtiyarı Allahın əlindədir. Hansısa bir şəxsə bəlanın çatması üçün Allahın təbii icazəsi bu bəlanın Allaha bağlı olmasının dəlilidir. Kamil mə`rifətə sahib olan və fe`li tövhidi daha çox dərk edən hər bir kəs bu mövzunu daha gözəl anlayar. Bu mövzu fəlsəfədə geniş şəkildə şərh olunur. Əlbəttə, Allah tərəfindən insana nazil olan bütün bəlalar öz pis əməllərimizin nəticəsidir.

Bu mövzuda bir çox ayə və rəvayətlər vardır. Allah-təala Qur`anda buyurur: "Əgər Allah xalqa bir ne`mət verərsə, bu ne`məti heç zaman geri almayacaqdır. Yalnız bu xalq öz halətini dəyişsə geri alınar!"[1] Allahın bir şəxsin bərəkətinə görə xalqdan hansısa bir bəlanın uzaqlaşdırması mümkündür. Baxmayaraq ki, xalq özü bu bəlanın uzaqlaşması üçün heç bir iş görməmiş olsun. Ya da ki, Allah nazil etdiyi bəlanı öz rəhməti və ya tədbirinə əsasən uzaqlaşdıra bilər. Lakin Allah xalqa verdiyi hansısa bir ne`məti heç zaman onlardan almaz. Amma xalq özü öz pis əməlləri ilə ne`mətin kəsilməsinə səbəb ola bilər.

Başqa bir ayədə buyurulur: "Hər hansı bir tayfa öz tövrünü dəyişməzsə Allah da onun tövrünü dəyişməz."[2] Bu ayənin məzmunu əvvəlki ayədəki kimidir. Lakin bu ayədə daha çox tə`kid olunur. Bu mübarək ayəyə əsasən, qəbul etməliyik ki, bə`zi ne`mətlərin bəlaya çevrilməsinin səbəbi öz əməllərimizdir.

Qur`an tə`limlərinə əsasən, çətinliklərimiz və qarşımıza çıxan müsibətlər öz əməl və rəftarlarımızın nəticəsidir. Əgər əməllərimizi və rəftarlarımızı islah etsəydik, ne`mətlər çətinlik və əzaba çevrilməzdi. Məşhur bir məsələ əsasən "bizə gələnlər bizdəndir".

***"Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazdığınız günahların ucbatındandır. Allah bir çoxlarından keçər."***[3]

Əgər Allah xalqın bütün əməllərini cəzalandırmaq istəsəydi, yer üzündə heç bir canlı qalmazdı: ***"Əgər Allah insanları günahlarına, haqsızlıqlarına görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ***

---

[1] "Ənfal" surəsi, ayə 53.
[2] "Rə`d" surəsi, ayə 11.
[3] "Şura" surəsi, ayə 30.

***qoymazdı.”*[1] *“Əgər Allah insanları etdikləri günahlara görə cəzalandırsaydı, yer üzündə bir nəfər belə saxlamazdı.”*[2]**

Allahın nazil etdiyi dünyəvi bəlalar xalqı cəzalandırmaq yox, onları tənbeh etmək üçündür. Beləliklə, insanlar bu vasitə ilə islah olsunlar və bilsinlər ki, Allahın hakimiyyətində yaşayırlar. ***“İnsanların öz pis əməlləri üzündən suda və quruda fəsad, pozuntu yarandı. Allah onlara etdikləri bə`zi günahların cəzasını dadızdırar. Olsun ki, geri dönələr.”***[3] Adətən, bəla nazil olduqda hamıya şamil olur. Məşhur sözdür ki, qurunun oduna yaş da yanar. Beləliklə, bəla günahkar olmayanlar üçün imtahan, günahkarlar üçün isə əzab sayılır.

## *DUA AMİLLƏRİ*

Dua iradi bir işdir və səbəbə ehtiyaclıdır. Dua edənlərin məqsədləri çox fərqlidir. Onların dualarının dəyəri məqsədlərinin dəyərindən asılıdır.

1. Bə`zən insanın duada məqsədi maddi ehtiyacların tə`minidir. Məsələn, Allahdan pul, ev, övlad, sağlamlıq və sair şeylər istəyir. Beləliklə, bu şəxsi duaya təhrik edən amil həmin şeylərə çatmaq marağıdır. Bu növ istək insanın kiçik və rəzil məqsədinin nişanəsi olsa da, öz həddində yaxşıdır. Çünki dua edən şəxs Allahın səbəbkar olmasını bildirir. Beləliklə, belə bir şəxs istəklərini Allahdan tələb etməyən başqa bir şəxslə bərabər deyildir.

Birinci şəxs Allahı tanıdığından və Onu aləmdə səbəbkar bildiyindən ehtiyaclarının ödənməsi üçün Ona doğru əl açır və dua edir. Lakin ikinci şəxs bu həqiqətə

[1] “Nəhl” surəsi, ayə 61.
[2] “Fatir” surəsi, ayə 45.
[3] “Rum” surəsi, ayə 41.

inanmır. Buna görə də o birinci şəxsin əksinə olaraq, kamillik yolundan çıxmışdır və yalnız maddi vasitələr yolu ilə öz istəklərinə çatmaq arzusundadır. Bu iki şəxsi müqayisə etdikdə görürük ki, birinci şəxs Allaha diqqət, Onun qarşısında bəndəlik və kiçiklik göstərdiyi üçün bə`zi kamilliklərə çatmışdır, lakin məqsədi kiçik və yalnız dünyəvi çərçivədə məhdudlaşmışdır. İkinci şəxs isə ümumiyyətlə hər şeydə uzaqlaşmışdır və heç bir məqama çatmayacaqdır. Buna görə də, qeyd etdiyimiz hal duanın mərtəbələrindən biridir və öz həddində dəyərli və məqsədlidir.

2. Daha üstün mərhələ isə insanın uca və ali məqsəddə olması, Allahdan mə`nəviyyat və bəndəlik tövfiqi istəməsidir. Belə bir insan üçün mə`nəvi və axirət işləri dünyəvi və maddi işlərdən dəyərlidir. Beləliklə, onlar üçün maddiyyat dəyərsiz sayılır. İnsan həqiqətən axirəti tanıyarsa və Allahdan istədiyi şeyi ona əta edəcəyini bilərsə, dünyəvi bir şey istəməz. Bir şərtlə ki, bu istəklər axirət işləri yönümündə olsun, ya da sonradan izah edəcəyimiz başqa məqsədlər üçün!

Buna görə də ilahi övliyalardan nəql olunmuş dualar çox dəyərlidir. Onların duaları heç vəchlə bizim dualarla müqayisə olunası deyil. Amma bizim dualarımız da ibadətdir. Çünki imandan qaynaqlanmışdır. Bu dualar kamillik səbəbi olsa belə, kamillik üçün az tə`sirlidir. Lakin insan maddi işlər əvəzinə mə`nəvi işlər üçün dua edərək bəndəlik tövfiqi istəyərsə, Allah onun iman və mə`rifətini artırar və ona layiqli əməllər üçün tövfiq verər. Beləliklə, insan kamillik yolunda sür`ətlə hərəkətə başlayar! Bu sayaq dualar maddi ehtiyacların tə`mini üçün olan dualardan daha dəyərlidir. Çünki belə dualar insanın axirətə və Allaha yüksək imanının nişanəsidir. Belə

insanın nəzərində axirət daha gözəl və daha möhkəmdir. ***“Axirət daha üstün və daha davamlıdır.”***[1]

3. Bə`zən duada məqsəd yuxarıda sadaladıqlarımızdan da üstün olur. Bu mərhələdə dua edənin məqsədi yalnız Allahla danışıq və Ona itaət etməkdir. Onun istəyi duanın zatıdır; istək duası dost qapısına getmək üçün bəhanədir. O, Allah, “dua edin” buyurduğu üçün dua edir. Bu mərhələdə nə istənilməsi mühüm deyil. İstər mə`nəvi şeylər istənilsin, istərsə də maddi; heç bir fərqi yoxdur! Mə`nəvi işlər üçün dua daha yaxşı olsa da, uyğun məqsədlə istənilən bir dua arzu olunasıdır. Belə bir insan özünü ilahi rəhmətin sonsuz okeanının kənarında görür. Buna görə də cüz`i işlər üçün də dua edir.

İnsan belə bir məqsəddə olarsa, onun duası çox üstün, dəyərli olacaqdır. Hətta onun duası kiçik işlər üçün olsa belə! Belə bir dua maddi, ya mə`nəvi olduğu üçün dəyərli sayılmır. Bu duanın dəyəri ondadır ki, insan Allahı əsas səbəbkar bilir və Onu hər bir şeyə qalib hesab edir. Belə bir dua o zaman dəyərli olur ki, insanın diqqəti duanın nəticəsində olmur. O yalnız Allah duanı sevdiyi üçün Ona dua edir.

Əgər Allah duanı əmr etməzdisə (“Çağırın Məni, sizi qəbul edim.” “Mu`min” surəsi, ayə 6; “Allahın fəzlindən istəyin.” “Nisa”surəsi, ayə 32) o heç zaman özünə icazə verməzdi ki, bu şeyləri Allahdan istəsin. Amma Allah bəndəsinin Ona doğru ehtiyac əlini uzatmasını sevdiyini buyurur. Buna görə də o dua edir. Belə bir dua başqa dualarla müqayisə olunası deyil və yalnız Allahdan qeyrisinə bağlı olmayan kəslər tərəfindən oxunur.

---

[1] “Ə`la” surəsi, ayə 17.

İnsan nə qədər ki, dünya və axirət işlərinə maraqlıdır, istər-istəməz onların tə`min olunması üçün çalışacaqdır. Əlbəttə, əgər insan Allaha imanlı olsa və öz hacətlərini Ondan istəsə, bunun heç bir eybi yoxdur. Şübhəsiz ki, hər kəs öz mə`rifət və imanı səviyyəsinə uyğun istəyir. Lakin iman və mə`rifətin üstün mərhələsinə çatmış şəxslər üçün Allahdan kiçik dünyəvi şeylər istəmək eyb sayılmır. Çünki onlar yalnız Allah istədiyi üçün dua edirlər.

Demək, bə`zən duanı uzatmaq və kiçik şeylər istəmək bəyənilir. Çünki dua bəndəlik ruhiyyəsinin yüksəlməsinə, Allah qarşısında yalvarışa və müt`iliyə səbəb olur. Belə bir dua mö`min insanın Allaha e`tiqadının dərinliyini göstərir. Çünki o hətta ən kiçik işlərdə belə Allahdan başqasına güvənmir.

Burada iki nöqtəni xatırlatmaq yerinə düşər:

1. İnsan həmişə öz ehtiyaclarına diqqətli olmalı və onların tə`mini üçün yalnız Allah-təaladan kömək istəməlidir. Lakin yadda saxlamalıdır ki, insanın ehtiyacları maddi və dünyəvi ehtiyaclarla sona çatmır. Əslində bəşərin ehtiyaclarının böyük bir hissəsi mə`nəvi və ruhi ehtiyaclardır. O cümlədən, bizim ən mühüm və ən böyük ehtiyacımız İslam, vilayət və hidayət ne`mətləridir. Allahdan bu ne`mətləri istəyək.

Rəvayətlərdə göstərilir ki, ilahi övliyalar Allahdan şəhadət istəyirdilər: “İlahi, bizə öz yolunda şəhadət qismət et.” (ramazan ayının gecələri üçün bəyan olan duadan bir hissə).

Bu növ istəklər onların Allahla yaxınlığa olan məhəbbətlərinin yüksəklik nişanəsidir. Biz də onlardan öyrənməliyik. Allahdan istəməliyik ki, bizə onunla arifanə, xalisanə və sadiqanə söhbət üçün xalis niyyət əta etsin.

2. İslam ideologiyasında insanların rəğbətləndirildiyi digər bir nöqtə başqaları üçün dua etməkdir. İstər maddi, istərsə də mə`nəvi işlər üçün olsun! Başqaları üçün edilən dua Allahı yada salmaqla yanaşı, mö`minlərin bir-birinə olan məhəbbət və əlaqəsini artırır. Hətta dua zamanı fədakarlıq ruhiyyəsi, başqalarına diqqət və mö`min üçün zəruri olan ətrafa mərhəmət hissi yaranır.

Həzrət imam Həsən (ə) Müctəbadan belə bir məşhur rəvayət var: "Bir gecə oyaq idim, gördüm ki, anam həzrət Zəhra (ə) dua edir. Nə qədər qulaq asdımsa, gecənin sonuna qədər başqaları üçün dua etdi. Ondan soruşdum: "Anacan, niyə özünüz üçün dua etmirsiniz?" Buyurdu: "Əvvəl qonşu, sonra ev əhli."[1]

Demək, başqaları üçün dua özün üçün duadan dəyərlidir. Xüsusi ilə mö`minlərin mə`nəviyyatı üçün olarsa, daha dəyərli sayılır.

## *DUAYA MÜNASİBƏTDƏ TƏKƏBBÜRÜN MƏ`NASI*

Allah "Mu`min" surəsinin 60-cı ayəsində buyurur: ***"Rəbbiniz dedi: Çağırın Məni, qəbul edim sizi. Mənə pərəstişə münasibətdə təkəbbür göstərənlər tezliklə başıaşağı cəhənnəmə daxil olarlar".***

İndi isə duaya münasibətdə təkəbbürün hansı mə`na daşıdığını araşdıraq. Duadan üz çevirmək üç şəkildə təsəvvür oluna bilər:

Bə`zən insan qafillik səbəbindən duadan çəkinir; iman zəifliyi onu ilahi dərgaha üz tutmaqdan məhrum edir. Buna görə də, çətinlik zamanı əvvəlcə maddi vasitələrin ardınca gedir və vasitələrin səbəbkarını unudur. Məsələn, xəstələndiyi zaman əvvəlcə Allahı xatırlamaq əvəzinə

---

[1] "Biharul-ənvar", 43-cü cild, 4-cü bab, səh. 81, 3-cü rəvayət.

həkim və dərman ardınca qaçır. Mümkündür ki, kimsə bu halı onun nəzərinə çatdırdıqda özü də bunu e`tiraf etsin. Bu növ unutqanlıq təkəbbürdən yox, iman zəifliyindən qaynaqlanır.

Bə`zən insan qarşılaşdığı şübhələr əsasında duadan çəkinir. Məsələn, Allahın dəyişməz qanunları olduğunu və bu qanunlara itaət etməyin zəruriliyini eşidir. Başqa sözlə, o elə bilir ki, Allah hər bir dərd üçün dərman vermişdir. Buna görə də öz-özlüyündə düşünür: Dua, yə`ni nə? Baş ağrısını dua ilə yox, filan dərmanla müalicə etmək lazımdır. Bu əqidə də təkəbbürdən yox, insanın imanındakı naqislikdən yaranır. Bu şəxs Allahı düzgün tanımamış və Onunla aləmin əlaqəsini yaxşı dərk etməmişdir. O, tövhidi zəif dərk etmiş və duanın həqiqi tə`sirini anlamamışdır.

Bə`zən isə insan öz-özlüyündə deyir: Qarşıya çıxan hər bir çətinliyi özüm aradan götürəcəyəm, ehtiyaclarımı özüm tə`min edəcəm. Nə üçün Allahın qarşısında boynumu əyim? Nə üçün gecənin rahat yuxusunu tərk edib Allahın qabağında kiçilim? Bu, duaya münasibətdə təkəbbürdür; Allahdan nə isə istəməyi ar bilir və onu özü üçün nöqsan sayır.

Bə`zi yenilikçilər deyir: İslam insanın hətta Allah qarşısında da kiçilməsini istəmir. Onlar hətta namazın "Allahu əkbər" və "Bismillahir-rəhmanir-rəhim" kimi zikirlərini siyasi şüar hesab edirlər. Onların əqidəsinə əsasən, insan heç bir şeyin qarşısında kiçiklik göstərməməli və boyun əyməməlidir. Deyirlər ki, ağlamaq uşaqların və qoca qadınların işidir! Əgər insan özünü tanıyarsa, heç zaman ağlamaz və özünü güclü, qüvvətli hiss edər; insan hətta Allahın da qarşısında ağlamamalıdır.

Təəssüf ki, bu şəxslər öz əqidələrini İslama aid edir və onu islamşünaslıq adlandırırlar! Onlarlardan soruşmaq lazımdır ki, əgər bu islamşünaslıqdırsa bəs ateizim nədir?

İbadətin əsası və həqiqəti kiçikliyin göstərilməsidir. Qur`anda oxuyuruq: ***“Qüdrətli və ölməz Allahın izzəti qarşısında aləmin bütün böyükləri kiçilmiş və müt`idirlər.”***[1] ***“Göylərdə və yerdə nə varsa istər-istəməz Onun fərmanına müt`idir və hamı Ona tərəf qayıdacaqdır.”***[2] İnsan üçün iftixar Allahın əzəmətini dərk etmək və Onun qarşısında kiçiklik və xarlıq göstərməkdir. Allahı daha yaxşı tanımış Əmirəl-mö`minin (ə) buyurur: *“İlahi, izzətim üçün təkcə Sənin bəndən olmağım, iftixarım üçün yalnız Sənin mənə Allah olmağın bəs edər.”*[3]

Allah qarşısında bəndəlik göstərilməsi bəndəliyin ən uca mərtəbəsidir. Allah tərəfindən insanın bəndəliyinin qəbul olunması şəxs üçün ən böyük izzətdir. Allah yanında daha çox bəndəlik göstərilməsi nəticəsində, insan daha kamil və Allaha daha yaxın olar. Əlbəttə, aydındır ki, Allah insanın Onun qarşısında kiçiklik göstərməsindən heç bir ləzzət almır. Çünki Onun bu şeylərə ehtiyacı yoxdur. Deyildiyi kimi, bu iş insanın kamilliyinə səbəb olduğu üçün Allah tərəfindən bəyənilir.

## *TƏ`SİRLİ DUALAR*

Dua xalis niyyətlə olduqda hansı dildə, hansı ləhcədə, hansı məkanda və zamanda olmasından asılı olmayaraq, tə`sirli və faydalı olur. Lakin ən üstün dualar ilahi

---

[1] “Taha” surəsi, ayə 111.

[2] “Ali-İmran” surəsi, ayə 83.

[3] Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar” 77-ci cild, səh.402, 23-cü rəvayət.

övliyalardan nəql olunmuş dualar sayılır. Qur`ani-Kərimdə peyğəmbərlər və ləyaqətli bəndələrin dilindən nəql olunmuş dualar, girami peyğəmbər və pak imamlardan rəvayətlərdə nəql olunmuş dualar bu dualardan sayılır. İki səbəbə görə bu dualar başqa dualardan üstündür:

1. Bu dualar ibadətin qaydalarını bizdən daha yaxşı bilən kəslər tərəfindən deyilmişdir. Onların Allaha münasibətdə mə`rifətləri daha çox olmuş və dua etməyin qayda-qanunlarını başqalarından daha yaxşı bilmişlər. Bundan əlavə, onlar daha kamil mə`rifət sahibi olduqlarından istəkləri bizim istəklərimizdən daha üstün və daha bəyənilmiş sayılır. Buna görə də necə dua etməyi onlardan öyrənməliyik. Demək olar ki, imamlardan nəql olunmuş dualar hər cəhətdən bizim dualardan, istək və düşüncə tərzimizdən fərqlidir. Adətən, onların duaları Allahı həmd-səna etməklə, Ona təsbih və təkbir deməklə başlanır. Onların istəkləri e`tiraz və tələbkarlıq yox, üzrxahlıq və bağışlanma istəyi ilə müşayiət olunur. Onlar ne`mətlərin inkarı, çətinlik və məhrumiyyətlərdən şikayət əvəzinə Allahın rəhmətlərini, sonsuz ne`mət və fəzlini yada salırlar. Dünyəvi mal və məqam, maddi istəkləri daha az, ilahi yaxınlıq, Allahın razılığı və insani kamillikləri isə daha çox dilə gətirirlər.

Başqa bir tərəfdən, rəvayət yolu ilə bəyan oluna bilməyən bir çox uca və dəyərli biliklər dualar yolu ilə, xüsusən imam Səccadın (ə) duaları ilə yayılmışdır. Çünki hidayət imamları dua halında haqqın zatı ilə qarşı-qarşıya olmuş və Onunla raz-niyaz etmişlər. Buna görə də ürəklərində olanları dilə gətirmiş və Allahla onu tanıdıqları kimi söhbət etmişlər; Ona həmd-səna demiş, Onu vəsf etmişlər. Lakin rəvayətlərdə adi insanlara müraciət olunduğundan bütün maarifi izah etməyə imkan

olmamışdır. Rəvayətlərdə camaatın düşüncəsinə uyğun həqiqətlər izah olunmuşdur.

2. Peyğəmbərlər və hidayət imamlarından nəql olunmuş duaları oxumaqla həqiqətdə onlara ardıcıl olmuş oluruq. Allahın peyğəmbəri və Onun dostlarına ardıcıllığı tövsiyə edən bir sıra göstərişlər bizə ünvanlanır. Demək, imamlardan nəql olunmuş duaları oxumaqla ən yaxşı duaları ən yaxşı qaydada oxumuş oluruq. Bundan başqa, ilahi övliyaların üsuluna da riayət etmiş oluruq. Bu isə duanın özündən əlavə, ayrıca bir fəzilət sayılır.

Əlbəttə, böyüklərə ardıcıl olmağın bir çox faydaları vardır. Ən böyük fayda isə bu işlə insanın təkəbbürdən uzaqlaşması və ondan da böyük, ondan da qabaqcıl insanların olmasını hiss etməsidir. Bu nöqtə nəfsi təmizləmək üçün çox əhəmiyyətlidir. Bir çoxları nəfsi paklaşdırdıqdan sonra müəyyən kamillik mərhələləri keçirlər. Bununla da başqaları ilə müqayisədə özlərini onlardan üstün görür və təkəbbürə düçar olurlar. Bu iş də insani çirkinliklərdən sayılır. Lakin insan ilahi bəndələr və ilahi yol yolçularının hamısından öndə və hamının tabe olduğu karvan başçısı olduğunu nəzərə alarsa, Ona qarşı müt`i olar. Bu düşüncə insanın təkəbbürünə mane olar. Əhli-beyt (ə) vilayəti ne`mətindən məhrum kəslər bə`zi vaxtlardakı xalis niyyətləri və çəkdikləri əziyyətlərə baxmayaraq, nəfsin paklaşdırılması üçün zəhmətlərindən bəhrə götürməmiş və bir sıra səhvlərə düçar olmuşlar. Bu da daha çox onların qüruru səbəbindəndir.

Onlar pak imamların məqamını tanımadıqlarından və onların insaniyyət karvanının rəhbər olduğunu anlamadıqlarından bə`zən elə təsəvvür edirdilər ki, zirvə məqama çatmışlar və tam vilayət əldə etmişlər. Buna görə də bə`zən onlardan bəndəliklə bir araya sığmayan sözlər

eşidilirdi. Lakin yaranmışların ən şərəflisi olan girami Peyğəmbər (s) ömrünün son anına kimi belə deyirdi: «Əşhədu ənnə Muhəmmədən əbduhu...». Əhli-beytin sadiq ardıcılları heç zaman belə gümana düşmürlər. Bu da onların tabe olduqları vilayətin böyük bərəkətlərindən biridir.

Tə`sirli dualar bu cür fəzilətlidir. Lakin unutmamalıyıq ki, insaniyyətin üstün mərhələsini keçmiş və ilahi yaxınlıqda uca məqamlara çatmış şəxslər Allah ilə münacatlarında elə sözlər ərz edirlər ki, bizim o sözləri zikr etməyimiz yersiz olar. Çünki bu sözlər bizim halımıza uyğun deyil və bu mətləblərin bizim tərəfdən deyilməsi sadiqanə olmayacaq. Məsələn, dəyərli və şərafətli dualardan biri olan "Kumeyl" duasında həzrət Əli (ə) Allaha xitabən buyurur: "Ey mənim Ağam, ey Rəbbim, tutaq ki, əzab atəşinə səbr etdim, bəs Sənin ayrılığına necə səbr edəcəyəm? Tutaq ki, odunun hərarətinə dözdüm, bəs kəramət və lütfünə necə göz yuma bilərəm?"

Bu ifadələr yalnız və yalnız Allahın kamil övliyalarının halına uyğundur və hər kəs belə bir iddia edə bilməz. Bu sözləri yalnız ayrılıq və vüsalı tanıyan şəxslər deyə bilər.

O kəslər ki, vüsalın ləzzətini dadmış, ayrılığın, özü də həqiqi məhbubdan ayrılığın əziyyətini çəkmiş olsun. Lakin vüsalın nə olduğunu bilməyən şəxs Allahla ayrılıqdan əziyyət çəkdiyini deyə bilməz. Vüsalı anlamış və onu tanımış şəxs ayrılıqdan əziyyət çəkə bilər; məsələn, öz dostunu çox istəyən bir şəxs onunla vüsaldan ləzzət alır və onunla ayrılıqdan əziyyət çəkir. Lakin özgə birisi onunla ayrılıqdan heç bir əzab hiss etmir. Necə ki, onunla vüsaldan və ona qovuşmadan heç bir ləzzət duymur.

Biz Allahı tanımayıb, Onun kamalını dərk etməyənədək heç zaman Onunla ayrılıqdan əzab hiss etməyəcəyik. Beləliklə, necə deyə bilərik ki, Sənin əzabına dözərik, lakin ayrılığın bizim üçün çətindir?

Sadə dişağrı və adi başağrıdan fəryadı göylərə çatan, axirət əzabının milyardda biri də olmayan bu ağrı qarşısında səbirsizlik edib naşükürlüyünün həddini artıran insan cəhənnəm əzabına dözümlü, lakin Allahdan ayrılığa dözümsüz olduğunu necə iddia edə bilər?! Biz Allahla vüsaldan nə dadmışıq ki, Onun ayrılığı bizim üçün cəhənnəm əzabından daha çətin olsun!

Bu növ dualar yalnız Əmirəl-mö`minin (ə) kimi kəslərə layiqdir. Bu sayaq sözlərin nümayiş etdirilməsi bizim üçün həqiqətdən çox uzaqdır. Bununla belə, uyğun mətləblər tə`sirli dualarda çox gözə çarpır. Əgər bu sözləri öz adımızdan desək, yalan demiş olarıq və Allaha yalan danışmaq xalqa yalan danışmaqdan çox-çox pisdir. Buna görə də uyğun dualarda məqsədimiz hekayət olmalıdır. Məsələn, həzrət Əlinin (ə) Allah qarşısında ərz etdiklərini hekayət məqsədi ilə nəql edərək, bu şeyləri öz adımızdan bəyan etməməliyik. Çünki bu mətləbləri biz özümüz inşa etməmişik. Ya da məqsədimiz belə olmalıdır: Allahdan bizim üçün də elə bir mə`rifət əta etməsini istəyək ki, bu sayaq sözlər deməyə səlahiyyətimiz çatsın.

## *DİNİ HÖKMLƏRƏ İTAƏT ZƏRURƏTİ VƏ EHTİRAMSIZLIĞIN TƏ`SİRLƏRİ*

Dua Allahdan bir şeyin istənilməsi və Onunla söhbətdir. İnsan təbiətən istədiyi şeyi tanıyır və istəyən zaman nə istədiyini və nə dediyini anlayır. Elə buna görə də bə`zilərində belə güman yaranır ki, nəql olunmuş duaların mə`nasını anlamayan kəslər üçün bu duaları

oxumağın heç bir faydası yoxdur. Çünki onlar yalnız bə`zi sözləri qiraət edərək Allahdan nə istədiklərini və nə dediklərini anlamırlar. Beləliklə, daha yaxşı olar ki, bu duaların mə`nasını anlamayanlar onları oxumasınlar və bunun əvəzində öz dilləri ilə və öz düşüncələrinə uyğun Allahla söhbət etsinlər. Qur`an oxunmasına münasibətdə də belə gümana düşənlər olmuşdur. Onlar deyirlər: Mə`nasını anlamayan kəslər üçün Qur`an oxumağın faydası yoxdur və bu iş onların vaxtlarının tələf olmasına gətirir!

Əlbəttə, bu da düzdür ki, insanın mə`nasını anladığı dua ilə yalnız sözlərini deyərək mə`nasını anlamadığı dualar arasında bir çox fərqlər var. Qur`an oxunuşu da belədir. Eyni zamanda qəlbin iştirakı ilə anlamaqla, qəlbin iştirakı olmadan anlamaq arasında fərqlər çoxdur. Bu məsələdə heç bir şəkk yoxdur.

Buna görə də dua və ya Qur`an ayələrinin mə`nasını anlamayan kəslər çalışsınlar ki, mə`naları öyrənsinlər. Beləliklə də, Allahla nə danışdıqlarını və ya Allahın onlara nə dediklərini anlasınlar. Lakin duaların və ya Qur`an ayələrinin mə`nasını bilməmək və ya onların cümlələrini qeyri-ərəb dilində demək onların tərk olunmasına səbəb ola bilməz.

Əgər bu fikir genişlənərsə, iş o yerə çatar ki, bə`ziləri deyər: Hər qövm namazı öz dilində qılsın. Sonra da yavaş-yavaş deyiləcək ki, namazın hərəkətləri lazımsızdır və əyilib-düzəlməyə ehtiyac yoxdur! Məgər Allah diktatordur ki, Onun qabağında əyilək?! Bu qayda ilə də peyğəmbər və Allahın göstərişlərinə qarşı ibadət ruhu zəifləyib aradan çıxasıdır.

İslam iddiasında olan və həqiqətən də müsəlmanlığı aydın olan bə`zi siyasi qrupların çaşqınlığı elə bu nöqtədən

başladı: İbadət məsələlərində yalançı ziyalı! Buna görə də ibadət məsələlərinə çox ehtiyatla yanaşmalıyıq. İbadət xəttini tapdamaq olmaz. Yoxsa, çoxları kimi pis aqibətə düçar olarıq.

İslam da başqa səmavi dinlər kimi bizim bilik və fəlsəfi təxəyyüllərimizdən asılı olmayan ibadət məsələlərinə malikdir. Ümumiyyətlə, İslamın ruhu vahid Allah qarşısında təslim olmaq və ibadətdir.[1] Bəndə odur ki, Allah qarşısında itaətkar olsun, verilmiş fərmanın hikmətini anlasa da, anlamasa da bəndəlik etsin, ağası ondan nə istəyirsə, ona da əməl etsin. Əgər yalnız sirrini anladığı şeylərə əməl etmək istəyərsə, həqiqətdə bəndəlik yox, özünə pərəstiş etmişdir. Əgər yalnız özümüzə xeyirli bildiyimiz əmrlərə itaət etsək, əslində Allaha yox, özümüzə pərəstiş etmiş olarıq. Allahpərəstlik ruhu budur ki, insan xeyirinə də olsa, zərərinə də olsa, Allahın buyuruqlarına əməl etsin.

Həzrət İbrahimə (ə) övladını qurban kəsmək vəhy olunan zaman onun mübarək zehnində belə düşüncə yaranmadı ki, bu iş özüm, övladım və ya cəmiyyət üçün məsləhətlidir, yoxsa yox? İbrahim düşünmədi ki, şər`i hökmlər xeyir və zərərdən asılıdır və qətl pisdir. Ona əmr olunan zaman övladını qurban kəsməyə cəhd göstərdi. Onun bu əməli ibadət ruhunun göstəricisi idi.

Ümumiyyətlə dinin qanuniləşməsində əsas məqsəd insanların bəndəlik və təslim ruhunu gücləndirməkdir. Bununla da insanlar Allah qarşısında müt`i olub, bəndəlik və öz iradəsini fəna etməklə Allaha yaxınlaşa bilərlər.

Əlbəttə, biz bilirik ki, İslam hökmləri cəmiyyətin və şəxsin xeyirini tə`min etmək üçündür. Lakin bizim Allahın

---

[1] "Biharul-ənvar", 68-ci cild, səh.309, 35-ci bab, 1-ci rəvayət: Əli (ə): Əl-İslam və huvət-təslim".

göstərişlərinə itaətdə məqsədimiz ictimai və ya şəxsi mənafeyimiz olmamalıdır. Biz bəndəlik və ibadət məqsədi ilə Allaha pərəstiş etməliyik. Bəndəlik edirik, çünki O ağa və biz bəndəyik. Əlbəttə, hikmət sahibi olan ağa boş yerə əmr verməz; amma bizim məqsədimiz ictimai və ya şəxsi mənafeyimizin tə`mini olmamalıdır.

Bir çox şər`i qanunlar və hökmlər bizim ibadət ruhumuzun güclənməsi üçün qanuniləşdirilə bilər. Həcc əməllərinin böyük bir qismini bu cür hökmlər təşkil edir. Məsələn, müəyyən zamanda, tə`yin olunmuş qədər, seçilmiş məkanlarda dayanmaq, ətirdən çəkinmək, saçı düzəltmək, Kə`bə evini təvaf etmək, Mərvə və Səfa arasında xüsusi şəkildə sə`y və sair əməllər. Bu növ əməllər natiqlərin birinin dediyi kimi, bəndəliyin məşğələsidir (Mərhum Hacı Şeyx Əli Əkbər Türbəti).

Həcc üçün Məkkəyə gedən insan əslində şərtlərə əməl etməklə, əməlləri yerinə yetirməklə Allaha deyir: “İlahi, Sən dediyin üçün gedirəm və Sənin əmrinə əsasən dayanıram, qaçıram, saçlarımı qısaltmıram, xoş iy qoxulamıram və sair”.

Qeyd etmək lazımdır ki, ehram halında hacıya bə`zi şeylər haramdır. Məsələn, xoş ətir qoxulamaq, güzgüyə baxmaq, kölgədə dayanmaq, bədəndən tük çəkmək və s. Həcc və ümrə mərasiminin əməllərindən biri də “hülq” və ya “təqsir” əməlidir. Bu əməli yerinə yetirən hacı ya başını qırxır, ya başından və ya üzündən bir miqdar tük kəsir, ya dırnağını tutur. Bu iki bir-birinə qarışdırılmamalıdır. Hülq və ya təqsir həccin xüsusi bir mərhələsində yerinə yetirilir. Bu əməli yerinə yetirən hacı ehram halından xaric olur. Şübhəsiz ki, İslami ibadətlərdə xalqın ilahi fərmana tabe olması, insanda özünəpərəstiş və mənafepərəstliklə mübarizə üçün ibadət ruhiyyəsinin gücləndirilməsi və

insanın öz fikrində yox, Allahın göstərişlərinə itaət fikrində olması tə`kid olunur.

Demək, bütün İslami göstəriş və hökmlərdə onların hikmət və xeyirini dərk etmək ardınca getməməliyik. İslam hökmlərində, kitab və sünnədə hər nə əmr olunubsa, xeyir və ya hikmət axtarmadan bu əmrlərə əməl edək. İslam hökmlərinin dəyərləndirilməsində təcrübənin heç bir rolu yoxdur. Əvvəlcə mövzuların sənədini araşdırırıq və onların dəlillərini müəyyənləşdirdikdən sonra əməl edirik.

Əlbəttə, dini rəhbərlər bir çox hallarda hökmlərin hikmətlərini bəyan etmişlər. Lakin bu o demək deyil ki, hansısa bir hökmün hikmətini anlamadıqsa onu qəbul etməyək və ya şübhə ilə yanaşaq. Hikməti bəyan olunmuş elm və təcrübə ilə sübuta yetmiş hökmləri qəbul edib, hikməti bəyan olunmamış, təcrübə ilə sübuta yetməmiş əmrləri rədd etməməliyik. Lakin mə`rifət və biliyimizin artması lazımdır ki, hökmlərin xeyirini və ziyanını anlaya bilək.

Beləliklə, Qur`an, namaz və ya dua buyurulduğu kimi oxunmalıdır. Namazın hərəkətləri və dayanışları bizdən istənilmiş şəkildə və tərtibdə olmalıdır. Günəş doğduqdan sonra halımız yaxşı olur deyə sübh namazını həmin vaxta saxlamaq olmaz. Bu sözlər ibadət ruhu ilə müxalifdir və Allahın işinə qatışmaqdır. Sabiq rejimin zindanında bə`zi ziyalılarımız gün ərzində bir neçə saat Qur`an oxuyaraq, öz namazlarında "Bəqərə" surəsi kimi böyük surələr oxusalar belə, sübh namazını qəzaya verirdilər və heç narahat olmurdular. Bəndəlik həddinin aşılması belə yanlışlıqlarla sonuclanır. Onlardan bə`ziləri inzibat məsələsini önə çəkirdilər: İnsan gərək nizamlı olsun və hər bir namazı müəyyən bir saatın başlanğıcında qılsın. Məsələn, həmişə

sübh namazını saat 6-da, günorta namazını isə saat 12-də qılsın!

Aydındır ki, şər`i vaxt dəyişdiyindən onu rəsmi vaxtla nizamlamaq olmaz. Çünki şər`i günorta vaxtı bə`zən saat 12-də, bə`zən isə neçə dəqiqə əvvəl və ya sonra olur. Əgər inzibat adı ilə namazlarımızı şər`i vaxtdan əvvəl və ya sonra qılmaq istəsək, bu özü də bir növ ibadət həddinin aşılması deməkdir.

Dini əməllərin şəriətin göstərdiyi kimi yerinə yetirilməsi zahirən fayda verməsə də, ən azı insanda ibadət ruhunun güclənməsinə səbəb olur. Bu dəlil kifayətdir ki, hər kəs şəriətin dediklərinə qarşı diqqətli olsun. İbadi işlərin ən böyük faydası budur. Əgər hansısa bir yerdə Allahın hökmü cəmiyyət və ya şəxs üçün zərərli olarsa, ibadətin faydası bu zərəri aradan qaldırır. Bu dinin, sünnə və ilahi hökmlərin qoruyucusudur. İbadətlərin yerinə yetirilməsinə diqqətli olan şəxs Allahın qanunlarının pozulmasına icazə verməz. Məsələn, sosializm iqtisadiyyatının cəmiyyət üçün daha çox faydalı olduğunu düşünərək İslam iqtisadiyyatında mənfəət görməsə belə, sosializm iqtisadiyyatının İslam iqtisadiyyatının yerini tutmasına razı olmaz. Mö`min və abid insan Allahın dediklərinə əməl edir.

İbadətlər və ilahi qanunların həddinin aşması ilə tədricən belə bir mövzu gerçəkləşəcək ki, İslamın ictimai hökmləri xüsusi bir zaman üçün idi, indi isə daha yaxşı hökmlərimiz var; xüms və zəkat təbəqələr arasındakı fasiləni azaltmaq üçün idi. İndi isə "ümumi bərabərlik" məsələsi gerçəkləşib və xüsusi mülkiyyət ləğv olunmuşdur. Buna görə də, xüms və zəkat yersizdir.

Belə sözləri danışanlar zahirən İslamın müxalifi deyillər. Lakin onlar düşünürlər ki, uyğun İslam hökmləri

14 əsr əvvəl üçün idi; amma indi bəşəriyyətin əqli inkişaf etmişdir, vəhy göstərişlərinə itaət etməyə ehtiyac yoxdur və insan özü üçün qanun yarada bilər!

Duanın mə`nasını anlamaq məqsədi ilə qeyri-ərəb dilindən istifadə ilə bağlı hazırkı şübhə vəhydən və səmavi qanunlardan imtina ilə nəticələnir. Bu səbəbdən də ilahi hökmlər və ibadətlər möhtərəm sayılmalıdır. Din Allah tərəfindəndir və heç bir bəndəyə ona müdaxilə icazəsi verilməmişdir: ***"Hökm ancaq Allahındır."***[1] ***"Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!"***[2]

"Səbt əshabı" dəryanın kənarında yaşayan Bəni-İsrail qövmlərindən biri idi. Onlar balıq ovu ilə güzəranlarını keçirirdilər. Allah tərəfindən göstəriş gəldi ki, şənbə günləri balıq ovlamasınlar və ibadətlə məşğul olsunlar. Allah onları yoxlamaq istədi; balıqlar şənbə günləri dəryanın kənarına gəlir, başqa günlər gözdən itirdi. Onlar daha çox gəlir əldə etmək və iqtisadi zərərlərinin qarşısını almaq üçün tədbir düşündülər: Dəryanın kənarında çalalar qazdılar. Şənbə günləri balıqların çalalara dolması üçün dərya ilə çalalar arasında yol açdılar; balıqlar çalaya dolduqdan sonra onun çıxış yolunu tuturdular. Sonrakı gün isə balıqları ovlayırdılar. Zahirdə bu işdə eyb görünmürdü və o şəriətlə müxalif deyildi. Onlara su çalalarını doldurub, balıqların yolunu kəsmək yox, balıqları ovlamaq qadağan olmuşdu. Şəriətə don geydirmək hiyləsi bə`zilərimizin dini hökmlərə münasibətdə güman etdiyi hiylələrdən daha qabarıqdır. Necə ki, bə`zilərimiz sələmlə bağlı hiylə qururuq. Olsun ki, biz də onların zümrəsindən olsaydıq, bu işi ümumi şəkildə təsdiq edərdik. Amma Allah həmin qövmü uyğun əməlinə görə məsx etdi.

---

[1] "Ən`am" surəsi, ayə 57.
[2] "Maidə" surəsi, ayə 44.

Bu mövzu nə əfsanə, nə də İncil və Tövratda təhrif olunmuş məsələlərdəndir. Qur`an özü bu hadisəni təsdiqləyir.[1]

Təqvalı şəxslər belə dastanlardan öyüd götürməli, Allahın dini və ilahi hökmlərlə oynamayaraq bunlara şər`i don geyindirməməlidirlər. Din Allahın buyurduqlarıdır. Onun hökmləri isə peyğəmbər və imamlar tərəfindən bəyan olunmuşdur.

Şər`i hökmlərdə hiylə işlətməyin sonunda bəlalar durur. Allahın dini ilə oyun oynamaq dinin məhv olmasına səbəb olur. Hər halda insan mə`nasını anlamasa belə namaz qılmalı, dua və Qur`an oxumalıdır. Namazı ərəbcə qılmaq vacib, dua və Qur`anı ərəbcə oxumaq isə müstəhəb sayılır. Yenə də tə`kid olunur ki, insanın mə`nasını anladığı dua ilə mə`nasını anlamadığı dua arasında böyük fərq var. Bununla belə, demək olmaz ki, mətnlərin mə`nasını anlamayan kəsin Qur`an və ya dua oxuması faydasızdır. Əgər bu işin ibadət ruhunun güclənməsindən savay heç bir faydası olmazsa da, o, sözlərin mə`nasını anlayıb, lakin bid`ət qoyan kəsin bütün əməllərindən üstündür. Kiçik bir ibadət özümüzdən qoşduğumuz yüz illərin ibadətindən üstündür. Bu bəndəlikdir, o isə özünəpərəstiş!

Nəql olunmuş dualar da belədir. Bu dualarda ibadət ruhunun gücləndirilməsi əsas götürülmüşdür. Baxmayaraq ki, başqa faydaların da olması mümkündür. Üzüqibləyə oturub dəstəmazlı halda “Kumeyl” duasını oxuyan savadsız bir şəxs haqqında onun Allaha heç bir diqqəti olmadığını demək olarmı? Məgər o Allahdan duanın üstün məzmunlarının gerçəkləşməsini istəmirmi? O, duanın

[1] “Ən`am” surəsi, ayə 159; “Bəqərə” surəsi, ayə 65, 66.

cümlələrinin ayrı-ayrılıqda mə`nasını bilməsə də, lakin Allahı düşünür və həzrət Əlinin (ə) öz duasında Allahdan istədiklərinin ona da mərhəmət olunmasını arzulayır. Deməs, ibadət ruhunun güclənməsindən əlavə, Allahın zikri və Ona diqqət də dua və Qur`an tilavəti üçün lazımlıdır, eyni zamanda çox dəyərlidir.

Əlbəttə, yenə də tə`kid olunur ki, təkcə oxumaqla kifayətlənməyək. Çalışmalıyıq ki, Allaha olan mə`rifətimiz artsın və Ona nə dediyimizi və ya Onun bizə nə dediyini anlayaq; lakin mə`nalarını anlamasaq da bunlardan əl çəkməməliyik.

Ramazan ayında mö`min şəxsin Qur`an oxuması dinin qorunma səbəbidir. Necə ki, indiyədək şəhidlər ağası və başqa imamlar üçün saxlanılan əzalar İslamın və şiəliyin möhkəmlənməsinə səbəb olmuşdur. Bə`zi hallarda bu mərasimlərdə ideallıq olmasa da, onlarda böyük bir ruh gizlənmişdir; Allaha təslimçilik, din və din övliyalarına hörmət və s. Əlbəttə, çalışmalıyıq ki, bunların forması da lazımi şəkil alsın. Mərasimlər üstün formada olmalı və ibadət ruhu da saxlanılmalıdır. Lakin lazım olan səviyyə alınanadək bu sünnələr qorunub saxlanılmalıdır.

Əlbəttə, ibadətləri dəyişmək olmaz; lakin əzadarlıq mərasimləri kimi nümayiş xarakterli işləri daha yaxşı şəkildə keçirmək olar. Bu növ işlərdə ən yaxşı forma xalqın pak fitrətindən qaynaqlanan forma sayılır. Yə`ni heç bir kənar tə`sirsiz xalqın dini hisslərinin tələbi!

Bizim əzadarlıqlarımızın qərb ölkələrində keçirilən mitinqlər kimi sakit keçməsi düzgün olmazdı. Çünki dini nümayişlər dini oyanışdan qaynaqlanmalıdır. Sakitlik dini oyanışla bir araya sığmır. Ümumi ən`ənələrə münasibət açıqlandı. Lakin şəriət alimləri tərəfindən forması müəyyənləşdirilmiş işlər iynə ucu qədər də dəyişə bilməz

və Allah buyurduğu kimi yerinə yetirilməlidir. Hətta daha yaxşı forma düşünsək belə!

Rəvayətdə göstərilir ki, imam Sadiq (ə) bir şəxsə dua öyrətdi, ona buyurdu: De "Ya muqəllibəl-qulubi səbbit qəlbi əla dinik". O dedi: "Ya muqəllibəl-qulubi vəl-əbsar səbbit qəlbi əla dinik". Həzrət ona buyurdu: Sənə öyrətdiyim kimi de. O şəxs buyurdu: Məgər Allah "muqəllibəl qulubi vəl-əbsar" deyilmi? Buyurdu: "Bəli, amma mən dediyim kimi de."[1]

Əgər insan imamın sözünü və şəriətdə göstərilmiş hansısa bir mövzunu dəyişirsə, demək özünü imam və müqəddəs şəriətdən daha ağıllı hesab edir. Bu ruhiyyə təkəbbür, qürurdan qaynaqlanır, ibadət və bəndəliklə uyğunlaşmır. İbadət üçün təvazökarlıq, kiçilmək və özünü unutmaq lazımdır. İmam Sadiq (ə) buyurur: "Şeytan Allaha ərz etdi: Pərvərdigara, and olsun sənin izzətinə, əgər məni Adəmə səcdə etməkdən azad etsən, bunun əvəzində sənə heç kəsin aləmdə etmədiyi bir ibadət edərəm". Allah buyurdu: "Əgər itaət etmək istəyirsənsə, mənim dediyim kimi et!"[2]

Allaha ürəyimiz istəyən kimi ibadət etmək əslində Allaha yox, öz qəlbimizə ibadətdir. Sözün qısası, şəriət göstərişlərinə olduğu kimi əməl etməliyik. İstər vacibat olsun, istərsə müstəhəbbat; ibadət əhli olaq və bu işlərə iynə ucu qədər təcavüz etməyək. İbadət hədlərinin pozulmasına icazə verməməliyik. İbadət hədlərinin aşılması dinin məhvi ilə bərabərdir.

Bu qayda bizim dini hökmlərin xeyirlərini əldə etmək üçün çalışmalarımızla zidd deyil. Din hökmlərinin bir çox

---

[1] Məhəmməd Baqir Məclisi, əvvəlki mənbə, 52-ci cild, səh.148, 73-cü rəvayət, 22-ci bab.

[2] Əvvəlki mənbə, 2-ci cild, səh. 262, 5-ci rəvayət, 32-ci bab.

faydaları rəvayətlər və hətta Qur`anda bəyan olunub. Bunlardan bə`ziləri isə təcrübə və elm ilə sübuta yetir. Bu da öz yerində məqsədə uyğundur. Dinin qəbulunu onun faydalarını tanımaqla şərtləndirmək düzgün deyil.

Eyni zamanda, unutmamalıyıq ki, dini hökmlərin bir faydasını peyğəmbər və imamların bəyanı, ya da təcrübə yolu ilə tanımaq o demək deyil ki, bu fayda elə buradaca tamamlanır. Mümkündür ki, bu işdə onlarla başqa faydalar da olsun, lakin biz onlardan xəbərsiz olaq.

Beləliklə, dua, namaz və Qur`anı şəriət buyurduğu kimi oxumalıyıq və eyni zamanda, onların mə`nasını anlamağa, bu işdə qəlbin iştirakına çalışmalıyıq. Nəzərdə saxlamalıyıq ki, ibadət ruhunun dəyəri öz düzəltdiyimiz ibadətlərdən qat-qat üstündür.

## İKİNCİ HİSSƏ

### *“İFTİTAH” DUASINDAN SEÇMƏLƏRİN ŞƏRHİ*

**(1)**

***Pərvərdigara, Sənə həmdlə sitayişə başlayıram. Bir halda ki, Sən öz ehsanınla başqalarını doğru yolda möhkəm saxlayırsan. Əminəm ki, bağışlama və mehribanlıqda Sən bütün mehribanlardan mehribansan. Cəzalandırma məqamında isə bütün cəzalandıranlardan sərtsən. Pərvərdigara, mənə Səni çağırmaq, Səndən istəmək icazəsi vermisən. Ey eşidən Allah, mənim həmd-sənamı qəbul et. Ey mehriban Allah, istəyimi yerinə yetir. Ey bağışlayan Allah, nöqsanımı bağışla.***

### *RAMAZANI QƏNİMƏT SAYAQ*

Həyat sür`ətlə keçməkdədir. İnsan isə sərmayəni əldən necə verdiyini düşünmür. Bə`zən öz keçmişini xatırlamağa müvəffəq olduqda görür ki, bir ömür yaşayıb, qüvvələr sərf edib, çalışıb, lakin əldə heç bir şey yoxdur.

İl boyu həmişə elə bir fürsət axtarırıq ki, həyatımız, onun müqəddiməsi və yaşanması barəsində düşünək, bizə əbədi həyat verən bir yol seçək. Lakin belə fürsətlər çox az ələ düşür. Bu məqsədlə istifadə ediləsi ən münasib vaxt bəlkə də mübarək ramazan ayıdır. Həmişə özümüzə söz veririk ki, ramazan ayı çatanda digər vaxtlardan daha çox ibadət edəcək, dünya və dünyapərəstliyə bir qədər göz yumacaq, Allaha üz tutub kimliyimizi, haradan gəlib hara getdiyimizi və bu evdə nə etməli olduğumuzu düşünəcəyik.

Axır intizar sona çatır. Ramazan ayı yetişir! Lakin şeytan çalışır ki, keçmişdəki kimi, insan bu şərafətli

vaxtlardan, dəyərli anlardan istifadə edib ilahi tövfiqatlara çata bilməsin. Onun gizli və aşkar əli hər yerdə işləyir ki, insan dünyəvi və nəfsani meyllərə aludə olsun, onun dua, münacat və ibadəti çətinləşsin, raz-niyaz halı ondan uzaqlaşsın. Şeytani və nəfsani amillərlə ilahi amillər arasında olan bu ziddiyyət və çarpışmada insan Allahdan tövfiq istəməli, qarşıya çıxmış fürsətləri qənimət saymalı, ibadət və duanı başqa vaxtlara saxlamamalıdır. İnsan çalışmalıdır ki, hər nə qədər mümkünsə, öz təkamül yolunda müsbət addım atsın və Allaha yaxınlaşsın. Mübarək ramazan ayında daha çox tə`kid olunmuş və bu ayın baharı sayılan əməllərdən biri də dua və münacatdır. Ramazan və dua bir-biri ilə qırılmaz əlaqədədir.

## *RAMAZAN AYINI NECƏ QƏNİMƏT SAYAQ?*

Bu bərəkətli aydan daha yaxşı istifadə etmək üçün əvvəlcə, duadan kömək almalıyıq, yə`ni Allahdan istəməliyik ki, bizə raz-niyaz tövfiqi əta etsin. Əlbəttə, biz də bacardığımız həddə çalışmalıyıq ki, ibadət halı və bunun üçün tövfiq əldə edək; çalışmalıyıq ki, bu ayda gündəlik işləri bir qədər azaldaq və vaxtımızın bir hissəsini dua və ibadətə sərf edək. Yemək və yatmağımıza fikir verməliyik; yemək və yuxu ağırlığa və süstlüyə səbəb olmamalıdır. Yemək rejimini elə nizamlamalıyıq ki, oruc tuta bilək və eyni zamanda ibadət və ramazan ayının vəzifələrini yerinə yetirməyə müvəffəq olaq. Ehtiyac olan yeməyi yemək çox yemək deyil; yuxunu da elə bir şəkildə nizamlamalıyıq ki, ibadət zamanı yaxşı halda olaq. Yoxsa, gündəlik işləri yerində saxlayıb, səhər ibadəti zamanı yaxşı halda olmaq intizarı əbəsdir.

## *DUA HƏQİQƏTİNƏ DİQQƏT*

Duanı oxumazdan əvvəl azca düşünməliyik ki, biz kimik, kimlə danışmaq istəyirik, “dua” yə`ni nə? Bu necə də dəyərli bir məqamdır ki, insan öz Allahı ilə raz-niyaz etməyə və danışmağa müvəffəq olur! Duanın məzmununa diqqət etməli, ən azı onu oxumazdan əvvəl tərcüməsinə baxıb düşünməliyik ki, oxuduqlarımız haqqında ümumi mə`lumatımız olsun; duanı sırf ərəbcə oxuyub tamamlasaq, nə dediyimizi, nə də oxuduğumuzu anlayarıq. Əhli-beytdən (ə) nəql olunmuş dualarda uca və böyük məzmunlar gizlənmişdir. Əgər dua və münacat halı yaranmasa, yenə də bu duaların oxunması dəyərlidir. Beləliklə, yerinə düşər ki, ərəb dili ilə tanışlığı olmayan kəslər duanı oxumazdan əvvəl, (xüsusi ilə bu ay üçün olan duaları) onun dilimizə tərcüməsini oxusunlar və mətnlə tanış olsunlar. Duanı oxumaqdan əlavə onun məzmunu barədə düşünmək ondan daha yaxşı istifadə etməyə səbəb olur. Müxtəlif şəxslər duadan bizim dərk etməyəcəyimiz fərqli dərəcələrdə bəhrələnirlər. Hərflərin səhih tələffüzü və yalnız bu sözlərin oxunmasından ibarət dua, məzmununa diqqət olunan və hal ilə oxunan duadan çox fərqlidir. Bu fərq izah olunmaz dərəcədədir. Bir çox hallarda iki nəfər dua edir və bu şəxslər dəstəmaz almaq, üzü qibləyə durmaq, ədəbli olmaq və bu kimi zahiri dua qaydalarına riayət edirlər. Lakin bu iki şəxsin duadan götürdüyü bəhrə o qədər fərqli ola bilər ki, biz bu fərqi təsəvvür edə bilmərik. Demək, duadan istifadə insanın halından, onun qəlbinin mütəal Allaha, Onun sifətlərinə, xüsusilə duada işlənmiş sifətlərinə diqqətindən asılıdır.

## *RAMAZAN VƏ "İFTİTAH"*

Bu ay üçün bir çox dualar göstərilmişdir. Təkcə "Məfatihul-cinan" kitabında (mə`sumlardan nəql olunmuş dualar çələngi) bir çox dualar gətirilmişdir. Bəlkə də, ömrümüz boyu onları bir dəfə oxumağa müvəffəq ola bilmədik. Amma Seyyid ibn Tavusun "İqbal" kitabı kimi başqa daha böyük dua kitabları var. Məsələn, ramazan ayının zöhr və əsr nafilələrinin arasında oxumaq üçün geniş dualar vardır. Çox az vaxtlar bu nafilələrin özünü qılmağa müvəffəq oluruq. Çox təsadüfən onların duasını oxuyuruq. Bə`zən duanı oxumağa müvəffəq olsaq da, dua zamanı lazım olan ruhiyyəni əldə edə bilmirik.

Bu ayın gecələrində oxumaq üçün mahiyyətli və münasib dualardan biri də "İftitah" duasıdır.

Əllamə Məclisi "Zadul-Məad" kitabında yazır: Həzrət Sahibul-Əmr (ə) mö`təbər sənədə əsasən öz şiələrinə buyurmuşdur: Ramazan ayının hər gecəsində bu duanı ("İftitah" duasını) oxuyun. Bu ayın duasını mələkələr eşidir və dua edən şəxs üçün tövbə qılırlar. Mərhum Hacı Şeyx Abbas Qummi də "Hədiyyətuz-zairin" kitabında bu mövzunu təsdiqləmişdir.

Seyyid ibn Tavus "İqbal" kitabında ramazan ayının dualarının sənədini araşdırarkən bir sıra rəvayətçilər silsiləsini qeyd etdikdən sonra tanınmış hədisçi Nəsr Əl-Səkunidən bu duanın sənədini nəql edib deyir: Əbu-Bəkr Əhməd ibn Məhəmməd ibn Osman Bağdadi mərhumdan ramazan ayına aid elə bir dua istədim ki, İmam Zamanın dörd naibindən biri olmuş Əbu-Cəfər Məhəmməd ibn Osman tərəfindən nəql edilsin. Qırmızı cildli bir dəftər çıxardı. Mən o dəftərdən bir nüsxə götürdüm. Bu "İftitah" duası idi. Tövsiyə olunurdu ki, bu dua hər ramazan gecəsi

oxunsun. Sonra əlavə olunurdu ki, bu duanı mələklər dinləyir və dua edən üçün bağışlanma diləyirlər.

"İftitah" duası üstün və uca məzmuna malikdir. Bu duanın mövzuları dua edənə dua zamanı hansı qaydalara riayət etməli və hansı məsələlərə diqqət yetirməli olduğunu öyrədir.

## *ALLAHA SİTAYİŞ BAŞLANĞIC NÖQTƏDİR.*

Bu şərafətli dua Allaha həmd-səna ilə başlayır: "Allahım, sənə həmd ilə sitayişə başlayıram".

Bu səs-küylü dünyada Allahı düşünmək yolunda bir çox maniələr vardır. İnsanın yeganə səadət yolu Allaha bəndəlik və ona itaətdir. Başqa işlər bu həqiqətin müqəddiməsi hökmündədir. Lakin çox təəssüf olunur ki, xalqın əksəriyyəti bu həqiqətdən xəbərsizdir; hər şeyi düşünürlər, insanın həqiqi səadətini və təkamülünü tə`min edən Allahı isə yox!

Ramazan çatdıqda Allahı düşünməyin maneələri azalır, dua və ibadət üçün münasib şərait yaranır. Bu dua və ibadət baharında aşiqlər öz Mə`budunu yada salıb zümzümə edirlər. Bütün varlıqları ilə Onu çağırır və Onu istəyirlər. Bəs Allahın dua və ibadət şəraiti yaratdığı bu baharda biz necə dua edək? Dua üçün ən yaxşı başlanğıc Allaha sitayiş və Ona həmd-səna deməkdir: "Ey hər şey Səndən olan Allah; hər kimin hər nəyi varsa, Sən ona vermisən. Hər kim hər kamala çatmışsa, Sənin istəyinlə çatmışdır. Dua oxumaq üçün tövfiqi də Sən əta etməlisən. İlahi mənim əlimi tut və mənə dua üçün tövfiq mərhəmət et. Dünyada nə çox bəndələr var ki, Səni unutmuşlar! İlahi, əgər bizim əlimizi tutmasaydın, biz də qafillər zümrəsindən olardıq. Hər nə varsa Sənin tövfiqinin

nəticəsidir; xeyir Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən.”[1]

Deməк, duanı əvvəlcə Allaha sitayiş və həmd ilə başlamalıyıq. Bizə Allaha diqqət tövfiqi əta edən Odur.

## *DÜZGÜN YOL SEÇİMİ VƏ İLAHİ KÖMƏK*

“Sən öz yaxşılığınla düzgün yola hidayət edib, möhkəmləndirirsən”. Əgər bir şəxs haqq və savab yolunu adlamaq üçün tövfiq taparsa, bu əslində Allahın ona bir minnəti və bu yoldaköməklikdir. Duanın bu cümləsi bildirir ki, insan pis və yaxşı yolu seçmək üçün azad yaradılsa da, əgər düzgün yolu seçirsə, bu, Allahın köməkliyi ilədir. Qüdsi hədisdə buyurulur: “Hər kəs Mənə bir addım yaxınlaşarsa, Mən ona iki addım yaxınlaşaram.”[2]

Bu Allah tərəfindən olan ikiqat lütfdür; hər kəs Onun yolunu seçərsə, Allah ona kömək edər.

## *ALLAHIN HİKMƏTLİ QƏZƏB VƏ RƏHMƏTİ*

Belə bir sual yarana bilər ki, Allah bütün yaxşılıq və kamilliklərin mənbəyidirsə, yaxşılıq və xeyirdən başqa bir iş görmürsə, onda nə üçün bə`zi bəndələr bəla və müsibətlərə, hətta axirət əzabına düçar olur?

Həqiqət budur ki, biz Allahın işlərini naqis ağıl və zehnimizin quraşdırdığı müqayisə və me`yarlarla ölçürük; sonra da Allahın fikirləşdiyimiz şəkildə bizimlə rəftar

[1] “Ali-İmran” surəsi, ayə 26.

[2] Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar”, 87-ci cild, səh.190, 5-ci rəvayət.

edəcəyini gözləyirik. Hansı ki, bizim elm və düşüncəmiz çox məhdud və naqisdir: ***“Sizə cüz`i bir elm verilmişdir”.***[1]

Allahın bütün işləri hikmət əsasında və ən yaxşı nizamla möhkəmlənmişdir. Biz isə Onun prinsipial səbəb və məqsədlərindən xəbərsizik. Allah bəndələrinə mehribanlıq göstərməli olduğu məqamlarda təsəvvür olunmaz dərəcədə mehriban olur; lakin bə`zən mehribanlıq və rəhmət üçün yer qalmır. Bu halda Allahın əzəmət və böyüklüyü cilvələnir. Belə məqamlarda cəzalanma və əzab labüddür. Beləcə, əzaba layiq olan kəslər üçün Allahın əzəməti kamilliyə çatır. Buna görə də duanın davamında deyilir: “İlahi, beləcə inancdayam ki, əfv və rəhmət üçün yer olduqda Sən hamıdan mehribansan; əzab və cəza zamanı isə Sən bütün cəzalandıranlardan sərt cəza verənsən; böyüklük və əzəmət göstərilən yerdə hamıdan əzəmətlisən”.

## *QORXU VƏ ÜMİD ZƏRURƏTİ*

İnsanın Allah və Onun əzəməti qarşısında zəlil bir bəndə olması və öz miskinliyini anlaması onun səadətinə səbəb olur. Bütün yaxşılıqlar Allaha bağlıdır. Bütün çətinliklər və bədbəxtliklər isə insanın öz pis və seçiminin nəticəsidir. İnsan bilməlidir ki, əgər özbaşınalıq edib səhv yol seçərsə, əməldə Allahla döyüşə qalxmışdır və Allah onu cəzalandıracaqdır. İnsan həmişə ümid və qorxu arasında olmalıdır. Elə düşünməlidir ki, çox ibadət etməsinə baxmayraq bir səhv nəticəsində Allahın ən böyük əzabına düçar olub, pis aqibətlə dünyadan gedə bilər. Eyni zamanda, çox günahkar və alçaq olduğu halda Allah onu bu vəziyyətdən çıxarıb yaxşı aqibətlə mükafatlandıra bilər.

---

[1] “İsra” surəsi, ayə 85.

İlahi cəzadan arxayınlıq hissi böyük günahlardandır. İnsan bütün ömrünü ibadətə sərf etsə belə sevinib və qürrələnmədən işin sonunu gözləməlidir. Allah qarşısında məğrurluq və özünə güvənmək çox böyük günahdır. İnsan həmişə qorxmalıdır ki, əgər Allah onu bir an özbaşına buraxsa, ən aşağı dərəcələrə enəcək.

Buna görə də peyğəmbərlər və övliyalar kimi Allaha daha yaxın olan şəxslər daha çox qorxmuşlar; onlar Allahın əzəmətini başqalarından daha çox düşünür və dərk edirlər. Allahın onlara verdiyi məqama baxmayaraq, Onun qarşısında bir an belə məğrur olmaqdan qorxurlar.

Digər bir tərəfdən, Allah Onun rəhmətindən naümid olmağı böyük günah sayır. İnsan nə qədər günahkar olsa da, Allahın rəhmətindən mə`yus olmamalıdır. Allahın rəhməti o qədər genişdir ki, insan həqiqi tövbə edib Ona tərəf qayıdarsa, Allah onu bağışlayar. Bəndə özünü Allah qarşısında kiçiltdikdə, ümid və qorxusunu kamala çatdırdıqda təkamül yolunda addım atmış olur: "Qəlbində iki nur olmayan heç bir bəndə yoxdur: qorxu və ümid nuru; əgər bu iki nur ölçülsə, biri birindən ağır gəlməz."[1]

## *İBADƏT TÖVFİQİ, ALLAHIN BƏNDƏYƏ MİNNƏTİ*

İmam Allahın sifətlərin və Ona sitayişi yada saldıqdan sonra, insana əta olunmuş tövfiqlər haqqında bildirir: ***"Allahım, Səninlə söhbət etməyimə və Səndən istəməyimə icazə verdin".***

Duanın bu cümləsində çox incə və adətən, xəbərsiz qaldığımız bir nöqtə var. Biz təsəvvür edirik ki, dua etməklə böyük bir iş görmüşük və Allaha minnət qoya

---

[1] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 70-ci cild, səh. 352, 1-ci rəvayət.

bilərik. Lakin bu cümlədə imam (ə) belə buyurur: “İlahi, evinə gəlib, dua və istəklərimi təkrarlamağıma icazə verməyinlə Mənə necə də böyük minnət qoymusan”. Ömür boyu günah yükümüz olduğu halda Allahın Onunla söhbətə icazə verməsinin necə böyük lütf olduğunu bəlkə də düşünmürük. İmam Səccad (ə) Allaha ərz edir: “İlahi, Sənin zikrinin dilimizə gəlməsi, Səni çağırmağa və Səninlə raz-niyaz etməyə icazə verməyin bizə olan ən böyük ne`mətlərdəndir.”[1]

Bu incə nöqtənin aydınlaşması və zehnə çatması üçün (e`tiraf etmək lazımdır ki, mövzunu lazımınca çatdırmaq mümkün olmur) elə bir şəxs təsəvvür edin ki, uzun illər boyu dostuna məhəbbətini əsirgəməmiş və imkan daxilində ona kömək etmişdir; lakin dostu nəinki onun zəhmət və xidmətlərini dəyərləndirmir, hətta onunla düşmənlik etmək fikrinə düşür. Belə rəftara bir neçə dəfə dözmək mümkündür. Lakin sonda insanın səbri sona yetər və dostundan uzaqlaşar.

Bir belə hörmət qarşısında bu qədər cəsarət və ədəbsizlik?! Lakin Allahın öz bəndəsinə bu qədər ne`mət verməsinə baxmayaraq (əgər cin və insanlar yığışsa və istəsələr Allahın bir bəndəsinə verdiyi ne`məti saysınlar, bacarmazlar) bəndə onunla müxaliflik edir, Allah isə nəinki onu özündən kənarlaşdırmır, hətta ona ibadət üçün tövfiq verir.

[1] “Məfatihul-cinan”, “münacati-xəmsə əşərə”, 13-cü münacat.

## *BƏNDƏNİN GÜNAHI VƏ İLAHİ FEYZİN DAVAMI*

İmam Allah qarşısında hüzur icazəsini ilahi lütf saydıqdan sonra bağışlanma diləyir, ilahi sifətlərin zikrinə və öz istəklərinin bəyanına başlayır:

***“Ey eşidən Allah, mənim təşəkkürümü qəbul et; ey mehriban Allah, istəyimi qəbul et; ey bağışlayan Allah, günahımdan keç”.***

İnsanın gözü, qulağı, qəlbi və bütün digər zahiri əzaları Allaha qarşı günah edir, Allahın ona verdiyi ne`mətlərə baxmayaraq günah edib Onunla döyüşə gedir. İndi isə belə bir bəndə Allah ilə ünsiyyət yaradıb, arzularını bildirmək istəyir. Eyni zamanda o bu işdə ümidvardır! İnsanın Allahdan belə bir istəkdə olması onun rəftar və günahları ilə uyğun deyildir. Allahın belə bir bəndəni qovub, günahları xatirinə onu unutmaması mümkün bir işdir. Lakin Allah bəndəsini nəinki dərgahından qovub rədd etmir, hətta onu öz yanına də`vət edir. Qüdsi hədisdə deyilir: “Əgər Mənim günahkar bəndələrim onların tövbə və qayıdışına nə qədər müştaq olduğumu bilsələr, maraqdan ölərlər”.

Bəli, əgər insan diqqət etsə, görəcək ki, Allahın günahkar bəndəyə dua icazəsi verməsi və onun istəklərini qəbul etməsi ən böyük lütfdür.

**(2)**

***"Ey Allahım, nə qədər qəmləri dağıtdın, nə qədər hüznləri məhv etdin, nə qədər günahları bağışladın, nə qədər rəhmətlər göstərdin və bəla zəncirlərini qırdın".***

## *DUANIN HƏQİQƏTİ, ALLAHI QƏLBƏN DÜŞÜNMƏK*

Dua yalnız bə`zi sözlərin tələffüz edilməsi və bə`zi qaydalara riayət olunması deyil. Duanın ruhu və həqiqəti insanın Allahı qəlbən düşünməsindədir. Bu düşüncə və diqqətin gücü və əhatəsi insanın Allaha olan mə`rifət və məhəbbətinin qədərindən asılıdır. Duadan əvvəl və dua zamanı insan Allahın sifətlərini, xüsusi ilə dua mətnində işarə olunan sifətlərini, insana əta etdiyi lütf və ne`mətlərini nəzərdə saxlamalıdır. Bununla da insan Allah ilə öz əlaqəsini daha yaxşı dərk edib və daha güclü qəlb iştirakına nail ola bilər.

## *İLAHİ NE`MƏTLƏRİN YADA SALINMASI*

İmam şərafətli "İftitah" duasında Allahın bizə Onunla söhbət icazəsi verib, bizə minnət qoyması kimi xırda nöqtələri qeyd etdikdən sonra Allahın növbənöv ne`mətlərini yada salmağa başlayır; elə ne`mətlər ki, insan adətən onlardan xəbərsiz olur.

Bir qism ne`mətlər barəsində azca düşünməklə onların əhəmiyyətini dərk etmək olar. Hər nə qədər mə`lumatımız və biliyimiz çox olarsa, bu ne`mətlərin öz həyatımızda tə`sirini və dəyərini daha çox anlayarıq. Lakin başqa bir qisim ne`mətlər haqqında çox dərin düşünülməlidir.

İnsanın, adətən, xəbərsiz qaldığı ne`mətlərdən biri də bəla və müsibətlərin uzaqlaşmasıdır. Mümkündür ki, insan bəlaya düçar olduqdan sonra Allah ona nicat versin və ya bəlaya düçar olmamışdan əvvəl bəlanı dəf etsin. Deyilir: ***"Allahım, nə çox hüznləri aradan götürdün və nə çox qəmləri məhv etdin. Nə çox günahları bağışladın, nə çox rəhmətlər göstərdin və bəla zəncirlərini qırdın".***

İnsan çətinliklərə düçar olub sıxıntıya düşməyincə Allahın ona verdiyi ne`mətlərin dəyərini dərk etmir. Hamımız həyatda az-çox müsibət və çətinliyə düçar olmuş, bir müddət sonra qurtulmuşuq; lakin bu məsələlərin yanından çox sadəcə ötüb keçmiş, onlar haqqında dərindən düşünməmişik. Bu növ hadisələr barəsində düşünmək insanı ayıldır və onun Allah ilə əlaqəsini möhkəmləndirir.

Fərz edin çətin bir vəziyyətdə (məsələn, həkim və dərman üçün pul lazımdır, lakin əl boşdur) insan özü və ya onun ailə üzvlərindən biri ağır xəstəliyə düçar olur. Elə bir xəstəlik ki, dərhal addım atılmasa, ciddi çətinlik yaranacaq. Bu vəziyyətdə insan hər vasitəyə əl atır, lakin nicat yolu tapmır. Beləliklə, çətinlik yaxşıca dərk olunur. Heç bir şeyə əli çatmayan, bütün yolların bağlandığı və tamamilə ümid üzülən zaman qəfildən çətinlik həll olur və insan nicat tapır. Bu cür hadisələr az-çox hamının həyatında baş verir. Lakin adətən bu hadisələri Allahın iradəsi yox, təsadüf hesab edirik. Çətinliyimiz aradan qalxan zaman Allahın lütfünə çatdığımızı düşünmürük. Əgər bu nicatı Allaha aid etsək də, yalnız dildə etmiş oluruq. Qəlbdə isə inanmırıq ki, əslində çətinliyimizi aradan götürən Allahın lütfü olmuşdur.

Yaranış nizamında baş verən müsbət və mənfi hər iş Allahın iradəsi ilə baş verir və Onun iradəsi olmadan heç nə dəyişmir. İnsana bir ne`mət çatırsa, ondan hansısa bir

bəla uzaqlaşırsa, bunlar Allahın istəyi və əmri ilə olur. Allah işlər üçün şərait və vasitələr yaradır. İstər biz onları tanıyaq, istərsə də tanımayaq, istər adi vasitələr olsun, istərsə də olmasın! Lakin çətinliklərimizin qeyri-adi vasitələrlə həll olması diqqətimizi cəlb edir və bizə daha çox tə`sir göstərir. Biz isə bunun adını "təsadüf" qoyuruq.

Allahdır həmişə insana ruzi verən! Bə`zən ticarət yolu kimi adi yollarla, bə`zən isə səma ne`mətləri kimi qeyri-adi vasitələrlə! Bütün hallarda ruzi Ondandır, ruzi verən Odur. Çətinliklərin götürülməsi də Onun əlindədir. Xəstəlik Ondandır; şəfa da Onun istəyi ilədir; istər həkim və dərman vasitəsi ilə olsun, istərsə də başqa vasitələrlə! Qur`ani-məcid həzrət İbrahimdən belə nəql edir: ***"Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O şəfa verir. Məni öldürəcək, sonra dirildəcək Odur."***[1]

Əgər insan baş vermiş və bir müddət sonra aradan götürülmüş çətinliklər barədə azacıq düşünsə, Allahın ona qarşı nə dərəcədə mehriban olduğunu anlayar. Allah bə`zən hadisələr insana çatmamış onu uzaqlaşdırır. Beləliklə, başqalarına üz vermiş, lakin bizdən uzaq olan hadisələr barədə düşünmək zəruridir. Əgər sübh evdən çıxıb, axşam salamat qayıdırıqsa, bu, Allahın istəyi ilədir. O, bizdən yüzlərlə bəla və çətinliyi uzaqlaşdırmışdır. O bizə göz verib və minlərlə bəlanı bu gözdən uzaqlaşdırıb ki, kor olmayaq. Bizə bədən verib və yüzlərlə bəlanı ondan uzaqlaşdırıb ki, sağlam qalaq.

Hər şeydən üstün Allahın mə`nəvi ne`mətləridir; bizə iman və ağıl ne`məti vermiş, eyni zamanda bunları bizim

---

[1] "Şuəra" surəsi, ayə 78-81.

üçün qoruyub saxlamışdır. Çoxları sübh evdən imanla çıxmış, lakin axşam bərbad imanla evə qayıtmışlar; bu ilin ramazanını oruc tutmuş, gələn il oruc tutmağa nail olmamışlar. Çoxları əvvəl düz yolda olmuş, sonradan azmış və səhv məktəblər və məsləklərin tələsinə düşmüşdür. Məgər ağıl və düşüncəsini itirmiş kəslər tanımırsınız?

### *NE`MƏTLƏRİN DAVAMLILIĞI ALLAHIN ƏLİNDƏDİR.*

Hidayət ne`məti olan ilahi mə`rifət də, mə`sum imamlar da Allah tərəfindəndir. Onların qorunub saxlanması da Allahın əlindədir. Bu ne`mətlərin davamlı olması üçün Allah daim kömək etməlidir. Hər gün namazlarımızda təkrarladığımız "bizi düzgün yola hidayət et" istəyi hidayət ne`mətinin davamlılığıdır. Düzgün yolu tanıyıb addım atdıqda Allahın istəyi olmasa davamlılıq üçün heç bir zəmanət yoxdur. Buna görə də yalnız düzgün yolu tanımaq kifayət etmir. Bu tanıma davamlı olmalıdır; əgər Allahın köməkliyi olmasa bu tanışlıq aradan götürülər. Deməк, həmişə Allahdan istəməliyik ki, bizi düzgün yola hidayət etsin və daim bu yolda saxlasın.

Bir çox şəxslər düz yol seçmiş, lakin günaha düçar olmuşlar. Əvvəlcə bir günah, sonra iki, üç və tədricən günaha adət etmiş, düz yoldan azmışlar. İnsanı qoruyub günahdan uzaqlaşdıran yalnız Odur. Hətta bə`zən insan günah iş görməyə çalışır və günah üçün müqəddimələr də hazırlanır. Lakin Allah öz bəndəsinə məhəbbət və lütf göstərib onun günaha düşməsinə mane olur. Bütün bu hallar Allahın lütfü və Onun ne`mətlərindən sayılır. Əgər insan bu ne`mətlərin qədrini bilərsə, Allah onları davamlı edər. Əks-təqdirdə insan özbaşına buraxılır.

Beləliklə, əgər günah zəmini yarandıqda günah etməsək, Allaha minnət qoymamalı, əksinə, bizi günahdan çəkindirdiyi üçün Ona şükür edib minnətini qəbul etməliyik.

Buna görə də dua zamanı kimin qarşısında dayandığımızı düşünməliyik. Elə bir kəs ki, hər bir an bizi Öz ne`mətləri ilə qərq etmişdir, maddi və mə`nəvi ne`mətlərlə! Ne`mətlərdən düzgün yolda istifadə etməyimiz üçün bizə minlərlə tövfiq verilmişdir. Əgər bacarmasaq, ən azı günah etməyək. Lakin insan naşükürdür və bu qədər ne`məti görməməzliyə vurur. Əgər çətinlik zamanı dostlardan biri bizə kömək edərsə, nə qədər ki yaşayırıq, onu unutmayacaq və ona təşəkkür edəcəyik. Əslində isə bu çətinliyin aradan götürülməsi Allahın tədbiridir və o dost yalnız iş üçün vasitə sayıla bilər; lakin Allahın verdiyi saysız ne`mətləri unudub, hətta dil ilə ona təşəkkür etmirik.

## *İLAHİ NE`MƏTLƏR HAQQINDA TƏFƏKKÜR ZƏRURƏTİ*

Məgər, Allahın insana əta etdiyi saysız ne`mətlərə görə hər birimiz bir neçə dəqiqə onun ne`mətləri barəsində düşünsək yaxşı olmazmı? Bizim bir bu qədər ne`mət üçün Allaha veriləsi bir şeyimiz yoxdur; ən azı onları tanıyıb, bu şeylərin bizə Allah tərəfindən verildiyini e`tiraf etməliyik. Beləliklə, duanın bu hissəsində bə`zi ne`mətlərin zikrinə başlayırıq: ***"Nə çox çətinlikləri Sən uzaqlaşdırdın. Nə çox sıxıntılardan mənə nicat verdin. Nə çox qüssə və qəmləri uzaqlaşdırdın. Çox günahlarımı bağışladın, mənə çox rəhmət göstərdin. Məni əhatəyə almış çətinliklər və bəlaları götürüb, mənə nicat verdin".***

İnsan bu tədbirlər haqqında müəyyən qədər düşündükdə, qarşısına çıxan çətinliklər və müsibətləri, Allahın ona nicat verməsini götür-qoy etdikdə uyğun tə`birləri anlamaq üçün daha münasib hal əldə edir.

İnsan bütün ne`mətlərin Allah tərəfindən olduğunu düşünsə, qəlbi Ona doğru genişlənər və Onunla ünsiyyət saxlamağa meylli olar. Lakin ne`mətləri Allahdan bilməyən, bu barədə düşünməyən və hətta Allahı xoşbəxtlik və ləzzətlərin maneəsi və onu cəhənnəmə göndərən bir mövcud sayan insan Allahla necə söhbət edə bilər? Qəlbində ilahi məhəbbət yaransın deyə, Allahın ona necə ne`mətlər əta etdiyini düşünməyən insan Onunla necə ünsiyyət saxlaya bilər?!

## *A-CƏZADAN QORXU ALLAHIN NE`MƏTİDİR.*

Allahdan qorxu da ilahi ne`mətlərdəndir; lakin bizim cahilliyimiz bu ne`mətin dərk olunmasına mane olur. Allah bizi qorxudub, bizə xətərləri göstərdikdə, əslində pis əməllərimizin nəticəsini göstərmiş olur. Bu tə`sirlər hamıdan öncə özümüzə ünvanlanasıdır. Bizim pis əməllərimizin nəticəsi olan xoşagəlməz hadisələr və cəzalar pis əməllərdən çəkinməyimiz üçün bir xatırlatmadır. Öz kiçik yaşlı uşağını oddan çəkindirən ana bu xatırlatmanı övladının narahatlığı üçün etmir. Əksinə, arzuolunmaz hadisənin baş verməməsi üçün bu işi görür. Beləliklə, uyğun məqamlarda qulaq burması vermək bir növ lütf sayılır.

## *B-ÇƏTİNLİKLƏR ALLAHIN NE`MƏTİ*

Vaciblər və haramların bəyan olması insanın xeyirə yaxınlaşması və zərərdən uzaqlaşmasından başqa məqsəd

daşımır. Beləliklə, Allahın çətinlikləri də Onun lütfündəndir; məsələn, susuzluq və aclıqla keçən, bizim üçün çətin bir iş sayılan oruc Allahın ən böyük lütflərindəndir; orucun bir çox faydaları var və bizim əbədi səadətimizə tə`sirlidir. Əgər Allah bu işin yalnız faydalarını deməklə kifayətlənsəydi, bizim bu işi görüb-görməyəcəyimiz mə`lum deyildi. Buna görə də Allah bizə minnət qoyub orucu bizə vacib etdi ki, süstlüklə də olsa, onun nəticələrini əldə edib, mə`nəvi feyzlər və ilahi rəhmətlər üçün daha çox tutum sahibi olub, səadətə çataq. Başqa vacibat və haramlar da bu qaydadadır.

Beləliklə, Allah tərəfindən müəyyənləşdirilmiş bütün çətinliklər Onun ne`mət və lütflərindən sayılır. Çətinlikləri adlayır, nəticə və faydalar əldə edə bilərik; özümüzdə Allahın rəhmətini qəbul etmək üçün daha çox iste`dad və tutum yaratmalıyıq ki, bir çox feyzləri əldə edə bilək. Əgər ilahi çətinliklər vacib olmasaydı, bu işləri görməyə çalışmaz və bu rəhmətləri əldə etmək üçün iste`dad tapmazdıq.

***“Hacətlərimi gec verdiyin üçün nadanlıq üzündən Sənə layiq olmayanı dedim. Həqiqətdə isə hacətlərimin tə`xirlə qəbul olması mənim üçün daha yaxşı idi; çünki Sən işlərin sonundan xəbərdarsan. Mən öz alçaq bəndəsinə Səndən çox səbr edən heç bir kəramətli Ağa görmədim”.***

## *DUANIN QƏBULUNDA TƏ`XİRİN HİKMƏTİ*

Həyatda çatışmazlıqların olması insanın Allahına qarşı pis zənnə düşməsinə səbəb olmamalıdır. Çünki O bəndəsinin xeyrinin nədə olduğunu daha yaxşı bilir. İnsan istəklərinin çox tez həyata keçməsi və dualarının çox tez qəbul olmasını gözləməməlidir. Bir çox hallarda insanın

xeyiri və məsləhəti istəklərinin bir az da gec qəbulunda ola bilər. Hətta bə`zi vaxtlar insanın məsləhəti duasının bu dünyada qəbul olmayıb, axirəti üçün azuqəyə çevrilməsində ola bilər. Demək, bizim Allaha qarşı pis zənnə düşməyimizə heç bir şey səbəb ola bilməz.

***“Bir çox hallarda duamın qəbul olmasının tə`xirə düşməsi mənim üçün daha yaxşı oldu. Çünki Sən işlərin sonundan xəbərdarsan”.***

Bəlkə də, istəklərimin qəbulunu tə`xirə salmağın mənim məsləhətimə və mənim üçün daha yaxşı olsun. Çünki yalnız Sən işlərin sonundan, xeyir və zərərindən xəbərdarsan. Mən öz cahillik və nadanlığım üzündən tələsirəm.

Təəssüf ki, Allahın hikmətini düşünmür, Onun sifətlərinə lazımınca inanmırıq. Allahın Rəuf və Rəhim olmasına inanmırıq. Elə təsəvvür edirik ki, Allah qıymamazlıqdan (nəuzubillah) bizim istəklərimizi qəbul etmir. Lakin yuxarıda bildirildi ki, hər kəs Allahın evinə gedib, Ondan ehtiyacını tələb edərsə, Allah bu bəndənin dili və sözünü nəzərə almadan öz lütfü ilə onun həqiqi məsləhətini nəzərdə tutar. Allahın insanın xeyir və səadətinə əsasən onun istəklərini qəbul etməsi böyük bir lütfdür. Bütün hallarda insanın səadət və kamilliyi dua və Allahı düşünməkdədir. Allah da öz hikmətinə əsasən əməl edir.

**(3)**

***"Ey Rəbbim, Sən məni də`vət edirsən, lakin mən Səndən üz çevirirəm. Sən həmişə mənim məhəbbətimi soraqlayırsan; amma mən Səninlə düşməncəsinə rəftar edirəm. Sən mehribanlıq göstərirsən, lakin mən qəbul etmirəm. Guya Sənə minnətim var. Lakin heç bir alçaqlıq və e`tinasızlığım məni sonsuz rəhmət, ehsan və kəramindən məhrum etməyinə səbəb olmadı. Beləcə, bu nadan bəndənə rəhm göstər, fəzl və ehsanatla ona kərəm et. Sən çox əta edən və kəramətlisən".***

## *İNSANIN ALLAHA QARŞI TƏKƏBBÜR VƏ DİQQƏTSİZLİYİ*

Bu cümlələrdə insanın Allah qarşısında mövqeyinə nəzər yetirilir ki, insan Allah yanında öz yerini tanısın; Allahın ona qarşı lütfünü və onun Allaha qarşı alçaqlıq və naşükürlüyünü görsün. Beləliklə bildirir: "Pərvərdigara, Sən məni də`vət edirsən, lakin mən Səndən üz çevirirəm!"

Allah bizə Onu çağırmaq və Onunla söhbətə icazə verməklə  böyüklük və ən üstün lütf göstərmişdir. Əgər Onun icazəsi olmasaydı, bizim Onunla söhbət etməyə ləyaqətimiz çatmazdı. O hətta bütün günahlarımıza baxmayaraq bizi də`vət edir və öz də`vəti ilə Onun tərəfinə getməyimizə israr göstərir. Bəs biz, ilahinin bu böyük lütfünün qarşısında nə edirik? Onun də`vətini qəbul etmək əvəzinə üz çevririk!

"Sən həmişə mənə məhəbbət göstərirsən, lakin mən Səninlə düşməncəsinə rəftar edirəm".

Biz Ona ehtiyaclıyıq. Onun dərgahında üzümüzü torpağa sürtməliyik ki, bizə diqqət yetirsin; lakin əksinə, O

bizə məhəbbət göstərir və dostluq edir, biz isə Ona qarşı çıxırıq.

"Sən dostluq bildirirsən, lakin mən qəbul etmirəm". İndiyədək bir şəxsə dostluq, məhəbbət və səmimiyyət göstərdiyiniz halda sizə e`tinasızlıq edibmi? Bu iş bizim üçün çox ağırdır! Məgər bu şəxsin e`tinasızlıq və biganəliyi qarşısında göstərdiyiniz məhəbbətdən mə`yus olmayacaqsınızmı? Bəlkə də, insanın başqa birisinə əlaqəsi müəyyən dünyəvi istəklərə görə olsun; bəs Həzrət Haqqın bəndələrinə qarşı məhəbbətində bu sayaq məqsədlər gözlənilirmi? Biz Allahın göstərdiyi məhəbbətlər haqqında səhv təsəvvürdəyik. Necə ki, oxuyuruq: "Guya mənim yanımda minnətlisən".

Bizə diqqət yetirməsinə ehtiyac hiss edib, bu ehtiyacı e`tiraf etmək əvəzinə, Ona qarşı e`tinasızlıq edir və fikirləşirik ki, Onu çağırdığımız üçün bizim yanımızda minnətlidir. Allahın geniş rəhmət süfrəsi qarşısında bizim təkəbbür və qürurumuz necə də yersizdir! Məgər nəyimiz var ki, naz edirik? Hər vaxt bizi çağırırsa, özümüzü başqa bir işlə məşğul edirik. Bununla belə, bizim pis rəftarımız Allahın rəhmət və ehsanının davamına mane olmur.

***"İlahi, alçaqlıq və e`tinasızlıqlarımın heç biri məni sonsuz rəhmət, ehsan və kərəmindən məhrum etməyinə səbəb olmadı. İlahi, bu nadan bəndənə rəhm et, fəzl və ehsanınla ona qarşı kərim ol. Sən çox səxavətli və kəramətlisən".***

## *ALLAHLA MÜNACAT VƏ ÜNSİYYƏTİN DƏYƏRİ*

Allah ilə münacat və ünsiyyət insanın ruhuna çox tə`sirlidir. Əgər bir şəxs həqiqətən Allahla əlaqə yaradarsa, dua zamanı maddi və dünyəvi məsələləri düşünməz, onlar üçün Allaha əl açmaz. Bu səbəbdən də uca dəyərlərdən

faydalanar. Allahın lütfü zəruri edir ki, insan istənilən bir səbəblə Onu çağırdıqda bəndəsini naümid qaytarmasın. Amma Allahın kərəm vüs`əti bir məsələdir, insanın ciddi təlaşı başqa bir məsələ. Məqsəd bu deyil ki, insan öz dünyəvi istəklərinin tə`mini üçün Allah evinə getməsin. Məqsəd budur ki, Allahla münacat ləzzətini duyanlar heç vaxt maddi istəkləri önəmli saymasınlar. Bütün bunlara baxmayaraq, əli boşda qalmış insan istənilən bir diləklə Allahı çağırmalıdır. Ehtiyacı ödəmək üçün adi vasitələr olsa da, dua zəruridir. Daha yaxşı olar ki, insan ehtiyac duyduğu andan Allaha üz tutsun və bütün başqa şeyləri səbəb saysın. Ən mühüm məsələ Allahdan umacaqdan çox-çox üstün olan raz-niyazdır.

Böyük şəxsiyyətlərdən biri buyurur: "Yaxşı deyil ki, bəndə öz mövlasından yaxşı qida, gözəl libas, münasib məskən kimi maddi tə`minatlar istəyə. Agah bəndə o şəxsdir ki, daim öz mövlasının əmrini yerinə yetirmək fikrindədir. Mövla özü bəndənin ehtiyaclarını ödəməyin, ona nəvaziş göstərməyin yolunu və qaydasını yaxşı bilir. Nəyə ehtiyaclı olduğunu Allaha bildirmək lazım deyil". Bu qəbildən olan maddi tə`minatlar istəyi bəyənilməmişdir. Bəndə öz fikrində olmamalı, diqqətini Mövlanın əmrinə və bu əmrin icrasına yönəltmişdir. Həqiqi bəndə Allahdan bəndəlik tövfiqi diləməli, Onun bəyəndiyi kimi olmaq üçün tövfiq əta etməsini istəməlidir. Bəli, Allahdan bu sayaq istəmək lazımdır!

## *HƏMİŞƏ AÇIQ OLAN İLAHİ RƏHMƏT QAPILARI*

Bunlardan əlavə, bəndənin öz Ağası ilə söhbət etməyə layiq olması çox mühümdür. Mə`bud ilə ünsiyyət və raz-niyaz ən üstün dəyərdir. Əgər bəndə ağanın nəzərində dəyərli olarsa, ona raz-niyaz, dərdləşmək, xəlvətə çəkilmək

və söhbət üçün icazə verib, onun sözlərinə diqqət yetirər. İnsanlar arasında isə bu sayaq münasibətlərə və fürsətlərə az təsadüf olunur. Xüsusi ilə Ağanın macalı yoxdursa! Bu qayda ilə O öz qulları ilə sakitlikdə söhbət edib onlara qulaq asmağa vaxt tapmayacaq. Qul isə hətta öz Ağasının aşiqi olsa belə, Onunla söhbət imkanından məhrumdur.

Lakin Allah vəsfəgəlməz sonsuz əzəməti ilə üzüqara bəndəni qəbul edib, onların raz-niyazını eşitmək intizarında olan bir Ağadır. Bəndə Onu çağıran zaman onu qəbul edib "xoşgəldin" deyir. Qüdsi hədisdə Allah Bəni-İsrail peyğəmbərlərindən birinə buyurur: "Gözüm bəndələrimin yolunda nə qədər qalasıdır və Mənə üz tutmaları üçün nə qədər intizar çəkəsiyəm. Onlar Mənə arxa çevirib uzaqlaşmaqdadırlar; lakin Mən yenə də onların qayıdışı intizarındayam".

***"Həmd olsun O Allaha ki, pərdəsi yarılmaz, dərgahına açılan qapı bağlanmaz, ondan bir şey diləyən rədd olunmaz".***

Böyük şəxslərin kərəmindən yalnız bə`zi zamanlarda faydalanmaq olur. Hətta ədaləti ilə məşhur və böyüklüyü ilə tanınan sultanlar da ildə cəmi bir dəfə xalqı qəbul edirdilər; hər məkanda, hər gün və hər saat yox! Lakin Allahın rəhmət qapıları Onun feyzini istəyənlərin üzünə həmişə açıqdır. Onu hər nə vaxt çağırsalar, cavab eşidəcəklər.

İmam Səccad (ə) Allah ilə münacatda buyurur:

***"Gözlər yatmış, ulduzlar sayrışmada! Sən ölməz və qüdrətli padşahsan. Bütün padşahlar qəsrlərinin qapılarını bağlayıb keşişçi qoymuşlar; lakin Sənin rəhmət qapıların sual edənlərin üzünə açıqdır. Gəlmişəm ki, rəhmətli baxışlarla mənə baxasan. Ey mehribanların***

***ən mehribanı."***[1] Bə`zi dualarda oxuyuruq: "Pərvərdigara, indi elə bir zamandır ki, hər bir aşiq öz mə`şuqu ilə xəlvət edib dərdləşir". Eşqdən uzaq olanlar isə yatmışlar; heyvanlar da yuxudadır. Bütün qapılar bağlı, lakin Sənin səxavət və kəramət qapıların açıqdır. Sənin feyz dərgahına daxil olmağa heç bir qapıçı mane olmur. Hər kim istəsə, Səni çağırır və Sən də onu qəbul edirsən. Hətta Sən özün saysız bəndələrini də`vət edib onları özünə doğru çağırırsan. Sənin "həlmintaib (tövbə edən varmı?)" nidan həmişə ucalmaqdadır: "Öz əməlindən peşiman olub qayıtmaq istəyən bir şəxs varmı ki, onu qəbul edim?" Səni saymayıb, öz ismətlərini rəzilətə bulaşdırmış günahkarlar üçün nə qədər rəhmət və kəramət!

"Cəllət əzəmətukə və təqəddəsət əsmaukə!" Bəndənin yalvarıb qəbul istəməsi əvəzinə Özü onu də`vət edir: "Gəl, gəl ki, səni qəbul edim!"

Gərək Ağamızın kim olduğunu bilək, Onu tanıyaq, Ona qarşı daha çox mə`rifət əldə edək. O, növbə tə`yin etmədən hamını qəbul edir. İmam Səccad (ə) buyurur: "Heç bir iş Onu başqa bir işdən saxlamır."[2]

Peyğəmbərlər, yaxın mələklər və vəsilər Onunla raz-niyaz etdiyi zaman O başqalarından xəbərsiz qalmır. Kiçik bir mövcud varlıq mülkünün bir guşəsində Onu çağırarsa, "ləbbeyk" ("qəbul edirəm") eşidər. Belə bir Ağası olan şəxsin uzun illər və aylar Onu unutması layiqlidirmi? Məgər namaz və dua vaxtı hamını düşünüb, Allahı unutmağımız düzgündürmü? Süstlük, haqsızlıq və

---

[1] Məhəmməd Baqir Məclisi, əvvəlki mənbə, 46-cı cild, səh.78, 75-ci rəvayət, 5-ci bab.

[2] Məhəmməd Baqir Məclisi, əvvəlki mənbə, 90-cı cild, səh.154, 111-ci rəvayət, 9-cu bab.

çətinliklə ona ibadət edib, üstəlik “Sənə ibadət etdik” deyə minnət qoymağımız ədəbsizlik deyilmi?

## *İBADƏT ZAMANI QƏLB İŞTİRAKININ ZƏRURƏTİ*

Yaxşı diqqət etsək, namaz və dualarımızın günahdan savay bir şey olmadığını görərik. Bu mövzunu sadə bir misalla bəyan edək. Hərçənd Allah bu növ misallar çəkilməsindən uzaqdır; lakin bizim düşüncə səviyyəmiz aşağı olduğundan bu növ misallarla zehni hazırlıq əldə etməliyik. Fərz edin ki, uzun bir ayrılıqdan sonra yaxın dostu görürük və bir neçə saat birlikdə olmaq qərarına gəlirik; lakin görüş zamanı üzümüzü çevirib öz işimizlə məşğul oluruq. Belə bir rəftar necə də təhqiredicidir! Əgər görüşdüyümüz şəxs böyük bir şəxsiyyət olarsa, bu rəftar daha kobud və ədəbsiz görünər. Namaz zamanı diqqətimizin Allahda olmaması qeyd olunan rəftardan daha kobud, daha pisdir. Allah ünsiyyət icazəsi və özü ilə söhbət üçün tövfiq verdiyi halda Ona qarşı diqqətsiliyimiz böyük cəzaya layiqdir. O, əməlimizə görə bizi özündən uzaqlaşdırsa, yersiz olmaz. Lakin O bizi rədd etmir və həmişə ziyafət süfrəsində oturmağa çağırır.

Allahın bağışlama və əfvi bizi qürurlandırmamalıdır. Biz öz mə`rifətimiz qədərində və bacardığımız səviyyədə səhlənkarlıq etməməliyik. Yalnız tələffüz edilən, ibdatə ruhu olmayan namaz və ibadət ilahi lütfdən məhrumdur. Əlbəttə, onların mə`nasını və dəyərini bilməsək də tərk etməməliyik. Əslində ibadətimizin, namazımızın və duamızın qəlbən olması, ruhiyyə tapması mə`nasının dərk olunması üçün çalışmalıyıq. Əgər aşağı səviyyədə ibadətləri dərk etsək, onları əvəz edəcək bir şey tapmayacağıq.

İbadətləri, xüsusi ilə də vacib namazları tə`xirə salmaq çox yanlış bir işdir. Namaz bir müddət tə`xirə düşdükdən sonra onu daha həvəslə qılacağımız təsəvvür olunmamalıdır. Bir çox hallarda bu tə`xir şeytanın vəsvəsəsi ola bilər; yorğunluq, iş və bu kimi bəhanələrlə fəzilət vaxtı keçəndən sonra qılınan namazlar daha ruhiyyəsiz və naqis olur.

Beləliklə, aşağı səviyyədə olan ibadətlərimizi tərk etməməliyik. Çalışmalıyıq ki, bu ibadətlər daha gözəl olsun və Allah ilə düşüncə və tədəbbürlə üzləşək.

Oxunuşu aşağı səviyyədə olan ibadətlərdən uzaqlaşmaq özü günah və ədəbsizlikdir. Əməli tərk etmək hünər deyil, əməli kamilləşdirmək və Allah qarşısında daha ədəbli olmaq mühümdür.

Bə`zi dardüşüncəli insanlar deyir: "Mə`nası anlanılmayan namaz və dua faydasızdır". Lakin həqiqətdə belə deyil. Biz ibadətlərin daha dəyərli olması üçün çalışmalıyıq. Allah qarşısında bəndəlik vəzifəsində səhlənkarlıq etdiyimizi və ibadətlərin daha yaxşı dərk olunması üçün çalışmadığımızı e`tiraf etməliyik; qəlbimiz ona biganə olsa da, ibadət əmr etdiyi üçün abid görkəmi almalıyıq. Gərək Allahdan bizə qəlb iştirakı, diqqət və daha yaxşı ibadət üçün tövfiq əta edib, özünə münasibətdə düşüncə, ədəb və məhəbbətimizi artırmasını istəyək.

## *EŞQ VƏ MƏHƏBBƏT MƏ`RİFƏT SÖVQATIDIR.*

Namaz və bir çox duaların məzmunları ilahi mə`rifətdən danışır. İnsanın qəlbində ilahi məhəbbət yaranarsa, onu Allaha tərəf sövq edər. Bu qayda ilə insanın məcburən və süstlüklə ibadət etməsinə ehtiyac qalmayacaq. Əksinə, ibadət etməyə müvəffəq olmadıqda narahat olacaq. Beləliklə, Allaha aşiq bəndələr azacıq

asudəlik tapdıqda namaz, dua və Allah zikri fikrinə düşürlər. Bu halı əldə edənədək namaz və duamızla Allaha bəndəlik etdiyimizi və ləyaqətli bəndə olduğumuzu düşünmək yersizdir. Biz bu gümanla özümüzü aldadırıq. Bir şəxs həqiqətən də başqasını sevərsə, ondan bir an belə ayrılmaq istəməz, həmişə onunla ünsiyyətə can atar. Əgər mə`şuq ondan hansısa bir işin görülməsini istəyərsə, onun razılığı üçün bu işin ardınca gedər; əslində isə həmişə mə`şuqla birlikdə qalıb ondan ayrılmamaq istəyir. Həzrət imam Hüseyn (ə) buyurur: "İlahi, Səni tanımaq üçün qüdrətinin nişanələrinə müraciət etməyi əmr etdin".[1]

Allahın uyğun buyuruğuna baxmayaraq, aşiq bəndələr qəlbən istəyirlər ki, həmişə raz-niyaz halında olsunlar. Onlar Allahın hüzurunu tələb edir və ondan tövfiq istəyirlər. Baxmayaraq ki, zahirən Onu unudub maddi vasitələri düşünməyə məcburdurlar.

İnsanın Allahı sevib, Ona bəndəlik etdiyi halda Onunla ünsiyyət yaratması qeyri-mümkündür. Allah ilə raz-niyaz və münacat etməyə maraqsız insanın Allaha qarşı hansı məhəbbətindən danışaq? Sevgi və düşmənçiliyimizin, cihadımızın, infaqımızın və başqa bütün işlərimizin Allah üçün olduğunu deyib, Onu sevməyə bilərikmi? Heç zaman! Əgər işlərimiz Allah xatirdirsə, Onu sevməməyimiz və namazdan çox hansısa bir işi arzulamağımız mümkün deyil. İlahi övliyalar bir neçə dəqiqə fürsət tapıb, xəlvət guşədə Allah ilə raz-niyaz etmək intizarında olublar; onların ictimai iş və vəzifələri sona yetdikdə sakit bir bucaq axtarıb öz məhbubları ilə pıçıltıya başlamaq istəyirdilər. Onlar öz münacatları və

---

[1] Şeyx Abbas Qummi, "Məfatihul-cinan", Ərəfə günündə imam Hüseynin duası.

istəklərində ilahi “ləbbeyk”i eşidirdilər; bu isə onların güc və həvəsini ikiqat artırırdı.

**(4)**

***“Həmd olsun O Allaha ki, pərdəsi götürülməz və dərgahının qapısı bağlanmaz. Onu çağıranı rədd etməz və Ona ümid edənlər naümid olmaz”.***

## *ALLAHA ÜMİD VƏ ONA GÜVƏNMƏK*

“İftitah” duasında işarə olunmuş mövzulardan biri də Allahın bəndəsini heç vaxt qovmayıb, rəhmət qapılarını üzünə bağlamayaraq onu naümid etməməsidir. Əlbəttə, bu, bəndənin Allaha tərəf gedib, Ona təvəkkül və ümid etməsi ilə şərtlənir. Şübhəsiz, Allaha kələk gəlmək olmaz.

Biz öz şəxsi istəyimizə əsasən başqası üçün bir iş görüb, ona minnət qoya bilərik ki, bu işi sənə xatir gördüm. Lakin bizim niyyət və əməllərimizdən xəbərdar olan Allah ilə bu sayaq keçinmək olmaz. “Allahın ümidi ilə” zikri yaxşı bir şüardır. Lakin, öz söz və əməlimizdə sadiq olmalıyıq. Bir çox hallarda bu sözü hər yüz dəfə dedikdə biri düz olur. Beləliklə, əgər bir şəxs həqiqətən Allaha ümidvar olsa, duada deyildiyi kimi olar. “Ona ümid bağlayan hər kəsi naümid etməz”.

Əgər naümid oluruqsa, əslində Ona ümidvar olmamışıq və işə Onun ümidi ilə başlamamışıq. Əgər bir iş meylimizə uyğun gəlmişsə, çalışmışıq. Lakin istəklərimizə qarşı, zəhmətli və çətin bir iş olduqda bu işi görməmişik, ya da süstlüklə görmüşük. Məsələn, hansısa bir işi gördükdə vasitə varsa, bu işin ardınca gedirik. Başqa halda bu işin baş verməsini mümkün saymırıq. Kiminsə köməyinə ümid bağlayıb bir iş görürüksə, bu şəxsi tapmadıqda və ya rədd cavabı eşitdikdə narahat oluruq, bu

işdən çəkinirik. Biz hətta sadə dünyəvi işlərdə də bizə şəfaətçi olmaq üçün dost-tanış axtarırıq. Bu yanaşma bizim Allaha təvəkkül etməyimizin göstəricisidir. Allah bu növ ümidləri puça çıxarmayacağına zəmanət verməmişdir.

## *ALLAHA ÜMİD BARƏSİNDƏ HƏZRƏT ƏLİNİN (Ə) SÖZÜ*

Həzrət Əli (ə) bu növ ümidlər barəsində buyurmuşdur: ***"Öz gümanı ilə iddia edir ki, Allaha ümidvardır. Böyük Allaha and olsun ki, yalan deyir. Nə üçün onun ümidvarlığı əməlində görünmür? Hər kim ümidvardırsa, onun ümidvarlığı əməlində görünür. . . Böyük işlərdə Allaha, kiçik işlərdə isə bəndələrə ümid bağlamışdır. Bəndənin haqqını əda edir, Allahın haqqını isə o qədər də yox. Nə üçün Allahın haqqına qarşı səhlənkarlıq göstərib ona insanların haqqından daha az riayət edirsiniz?!"***[1]

Həzrət buyurur: "İnsan nəyəsə ümidvar olduqda ona çatmaq üçün çalışır. Ümid insanı hərəkət və təlaşa vadar edir". Təhsil alan cavan münasib sənətə yiyələnmək və cəmiyyətdə yaxşı mövqe tutmaq üçün illərlə zəhmət çəkir, gecə və gündüz, soyuqda və istidə, vətəndən uzaqda əziyyətə qatlaşır. Nə üçün? Çünki filan sənətə yiyələnməklə münasib mövqe tutacağına ümidvardır. Demək, ümid tənbəllik və süstlik yox, hərəkət səbəbidir.

Bə`ziləri Allaha ümid bəhanəsi ilə bütün vəzifələrdən boyun qaçırırlar. Müstəhəb işlər görməyə, səhv işlərdən çəkinməyə çalışmırlar. Onlardan soruşulduqda isə deyirlər: "Allahın rəhməti genişdir"; "Allah bizimlə öz rəhməti ilə rəftar edəcək, Onun fəzlindən mə`yus olmaq olmaz!"

[1] "Nəhcül-bəlağə", 160-cı xütbə.

Məgər bu şəxslərin Allaha olan ümidi peyğəmbərlər və övliyaların ümidindən daha çoxdur? Peyğəmbərlər və övliyalar Allaha nəhayət dərəcədə ümidvar olsalar da, ən kiçik əməllərdə də səhlənkarlıq göstərmirlər.

Bizim ümidimiz onların ümidindən belə çoxdurmu ki, heç bir əməl etmədən Allahın bizi behiştin ən yaxşı qəsrlərinə aparacağına ümid bağlayırıq?!

Biz, adətən, Allaha çox ümidvar olduğumuzu güman edirik. Lakin Əmirəl-mö`minin (ə) hamının ovcunu açıb, rüsvay etdi; O buyurdu: "Sizin nə qorxunuz var, nə də ümidiniz. Əgər Allaha ümidvar olsaydınız, əməlləriniz öz tə`sirini göstərərdi. Hansısa bir şəxsin sizin üçün nəsə bir iş görməsinə ümidvar olduqda onunla necə rəftar edirsiniz?! Həmişə onun xətrinə dəyəcək bir rəftar etməkdən çəkinirsiniz, ona həmişə hörmət edirsiniz və sair. Məgər bircə dəfə ona pis söz deyib, onunla düşmənlik və müxalifətçilik etmisiniz? Bəs Allah ilə necə?"

Həzrət buyurur: "Bəndəyə olan ümidiniz kiçik bir işlə bağlı ikən onunla etdiyiniz rəftarı Allah ilə etmirsiniz; hansı ki, Allaha böyük və əzəmətli işlərdə ümid edirsiniz".

İnsan başqa insana hansı işlərdə ümidvar ola bilər? Adətən, insan başqa insana çox cüz`i və kiçik işlərdə ümid edir. İnsan hansısa bir insanın çətinliyinin aradan götürülməsində, onun üçün böyük bir iş görməkdə, ehtiyac zamanı onun həyasını qorumaqda, hətta təhlükə zamanı onun canını qoruyub bir müddət çox yaşamasında və sair işlərdə vasitə olarsa, yenə bütün bunlar məhduddur. Cavan bir tələbənin ömrünün ən gözəl illərini sərf edib aldığı diplom nə dərəcədə dəyərlidir? 100 milyon, 1 milyard, 100 milyard manat? Hər nə qədər böyük rəqəm olsa, yenə məhduddur. Bizim Allahdan istədiklərimiz isə əbədi və sonsuz bir həyatdır. Məgər biz belə bir istək və ümidə

uyğun əməl edirikmi? Əgər ümidvarıqsa, nə üçün bunun tə`siri əməllərimizdə görünmür? Demək, daha yaxşı olar ki, Allaha qarşı sadiq olaq və özümüzü aldatmayaq. Allah heç vaxt aldanmaz. Baxmayaraq ki, bə`ziləri Allahı aldadıb Ona hiylə gəlmək istəyir. Lakin onlar Allahın mütləq agahlığından xəbərsizdirlər: "Allahı və iman gətirənləri aldatmaq istəyənlər özlərindən başqasını aldatmırlar."[1]

Allah ilə sədaqətli olmalıyıq. Allaha qarşı zirəklik əslində fərsizlikdir. Allah qarşısında zirək o kəsdir ki, öz niyyətini xalis etsin və Allaha qarşı sədaqətli olsun.

İman adı altında öz nəfs istəklərimizə əsasən etdiyimiz işlər xalqı aldada bilər. Lakin Allah aldanmaz. Əgər indiyədək belə olmuşuqsa, səbəb niyyət və əməllərimizin xalis olmamasıdır. Əgər özümüzü dəyişmək istəyiriksə, tam çevrilməliyik; ümidimiz yalnız Allaha olmalıdır. Yoxsa Allah bizi uzaqlaşdırar. Bununla da bir-birimizdən asılı qalıb, biçarə olar və bir yerə çıxa bilmərik. Yalnız Allahın e`tibarlı güvənc yeri olduğunu və Ondan başqa kimə ümid bağlasaq naümid qalacağımızı bilməliyik.

İmam Sadiqdən (ə) olan bir rəvayətdə nəql olunur ki, Allah-təala buyurdu: *«And olsun izzət və cəlalıma, ərş üzərində əzəmətimə, Məndən başqasına ümidvar olan kəsin ümidini mə`yusluğa çevirəcək, xalq qarşısında ona zillət libası geydirəcək, onu özümdən uzaqlaşdıracaq, vüsalıma qovuşdurmayacam. Müşküllər mənim əlimdə olduğu halda çətinliyə düşdükdə Məndən başqasınamı ümid bağlayır? Bağlı qapıların açarı mənim əlimdə olduğu halda başqalarınınmı qapısını döyür? Mənim qapım Məni çağıranların üzünə açıq deyilmi? Çətinliyə*

---

[1] "Bəqərə surəsi, ayə 9.

*düşdüyü vaxt Mənə ümid bağlayıb ümidsiz qalmış bir kəs tapılarmı? Mühüm bir işdə Mənə üz tutub məhrum qalmış birini tapmaq olarmı?!»*[1]

Beləliklə, yalnız və yalnız Allaha ümidvar olmalıyıq. Allaha ümidvar olmaq, yə`ni bütün qüvvələri Allahdan bilmək və bunları işə salmaq; Allahın iradəsi olmadan heç bir işin baş tutmamasına inanmaq. Həkim yanına gedib dərmandan istifadə etmək lazımdır. Lakin şəfa Allahın əlindədir. Əgər Allah istəməsə, həkim düzgün seçim etmədən başqa bir dərman göstərəcəkdir. Yaxud da bütün bu işlər qaydasında olsa belə, şəfa üçün vasitə olmayacaqdır. Bu o demək deyil ki, həkimə müraciət etməyə ehtiyac yoxdur. Allaha ümidvar olmaqla yanaşı həkimin göstərişlərinə də əməl etməliyik; çünki bu işlər Allahın feyz vasitələrindəndir. Bütün hallarda şəfa Onun tərəfindədir.

Allaha güvənmək, yə`ni bütün işlərin və bu işlərin vasitələrinin Allahın əlində olmasına inanmaq; insanın qəlbən Allahı düşünməsi, bütün işləri Onun sahmana saldığına və bütün vasitələri Onun yaratdığına inanması; hətta vasitələr olmayan yerdə də O səbəbkarlıq üçün aciz deyil və vasitəsi olmadan da hansısa bir işi görə bilər. Beləliklə, mö`min insan heç bir halda ümidini Allahdan üzmür, istər adi vasitələr olsun, istərsə də olmasın. Əgər nəzərdə tutduğu vasitəyə çatmırsa, naümid olmur. Bu vasitələr istər pul olsun, istər şəfaətçi, istər doktor, istər dərman, istərsə də bu kimi başqa şeylər. Demək, Allahın bizim ehtiyaclarımızı hökmən qeyri-adi vasitələrlə aradan qaldıracağını gözləməməliyik. Adi vasitələrə məhəl qoymayıb Allahdan çətinlikləri qeyri-adi yolla həll

---

[1] Məhəmməd Baqir Məclisi, əvvəlki mənbə, 71-ci cild, səh.130, 7-ci rəvayət, 63-cü bab.

etməsini istəmək özünəpərəstişdir; çünki adi vasitələrlə öz məqsədimizə çatmağımız Allahın iradəsidir. Buyurur: *"Allah işlərin öz vasitələrindən qeyri vasitələrlə baş tutmasından çəkinər."*[1]

Bəli, Allah adi vasitələr olmayan yerdə qeyri-adi vasitələrlə öz işini görür; necə ki, Bəni-İsraildən bir dəstə üçün səmavi süfrə göndərdi, həzrət İbrahimi alovdan diri saxladı və s.

**(5)**

*"Pərvərdigara, biz elə bir əzəmətli dövlətin iştiyaqındayıq ki, onun sayəsində İslam və müsəlmanlar öz izzətini geri qaytarsın, nifaq və münafiqlər zillətə düçar olsun və həmin dövlətdə bizi itaətə də`vət edənləri öz yolunda rəhbər qərar verəsən, onun vasitəsi ilə dünya və axirətin böyüklüyünü bizə nəsib edəsən".*

## *FƏRƏC, ZÜHUR İNTİZARI*

"İftitah" duasının çox tə`kid olunmuş cümlələrindən biri də həzrət Vəliyyi-əsr İmam Zamanın (əccəllahu fərəcəh) zühuru zamanı qurulacaq dövlətə maraq göstərmək barəsindədir. Eyni zamanda duanın bu hissəsindəki cümlələrdə İslam hökumətinin hədəfi və bizim vəzifələrimiz göstərilmişdir. Xoşbəxtlikdən həzrət İmam Zamanı (ə) tanımaq və onun zühurunun intizarını çəkmək ne`məti hamımıza şamil olmuşdur.

Həzrət Mehdinin (ə) zühuruna inam şiə və sünni, bütün İslam firqələrinin şərik olduqları e`tiqadlardandır. (Hətta qeyri-müsəlmanlarda da bir növ fərəc və xilaskarın

---

[1] Məhəmməd Baqir Məclisi, əvvəlki mənbə, 2-ci cild, səh.90, 14-cü rəvayət, 14-cü bab.

zühur intizarı məsələsi açıqlanmışdır.) Bə`zi imamət məsələlərində sünni qardaşlarla aramızda ixtilaf olmasına baxmayaraq, həzrət Mehdinin (ə) zühuruna e`tiqad məsələsində ixtilaf çox azdır.

Bir çox sünni alimləri həzrət Mehdinin (ə) barəsində kitab yazmış və bu barədə olan rəvayətlərin təvatür həddində olduğunu e`tiraf etmişlər. (Yə`ni bu rəvayətlərin peyğəmbərdən nəql olunmasına heç bir şəkk-şübhə yoxdur.) Lakin bu həzrətin şəxsi xüsusiyyətləri barəsində ixtilaflar mövcuddur. Bə`zi sünnilər axır zamanda peyğəmbər ailəsindən Mehdi adlı bir şəxsin zühur edəcəyi e`tiqadındadırlar. Lakin onun kim olması, kimin övladı olması və doğulub-doğulmaması barəsində bizimlə ixtilafdadırlar. Onlardan bə`ziləri Mehdinin (ə) axır zamanda doğulacağı e`tiqadındadır.

Əlbəttə, sünnilərin bə`ziləri həzrətə münasibətdə bizim e`tiqadımızdadırlar. Yə`ni Mehdinin (ə) Fatimə (ə) və Əli (ə) nəslinin 11-ci övladı olduğuna inanırlar. Hətta onlardan bə`ziləri həzrətin doğulduğunu və həyatda olduğunu, eyni zamanda, bə`zi şəxslərin onunla görüşdüyünü təsdiqləyirlər. Onlar həzrətlə görüşmüş bə`zi şəxslərin adını da çəkirlər.

Beləliklə, həzrətə yalnız şiələr inanmır. Əlbəttə, onlar həzrəti Allah rəsulunun xəlifəsi, ilahi elm və qüdrətə malik və Allahın təkvini (təbii) vilayətinə sahib bilmirlər. Necə ki, bə`zi sünnilər (xüsusi ilə şafii qrupları) digər mə`sumları üləma və peyğəmbər övladları kimi qəbul edir, hörmət qoyur və onlara böyük məhəbbət göstərirlər. Lakin onları mə`sum və vilayət məqamında bilmirlər. Onların bu mövzuda mə`rifətləri naqisdir.

Lakin bütün bu e`tiqadlarla yanaşı, sünnə əhli təqribən onun zühurunu unutmuşdur. Onları Mehdi (ə) dövlətinin

intizarını çəkənlərdən hesab etmək olmaz. Beləliklə, yalnız şiələr həzrətin fərəc intizarında dəqiqələri sayır. Düşünməliyik ki, əvvəla, əsrin imamı və onun haqq dövlətinin zühurunun intizarını çəkməkdə məqsədimiz nədir? Bizi bu həzrətin zühurunda iştiraka nə maraqlandırır? İkincisi, qeybət və intizar dövründə bizim vəzifəmiz nədir? O həzrətin həqiqi intizar çəkənlərindən olmaq üçün nə etməliyik? Üçüncüsü, onun dövləti qurulduqdan sonra hansı rolu oynayacağıq?

## *İNTİZAR AMİLİ*

İnsandakı nəfsani hallar o qədər mürəkkəbdir ki, bə`zən o özü də bu halların incəliklərindən xəbərsiz qalır. Bə`zən insan bir şeyi sevsə də, nə üçün sevdiyini bilmir. Həzrət Mehdinin (ə) zühuru və həzrətin hakimiyyətinin bərpasına bağlılıq səbəbləri də müxtəlifdir. Məsələn, avam kütlə əsasən zühur dövründə bütün ehtiyacların müftə ödənəcəyini, bir növ salavatla tə`min olacağını əsas götürərək həzrətin zühurunu gözləyir. Guya zəhmət bahasına tə`min olunası ehtiyaclar həzrətin zühur dövründə Məhəmməd və onun ailəsinə salavat zikr etməklə aradan qalxacaq. Bəli, müxtəlif qruplar müxtəlif səbəblərdən əsrin imamının zühurunu gözləyir və fərqli dəlillərlə intizar çəkirlər.

Bir dəstə onun intizarını çəkir ki, imam gəlsin və onları islah edərək çətinliklərdən uzaqlaşdırsın. Həqiqətən bə`zi şər`i vəzifələr, xüsusi ilə ictimai vəzifələr, məsələn, əmr be mə`ruf və nəhy əz münkər, zülm və fəsadla mübarizə çətin işdir. Mümkündür ki, bə`ziləri həzrətin gəlməsi ilə bu zəhmətlərin onların boynundan götürüləcəyini təsəvvür edərək onun gəlməsini istəyirlər.

Bə`zilər isə zülmdən əziyyət çəkdikləri üçün hamını öz haqqına çatdıracaq və zülmkarların kökünü kəsəcək bir dövlətin bərpa olmasının intizarını çəkirlər. (Ədalət, müsavat və bərbarəlik tərəfdarları).

Başqa bir qrup isə İslam və haqq dinin qələbəsi, ilahi hökmlərin həyata keçməsi, tərk olunmuş hökmlərə əməl olunması, peyğəmbər sünnələrinin dirilməsi, küfr və şirk əsərlərinin məhv olması üçün həzrət Mehdinin (ə) zühurunun intizarını çəkirlər.

Hansı məqsədlə əsrin imamının intizarını çəkdiyimizi bilmək üçün öz daxilimizə nəzər salmalıyıq. Salavat ilə əldə olunan çörək istəyirik, yoxsa zülmkarların zülmündən bezmişik? Dini vəzifələr bizə ağırlıq edir, yoxsa İslam və müsəlmanlar təhlükədə olduğu üçün zühur intizarındayıq? Müəyyənləşdirməliyik ki, bizim intizar çəkməyimizdə həqiqi məqsəd bunlardan hansıdır?

Əgər məqsədimiz əvvəlki üç amil olarsa, həqiqətən, qəlbimiz başqalarına yox, özümüzə yanmışdır! Əslində biz həzrət Höccətin yox, öz rahatçılığımızın intizarını çəkirik! Əgər imam yox, başqa bir şəxs bizim istəklərimizi tə`min edərsə, onu da sevib, yolunu gözləyəcəyik. Beləliklə, İmam Zaman (ə) və onun zühuru bizim üçün əhəmiyyətsizdir və əsas məqsəd öz rahatlığımızın tə`minidir. Rahattələblik və tənbəllikdən doğan intizarın nə faydası var?! Əgər bizim vəzifələrimizin boynumuzdan götürüləcəyi, əsrin imamının (əccələllahu fərəcəhu) özünün küfr və nifaqla vuruşub, əmr be mə`ruf və nəhy əz münkər (yaxşılığa də`vət və pisliyə qadağa) edəcəyi, heç zəhmət çəkmədən bu dövlətin imkanları və sərvətlərindən faydalanacağımız günün intizarını çəkiriksə, əslində belə bir intizar dəyərsiz və qiymətsiz hesab olunur. İnsanın İslamın qələbəsi, onun ucalması və genişlənməsi üçün

fərəc intizarında olub, həzrət Mehdinin (ə) zühurunu istəməsi həqiqi və dəyərli intizardır!

Rəvayətlər belə bir intizarın üstün olduğunu təsdiqləyir. Həzrət Höccətin dünyəvi inqilabı və hökuməti sayəsində əmniyyət və asayiş, ne`mət bolluğu, zülm və zalımların məhvi, bədbəxtlik və fəqirliyin aradan götürülməsi gerçəkləşəcəksə də, bütün bunlar həzrətin, fərəcinin intizarını çəkmək üçün mö`minin əsas məqsədi olmamalıdır.

Duanın bu hissəsində həm insanın fərəc intizarında məqsədi, həm də həzrətin hökumətinin hədəfi açıqlanmışdır:

*"Pərvərdigara, biz elə bir əzəmətli dövlətin iştiyaqındayıq ki, onun sayəsində İslam və müsəlmanlar öz izzətini geri qaytarsın, nifaq və münafiqlər zillətə düçar olsun. O dövlətdə bizi itaətə də`vət edənləri öz yolunda rəhbər qərar ver".*

Həzrətin zühuru zamanı da vəzifələrimizdən əl çəkməməliyik. Düzgün deyil ki, onun zühurundan sonra xalq təbliğsiz iman gətirib yaxşı əməllər edəcək. Elə həmin zamanda da xalqın də`vətə, tə`lim və tərbiyəyə ehtiyacı olacaq. Ümid edirik, o zamanda həzrətin hədəflərinin yerinə yetirilməsində qabaqcıllardan olub xalqı ona doğru də`vət edək.

"Arzu edirik ki, bu hökumət sayəsində dünya və axirətin izzət və kəramətinə çataq".

Həqiqi intizar çəkən kimi öhdəmizdə hansı vəzifələr var? Həzrətin zühuru zamanı öz rolumuzu düzgün ifa etmək üçün nə etməliyik?

Həqiqi intizar əhlinin ən mühüm vəzifəsi bacardığı qədər həqiqəti tanıyıb ona əməl etməsidir; bununla da, çətinliklərin öhdəsindən asanlıqla gələ bilər. Belə bir kəs

həzrət Mehdinin (ə) zühuru zamanı xalqa rəhbərlik arzusunda ola bilər. Haqqı tanıyıb, əməldə səhlənkarlıq edən kəs başqalarına necə rəhbərlik edə bilər?! Beləliklə, biz həzrətin zühurundan öncə özümüzü hazırlamalı, elm və əməl baxımından kamilləşməliyik.

## *KEÇMİŞ ÜMMƏTLƏRDƏN ÖYÜD GÖTÜRMƏK*

Tarix boyu ilahi ümmətlərə haqq dövlət və`dəsi verilmişdir və onlar həmişə bunun zühurunun intizarını çəkmişlər. Lakin bu dövlətin zühurundan sonra onların öz iddialarında sadiq olmadıqları aydın olmuşdur. Misal üçün, Fir`onun zamanında həzrət Musanın təvəllüdü və zühuru Bəni-İsrailə və`d verilmişdi. (Bu əhvalat Qur`anda təkrar-təkrar nəql olunmuşdur) Fir`on Bəni-İsraili o qədər sıxıntıda saxlamışdı ki, çox az millətlər belə əziyyət görmüşdü. Onlara o qədər işgəncə verildi ki, alimlər və salehlər bir yerə toplaşıb xalqı həzrət Musanın (ə) zühurunun yaxınlaşması üçün dua etməyə də`vət etdilər. Bu mövzuda nəql olunmuş rəvayətlərə əsasən, Bəni-İsrailin həddi aşmış göz yaşları və ah-nalələrinə görə həzrət Musanın (ə) zühuru yaxınlaşdı. O, dünyaya gəldi, böyüdü və bir müddət sonra Fir`onun əleyhinə qiyam qaldırdı. Sonra Bəni-İsraili onun əlindən xilas edib dəryadan keçirdi. Onlar öz gözləri ilə Fir`on və tərəfdarlarının bir bu qədər əzəməti olmasına baxmayaraq, dəryadan keçə bilmədiklərini və oradaca qərq olduqlarını gördülər.

Fir`onun şərindən xilas olub Allaha bəndəlik etmək üçün həzrət Musanın zühurunun tezləşməsini istəyənlər Fir`onun cəngindən azad olduqdan sonra həzrət Musa dünyadan köçənə qədər bir çox ləyaqətsiz işlər gördülər. Onları Fir`onun şərindən qurtardığı üçün Allaha təşəkkür

etmək əvəzinə, naşükürlük etdilər. Eyni zamanda, uzun illər intizarını çəkdikləri həzrət Musanın göstərişlərinə qulaq asmaq əvəzinə, pis işlər görüb ondan yersiz tələblər etdilər. Onların birinci səhvi bu idi: Misirdən Fələstinə olan yolda əhalisi bütpərəst olan bir şəhərə çatdılar: Bu şəhərin xalqının vəziyyətini müşahidə edərək həzrət Musanın yanına gəlib ona dedilər: Sənin inandığın və bizi ibadətinə çağırdığın Allahı görmürük, biz bu bütpərəstlərin mə`budu kimi bir Allah istəyirik: "Onların mə`budları olduğu kimi, bizim üçün də bir mə`bud qərar ver."[1]

Bunlar Fir`onun zülmündən təngə gəlib Allahdan həzrət Musanın zühurunun tezləşməsini istəyənlər idi.

Bu hadisədən sonra həzrət Musa ibadət üçün Tur dağına getdi. O orada otuz gün qalmaq üçün də`vət olunmuşdu; amma bu müddət qırx günə qədər çəkdi. O, münacata gedən zaman Bəni-İsrail Samirinin yanına gedib ona dedi: "Bizim üçün bir Allah düzəlt!" Samiri də onların sözünü qəbul etdi və qızıldan bir buzov düzəltdi. Musanın səbirsizliklə intizarını çəkənlərin sonu belə oldu!

İslam peyğəmbərinə aid bir əhvalat da var. Hicaz məntəqəsi, xüsusilə də Mədinə ətrafındakı kitab əhlinin bir çoxu İslam peyğəmbərinin zühurunun intizarında idi. Onlar Mədinə və onun ətrafında toplanmışdılar ki, həzrət zühur edən zaman başqalarından daha tez ona iman gətirsinlər. Qur`ani-Kərim bu barədə deyir: ***"Onu öz oğullarını tanıdıqları kimi tanıyırlar."***[2] İslam peyğəmbərini öz övladları tanıdıqları kimi tanıyırdılar (və onun xüsusiyyətləri, əlamətlərindən xəbərdar idilər). Lakin həzrət onları İslam dininə də`vət etdiyi zaman onun

[1] "Ə`raf" surəsi, ayə 138.
[2] "Bəqərə" surəsi, ayə 146.

hədəflərini öz istəklərinə uyğun görməyib də`vətini qəbul etmədilər.

Bu tarixi cərəyanlar bizim üçün ibrətamiz dərs hesab olunur. Allah eləməsin ki, biz də həzrət Mehdinin (ə) zühurunun intizarını çəkərək belə bir aqibətə düçar olaq. Bizim gözəl aqibətli olacağımıza zəmanət verilməyib. Bə`zi rəvayətlərdə göstərilir ki, həzrət Mehdinin (ə) zühurundan sonra bə`ziləri ona məktub yazacaq ki, bizim sizə ehtiyacımız yoxdur.

Beləliklə, özümüzü hər bir cəhətdən islah etməliyik; nəfsani istəklərdən uzaqlaşıb, özümüzü onu, onun inqilab və qiyamının qəbuluna hazırlamalıyıq. Əgər həzrəti seviriksə, onun adını eşitdikdə gözlərimizdən yaş axırsa, yenə də qürurlu olub aqibətimizdən xəbərsiz qalmamalıyıq.

Buna görə də intizar o zaman dəyərli sayılır ki, həqiqətən, Əsrin İmamını və onun zühurunu İslam və müsəlmanların izzəti, ilahi hökmlərin diriliyi üçün istəyək, eyni zamanda, tarix boyu ilahi hökmlərin izah olunmamasından narahat olaq. Özümüzü həzrətin hökuməti və göstərişlərini qəbul etmək üçün hər bir cəhətdən hazırlamalı və Allahdan bu işdə bizə tövfiq verməsini istəməliyik.

**(6)**

*"Pərvardigara, girami peyğəmbərlə ayrılıqdan (ona və ailəsinə Sənin salamın olsun), mövlamızın qeybindən, düşmənin çoxluğu və sayımızın azlığından, bizə üz tutmuş üzücü fitnələrdən, dövrümüzün şəraitinin bizim ziddimizə çiyin-çiyinə dayanmasından sənə şikayət edirik".*

## *PEYĞƏMBƏR VƏ İMAMLAR ƏN DƏYƏRLİ NE`MƏTLƏRDİR*

Öncə bəyan edilmiş mövzulardan aydın oldu ki, insan həmişə öz ehtiyaclarına diqqət yetirməli və onları tə`min etmək üçün yalnız mütəal Allahdan kömək istəməlidir. Deyildi ki, insanın ehtiyacları maddi və dünyəvi ehtiyaclarla məhdudlaşmır. Daha mühüm ehtiyaclardan biri də girami peyğəmbər və onun canişini həzrətin vücuduna olan ehtiyacımızdır. İnsan peyğəmbər və imamın hüzurundan məhrum olduqda ona bütün dünya ne`mətləri verilsə belə, bu ne`mətlər həmin məhrumiyyət qarşısında çox cüz`i sayılır.

Biz bu ehtiyacı o zaman yaxşı dərk edə bilərik ki, girami peyğəmbər və İmam Zamanın bərəkətini dərk edək və onların həqiqətdə kim olduğunu anlayaq; eyni zamanda, bu əzizlərin vücudundan İslam ümmətinə hansı bərəkətlərin nəsib olduğunu anlayaq.

İmamların məqamını və əzəmətini dərk etmək bizim üçün mümkünsüzdür. Yalnız bütün varlıq aləminin onların mübarək vücuduna görə yarandığını deyə bilərik. “Ey Məhəmməd! Əgər sən olmasaydın, dünyanı yaratmazdım.”[1] Digər imamlar haqqında da belə deyilmişdir: “Ləv la hum ləmma xuliqəl-əflaku”. Bizim bu mövzunu dərk və həzm etməyimiz peyğəmbər və imamlara münasibətdə olan mə`rifətimizdən asılıdır.

Onların vücudlarının bərəkəti barəsində bunu demək kifayət edər ki, əgər imamlar olmasaydı, İslamın əsasından əsər qalmazdı; Allahın rəsulunun vəfatından sonra baş verən çaşqınlıqlar bu iddia üçün yaxşı bir dəlildir. Əgər

[1] Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar”, 16-cı cild, səh.406, 1-ci rəvayət.

imamların 250 illik əziyyət və zəhmətləri olmasaydı, bu gün biz İslam həqiqətlərindən heç bir nişanə görməzdik. Hətta sünnə əhlinin də arasında İslam həqiqətlərindən qalmış şeylər hidayət imamlarının bərəkətinin nəticəsidir. Sübh namazını şərabdan hasil olmuş məstliklə və cümə namazını cümə axşamı qılan hakim və xəlifələr İslamın qorunmasının səbəbkarı deyildilər. Seyyidüş-şühədanın (ə) qanı və sair imamların fədakarlıqları İslamın davamlılığına səbəb oldu.

Əlbəttə, hidayət imamlarının bərəkəti yalnız öz zamanlarına aid olmayıb və olmayacaq; onlar vəfatlarından sonra da həmişə bərəkət qaynağı olublar. Onlar təkcə dostlar və sevimlilərin çətinliklərini yox, bə`zən qeyri-müsəlmanların da çətinliklərini aradan qaldırmışlar; İslam tarixi boyu mə`sum imamlardan görünmüş kəramətləri bir yerə toplasaq, xeyli kitab toplanar. İmamların davamlı olan ən mühüm bərəkəti onların sözləri və həyat tərzləri (sünnə) sayılır. Bu bərəkətli və nurani hədislər İslamın genişlənmə və qorunma mayası və insanların səadətidir. İnsanı səadətə aparan həqiqətlər yalnız Qur`an və sünnədə tapılır. Yoxsa biz axirət səadəti və kamilliyinə çatmaqdan başqa bir məqsədlə yaranmışıq? Bizə bu sahədə ən çox yardım göstərən Allahın rəsulu və imamlardan qalmış hədislərdir. Beləliklə, əgər bir şəxs yaranışın əsas hədəfinə nəzər salsa, imamət ne`mətinin heç bir ne`mətlə müqayisə olunmayacağını görər. Bu ne`mətin şükrü də ne`mətin özünə uyğun olmalıdır.

Təəssüf ki, indiki zəmanədə çox az adam bu məsələyə diqqət yetirir. Dünya cəmiyyətinin əksəriyyəti müsəlman deyil. Müsəlmanların da bir çoxu İmam Zaman əleyhissalamın həyatına e`tiqad etmirlər. Yalnız azlıq

təşkil edən şiələr həzrətin həyatda olmasına inanırlar. Baxmayaraq ki, bu azlığın bir çoxunun özü yox, adı şiədir. Beləliklə, bu şəxslər də əsrin imamını çox az düşünür. Yalnız müsəlmanların cüz`i bir hissəsinə bu tövfiq nəsib olub və onlar bə`zən həzrəti yad edir, bəla zamanı ona bağlanırlar. İndi isə baxaq görək ildə, ayda və həftədə həzrəti neçə dəfə yad edirik? Öz həyatımızda onun müqəddəs vücudu üçün hansı əsərləri qoyuruq? Əsrin imamının ziyarətindən məhrumluğu özümüz üçün bəla sayırıqmı?

## *ƏSRİN İMAMINDAN BİXƏBƏRLİK*

Adətən, İmam Zamanın (ə) qeybdə olmasından və onunla görüşdən məhrum qalmağımızdan çatışmazlıq hiss etmirik; çörək və suyumuz hazırdır, dini məsələləri də alimlər və müctehidlərdən soruşuruq. Beləliklə, Əsrin İmamına nə ehtiyacımız var?! Nə üçün çatışmazlıq hiss etmirik? Nə üçün onun qeybdə olmasından nigaran deyilik? Bu məsələnin dəlili iman zəifliyi və qəflətdir; həqiqətdə ehtiyacsız deyilik, ehtiyacımız var, lakin dərk etmirik. Hansı bəlaya düşdüyümüzü düşünmürük. Elə bir bəla ki, özümüz öz əlimizlə yaratmışıq. Xalqın pis rəftarı və imamların varlığına naşükür münasibətdə olması imamın qeybinin mənşəyi olmuşdur. Məgər İslam dünyasında baş verən bu ixtilaflar bəla deyilmi? (Oxucuların nəzərinə çatdırmalıyıq ki, bu söhbətlər inqilabdan əvvəl olmuşdur).

Qur`ani-şərif buyurur ki, Allahın xalqa göndərdiyi ən böyük bəlalardan biri onların arasında baş verən ixtilaf və təfriqədir: ***“Ey peyğəmbər, de ki, Allah sizə yuxarıdan və aşağıdan əzab göndərməyə, ixtilaf, pərakəndəlik və müxalifətlə bir-birinizin üstünə salmağa, bə`zinizi***

***bə`zinizin üstünə salmağa, bə`zinizi bə`zinizin əzabına düçar etməyə qadirdir."*** [1]

Bu gün açıq-aşkar görünür ki, qəlblər pərakəndə, fikirlər, məsləklər, üsullar fərqlidir. Bütün bu ixtilaflar və parçalanmalar İmam Zamanın (ə) qeybindən doğur.

Mübarək ramazan ayında Allahla raz-niyaz etmək istədikdə "İftitah" duasının bu hissəsini oxuyaq və qeyb dövründə, onun ziyarətindən məhrum olduğumuz üçün nigaranlıq və təəssüf hissi keçirək. Duanın bu hissəsini sadiqcəsinə və azacıq təfəkkürlə oxuaraq, imamın vücudunun bizim üçün necə də böyük bərəkət olduğunu və hal-hazırda bu böyük ne`mətdən məhrum olub, bəlalar və çətinliklərə düçar olduğumuzu düşünmək daha yaxşı olar.

Mütəal Allahın və Əsrin İmamının (ə) razılığını əldə etmək üçün necə əməl etməli olduğumuzu bilməmək bizim üçün böyük bir çətinlik yaradır. Əlbəttə, Allah Qur`anı, peyğəmbərləri, mə`sum imamları göndərməklə, təfəkkür və ağıl qüvvəsi verməklə bizim üçün bu yolu hamar etmişdi. Əgər yaxşıca diqqət yetirsək, bütün ixtilaf və təfriqələrdə düzgün yolu, Allahın və İmam Zamanın razılığına səbəb olan yolu seçə biləcəyik. Eyni zamanda, böyük bir feyzdən məhrumuq: daxil və xaricdən hücum çəkən cürbəcür çətinliklər bizim üçün meydanı daraldır; bir tərəfdən öz aramızda ixtilafa düçar olmuşuq, başqa bir tərəfdən şərq və qərb bizimlə müxalifətdədir. Heç bir tayfa və məktəb şiəlik qədər qürbətdə deyil. Bütün məktəb və məsləklər ya şərqə, ya da qərbə bağlıdır; bu arada yalnız şiə öz ağa və rəhbərinə bağlanmışdır, onun zühurunun ümidindədir. İndi isə İmam Zamanın hansı işləri sevdiyini və hansı rəftarları bəyəndiyini öyrənməliyik.

---

[1] "Ə`nam" surəsi, ayə 65.

Bizim e`tiqadlı olduğumuz məsələlərdən biri də Əsrin İmamının ümmətin, xüsusi ilə də şiələrin işlərindən xəbərdar olmasıdır. Bizim rəvayət kitablarında "ərzul-ə`mal babı" adı altında bir fəsil var. Bu fəsildə bir çox rəvayətlər toplanmışdır. Bu rəvayətlər mö`minin həftəlik işlərinin İmam Zamana çatdığını bildirir. (Bə`zi rəvayətlərə əsasən gündəlik işlərin) Qədr gecəsi isə xalqın bütün müqəddəratı həzrətə çatdırılır. İmam xalq ilə Allah arasında feyz vasitəsidir və ilahi feyzlər bu yolla xalqa çatır. Görən bizim əməllərimizdən xəbərdar olduqda kədərlənmirmi? Gərək elə işlər görək ki, həzrət əməl naməmizi gördükdə xoşhal olsun. Yoxsa, Allah eləməmiş "mən belə şiə istəmirəm" deməsin.

Həzrətin razılığına səbəb olan bir çox işlərə əməl etmirik. Bu işləri gördükdə həzrətin xoşhal olacağını və bizə daha çox diqqət yetirəcəyini bilirik. Lakin nəfs istəklərimizlə uyğun gəlmədiyindən bu işlər görülməmiş qalır.

Əziz peyğəmbər və imamların dinin və Allahın hökmlərinin qorunması üçün gəldiyinə heç birimiz şəkk etmirik. Onların bütün zəhmət və sə`yləri xalqın Allaha yaxınlaşmağı və Ona bəndəlik etməsi üçündür. Eyni zamanda, ilahi hökmlərin və dinin qorunmasına səbəb olan işlər İmam Zamanın (ə) razılığına, xalqın dindən uzaqlaşmasına, İslami e`tiqadlar, ilahi hökmlər və dinin təhrifinə bais olan şeylər isə onun qəzəblənməsinə və əziyyət çəkməsinə səbəb olur; bu həqiqətlərə şübhə edirikmi? Yoxsa peyğəmbər sünnələrinin tərki və ilahi ayələrin əvəz olunmasının həzrətin nigarançılığına səbəb olmasına inanmırıq? Məgər xalqın imanı və dində zəifliyə zəmin yaradanların həzrətin düşməni olduğuna şəkkimiz var? Yoxsa «filan hökm dəyişməlidir, bu gün üçün

deyildir, öz zamanına aid idi» kimi sözlər deməklə xalqın imanını zəiflətməyin günah olduğunu bilmirikmi?

## *QEYB ZAMANI BİZİM VƏZİFƏMİZ*

"İftitah" duasının bu hissəsini sadiqcəsinə oxuyub, peyğəmbərin olmamasından və İmam Zamanın qeybindən nigaran olduğumuzu bildirmək istəsək, dinin qorunması üçün əlimizdən gələni əsirgəməməliyik. Elə bir halda olmalıyıq ki, İmam Zaman gəldikdə verdiyi göstərişləri nə üçün-niyəsiz qəbul edək. Həzrətə xidmət üçün malımız, canımız və bütün istədiklərimizdən keçib hamısını onun ixtiyarına verməliyik. Məgər beləyikmi? Bu hazırlığı özümüzdə görürükmü? Müaviyənin səhabələri batil yolda hər şeydən keçirdilər, lakin həzrət Əlinin (ə) səhabələri həmişə işdən boyun qaçırırdılar; hansısa bir döyüş olduqda havanın soyuq və ya isti olması bəhanəsi ilə mə`rəkədən qaçırdılar. (Allah eləməsin ki, biz də belə olaq) "Nəhcül-bəlağə"də deyilir: "Allaha and olsun, Müaviyənin mənimlə müamilə etməsini istəyirdim; sizdən 20 nəfərini alsın və öz səhabələrindən birini mənə versin!"

Ramazan ayının gecələrindəki dualardan birində oxuyuruq: *"İlahi, öz yolunda şəhadəti bizə nəsib et".*

Özümüzü elə bir şəkildə islah etməliyik ki, Allah yolunda ölümdən çəkinməyək, hətta bunu arzulayaq. Allahdan xalis niyyət istəməliyik. Onunla sədaqətlə xaliscəsinə söhbət edərək, bizə özünün və İmam Zamanın (ə) razılığına uyğun ölüm və həyat verməsini istəməliyik. Ondan istəməliyik ki, bizi həzrətin köməkçilərindən qərar versin. Həzrətin razılığına səbəb olan işlər görməkdə və bilmədiklərimizi anlamaqda bizə tövfiq versin.

Biz İmam Zamanın (ə) bizə rəhbərlik etməsini və bilmədiklərimizi öyrətməsini istəyirik. Hətta aramızda bir

çox kəslər İmam Zamanı (ə) yuxuda ziyarət etmək arzusundadır. Beləliklə, görülməli işlərdən biri də hər bir insanın İmamın varlığından faydalanmaq üçün onun ziyarətini istəməsidir. Buna görə də Həzrəti ziyarət etmək üçün ləyaqət tapmalıyıq. Əsrin imamının varlığı bizim üçün indi də bərəkət sayılır. Layiq olan kəslər bu bərəkətə nail olurlar: *"Həl iləykə yəbnə Əhmədə səbilun fə tulqa? Həll yəttəsilu yəvmuna minkə biğədihi fənəhza? Məta nəridu mənahiləkə ərrəyyətə fənərva? Məta nəntəfiu min maikə fəqəd taləs-səda? Məta nucadikə və nuravihukə fənuqirrə əynən məta tərana və nərakə".*

Allah əsrin imamını tanımaq və onun qədrini bilmək üçün bizə tövfiq versin; ona məhəbbət üçün tövfiq, zühuru və hökumətinin həqiqi intizarını bizə nəsib etsin; bizi qeybət zamanı öz vəzifələrimizlə tanış etsin. Qeybət və zühur zamanı hüzurundan istifadə etmək üçün bizə tövfiq əta et, ya Rəbb!

"Pərvərdigara, rəhmət göndər Məhəmməd və onun ailəsinə, və`d etdiyini gerçəkləşdir. Pərvərdigara, bərpa et haqq ayinini, ucalt də`vətini, onun düşməni və öz düşmənin üzərində yardım buyur. Pərvərdigara, bizim salamımızı ona yetir, öz razılığınla bizə minnət qoy, bizə mehr və rəhmətini bəxş et. Pərvərdigara, bizi onunla dostluqdan faydalandır, onun dəstəsində və bayrağı altında məhşur et".

Amin ya Rəbbəl aləmin!

## ÜÇÜNCÜ HİSSƏ

## *ƏBU-HƏMZƏ SOMALİ DUASINDAN SEMƏLƏRİN ŞƏRHİ*

**(1)**

***"Həmd olsun Allaha ki, Ondan başqasını çağırmaram. Əgər Ondan başqasını çağırsam, duam qəbul olmaz. Həmd olsun Allaha ki, Ondan başqasına ümidim yoxdur. Əgər başqasına ümidvar olsam, ümidim doğrulmaz".***

### *ƏBU-HƏMZƏ DUASI*

"Əbu-Həmzə Somali" duası adı ilə tanınan və ramazan ayının səhərləri oxunan bu dua imam Əliyyibnil Hüseyndən nəql olunmuş şərafətli və dəyərli dualardandır.

Bu duanı imam Səccad (ə), imam Baqir və imam Sadiqin (ə) səhabələrindən olan Əbu-Həmzə imam Səccaddan nəql etmişdir. Əbu-Həmzə zəmanəsinin böyüklərindən olmuşdur. Ona zəmanənin Salmanı deyirdilər. Elə bu böyük dua özü onun şəxsiyyət və mə`rifətini göstərir.

Mərhum Məclisi "Biharul-ənvar"da (98-ci cild, səh.82, 2-ci rəvayət) bu duanın sənədi haqda belə nəql edir: Həsən ibn Məhbuba istinad edən Əbu Məhəmməd Harun ibn Musa (hər ikisi böyük rəvayətçilərdəndir) Əbu-Həmzə Somalidən belə nəql edirlər: Həzrət Əli ibn Hüseyn (ə) ramazan gecələrində bütün gecəni namaz qılar və səhər açıldıqda bu duanı oxuyardı.

Bu duanın “Əbu-Həmzə” adı ilə tanınmasının səbəbi onu Əbu-Həmzənin nəql etməsi, ya da onu imam Səccadın (ə) Əbu-Həmzəyə öyrətməsidir.

Əbu-Həmzə kimdir? Əbu-Həmzə Sabit ibn Dinar Kufə əhli və Somalə qəbiləsindən idi. Bə`ziləri deyirlər ki, o Bəni-Səl qəbiləsindən idi, lakin Bəni-Somali arasında evi olduğu üçün Somali kimi tanınmışdı. Əbu-Həmzə imam Səccad (ə), imam Baqir (ə) və imam Sadiqin (ə) müasiri olmuş və onlardan rəvayət nəql etmişdir. Bə`zilərinin fikrincə, o imam Kazimin (ə) də xidmətinə yetişmişdir. Onlardan nəql olunub ki, o, səhabələrin yaxşılarından və hədis nəql etməkdə e`tibarlı şəxslərdən idi. Həmçinin nəql olunur ki, imam Sadiq (ə) buyurdu: “Salman öz dövründə necə idisə Əbu-Həmzə də öz dövründə elə idi.”[1]

Maməğaninin “Rical”ında Davud Rəqqidən nəql olunur: Əmirəl-mö`mininin (ə) qəbrinin ziyarətinə gəlmiş xorasanlı bir nəfər deyir: Əmirəl-mö`mininin (ə) ziyarətindən sonra Kufəyə gedib, qoca bir kişinin ətrafında cəmləşib onu dinləyən bir dəstə gördüm. Yaxınlaşdıqda onların şiə olduğunu anladım. Qoca kişinin kimliyini soruşdum. Dedilər: “Əbu-Həmzədir”. Mən də oturdum. O danışdığı vaxt bir ərəb dedi: “Mədinədən gəlmişəm, Cə`fər Sadiqin (ə) dünyasını dəyişdiyini gördüm”. Əbu-Həmzə bu sözləri eşidib ah çəkdi və təəssüf etdi. Sonra soruşdu: “Vəsiyyət etdimi?” Ərəb dedi: “O oğlu Abdullah, Musa və Mənsur haqqında vəsiyyət etdi”. Əbu-Həmzə dedi: “Şükür olsun Allaha ki, bizi çaşqın vəziyyətdə qoymadı. Bizi kiçiyə yönəltdi, böyüyü tanıtdırdı, böyük işi örtülü saxladı”. Sonra Əmirəl-mö`mininin (ə) qəbri kənarında namaz qıldı. Mən ona yaxınlaşıb dediyi sözlərin mə`nasını

---

[1] Nəcaşi, “Rical”, səh.289-290, Beyrut nəşri.

soruşdum. Dedi: "Böyüyün bədən eybi var (ona görə imam ola bilməz), kiçiyin adını ona görə çəkir ki, onu özünə canişin seçmişdir . . . " Sonra xorasanlı kişi Mədinəyə gedib İmam Kazimin (ə) hüzuruna yetişir. Məsələni ondan soruşur. Həzrət buyurur: "Məgər Əbu-Həmzə Əmirəl-mö`mininin (ə) qəbri kənarında sizə demədimi? Qəlbi Allah nuru ilə işıqlanan mö`minin əməli kamildir".

Bu hədislər Əbu-Həmzənin məqamını göstərir. Ümumi şəkildə imamlar səhabələrin tutumunu nəzərə alaraq onlara göstəriş vermişlər. Bu duanın əhəmiyyət və əzəmətini dərk edən kəs Əbu-Həmzənin məqam və kamalından xəbər tutar.

(Biz bu duanı mərhum Hacı Şeyx Abbas Qumminin "Məfatihul-cinan" kitabından nəql edirik.)

## *ALLAH İLƏ MƏXLUQ ARASINDA TƏKVİNİ ƏLAQƏ*

İmamlardan nəql olunmuş dualar çox sadə şəkildə bəyan olunsa da, üstün mətləbləri bəyan edir. İnsan bu dualar haqda düşünməli və onlardan faydalanmalıdır. İnsanın halı hər nə qədər münasib olarsa, duadan daha çox istifadə edib bəhrələnə bilər. Bə`zi dualar bə`zi Qur`an ayələri kimi bizim dərk edə bilməyəcəyimiz məzmuna malikdir. Lakin bə`zən bu sayaq dualara diqqət yetirmək insan üçün faydalı olur; məsələn, "İftitah" duasında oxuyuruq:

"Həmd olsun o Allaha ki, səma və sakinləri Onun qorxusundan ildırım kimi fəryad çəkirlər; yer və əhli Onun qorxusundan lərzəyə gəlir; dəryalar və Onun dərinliyində üzən hər nə varsa, Onun qorxusundan cuşa gəlib, fəryad qoparmaqdadır".

Qur`anda deyilir: ***"İlıdırm və bütün mələklər Allahın qorxusundan Onu təsbih edirlər."***[1] ***"Göylərdə yerdə nə varsa, hamısı Allahı təsbih edir."***[2] ***"Onu təsbih və sitayiş etməyən heç bir mövcud yoxdur. Lakin siz onların təsbihini anlamırsınız."***[3]

Bunlar bizim tam surətdə dərk etməkdə aciz olduğumuz hallardır. Təfsirçilər də adətən bu növ ayə və duaların mütəşabeh olduqlarını bildirirlər. Bə`ziləri isə öz düşüncələri qədərində izah verirlər. Lakin bu mətnlər məxluq ilə Allah arasında olan bir həqiqətdən danışır. Bu əlaqəni güclü bir cazibəyə oxşatmaq olar. Allah bəndələrini təkvini şəkildə özünə tərəf çəkir. Hər bir mövcud öz nuru, elm və idrakı həddində Allah ilə öz arasında olan əlaqəni təkvini şəkildə dərk edir. İnsanın təkvini rabitədən xəbər tutması onu başqa varlıqlardan fərqləndirən ilahi imtiyazdır. O ixtiyari olaraq bu əlaqəni gücləndirib Allaha doğru hərəkət edə bilər.

## *ƏYLƏNCƏLƏR TƏKVİNİ RABİTƏNİ DƏRK ETMƏK ÜÇÜN MANEƏDİR*

İnsanlar, adətən, öz maddi və dünyəvi əyləncələri səbəbindən onların vücudunun dəyrinliyində kök atmış təkvini rabitəni unudurlar. İl boyu fərdi və ictimai çətinliklər və məşğuliyyətlər səbəbindən bu rabitəyə diqqət yetirmək üçün tövfiq tapmırıq. Mübarək ramazan ayında isə dua və münacat üçün daha çox tövfiq olduğundan insanın bir qədər maddi həyatdan çəkinib Allahı düşünməsi üçün fürsət yaranır. Beləcə, insan öz zatı səfası

---

[1] "Rə`d" surəsi, ayə 13.
[2] "Cumə" surəsi, ayə 1; "Təğabun" surəsi, ayə 1.
[3] "İsra" surəsi, ayə 44.

həddində ilahi əzəmət cilvəsini müşahidə edir, onun adlarını camal və kamal sifətlərini anlayır.

Allahın camal və cəlal sifətlərini dərk etməyin xüsusi cazibəsi var. İnsan Allahla ünsiyyət tapır və bu halın ondan uzaqlaşmasını istəmir. Allahın əzəmətini dərk edir və ixtiyarsız olaraq səcdəyə düşür, haqqın qarşısında kiçilir. Bu halı əldə etməklə (müəyyən mə`rifət mərhələsinə çatmaqla) insan elə bir ləzzət duyur ki, onun qarşısında dünyəvi və maddi ləzzətlər heç nədir. Bu cür ləzzətlərə çatmış şəxslər keçmişdə çox olub, indi də az deyil.

İnsan öz diqqətini maddiyyatdan Allaha doğru yönəldərsə, vəsfolunmaz dərəcədə özü ilə Allah arasında cazibə hiss edər. Bu zaman özünü Allaha və Allahı özünə yaxın görər. Allah bizdən uzaqda deyil. Allah Qur`anda buyurur: ***"Biz insana boyun damarından da yaxınıq."***[1] Lakin pis əməllərimiz ilə Allahdan uzaq düşməyimiz üçün səbəb yaradırıq. İnsan pis əməlləri, şeytani və nəfsani arzularından əl çəkib dünyəvi və qeyri-ilahi həvəsləri özündən uzaqlaşdırarsa, Allaha yaxınlaşar.

İmam Səccad (ə) həmin Əbu-Həmzə duasında buyurur: ***"İlahi, bilirəm ki, Sən bəndələrindən gizli deyilsən. Onlar öz əməlləri ilə Səninlə öz aralarında hicab yaradıblar".***

## *ALLAHIN MEHRİBANLIĞINI DÜŞÜNMƏKLƏ ONA QARŞI MƏHƏBBƏTİN ARTMASI*

Yaxşı olar ki, insan bu duanın məzmununa diqqətli olsun, ramazan ayının gecələrində imam Səccadın (ə) dua üçün əlini Allah dərgahına necə qaldırdığını təsəvvür etsin. Bəli, imam öz Allahı ilə raz-niyaz edirdi: ***"Həmd olsun***

---

[1] "Qaf" surəsi, ayə 16.

***Allaha ki, yalnız Onu çağırıram. Əgər başqasını çağırsam, mənə cavab verməz".***

Bə`zi vaxtlar ümidimizin doğrulmaması Allahdan başqasına ümid bağladığımıza görədir. Buna görə də imam Səccad (ə) buyurur: ***"Həmd olsun Allaha ki, Ondan başqa heç kəsə ümidim yoxdur. Əgər başqasına ümidvar olsaydım, ümidimi doğrultmazdı".***

Başqa bir yerdə isə Allaha belə ərz edir: ***"Səndən başqasına necə ümid bağlaya bilərəm ki, hər bir xeyir və yaxşılıq Sənin əlindədir?"***[1]

Bu sözləri imam Səccadın (ə) adından deməliyik. Yalnız onun kimi kəslər Allahla bu cür söhbət edib, belə bir iddiada ola bilər. Biz isə öz tərəfimizdən belə dua etmək üçün lazım olan məqama çatmamışıq.

***"Həmd olsun Allaha ki, mənə qarşı həlimdir və mənimlə elə rəftar edir ki, guya heç bir günah etməmişəm".***

Əlbəttə, unutmamalıyıq ki, Allahın bir bu qədər həlimliyi və bağışlaması bu dünyaya məxsusdur. O bu işi ilə insanın pis əməllərinin aqibətini tə`xirə salır ki, insan qayıtsın və pis əməllərindən peşiman olsun. Günahkar insana elə bir mehr-məhəbbət göstərilir ki, sanki o Allahın sorağınca gəlmiş bir dostdur; Allah ona "dəfələrlə mənlə müxalif oldun və günah etdin" demir. Onu rədd etmir, əksinə onunla heç bir günah etməmiş şəxs kimi rəftar edir.

İnsan bu həqiqətləri düşündükdə Allah ilə onun arasında olan cazibə güclənir və onun Allaha qarşı məhəbbəti çoxalır. Bununla da, Allahla daha çox söhbət edib Onunla əlaqə yaratmaq istəyir. Pis işlərdən çəkinməyə, dünyəvi və maddi işlərə olan əlaqələrdən

---

[1] "Məfatihul-cinan", Münacati Xəmsə Əşərə, 4-cü münacat.

uzaqlaşmağa hazırlaşır; çünki həqiqi əlaqənin yalnız Allaha aid olduğunu anlayır. Ümidləri və insanın hacətlərini doğrulda bilən yeganə kəs Allahdır. Bu lətif mə`naya diqqət yetirdikdə tədricən insan ilə Allah arasında olan pərdələr götürülür və insan öz tutumu qədərində Allaha yaxın olduğunu hiss edir. Allah da onun səsini eşidir və onun istəklərinə müsbət cavab verməyə hazır olur. "İftitah" duasında Allah belə vəsf olunur: "Əta və bəxşişlə xalqa yardım əli açılmış kəs".

Beləliklə, Allah öz inayət süfrəsini xalq üçün açmışdır; biz öz ixtiyarımızda olan əməllərlə Allahın feyzlərindən bəhrələnmək üçün özümüzdə hal yaratmalıyıq. O, bəndələrinə qarşı xəsis deyil. Yaratdığımız çətinliklər və məşğuliyyətlər səbəbindən bu cür məsələləri düşünmək üçün fürsət tapmırıq. Lakin Allah hər yerdə və hər zaman hazırdır. Əgər Onu çağırsaq, səsimizi eşidib cavab verəcək. Qüdsi rəvayətdə nəql olunur ki, Allah buyurdu: "Gecənin qaranlığı və gündüzün işıqlığında Mən onunla pıçıltıdayam."[1] Bəndənin Allahla söhbət etməsi əvəzinə Allah onunla söhbət edir. Bəndə Allahın dostu olarsa, Allahı unutduqda Allah onun qəlbinə öz zikrini salacaqdır. Allahın bəndələrinə münasibətdə gizli və aşkar lütfləri bəyan olunmaz dərəcədə çoxdur. Biz pak imamlar sayəsində bu növ halətlər və inayətlərdən xəbər tutmuşuq. İlahi feyzlər xırmanından pay götürmək üçün dua oxuyub tələblərimizi bildiririk ki, bəlkə Onun inayətinə çataq və çirkinliklərimizi təmizləsin. Biz öz əl-ayağımıza elə bir bənd vurmuşuq ki, Allaha və Onun köməyinə ümid yeri olmasa, özümüzə nicat verə bilmərik. İnsan bu cür mə`nəvi hallar əldə edib onların şirinliyini dadsa, başqa işlərə qarşı

[1] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 77-ci cild, səh.24, 6-cı rəvayət.

e`tinasız olacaq. Bu sayaq halları əldə etmiş ilahi övliyalar deyirlər:

**"Ey mənim Allahım, Sənin ilhamınla qəlblərdən keçən zikrin necə də ləzzətlidir. Qeyb pərdələrindən Sənə doğru yönələn düşüncələr necə də şirindir! Məhəbbətinin tamı necə də xoş, Sənə yaxınlıq şərbəti necə də dadlıdır!"**[1]

Beləliklə, dua etməliyik. Əgər bacarmasaq ən azı özümüzü həqiqi dua edənlərə oxşadaq. Həqiqi münacat edən şəxslər kimi əməl edək ki, Allah bizə də öz inayətini şamil etsin. Bə`zən Allah mö`min bəndələri kimi əməl edən kəsləri sevir. Rəvayətdə bildirilir ki, Fir`onun sarayında Fir`onu güldürmək üçün həzrət Musanın tərzini çıxaran bir təlxək vardı. Yun paltar geyinib, əlinə bir çubuq götürüb, Fir`onun qarşısında dayanır və deyirdi: "Mən peyğəmbərəm, Allah tərəfindən gəlmişəm, ya iman gətir, ya belə et, ya da elə et". Rəvayətə görə, Allah Fir`on və onun yanındakıları qərq etdiyi zaman bu təlxəyə toxunmadı və belə buyurdu: "O özünü bizim bəndəmiz və dostumuza oxşadan bir kəsdir. Buna görə də onu qərq etmədim".

Beləliklə, özümüzü Allahın dostlarına oxşadaq, onlar oxuduğu cümlələri təkrarlayaq ki, Allah buna görə bizə öz inayət və lütfünü şamil etsin.[2]

***"İlahi, Sənə doğru səfərdə azuqəmiz az olsa da, sənə e`timadda yaxşı gümanımız çoxdur. Günahlarımız bizi əzabınla qorxutsa da, kəraminə olan ümidimiz bizə intiqamından arxayınlıq müjdəsi verir."***[3]

---

[1] "Məfatihul-cinan", "Münacati-xəmsə əşərə", 12-ci münacat.

[2] bax: "Biharul-ənvar", 11-ci cild, səh.174, 19-cu rəvayət.

[3] "Məfatihul-cinan", İmam Səccadın "Xəmsə əşərə" münacatından götürülmüş "Rağibəyn" münacatı.

**(2)**

***"Ey mənim Ağam, Səni günahların lal etdiyi bir dillə çağırıram; Pərvərdigara, Səninlə xətaların həlak etdiyi qəlb ilə raz-niyaz edirəm; İlahi, Səni qorxan, həvəsli, ümidvar və həyəcanlı bir qəlblə çağırıram. Ey mənim Ağam, günahlarımı düşündükdə azhuzar edirəm, kərəminə nəzər saldıqda isə həvəslənib ümidvar oluram. Beləcə, mehribanların ən üstünü olduğun üçün məni bağışlayarsan. Əgər əzab etsən də, zülm etməmisən!"***

## DUADA ALLAHIN SİFƏTLƏRİNƏ DİQQƏT

Dua əslində insan tərəfindən Allaha qarşı bir diqqət və bəndəlik əlaqəsinin güclənməsidir. Bu əlaqədə bir tərəfdə böyük Allah, o biri tərəfdə isə günahkar bəndə dayanır. Bəndə öz günahlarını düşündükdə onda xəcalət hissi yaranır. Allahın geniş rəhmətinə diqqət yetirdikdə isə ümidvar olur. Bu ümid və qorxu halı insanda həmişə olmalıdır.

Şərafətli dualarda bu nöqtəyə çox diqqət göstərilmişdir. Dua edən həmişə özünü qorxu və ümid arasında görməlidir. Günahlarını gördükdə dili tutulur, peşimançılıq çəkir, başqa bir tərəfdən isə Allahın geniş rəhmətinə nəzər salıb ümidvar olur, Onun camal sifətlərinə tamaşada qərq olur, sərbəstlik taparaq dili açılır, söhbətə başlayır və Allahın rəhmətini diləyir. Buna görə də, imam Səccad (ə) Allahın dərgahına belə ərz edir:

"Ey mənim Ağam, Səni günahların lal etdiyi bir dillə çağırıram? (Günahlarımı düşündükdə xəcalətin şiddətindən səninlə söhbət edə bilmirəm.) Ey mənim Allahım, Səninlə xəta və günahların həlak etdiyi bir qəlblə münacat edirəm.

(Elə bir qəlblə ki, xəta və günahlar onda ümid yeri qoymayıb.)

Elə bu mövzu "Xəmsə Əşərə" münacatında qeyd olunur: ***"Ey Allah xəcalətdən dili tutlmuş zəlil bəndənə rəhm et".*** Sonra ərz edir: ***"Ey mənim Ağam, günahlarıma baxdıqda nalə çəkirəm, əfv və kəraminə nəzər saldıqda rəhmətin məni tamaha salır (dilim açılır)".***

Bu mövzuya uyğun sözləri imam Hüseyn (ə) "Ərəfə" duasında deyir:

"Ey İlahi, rüsvayçılığım dilimi nə qədər lal etsə də, Sənin kərəm və böyüklüyün nitqimi açır. Pis sifətlərim məni mə`yus etsə də, Sənin sonsuz ehsanın məni tamaha salır!"

## *"QƏBZ" VƏ "BƏST" HALLARI, İLAHİ CƏMAL VƏ CƏLAL SİFƏTLƏRİNİN TƏCƏLLASI*

Deyildiyi kimi, Allah ilə insan arasında təkvini rabitə vardır. Allah insana lütf etdikdə, insanın üzünə qapı açıldıqda o ucala bilər, Allah ilə münacat edib Onunla ünsiyyət yarada bilər. Daha aydın olmaq üçün anasının haqqında xəta etmiş, lakin ondan başqa heç bir sığınacağı olmayan bir uşaq təsəvvür edin. Uşaq nə qədər xətakar olsa da, anadan başqa heç bir sığınacaq axtarmır. Bəndə də Allaha olan ehtiyacını düşündükdə günahkar olmasına baxmayaraq, Onun rəhmətinə sığınmaqdan başqa heç bir çarə görmür. Bu halda bə`zən Allahın cəlal və əzəməti, bə`zən isə əfv, rəhmət və cəmal sifətləri aşkar olur. İlahi övliyalar öz məhbubları qarşısında iki halda olurlar. Bə`zən Allahın cəlal sifətlərinə diqqət yetirir və ilahi əzəmətə qərq olub özlərini alçaqlıq və kiçikliyin son həddində görürlər; ilahi qüdrətdən qorxuya düşürlər. Onun qorxu və əzəməti bütün vücudlarına dolur.

Terminalogiyada “qəbz” adlanan bu halda bəndənin dili tutulur, qəlbinin tutulduğunu və ona bir pərdə çəkildiyini hiss edir. Lakin bə`zən Allahın camal sifətlərini düşünərək Onun camal sifətlərinin tamaşasına qərq olur və “bəst” halı tapırlar. Allah ilə söhbət edib Onunla dərdləşmək istəyirlər. Bu halda bəndənin dili açılır və Allah ilə söhbət etməkdən ləzzət alır. Bu hala terminalogiyada “dəlal” deyilir, yə`ni naz, işvə; bu halda bəndənin dili açılır, Allah ilə elə söhbət edir ki, guya öz təsəvvüründə və sözlərində onu təhdid edir. (pənah Allaha) İmam Səccad (ə) həmin Əbu-Həmzə duasında Allaha ərz edir:

***“İlahi, əgər məni cəhənnəmə aparsan onun sakinlərinə (və düşmənlərinə) deyəcəyəm ki, mən Səni sevirəm!”***

Başqa bir yerdə isə deyir:

***“İlahi, əgər məni behiştə aparsan, Sənin peyğəmbərin xoşhal olacaq. Lakin cəhənnəmə aparsan Sənin düşmənin (şeytan) sevinəcək. Allaha and olsun, mən bilirəm ki, Sənin üçün peyğəmbərinin şadlığı şeytanın şadlığından daha əzizdir”.***

Yə`ni, mən arxayınam ki, Sən peyğəmbərinin şadlığını düşməninin sevincindən üstün tutduğun üçün məni cəhənnəmə göndərməyəcəksən.

Bu iki halda dua edənin dili tamamilə fərqli durumdadır. “Bəst” halında dil naz, işvə halında olur. Lakin “qəbz” halında qorxu dua edənin bütün varlığını əhatə edir və danışmağa qüvvəsi qalmır. Bu halda bə`zən kamil mə`rifət sahiblərində qəşş və özündən getmə halı yaranır. Həzrət Əli (ə) və imam Səccad (ə) haqqında bu növ mövzular çox nəql olunmuşdur. Böyüklərdən nəql olunmuş bu dualarda uyğun iki halın tə`sirlərini tamamilə əldə etmək olar. Xüsusi ilə “Əbu-Həmzə”, “Kumeyl”,

"Səbah" dualarında, "İmam Hüseynin (ə) Ərəfə duası", "Münacati Xəmsə əşərə", "Səhifeyi Səccadiyyə" və başqa kitablardakı bir çox dualarda "qəbz" və "bəst" halının tə`sirlərini müşahidə etmək olar.

İmam Səccad (ə) Əbu-Həmzə duasının bir hissəsində buyurur: ***"Əgər məni belə bir halda qəbrə aparsalar, məndən də pis halda kimsə olacaqmı?"***

Başqa bir yerdə isə deyir:

"Əgər məni cəhənnəmə aparsan, düşmənlərinə deyəcəyəm ki, Allahın dostu idim!"

Bununla sanki Allaha demək istəyir: "Hamıya deyəcəyəm ki, Allah dostunu cəhənnəmə apardı!" Əlbəttə, bu sözləri demək bizim üçün münasib deyil. Yalnız kamil mə`rifətə çatmış şəxslər naz-qəmzə üzündən belə sözlər deyə bilər.

Bunlar Allahın camal sifətlərinin müşahidəsi nəticəsində ilahi övliyaların əldə etdiyi "dəlal" (naz etmək) halından nümunələrdir.

Bu məzmun yaxınlıqlarından aydın olur ki, heç bir halda Allahın rəhmətindən mə`yus olmaq olmaz. Eyni zamanda, insan özünü Allahın qəzəbindən amanda bilməməlidir. İnsan həmişə qorxu və ümid arasında olmalıdır; Allah ona əzab verərsə, buna layiq olduğunu düşünməli, başqa bir tərəfdən, bütün günahları bağışlanarsa Allahdan heç bir şey azalmayacağını bilməlidir:

"Bağışlayanların ən yaxşısı olduğun üçün mənim günahımı əfv edirsən. Günahlarımı bağışlayıb məni əzaba düçar etsən, yenə də zülm etməmisən".

Mö`min bəndə bu sözləri təkrarlamaqla özünü düzəldib həmişə qorxu və ümid arasında olmalıdır. Bununla da, nə təkəbbürlü olub Allahın qəzəbindən

qəflətdə qalmaz, nə də Onun rəhmətindən mə`yus olmaz; Çünki bunların hər ikisi böyük günahlardandır.

Allahın saleh bəndələri, hətta övliya və mə`sum peyğəmbərlər qorxu halına düşdükdə vəsfolunmaz dərəcədə lərzəyə gəlirdilər. Əmirəl-mö`minin (ə), imam Səccad (ə), həmçinin başqa imamlarda münacat zamanı qəribə qorxu halı yaranırdı; onlar bə`zən bu qorxunun şiddətindən qəşş edirdilər. Digər bir tərəfdən isə Allahın fəzl və rəhmətini düşündükdə çox sərbəst olurdular, öz anasının qucağında naz edən uşaq kimi! Bu iki hal bir-birinə müxalif olmamalıdır. İnsan Allahın rəhmət və fəzilətinə nəzər saldıqda öz kiçikliyini və günahlarını unutmamalıdır. Allah ilə bəndə arasında əlaqənin yaranması üçün bu iki hal şərtdir.

Biz də imamların dua və münacatlarda bizə öyrətdiyi kimi özümüzü tərbiyə etməliyik: Həm öz kiçikliyimiz və xətalarımızı, həm də Allahın lütf, əfv və rəhmətinin genişliyini, düşünməliyik.

## *GÜNAHLARIN E`TİRAFI ALLAHA YAXINLAŞMAQ SƏBƏBİDİR*

Allah bəndələrinin öz günahlarını e`tiraf etməsini sevir. Bu e`tirafın Allah üçün heç bir faydası yoxdur. Bəndə öz günahlarını e`tiraf etsə və ya etməsə Allahın hakimiyyət və səltənətində bir şey artıb-azalmır. Allahın bəndənin günahını e`tiraf etməsini istəməsi onun öz kiçiklik və günahlarından xəbərdar olub Allahın əfvini daha çox hiss etməsinə görədir.

Həqiqətdə insan öz xətalarını və kiçikliyini e`tiraf etməklə ilahi əfvin ləzzətini dadır. İnsan öz kiçikliyini dərk etməsə, ilahi əfvin tamını dada bilməz. Çünki insan öz günahlarını hər nə qədər çox düşünsə və kiçikliyini dərk etsə, Allahın əfvi onun üçün daha ləzzətli olar və Onun rəhmətini daha çox dərk edər.

Bə`zi dualarda müxtəlif ifadələrlə müəyyən mə`nada Allahın rəhmətini cuşa gətirən bəyanatlar göstərilmişdir; insan Allaha tə`sir etmir, əksinə, insan özü ilahi rəhməti qazanmaq üçün hal tapır; məsələn, bu dualardan birində deyilir: "İlahi haqqında bu qədər lütf etdiyin bəndəyə necə əzab edəcəksən? Onu yaradan kimi, hətta təvəllüdündən də əvvəl ehtiyacları üçün lazım olan vasitələri hazır etdin; onu çeşidli ne`mətlərinlə bəslədin; günah etdiyi zaman ona bağışlanma və əfv ümidi verdin. Sənin rəhmət və lütfünə ümidvar olmaq üçün onu tövbəyə də`vət etdin. Onu də`vət etdin və öz məhəbbətindən qəlbinə o qədər əta etdin ki, Sənin ibadətgahlarına tərəf tələsirdi. Sənin rəhmətinə nəzər salır və qorxundan ağlayırdı".

Bu dualar həqiqətdə insana Allahı xatırladır; insanda ilahi rəhməti dərk etmək üçün iste`dad yaradır, başqa sözlə, Allahın rəhmətini cuşa gətirir.

Beləliklə, bə`zən fürsət yarandıqda insanın öz günahlarını sayıb, eyni zamanda, Allahın sonsuz lütfünü düşünməsi münasibdir. İnsan bu yolla ömrünün əvvəlindən nə qədər günah etdiyini və Allahın istəkləri ilə müxalif olduğunu yada salır; bu günahların hər biri üçün illərlə əzaba düçar ola bilər. Lakin Allah onların hamısını görməməzliyə vurub, həmişə öz rəhmətini, onun üçün cari etmişdir.

Bu e`tiraflar insanda ilahi rəhməti dərk etmək üçün iste`dadın yaranmasına səbəb olur; çünki insan öz fəqirlik

və biçarəliyini hər nə qədər çox dərk etsə Allah qarşısında bir o qədər çox tə`zim edər və Onun lütf və fəzlini əldə edər.

***"İlahi, fəqirlik və biçarəliyimi e`tiraf etməklə Sənin dərgahına üz tuturam."*** [1]

Allahla bizim aramızda olan hicab təkəbbür və qürurumuzdur. İnsan bu pərdələri yırtıb özünü olduğu kimi, biçarə və kiçik görərsə, Allahın geniş rəhmətinə və bir çox böyük ne`mətlərə çatar.

Qur`an buyurur: ***Həzrət Yunus öz səhvini e`tiraf etdiyi zaman Allahın rəhmət və diqqətinə nail oldu: "Zənnun (öz qövmü) arasından qəzəblənib getdiyi vaxt elə güman etdi ki, biz onu sıxıntıya salmayacağıq. (Amma sıxıntıya düşdüyü an) Zülmət içində səslədi: "(Pərvərdigara) Səndən başqa mə`bud yoxdur, Sən pak-pakizəsən, mən sitəmkarlardan oldum."*** [2]

Bu zaman Allah onun duasını qəbul etdi: ***"Biz Yunusun duasını qəbul buyurduq və onu qəmdən qurtardıq. Biz mö`minlərə belə nicat veririk!"*** [3]

Beləliklə, Allah qarşısında günahın e`tirafı və kiçiklik göstərilməsi Onun üçün heç bir fayda vermir. Bu vasitə ilə Allahda əvvəlcə olmamış bir şey artmır (Allaha pənah). İnsan öz əməlləri ilə Allaha tə`sir göstərmək üçün çox kiçikdir. Biz hər nə qədər günah etsək və ya hər nə qədər itaət etsək Allaha heç bir tə`sir edə bilmərik. Əksinə, əgər Ona ibadət etsək, öz feyzi ilə bizim iman və mə`rifətimizi artırar, mə`nəvi hal tapmağımıza səbəb olar. Öz günahlarımızı e`tiraf etmək üçün tövfiq tapmağımız Allah tərəfindən əta olunmuş bir lütf və fəzldir.

---

[1] "Məfatihul-cinan", imam Hüseynin "Ərəfə" duası.
[2] "Ənbiya" surəsi, ayə 87.
[3] "Ənbiya" surəsi, ayə 88.

İmam Hüseyn (ə) "Ərəfə" duasında Allaha ərz edir:

***"İlahi, Sənin şə`nin razılığın və sevincinə bais olacaq bir səbəb yaratmağından daha üstündür. Çətin ki, mən Sənin razılığını cəlb edə biləcək bir iş görə biləm!"***[1]

Allah bəndələrinin işindən tə`sirlənməkdən daha böyük məqamdadır. Həqiqətdə, biz günahlarımızı e`tiraf etmək və Allahın bəyəndiyi işlər görməklə özümüzü Onun rəhmətinə hazır edir və əməllərimizlə özümüzü Onun geniş rəhməti kölgəsinə salırıq. Allahın feyz və rəhməti daim axmaqda olan şəlalə kimidir və insan elə bir iş görməlidir ki, bu rəhmət yolunda dayansın; bu rəhmətdən daha çox istifadə etmək üçün ləyaqət olmalıdır. Yoxsa bizim işimiz Allahda rəhmət yaratmır və ya bizimlə xüsusi rəftar etmək üçün onda hal yaranmasına səbəb olmur. Allahın rəftarı sabitdir. Yaxşı işlər, tövbə, peşimançılıq, yalvarış və dua ilə Allahın rəhmətini dərk etmək üçün özümüzdə ləyaqət yaratmalıyıq; öz vücudumuzun tutumuna ilahi rəhmət əldə edə biləcək qabiliyyət verməliyik. Bu hal isə yalnız Allahın qarşısında kiçiklik və bəndəliyi dərk etməklə hasil olur.

Bu mövzunu nə qədər çox anlasaq, ilahi rəhməti kəsb etmək üçün bir o qədər çox tutumumuz olacaq. İnsan özünü nə qədər ehtiyaclı və kiçik görsə, öz fəqirliyini e`tiraf etsə, Allah tərəfindən ona daha çox lütf olunacaq. Özünü varlı hesab edən kəs Allahdan istifadə üçün Ona yaxınlaşmır. Belə bir insan Allahdan nəsə istəmək üçün özünü ehtiyaclı bilir. Buna görə də Allahın rəhməti ona şamil olmayacaq. Beləliklə, acizlik və ehtiyacın göstərilməsi, Allah qarşısında kiçikliyin e`tirafı əslində Allah tərəfindən daha çox rəhmət əldə etmək üçün öz

---

[1] "Məfatihul-cinan", imam Hüseynin "Ərəfə" duası.

tutumumuzu genişləndirmək üçündür. Əgər daha çox iste`dad, hazırlıq qazansaq Allahın rəhmətindən bir o qədər çox faydalanarıq. Buna görə də, Allah Qur`anda buyurur: ***“Cin və insanı yalnız ibadətdən ötrü yaratdım.”***[1]

Allahın öz bəndələrinin ibadətinə ehtiyacı yoxdur. Lakin bəndəlik bizim öz təkamülümüzə səbəb olan acizlik və ehtiyacın göstərilməsi ilə hasil olur. Allahın feyzlərindən daha çox faydalanmaq üçün bəndəlik və ibadət yolundan istifadə etməliyik.

Bu mövzu da nəzərə alınmalıdır ki, Allah dərgahında acizlik və ehtiyacın göstərilməsi təkcə maddi və dünyəvi işlər yox, axirət işlərinə də aiddir. Maddiyyat və maddi işlərin xeyirini Allahdan istədiyimiz kimi, mə`nəviyyat və axirət işlərini də Ondan istəməliyik; çünki dünya və axirət onlarda olan hər şey Ondandır. O, aləmlərin Rəbbidir.

Kiçiklik və acizliyimizi daha çox hiss etmək üçün Allah onun övliyalarını vasitə seçməyi göstəriş vermişdir. (Onlar Allahın feyzlərinin mövcudlara, həmçinin insanlara nazil olma vasitəsidir.) Beləliklə, ilahi övliyalara yaxınlıq həqiqətdə Allaha yaxınlaşmaqdır. (“İnnə zikrəna min zikrillah”) Övliyalar Allaha bəndəlik etdikləri üçün bu məqama çatmışlar. Onların hansı məqamda olduqlarını gördükdə Allaha bəndəliyin necə də faydalı olduğunu anlayırıq. Anlayırıq ki, Allaha bəndəlik ilə hansı məqamlara çatmaq olar.

Vəzifənin müəyyən olunmasında da Allah bizə kömək etməlidir ki, hansı əməllərin onun razılığına səbəb olduğunu və Onun dostlarının hansı işləri sevdiyini anlayaq. Bu işləri də bizə Allah anlatmalıdır. Bu işləri anlama vasitələrini Allah hazır etməlidir. Bundan əlavə, öz

---

[1] “Zariyat” surəsi, ayə 36.

vəzifəmizə əməl etmək üçün Allah bizə tövfiq əta etməlidir. Əgər hansısa yaxşı və xeyirli bir iş görürksə, bu bizim halımıza şamil olan ilahi lütfdür; Allahı düşünmək, Onu zikr etmək üçün Allah tərəfindən tövfiq lazımdır və bu Allahın özünün əta edə biləcəyi bir ne`mətdir. Buna görə də öz əməllərimizi qiymətləndirməməli və bu əməllərlə hansısa bir məqama çatacağımızı təsəvvür etməməliyik. Çünki bunlar Allahın bizim üçün tə`yin etdiyi vəzifələrdən xaricdir. Düzgün və lazım olan nəticə Allahın iradəsinin əhatəsindədir. İşlərimizin müsbət nəticə ilə tamamlanması üçün Onun iradəsi olmalıdır. Qur`an müxtəlif ayələrdə bu həqiqətə işarə edir. Allah Qur`anda "biz mələkləri sizin köməyinizə göndərdik ki, kafirlərlə döyüş zamanı kömək etsinlər." dedikdən sonra buyurur: ***"Allah mələkləri yalnız müjdə, fəth müjdəsi, qəlblərinizin arxayınlığı üçün göndərdi. Amma bilin ki, qələbə yalnız qalib və hikmət sahibi olan Allah tərəfindəndir."***[1]

Yə`ni hətta mələklər də özləri hansısa bir işi görməyə qadir deyildilər. Müsəlmanların qələbəsinə səbəb olan mələklərin enməsi Allahın istəyi və iradəsi ilə baş tutdu. Allahın iradəsindən xəbərsiz və ya Onun istəyinin əksinə kiminsə bir iş görə biləcəyi təsəvvür olunmasın. Bizim qarşımıza çıxan çətinliklər öz əməllərimizin nəticəsi və pis işlərimizin əvəzidir. Eyni zamanda Allahın lütfünə ümidvar olmalıyıq ki, çətinlikləri bizdən uzaqlaşdırsın. Lakin Allah günahlarımızdan peşiman olduğumuz və ne`mətlərin küfründən əl çəkdiyimiz zaman çətinlikləri bizdən uzaqlaşdırır.

Bütün hallarda Allahın lütfünə ümidvar olmalıyıq. Özümüz və əməllərimizlə qürurlan-mamalıyıq. İslamın

---

[1] "Ənfal" surəsi, ayə 10.

əvvəlindəki müsəlmanlar nə qədər ki, Allaha ümidvar idilər, Onun rəhmətinə qərq olub döyüşlərdə düşmənə qalib gəldilər. Lakin çoxluqları ilə qürurlandıqları zaman məğlub oldular. Qur`an buyurur: "Həqiqətən, siz Bədr döyüşündə az və zəif olduğunuz halda, Allah sizə yardım etdi."[1]

Lakin başqa bir yerdə Qur`an buyurur: "Hüneyn günü qoşununuzun çoxluğuna aldandınız. Bu çoxluq sizə fayda vermədi (məğlub oldunuz)."[2] Bu xəbərlər öz əməllərimizə, maddi vasitələrlə yox, yalnız Allaha güvənməli olduğumuzu bilməyimiz üçündür. Allah kafirləri dünyəvi vasitələrin öhdəsinə buraxmışdı. Lakin mö`minləri yox! Allah özü mö`minlərin qələbəsinin zaminidir. Lakin onların öz imanlarının qorumaları şərti ilə: "Din işlərində süst və qəmgin olmayın; siz ən üstünlərsiniz-əgər imanda sabitqədəm olsanız!"[3]

Beləliklə, öz imanımızın güclənməsi fikrində olmalı, Allahın lütf və mərhəmətinə ümid bəsləməliyik. Heç zaman öz kiçik əməllərimizlə qürurlanmamalıyıq. Belə olduqda şərait hər nə qədər pis olsa da, qorxusuzdur. Çünki yalnız vəzifəyə əməl etməli olduğumuza e`tiqadımız var. Qələbən üçün Allah zəmanət vermişdir.

**(3)**

***"Pərvərdigara, nə qədər əzmlə söz verib özümü itaətinə hazırladımsa, hüzurunda namaza dayandımsa, həmin vaxt məni yuxuya verdin, qəfildən raz-niyaz halını məndən aldın! Pərvərdigara, nə oldu ki, batinimi gözəlləşdirmək, tövbə əhli məqamına yaxınlaşmaq istəyəndə***

---

[1] "Ali İmran" surəsi, ayə 123.
[2] "Tövbə" surəsi, ayə 25.
[3] "Ali-İmran" surəsi, ayə 139.

***qarşıya bir hadisə, bəla çıxdı və əhdimə vəfa qıla bilmədim. O hadisə mənimlə hüzurun arasında pərdə oldu! Ey mənim Ağam, yoxsa məni öz lütf dərgahından qovmuş, bəndəlik xidmətindən uzaqlaşdırmısan?!"***

## *İLAHİ BARİGAH BƏNDƏLƏRİN İBADƏTİNDƏN DAHA ÜSTÜN MƏRTƏBƏDƏDİR*

İnsanın dünyəvi maraqları onun Allahdan və qeyb aləmlərindən xəbərsiz qalmasına səbəb olur. İnsan yer aləmindən çıxıb qüds aləminə nəzər salmaq istədikdə dünyəvi meyl və fikirlər onu bir o qədər məşğul edir ki, dua və münacat halı əldən çıxır. Lakin insanın tələf etdiyi vaxtlarda bə`zən qəlb iştirakı ilə namaz, münacat və dua etməyə müvəffəq olduğu anlar yaranır. İnsan üçün belə anlar qənimət sayılır.

Bə`zən insan özü və başqalarının tövfiqlərinin azlığına nəzər salıb, Allahdan başqa hər şeyi yad edən milyardlarla insanı və cəmiyyəti düşündükdə ilahi dəstgahın nə qədər qərib düşdüyünü fikirləşir! Hətta müsəlmanların da bir çoxu Allah və axirət dünyasından xəbərsizdirlər. Vay halına tamamilə Allaha inanmayan və ya yanlış dinlərə itaət edən kəslərə!

Ariflərdən biri gecə ibadət üçün ayıldıqda qəflət içində yatmış camaatı görüb ilahi dəstgahın nə qədər xəlvət olduğunu fikirləşdi! Lakin sonralar ilham vasitəsi ilə anladı ki, ilahi dəstgah o qədər uca mərtəbədədir ki, hamı ora yol tapmağa müvəffəq olmur.

Beləliklə, çətinliklər və problemlərin çoxluğuna baxmayaraq, Allah bə`zən insana dua və münacat etmək üçün tövfiq verirsə, bunun üçün çox şükür etmək lazımdır. Eyni zamanda ilahi tövfiq əldə edən insan Allah yanında yüksək məqamda olduğunu düşünüb qürurlanmamalıdır.

İlahi tövfiqlər çox şükür və təşəkkür tələb edən ne`mətlərdəndir:

***“İlahi, Sənin zikrinin dilimizə gəlməsi və Səninlə münacat edib, Səni çağırmağımıza icazə verməyin bizə olan ən böyük ne`mətlərindəndir.”***[1]

Ne`mətlər bizə Allahın yanında əziz olduğumuz üçün yox, şükrümüzün qədərinin yoxlanılması üçün verilmişdir. İnsanın qədrini bilmədiyi hər bir ne`mət ondan alınacaq. Beləliklə, ne`mət verilən zaman onun insandan alınmaması üçün qorxu olmalıdır. İnsan axirət və mə`nəvi ne`mətlərin dünyəvi və maddi ne`mətlərdən müqayisəolunmaz dərəcədə üstün olduğunu düşünməlidir.

Həzrət Mə`sumənin ziyarətində Allaha ərz edirik:

***“İlahi, mənə əta etdiyin bu ne`məti məndən geri alma”.***

Namaz və dualarımız ilahi övliyalara təqliddən savay bir şey olmasa da, lakin bu işə tövfiq tapmağımız da qədrini bilməli olduğumuz çox dəyərli bir ne`mətdir. Allahdan bu ne`məti bizdən almamasını və onu artırmasını istəməliyik. Nankorluq nəticəsində ilahi ne`mətlərdən məhrum olan şəxslər çoxdur.

## *İNSANIN İLAHİ YARDIMDAN MƏHRUMLUĞUNUN SƏBƏBLƏRİ*

İmam Səccad (ə) “Əbu-Həmzə” duasının bir yerində Allaha belə ərz edir: “Pərvərdigara, nə vaxt özümü Sənə itaət üçün hazırladımsa, Sənin hüzurunda namaza dayandımsa, Səninlə mincata məşğul oldumsa, məni yuxuya verdin, raz-niyaz halını məndən aldın. Nə oldu ki, hər dəfə batinimi gözəlləşdirmək, tövbə əhlinə qatılmaq

[1] “Məfatihul-cinan”, Xəmsə Əşərə münacatı, 13-cü münacat.

istəyəndə qarşıma bir hadisə çıxdı və əhdimə vəfa qıla bilmədim? Həmin bəla mənimlə Sənə xidmət arasında pərdə oldu. Ey mənim Ağam, yoxsa məni Öz lütf dərgahından qovub, bəndəlik xidmətindən uzaqlaşdırmısan? Olsun ki, bəndəlik haqqını ucuz saydığımı görüb məni uzaqlaşdırdın. Bəlkə də, Səndən üz döndərdiyimi görüb mənə qəzəbləndin və mənim yalançılardan olduğumu görüb lütfündən uzaqlaşdırdın. Olsun ki, ne`mətlərinə şükür etmədiyimi görüb məni məhrum etdin! Bəlkə də, məni elm əhli ilə bir məclisdə görməyib xar etdin? Bəlkə də, məni qəflət əhli arasında görüb öz rəhmətindən mə`yus qoydun? Olsun ki, batil əhli ilə ünsiyyətimi görüb məni onların arasında tənha buraxdın? Bəlkə də, dualarımı eşitmək istəməyib məni Öz dərgahından qovdun... Bəlkə də, xəta və günahlarımı cəzalandırdın, hüzurunda xəcalət çəkmədiyimə görə əvəz verdin”.

Duanın bu hissəsində aydın olur ki, istədiyimiz vaxt dua, münacat və Allaha ibadət üçün hal tapa bilmərik. Təcrübə də sübut edir ki, bu halları əldə etmək tamamilə insanın ixtiyarında deyil. Bir çox hallarda insan hal ilə namaz qılıb, dua oxumaq istəsə də, namaz qılıb və ya dua etdiyini unudur. Duanın bu hissəsindən aydın olur ki, bizim əməllərimiz hal tapmağa və ya ilahi yardımın kəsilməsinə səbəb olur.

Gecə-gündüz batil və faydasız işlərlə məşğul olan insan münacat və namaz vaxtı diqqətini tamamilə Allaha cəmləşdirib, zehninə batil xəyalların daxil olmasının qarşısını ala bilməz. Nalayiq işlər görən, faydasız söhbətlər edən şəxslərlə ünsiyyətdə olduqda bu şəxslərin rəftarı insanın ruhunda tə`sir qoyur. Bununla da dua və münacat halı insandan uzaqlaşır. Saleh bəndələr və alimlərdən

uzaqlaşmaq, həmçinin günah etmək insandan ibadət tövfiqinin uzaqlaşmasına səbəb olur. Bə`zi rəvayətlərdə göstərilmişdir ki, Allah bəndəni günahlarına görə gecə ayılıb ibadət etməkdən məhrum edir. Bu cəza gündüzlər baş vermiş günahın nəticəsi sayılır.

Beləliklə, insan hal ilə dua etmək, qəlb iştirakı ilə namaz qılmaq və Qur`an oxumaq üçün tövfiq tapmaq istəyirsə, əvvəlcədən bu işlər üçün müqəddimə hazırlamalıdır. Əvvəlcədən şərait yaradılmazsa, dua və namaz zamanı münasib hal yaranmayacaq. "Əbu-Həmzə" duasının bu hissəsi bizə tamamilə ehtiyatlı olub nalayiq işlərlə özümüzdən dua halı və ibadət üçün qəlb iştirakını uzaqlaşdırmamağı xatırladır. Gecələr ibadətə nail olmaq istəyən kəslər gündüzlər öz danışıq və əməllərini qorumalıdırlar. Onlar göz və qulaqlarını görülməyəsi və eşildilməyəsi şeylərdən hifz etməli, qəlblərində batil işlərə yer verməməli, təsəvvürlərini puç xəyallardan qorumalıdırlar. Çünki bütün bu hallar qəlbin iştirakına ("hüzuri-qəlbə") mane olur. Buna görə də, insanın bütün çətinlikləri öz əli ilə yaratdığını demək olar. O mə`nəvi ne`mətləri əməlləri ilə özündən uzaqlaşdırır. Bütün bu məsələlərin həllinin açarı onun öz əlindədir.

## *ƏMƏLLƏRİN NƏTİCƏSİ*

İnsanın bu dünyada gördüyü ixtiyari işlərin sonunda iki nəticə durur: Nəticələrdən birincisi bu dünyada, o birisi axirət aləmində görünür. İnsanın yaxşı işlərinin dünyəvi nəticəsi daha çox yaxşı iş üçün tövfiq tapmasıdır. Onun gördüyü pis işlərin nəticəsi isə yaxşı işlər üçün olan tövfiqin ondan alınmasıdır. Bununla da onun üçün günaha daha çox şərait yaranır. Beləliklə, insan iki əsas səbəb görə pis işlər görməkdən çəkinməlidir: Birincisi, axirət əzabı

olan işin axirət nəticəsi, ikincisi, yaxşı işlər görmək üçün tövfiqin alınması və bu dünyada pis işlər görməyə daha çox aludə olmaq. Bu nəticələri düşünməklə insan öz əməllərində daha çox ehtiyatlı olub ilahi təqva yolu tutmalıdır; hər yeməyi yeməmək, hər sözü danışmamaq və ümumiyyətlə, nəfsə uyğun hər işdən çəkinmək lazım gəlir. İnsan öz işlərində Allahın razılığını düşünməlidir. Allaha bəndəlik və təqva yolu ilə əslində ilahi ünsiyyət məclisində iştirak sayılan dua və münacat üçün tövfiq tapmaq olar.

Dünyəvi işlər də belədir; hər kəsi xalq məclisinə buraxmırlar; hər bir şəxs müxtəlif şəxslərlə, dostlarla, tanışlarla əlaqədə ola bilər. Amma onun öz ünsiyyət məclisi xüsusi kəslər üçündür. Müsəlman və Allahla heç bir düşmənçiliyi olmayan şəxslər çoxdur, lakin onlar Allahla ünsiyyət yaratmağa müvəffəq olmurlar. Yalnız Allahı həmişə düşünən və başqaları ilə münasibətdə öz əməl, rəftarlarına daha diqqətli olan şəxslər Allah ilə ünsiyyət məclisində iştirak üçün tövfiq tapırlar.

Ömür boyu səhvlər nəticəsində çirkaba bulaşan şəxslər mübarək ramazan ayında özlərini bu aludəliklərdən təmizləməlidirlər. Çünki ramazan ayında onlara ilahi ziyafət nəsib olmuş və Allahın ünsiyyət məclisinə də`vət olunmuşlar. Bu ayda təqvaya adət etmək lazımdır ki, ramazan ayı qurtardıqdan sonra da təqva davam etsin.

Bu ayın ən böyük bərəkətlərindən biri də insanın ən yaxşı ibadətlərə müvəffəq olmasıdır. Bu ayda insan əməllərinə qarşı daha ehtiyatlı olur. Hər yeməyi yemir, hər sözü danışmamağa çalışır, gözünə və qulağına nəzarət edir və sair. Beləliklə, ramazan ayında bu işlərə nəzarət üçün hər nə qədər çox çalışsa, ramazan ayından bir o qədər çox istifadə etmiş olacaq. Ay tamam olduqdan sonra insan bir

ay tələş sayəsində əldə etdiyi nəticələri qorumaq və ona verilmiş tövfiqlərin davamlı olması üçün çalışmalıdır.

Beləliklə, insan həmişə dua və münacat halında olmaq üçün əvvəlcədən zəmin yaratmalıdır; gün uzunu bir neçə saat dünyəvi işlərdən uzaqlaşıb hal tapmalı, axirət işlərini düşünməli, alimlərin, Allahın saleh bəndələrinin məclisində iştirak etməlidir. Çünki pak və yaxşılarla ünsiyyət Allahı insanın yadına salır. Necə ki, dünyapərəstlər və batil insanlarla ünsiyyət insanı Allahdan xəbərsiz edir! İmamzadələrin, ilahi övliyaların və böyük şəxslərin qəbirlərinin ziyarəti insana Allahı xatırladan və onun diqqətini dünyadan çəkən işlərdəndir.

Əgər azacıq tövfiq nəsibimiz olarsa, qürurlanmamalı və başqalarına alçaldıcı nəzərlərlə baxıb özümüzü ilahi tövfiqə çatmış və kamillik sahibi hesab etməməliyik.

Yaxşı işlər görmək üçün tövfiq tapmaq böyük ne`mətdir. Lakin bu ne`mətin bizdə davamlı başqalarında isə müvəqqəti olacağı mə`lum deyil. Əvvəlcə ibadətkar və itaətkar olub, sonu yaxşılıqla qurtarmayan və günahkar olub, sonda yaxşı aqibətə düçar olan şəxslər çox olmuşdur. Buna görə günahkar şəxslərə də kiçildici nəzərlərlə baxmamalıyıq. Qürurlu və özünübəyənən kəslər Allahın ən böyük düşmənlərindəndir. Rəvayətlərdə göstərilir ki, bə`zən insanların qürurlanmamaları üçün Allah gecə ibadəti üçün tövfiqi onlardan alır;[1] Çünki qürur insana o qədər ziyanlıdır ki, gecə namazı da bu ziyanı aradan götürə bilmir.

***“İlahi, bizi nicat gəmilərinə oturdub münacatının ləzzəti ilə kama çatdır; bizi məhəbbət çeşmələrinə sal, yaxınlıq və məhəbbət şirinliyini bizə dadızdır. Bizi öz***

---

[1] Kuleyni, “Üsuli-kafi”, 2-ci cild, “Ər-riza bil-qəza” babı, 4-cü rəvayət.

***yolunda tələşa və Sənə itaətdə himmətli olmağa yönəlt . Amin ya Rəbbəl aləmin."***[1]

**(4)**

***"Pərvərdigara, əgər boynumu qəhr zəncirinlə bağlasan, bütün xalq arasında ətanı mənə qadağan etsən, bəndələrinin nəzərində rüsvayçılığımı aşkarlasan, cəhənnəm oduna sürüklənməyimi göstəriş versən, mənimlə yaxşılar arasında ayrılıq salsan, yenə də ümidim Səndən qırılmayacaq, rəhmətinə olan ümidim üzülməyəcək, məhəbbətin qəlbimdən çıxmayacaq. Mən heç vaxt dünyadakı bəxşişlərini, eyblərimi örtməyini unutmayacağam".***

## *QORXU VƏ ÜMİD İMAN ŞƏRTİDİR*

Şərif dualarda, xüsusilə mübarək ramazan ayı dualarında çeşidli tə`birlərlə işarə olunmuş məsələlərdən biri ümid və qorxu, onlar arasındakı tarazlıqdır.

Təbii ki, insan ilahi əzəməti dərk etdikdə onda kiçiklik və müt`ilik hissləri oyanır. Əzəmət qarşısında kiçiklik hissi insan psixologiyasındakı səciyyələrdəndir. İlahi əzəməti lazımınca dərk edən insan qorxu hissi keçirməyə bilməz. İlahi övliyalar elə qorxardılar ki, çöhrələrinin rəngi qaçar, vücudları vəsfəgəlməz şəkildə titrəyərdi. Həzrət Əli, imam Səccad və digər mə`sum imamların qorxu halını nəzərə almadan onları düzgün tanıya bilmərik.

Əlbəttə, mö`min şəxs bir bu qədər qorxu keçirməsinə baxmayaraq, həm də heç bir xətaya yol verməmiş kimi Allahın mərhəmətinə ümidvar olur.

---

[1] "Məfatihul-cinan", imam Səccadın (ə) "Xəmsə Əşərə" münacatı, Mutiin münacatı.

İmam Sadiq (ə) buyurur: Həkim Loğmanın övladına vəsiyyətlərindən biri də bu idi: ***"Allahdan elə qorx ki, cin və insin bütün yaxşılıqları qədər yaxşılığın olsa da, Allahın səni cəzalandıracağına inanasan. Ona elə ümidvar ol ki, cin və insin bütün günahlarına batmışsansa da, Allahın rəhmətindən ümidin üzülməsin."***[1]

Çoxsaylı rəvayətlərdə bildirilir ki, mö`minin qəlbində eyni qədər qorxu və ümid olmalıdır. Nə qorxunun çoxluğu mərhəmət ümidini üzməməli, nə ümidin çoxluğu insanı qürrələndirməməlidir. İmam Sadiq (ə) buyurur: ***"Hər bir mö`minin qəlbində iki nur var: qorxu və ümid nuru. Onların hansı biri ölçülsə, o birindən çox gəlməz."***[2]

İmam digər bir rəvayətdə buyurur: "Ariflərin Allahla xəlvəti söhbəti üç əsas üzərində qurulub: qorxu, ümid və məhəbbət. Qorxu elmin, ümid yəqinliyin, məhəbbət mə`rifətin məhsuludur."[3]

## *İMAM SƏCCADDA QORXU VƏ ÜMİDİN KAMİL TƏCƏSSÜMÜ*

İmam Səccad "Əbu-Həmzə" duasında bildirir: ***"Pərvərdigara, əgər boynumu qəhr zəncirinlə bağlasan, bütün xalq arasında ətanı mənə qadağan etsən, bəndələrinin nəzərində rüsvayçılığımı aşkarlasan, cəhənnəm oduna sürüklənməyimi göstəriş versən, mənimlə yaxşılar arasında ayrılıq salsan, yenə də ümidim Səndən qırılmayacaq, rəhmətinə olan ümidim üzülməyəcək, məhəbbətin qəlbimdən çıxmayacaq. Mən***

---

[1] "Üsuli-kafi", 2-ci cild, səh.67, 1-ci rəvayət.
[2] "Üsuli-Kafi", 2-ci cild, səh.67, 1-ci rəvayət.
[3] "Biharul-ənvar", 70-ci cild, səh.22, 22-ci rəvayət.

***heç vaxt dünyadakı bəxşişlərini, eyblərimi örtməyini unutmayacağam”.***

Digər münacat və dualarda da mə`sum imamlardan nəql olunmuş oxşar tə`birlər var. Həzrət Əmir (ə) bir şe`rdə belə deyir:

*Ya rəbb, min il məni əzabə çəksən,*
*Ümidim yenə də qırılmaz Səndən.*

“Kumeyl” duasında belə ərz olunur: “Ey Mövlam, (bəndən) sonsuz helminə ümidli ikən əzab odunda necə qalacaq? Sənin fəzl və kəramətinə göz dikdiyi halda od onu necə yandıracaq?”

Bu tə`birləri oxuyarkən bir qədər düşünüb aydınlaşdırmalıyıq ki, doğrudanmı biz belə dua edə bilərik?

Allahla bu sayaq sədaqətlə söhbət etmək gücümüz varmı? Əgər həqiqətən də qiyamət günü xalqın gözü qarşısında rüsvay edilsək, zəncirlənsək, cəhənnəmə göndərilsək yenə də Allahın rəhmətinə ümid edərikmi? İddia edə bilərikmi ki, məhəbbəti yenə qəlbimizdən çıxmaz, yenə də Ona dua edərik?

Bu sayaq iddialar yetərincə çətindir. Biz səmimi halda bu sözləri deyə bilmərik. Dünyadakı əməl və rəftarlarımız buna şahiddir. Azca çətinliyə düşdükdə Allaha e`tiraz edirik. Nəinki qəlbimizdə sevgi qalmır, hətta, Allah eləməmiş, Ona qarşı kin saxlayırıq. Dünyaya o qədər əsir olmuşuq ki, ondan ayrılığı təsəvvür etmirik.

Bəli, bizim hazırkı halımız bu sayaq iddialara yol vermir. Biz duanın bu hissəsini də başqa hissələri kimi öz dilimizdən oxuya bilmərik. Yalnız imam Səccad və həzrət Əmir (ə) kimi mə`sumlar bu sayaq iddialarda ola bilər. Biz hazırkı tə`birləri yalnız onların dilindən təkrarlaya bilərik.

Hər halda uyğun halı əldə etmək üçün, məqsədə yaxınlaşmaq niyyəti ilə sə`y göstərməliyik.

### *ALLAH MƏHƏBBƏTİNİ QAZANMA YOLU*

a) Allahın ne`mətlərinə diqqət: İlahi məhəbbət insanı itaətsizlikdən uzaqlaşdıran səbəbdir. Bəlalar bizi bürüyən vaxt Allahla yaxınlığı qoruyacaq məhəbbəti necə əldə edək? Nə edək ki, hətta cəhənnəmə sürüklənən vaxt da ümidimiz Allahın mərhəmətindən üzülməsin?

Axirətdə belə bir hal əldə etmək mümkünsüzdür. Uyğun hal dünyada qazanılmalı, axirətdə özünü göstərməlidir.

İlahi məhəbbəti hansı yolla qazanmaq olar? "Əbu-Həmzə" duasında zikr olunduğu kimi imam Səccad belə ərz edir: "(Pərvərdigara) Əgər məhəbbətin qəlbimdən çıxmırsa, bunun səbəbi ne`mətlərini unutmamağım, günahlarıma pərdə çəkdiyini yaddan çıxarmamağımdır". Deyilənlərdən aydın olur ki, qəlbində ilahi məhəbbəti yaşatmaq istəyən kəs daim Allahı və Onun ne`mətlərini xatırlamalıdır.

İslam Peyğəmbəri (s) buyurur: ***"Allahı sevin, O sizi ne`mətləri ilə qidalandırır."***[1]

Qüdsi bir hədisdə nəql olunur ki, Allah-təala Musa ibn İmrana xitabən buyurdu: "Ey Musa, Məni xalqa sevdir" (bir iş gör ki, xalq Məni sevsin). Həzrət Musa (ə) ərz etdi: "Nə edim?" Xitab olundu: "Ne`mətlərimi onlara xatırlat".[2]

İnsan qarşı tərəfdən lütf görəndə təbii şəkildə qəlbində məhəbbət yaranır. Bu lütf çətinlik girdabına düşmüş insana daha çox tə`sir göstərir. Hər bir insan öz həyatında

---

[1] "Biharul-ənvar", 70-ci cild, səh.16, 7-ci rəvayət.
[2] "Biharul-ənvar", 2-ci cild, səh.4, 6-cı rəvayət, 8-ci bab.

başqalarının yardımı ilə qurtulduğu problemlə üzləşib. İnsan bu sayaq lütfü ömrünün sonunadək unutmur və qəlbində həmin şəxsə qarşı məhəbbət yaranır.

Beləliklə, Allaha qarşı məhəbbətli olmaq üçün Onun ne`mətlərini bir-bir yada salmalıyıq. Allahın bol ne`mətlərində qərq olduğumuzdan onları dərk etmir və onların dəyərindən xəbərsiz oluruq. Çətinliklə qarşılaşdığımız və ya bizdən hansısa ne`mətlər alınan zaman belə ne`mətlərimizin olduğunu, lakin onların qədrini bilmədiyimizi anlayırıq.

"Cöşən səğir" duası bu mövzuda yüksək məzmuna malik olan bir duadır. Bu dua insanların mübtəla olduğu çətinlikləri (bizim də bu şeylərə mübtəla olmağımız mümkündür) açıqlayır. Əvvəldə Allahın bizi düşmənlərin pisliyindən necə qoruduğuna işarə edirik:

***«Bir çox düşmənlər mənə ədavət qılıncı çəkdi, kin xəncəri itilədi, qəzəb nizəsi göstərdi, məni öldürmək üçün ölümcül zəhər hazırladı, hədəfə dəyən oxlarla məni nişana aldı, gözləri məni izləyir, yuxuya getmirdi və ürəyində mənə bütün işgəncələri verib ölüm şərbətini dadızdırmaq istəyirdi. (Lakin sən o düşməni məndən uzaqlaşdırdın) Sən zəiflik və çarəsizliyimə nəzər saldın.»***

Sonra buyurdu:

***"Məni ne`mətlərinə şükür edənlərdən və yaxşılıqlarını düşünənlərdən qərar ver".***

Beləliklə, Allahın ne`mətlərini düşünmək, örtdüyü xətaları yadda saxlamaq üçün vaxt ayırmalı, proqram tərtib etməliyik; Allahın ne`mətlərini düşünüb və bu ne`mətlər üçün Allaha sitayiş etməliyik. İmam Hüseynin (ə) buyurduğu kimi, bütün ömrünü ilahi ne`mətlərin şükrünə sərf etsə də, Onun tövfiqi olmadan bir ne`mətin şükrünü yerinə yetirə bilməz. İmam Hüseyn (ə) "Ərəfə" duasında

buyurur: ***«(İlahi) Əgər əsrlərcə ömr etsəm, Sənin tövfiqin olmadan ne`mətlərindən birinin belə şükrünü yerinə yetirə bilmərəm. (Sənin tövfiqin də başqa bir ne`mətdir) Bu ne`mət də yeni və daimi bir şükr istəyir. Şükr etmək və şükr edənlər məqamına çatmaq Allahın mö`min bəndəsinə əta etdiyi ne`mətlərdəndir. Yoxsa bəndə Onun ne`mətlərinin şükrünü necə edə bilər?»***

İmam Səccad (ə) buyurur:

***"(İlahi) Ne`mətlərin o qədər çoxdur ki, dilim onları saymağa aciz, düşüncəm onları dərk etməyə naqisdir. Çətin ki, onları hamısını saya gətirsin. Beləcə, mən bunların fikrini necə edə bilərəm? Sənə şükür demək (Allahın ne`mətlərindəndir) ayrıca bir şükür istəyər. Deməк, hər zaman Sənə həmd və şükür etsəm, bunun üçün ayrıca bir həmd və "şükür etməliyəm!"***[1]

**Əlindən, dilindən gələrsə əgər,**
**Öhdəsindən gəlib əlbət şükr edər.**

Allahın ne`mətlərini daha yaxşı tanıma yollarından biri də özümüzü bu ne`mətlərdən məhrum şəxslərlə müqayisə etməkdir. Bu yolla başqalarının məhrumluğunu Allahın bizə necə böyük ne`mətlər əta etdiyini anlayarıq. Ne`mətləri düşünmək Allaha qarşı məhəbbət yaranmasına və insanda ümidvarlıq və şükür halı icad olmasına səbəb olur.

İmam Səccad (ə) "Əbu-Həmzə" duasının başqa bir hissəsində ilahi ne`mətləri açıqlayaraq deyir:

***"(İlahi) Mən Sənin ərsəyə gətirdiyin yetim bir uşağam, elm əta etdiyin bir nadanam, hidayət etdiyin bir azğınam, izzət və məhəbbət bağışladığın zəlil və rüsvay olmuş bir şəxsəm, arxayın etdiyin bir qorxağam, tox***

[1] "Məfatihul-cinan", "Münacati-xəmsə Əşərə", 6-cı münacat.

***etdiyin bir acam, susuzluğunu yatırdığın bir susuzam, geyindirdiyin bir çılpağam, ehtiyacını ödədiyin bir fəqir və qüdrət verdiyin qüdrətsiz bir şəxsəm, böyük etdiyin bir kiçilmişəm, şəfa verdiyin bir xəstəyəm".***

Bu ne`mətləri düşünmək insanın ne`mət verənə qarşı məhəbbətini artırmaqla yanaşı onun qəlbində ümid yaranmasına səbəb olur. İnsana bir bu qədər ne`mət əta edən Allah onu səbəbsiz olaraq cəhənnəmə salmaq istəmir. O səadət yolunu insanların üzünə açır, lakin bəndələrin tüğyanı və naşükürlüyü Allahın onlarla saleh bəndələr arasında fərq qoymasına səbəb olur. Buna görə də inad edən şəxslərə əzab verir.

b) Allahın eybləri örtməsini düşünmək: Xalqın gözündən uzaqda batdığımız günahlardan camaatın xəbər tutmaması və bizim rüsvay olmamağımız üçün Allah zəmin yaratmışdır. Bu da Allahın ən böyük ne`mətlərindəndir ki, insana qiymət vermişdir. Bə`zən insan xəlvətdə pis bir iş görür, lakin Allah onun günahını örtür və başqa günahlara mane olur. Əks-təqdirdə insan cəmiyyətdə görünə bilməzdi. Beləliklə, imam Səccad (ə) buyurur:

***"İlahi, mənə əta etdiyin ne`mətləri və dünyada örtdüyün eyblərimi unutmayacağam".***

Beləliklə, Allahın məhəbbətini əldə edib onun artması və ilahi əfv və rəhmətə ümidvar olmaq üçün ilahi ne`mətləri hər gün düşünüb, onlar barəsində təfəkkür etmək üçün proqram qurmalıyıq. İlahi məhəbbət, qorxu və ümid heç biri öz-özünə yaranmır. Bu şeylərin əldə olunması üçün çalışmaq lazımdır.

Mübarək ramazan ayında bu işlər üçün özümüzü hazırlamasaq, bundan münasib bir vaxt tapmayacağıq. Əgər bu fürsətlərdən faydalanmasaq, bir gün həsrət çəkib,

peşiman olacağıq. Bir də ayılıb görəcəyik ki, başqa bir ramazan da ötüb keçdi, lakin günahlarımızdan tövbə etmədik, özümüz üçün yaratdığımız çətinliklərə əlac tapmadıq; canımızda şö`lələnmiş odlara su səpməmişik, xalqın öhdəmizdə olan haqlarını ödəməmişik, qeybətlər, töhmətlər, yalanlar və başqa günahlarımızı təmizləməmişik.

"İlahi! Bu gün dilimlə Sənin şükrünü edə biləcəyəmmi və ya işlərimdə son həddə çalışmaqla Sənin razılığını əldə edəcəyəmmi? Lakin şükrünü əda etmək üçün nə dilimin qüvvəsi var, nə də Sənin sonsuz ne`mətlərinin müqabilində əməllərimin dəyər var?!"

("Əbu-Həmzə" duasından bir hissə)

**(5)**

***"Ey mənim mövlam, yalnız Sənin zikrinlə qəlbim dirilir və Sənin münacatınla özümdə qorxu ağrısına təskinlik tapıram".***

Bu qısa cümlədə iki mühüm nöqtəyə işarə olunmuşdur: Allahın zikri və mə`nəvi həyat (qəlb həyatı).

## *ALLAHIN ZİKRİ*

Bütün şər`i təkliflərin, xüsusi ilə də, ibadətin əsas hədəfi Allahla insan arasında əlaqənin güclənməsidir. Bütün şər`i təkliflərin ruhu Allahı düşünmək və onu yad etməkdir. Başqa sözlə, əməllərin düzgünlüyünün, bə`zi hallarda isə kamil olmasının şərti insanın əməl zamanı Allahı düşünməsidir. Ən üstün ibadət və çox tə`kid olunmuş namaz haqqında Qur`anda buyurulur: "Məni düşünmək üçün namaz qıl."[1] Başqa ibadətlər barəsində

[1] "Taha" surəsi, ayə 14.

fəqihlər deyir: "Əgər Allahı düşünmədən olarsa, Onun göstərişlərinə itaət sayılmır".

## *ZİKRİN HƏQİQƏTİ*

"Zikr", yə`ni nə? "Zikr" sözü ərəb dilində müxtəlif mə`nalarda işlənir. Bütün bunların kökü bizim dilimizdəki "xatırlatma" sözündəndir. Əlbəttə, bə`zən müəyyən münasibətlə səmavi kitablar və peyğəmbərlərə "zikr" deyilmişdir. Məsələn, Qur`an Tövrat barəsində buyurur:

***"Biz zikrdən (Tövratdan) sonra Zəburda da yazdıq: "Həqiqətən Mənim saleh bəndələrim yerə varis olacaqlar."***[1]

Bir çox ayələrdə Qur`anın özü haqqında da "zikr" sözü işlənmişdir:

***"Şübhəsiz, zikri (Qur`anı) biz nazil etdik və biz də onu qoruyub saxlayacağıq."***[2]

Zikr sözünün səmavi kitablara və ya peyğəmbərlərə aid edilməsi onların xalqa Allahı xatırlatması ilə bağlıdır. Xalq bu kitabları oxumaq və peyğəmbərləri görməklə Allahı düşünür. (Ədiblərin sözünə əsasən səbəbiyyət əlaqəsi vardır.)

Beləliklə, zikr sözünün əsas lüğət mə`nası "düşünmə və xatırlamadır". Kimisə və ya nəyisə düşünmək bə`zən yalnız qəlbə aid olur. Bə`zən isə zikr qəlbdən əlavə dildə də özünü göstərir. Siz "filan dostumu xatırladım", "filan hadisə və ya xatirə yadıma düşdü" dedikdə bu xatırlama sizin zehninizə çatmış qəlbi bir iş sayılır. Xatırlama, yad etmə əslində qəlbə aid işdir. Amma o qəlbdən dilə də keçir. Öz dostunuza deyirsiniz: "Sizin xeyir zikriniz oldu".

---

[1] "Ənbiya" surəsi, ayə 105.
[2] "Hicr" surəsi, ayə 9.

(Sizin haqqınızda xoş söz deyildi.) Yə`ni qəlbdə düşünməkdən əlavə dildə də onun adı çəkildi. Dil zikri qəlbi düşüncədən doğur. İnsanın zehni hansısa bir işi düşünməzsə, dil bu iş haqqında bir söz deyə bilməz. Buna görə də dil zikri zikrin həqiqəti olan qəlbi düşüncədən danışır. Burada işarə etmək yaxşı olar ki, adi işlərdə həmişə dil zikri qəlbi düşüncə ilə yanaşı olur. Amma çox təəssüf ki, ilahi zikrə gəldikdə, adətən, bizim zikrlərimiz qəlbin iştirakı ilə yanaşı olmur. Bə`zən namaz qılırıq, Qur`an oxuyuruq, lakin öz zehn və düşüncəmizdə qətiyyən Allahı xatırlamırıq. Lakin namazın fəlsəfə və həqiqəti Allahı düşünməkdən savay bir şey deyil. Hətta dua edib Allahdan bir şey istədiyimiz zaman da onu düşünmürük. Bir çoxlarımız namaz qıldığımız zaman bizə bəsirət gözü ilə baxan olsa, qadın, övlad, iş-güc, ev, maşın və məqam kimi bir yığın arzular görər. Biz bu xəyallardan ibarət bir toplumuq. Tamamilə olmayan yeganə şey Allahı düşünməyimizdir.

Lakin zikrin həqiqəti həmin qəlbi düşüncədir. Qur`an buyurur: "Rəbbini qəlbində, ahəstə, yalvararaq və aramcasına yad et."[1]

Allahı düşünmək üçün fəryad çəkməyə ehtiyac yoxdur. İnsanın haray çəkərək Allahın adını dilə gətirməsi yaxşı deyil. Bu ayə bizə göstəriş verir ki, Allahın zikri zümzümə ilə və dodaq altında olmalıdır. Əlbəttə, Allahın zikri şüar şəklində olduqda (məsələn azan, təkbir və ya döyüş meydanlarında) ucadan olmalıdır ki, məqsədə çatmaq olsun.

[1] "Ə`raf" surəsi, ayə 205.

## *ARAMLIQ YALNIZ ALLAHI DÜŞÜNMƏKLƏ YARANIR*

İnsanın bu dünyadakı həyatı iztirablar və həyəcanlarla ötüşür. Hətta bə`zi insansevən məktəblər iztirab və həyəcanı insan həyatı və insan vücudunun qurucu amili, başqa sözlə, insanın təkamül fəsli hesab edirlər. Onlar deyirlər: İnsanın insan olması iztirab və həyəcan keçirməsi ilə bağlıdır. Əlbəttə, bu nəzərdə çox ifrata varılır və həqiqətin bir hissəsi göstərilir. İnsanlar adətən müxtəlif səbəblərdən iztirab və həyəcan keçirir, həmişə gələcəkdən ötrü nigaran olurlar. Bu hal bir tərəfdən faydalıdır və insanda müsbət tə`sirlər qoya bilər. Lakin ümumilikdə bəyənilmiş hal hesab olunmur. İnsan fitrətən sakitlik tələbindədir. Əgər az-çox nigarançılığı vardırsa, daha üstün sakitliklə bu nigarançılıq aradan qaldırılmalı, insan qəlbinin dərinliyi sakit və arxayın olmalıdır. Cüz`i nigarançılıqlar dənizin üzündəki dalğalar kimi olmalıdır. Dənizin dərinliyi isə həmişə sakit olur. İnsan qəlbinin dərinlikləri də sakit və əmin olmalıdır. Nigarançılıqlar səthi və tez ötüb gedən dalğalar kimi uzaqlaşmalıdır. Yoxsa həyat insan üçün qaranlıq və zülmət olar.

İnsan hansı yolla arxayınlıq və xatircəmlik tapa bilər? Qur`an buyurur ki, yalnız Allahı düşünmək iztirablı və pərişan qəlblərə sakitlik verə bilər:

"Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aramlıq tapar!"[1]

Həqiqətən, Allahı düşünən və bu düşüncə canının dərinliyinə nüfuz etmiş şəxslər elə bir aramlıq və arxayınlıq tapırlar ki, heç bir hadisə onları iztirablı və pərişan edə bilmir. Bizim zəmanədə imam Xomeyni (r)

---

[1] "Rə`d" surəsi, ayə 28.

belə nümunələrdəndir. Ən böyük hadisələr baş verən vaxt (dağları tərpədən hadisələr) bu ilahi şəxs öz sakitliyini əldən vermirdi. Sanki heç bir şey baş verməmişdi. Bu necə qəlbdir, haradan qaynaqlanır? Şərq və qərb onunla düşmənçilik edir, lakin o, möhkəm və davamlı şəkildə öz hədəfinin ardınca gedir. Bu sakitlik və qüdrət yalnız Allahı düşünmək sayəsində əldə olunur. Əgər biz bu sakitlikdən az faydalanırıqsa və ya faydalanmırıqsa, deməli, qəlbimizdə Allah düşüncəsi zəifdir. Allahı düşünmək hər nə qədər güclü olarsa, qəlb sakitliyi də bir o qədər çox olar.

Naqis bir misal kimi, dərya sahilində bir gəmi təsəvvür edin. Əgər bu gəmi sahildə möhkəm bir şeyə bağlanmasa dalğalar onu hərəkətə gətirər və yerini dəyişər. Dalğalar çox güclü olsa, Onu lərzəyə gətirər, sonda qərq edər. Lakin gəmi sahildə möhkəm bir şeyə bağlanmış olarsa, dalğalar hər nə qədər güclü olsa da, onu lərzəyə gətirə bilməz. Gəmi bir az tərpənə bilər, lakin qərq olmaz.

Mö`min də Allahın sonsuz qüdrətinə güvənir. Buna görə də hadisələr onu əldən sala bilmir.

Rəvayətlər mö`mini dağa, hətta ondan da möhkəm varlığa oxşadır. Çünki tufan nəticəsində dağdan bə`zi zərrələr ayrılır. Lakin hadisələrin acı küləyi mö`minin imanından zərrə qədər azalda bilmir. Mö`min möhkəm bir dağ kimidir, hadisə külələri onu tərpətmir (ona tə`sir edə bilmir).[1]

Nə üçün? Çünki onun qəlbi silkələnməz, lərzəyə gəlməz və davamlı bir yerə bağlıdır. Beləliklə, Allahı düşünmək əbədi qurtuluşdan əlavə, dünyada sakitliyə (vəsfolunmaz dəyərli bir ne`mətə) səbəb olur.

---

[1] “Biharul-ənvar”, 24-ci cild, səh.104, 15-ci rəvayət.

## *ALLAHIN ÖZ DOSTLARINA (ÖVLİYALARINA) XÜSUSİ DİQQƏTİ*

Allah Qur`anda zikr barəsində dərk olunası incə bir tə`bir buyurmuşdur: “Məni yad edin ki, mən də sizi yad edəm!”

Bu tə`bir müxtəlif mə`rifət mərtəbələrində fərqli təhlil oluna bilər. Əlbəttə, Allah heç bir halda kimdən və bir şeydən xəbərsiz deyil; ***“Rəbbin nə etdiklərinizdən qafil deyil.”***[1]

Allah heç bir şeyi unutmur: ***“Rəbbin unudan deyil.”***[2]

Allahın elmi keçmişi, indini və gələcəyi əhatə edir. Heç bir şey ondan gizli deyildir; ***“Yerdə və göydə zərrə qədər bir şey Allahdan gizli qalmaz.”***[3]

Mə`lum olur ki, “Məni yad edin ki, mən də sizi yad edəm” buyuruğundakı zikr başqa bir zikrdir. Bu, Allahın öz dostlarına münasibətdə xüsusi bir diqqətidir. Uyğun diqqət bütün varlığa aid ümumi diqqət deyil.

Bə`zi təfsirçilər bu ayənin təfsiri ilə bağlı deyirlər:

Allah deməк istəyir ki, siz yaxşı əməllərinizlə Məni yad edin, Mən də öz rəhmət və mükafatımla sizi yad edim. Bu həqiqətin kiçik bir hissəsini bəyan edən nəticədir. Lakin ayə daha lətif və dəqiq bir mövzuya işarə ola bilər; məhəbbət şirinliyini dadmış şəxslər daim məhbubun onları düşünməsi istəyindədirlər. Məsələn, məhbubu ilə olduğu bir məclisdə bə`zən məhbubun göz ucu ona tərəf baxmasını istəyir. Sadiq aşiqin mə`şuqun diqqətindən aldığı bu ləzzət bütün maddi ləzzətlərdən üstün və

[1] “Hud” surəsi, ayə 123.
[2] “Məryəm” surəsi, ayə 64.
[3] “Yunus” surəsi, ayə 61.

dəyərlidir. Allah-təala öz dostlarına tez-tez bu növ işarələr edir.

Buna görə də Allah buyurur: Əgər sizə (xüsusi) diqqət etməyimi istəyirsinizsə, siz də Məni düşünün.

*Vermək istəməsən mə`şuqu əldən*
*Eşq bağın əlində möhkəm saxla sən.*

Buna görə də, ilahi məhəbbət şirinliyini zərrə qədər dadmış şəxslər onu bir an belə unutmurlar. Yuxudan qalxan zaman dillərinə gətirdikləri birinci söz Allahın zikri olur. Böyüklərdən bə`ziləri buyururlar: İnsan təlaş nəticəsində elə bir məqama çatır ki, təkcə ibadətdə yox, başqa işlər gördüyü zaman da, yaşayış işlərinə məşğul olan və xalq ilə ünsiyyət saxlayan zaman da qəlbində Allahı düşünür. Yuxu zamanı da bu diqqətin tə`sirli olması mümkündür. Hətta yuxu zamanı insanda daha şiddətli diqqət yarana bilər. Bəlkə elə buna görə də deyirlər: "Mö`minin yuxusu ibadətdir".

Beləliklə, Allahı yad etmək Onun öz zikr edən bəndəsinə xüsusi diqqətinə səbəb olur. Mərhum Əllamədən dəyərli ömrünün axırlarında bə`zən nəsihət istəyirdilər. Bir neçə dəfə belə tələbdən sonra mərhum bu şərif ayəni oxuyur: "Məni yad edin ki, Mən də sizi yad edəm". Allahın öz bəndəsinə diqqətinin əhəmiyyət və dəyərini qiyamət günü, kafirlər üçün Allahın onlara diqqət yetirməməsinin dərd olduğunu gördükdə anlayacağıq. Allah qiyamət günü kafirlərin həsrət və əzabının şiddətini bildirmək üçün buyurur: "Allah onlarla söhbət etmir, onlara nəzər salmır."[1]

Bu onlar üçün ən üzücü və ən böyük əzabdır. Biz Allahı yad etməməyin necə də ağrılı olduğunu indi dərk

---

[1] "Ali-İmran" surəsi, ayə 77.

etməsək də, axirət günü pərdələr kənara çəkilən zaman dərk edəsiyik. Hətta kafirlər də bu itkinin əhəmiyyətini dərk edəcək.

## *BÜTÜN HALLARDA ALLAH ZİKRİ*

Sözümüzü Allah zikrinin bütün hallarda yaxşı olduğunu bəyan edən bir rəvayətlə tamamlayırıq. İnsan maddi və heyvani istəklərə sahib olduğundan bə`zən bu istəklərə uyğun əməl edir. Əvvəlcə insan bu halda Allahı zikr etməyin yaxşı iş olmadığını düşünür. Lakin Allah buyurur: "Bu halda da Allahı unutmayın". Bəli, bizə göstəriş verilib ki, günah işlər görən zaman üzüqibləyə olmayaq.

İnsanın bütün halları üçün mə`sumlardan nəql olunmuş dualar (ən çox bu duaları onlar özləri oxuyurdu) bəndənin heç bir zaman Allahı unutmamalı olduğunu göstərir.

Peyğəmbər (s) barəsində nəql olunur:

***"Allahı zikr etməmiş oturmaz və qalxmazdı."***[1] Hətta həzrətin qalxdığı və ya oturduğu zaman oxuduğu zikrlər nəql olunmuşdur. Hər vaxt yeni paltar geysəydi xüsusi zikr edərdi. Yatdığı zaman xüsusi zikr, bə`zən isə "ayətəl-kürsi" oxuyurdu. Yuxudan qalxan zaman isə əvvəlcə səcdəyə gedib, Allaha sitayiş edirdi. İmam Baqir (ə) buyurur:

***"Allahın rəsulu yuxudan oyanan kimi səcdə edərdi."***[2]

---

[1] Təbərsi, "Məkarimul-əxlaq" səh.14.
[2] Təbərsi, "Məkarimul-əxlaq", səh.39.

Həzrət yuxudan ayıldıqdan sonra ayrıca bir zikr deyirdi. Hidayət imamlarından nəql olunmuş başqa xəbərlərdə də mö`minin həmişə Allahı zikr etməli olduğu göstərilir. Bütün hallarda, hər bir iş Allahın zikri ilə başlamalıdır.

Allah Musa ibn İmrana buyurdu: "Ey Musa, heç bir halda Məni unutma və Məni yad etməkdən qafil olma." Musa ərz etdi: "İlahi, bə`zi hallarda Səni düşünməyə utanıram." Xitab olundu:

"Hətta o halda da Məni düşünmək yaxşıdır."[1]

Qur`an nəzərincə də heç bir şey mö`minin Allahı düşünməsinə mane ola bilməz. Sadiq mö`minlərin sifətləri barəsində buyurur:

***"(Mö`minlər o kəslərdir ki,) Nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz."***[2]

Zahirdə iş-güclə məşğul olub, xalqla ünsiyyətdə olmalarına baxmayaraq, onların diqqəti həmişə Allahdadır. Heç bir şey onların Allahdan qafil olmalarına səbəb olmur. Allah me`rac gecəsi peyğəmbərinə mö`minləri vəsf edərək belə buyurdu: ***«Mö`minlər dünyadan gedən zaman onlardan soruşular ki, dünyanı necə tərk etdiniz? (Dünyadan nə xəbər var?) Belə cavab verərlər: "İlahi, and olsun izzət və cəlalına, mən dünyadan agah deyiləm. (Çünki) Məni yaratdığı gündən Sənin məqamından qorxmuşam". Bu zaman Allah buyurur: "Düz dedin, ey Mənim bəndəm. Bədənin dünyada idi, lakin ruhun Mənim yanımda!"»***[3]

---

[1] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 13-cü cild, səh.343, 21-ci rəvayət.

[2] "Nur" surəsi, ayə 37.

[3] "Biharul-ənvar", 77-ci cild, səh.21.

## *ALLAHLA ÜNSİYYƏT ÖVLİYALARA LƏZZƏTDİR*

Bəli, əgər həqiqi mö`minlər dünyanı düşünür-lərsə, bu düşüncə səthi və çarəsizlikdəndir. Lakin onlar qəlblərinin dərinliyində Allahı düşünürlər. Onlar bə`zən dünya ne`mətlərini də xatırlayırlar. Çünki bu ne`mətlər mə`şuq tərəfindən olan bir hədiyyədir. Əgər mə`şuq tərəfindən aşiqə bir çiçək çatarsa, bu hədiyyə aşiq üçün bütün dünyadan üstün və dəyərli olar.

Allahın övliyaları dünyada maddi ləzzətləri düşünmürlər. Axirətdə də başqa mö`minlər ilahi ne`mətlərdən faydalanarkən onlar öz Allahları ilə raz-niyaz edirlər.

Me`rac hədisində buyurulur:

"Behişt əhli behişt yeməkləri və şərablarından ləzzət alan zaman bu dəstə Məni yad edir və Mənimlə söhbətdən ləzzət alırlar."[1]

Behişt şərabları və yeməkləri dünya yeməkləri və şərablarından çox dəyərlidir, hətta müqayisə olunmaz dərəcədədir. Yüksək iradəli şəxslər dünyanın haram ləzzətlərinə göz yumub, behiştin şərab və yeməklərinə çatmaq istəyirlər. Lakin Allahı yad edən və onunla ünsiyyətin şirinliyini dərk edən şəxslər cənnət şərabları və yeməklərinə də diqqət ayırmırlar. "Dost bizim, onun bütün ne`mətləri isə sizin!"

Belə mö`minlər hətta Allahla ünsiyyətdən başqa bir şeydən ləzzət aldıqda Allahdan bağışlanmaq istəyirlər. İmam Səccad (ə) öz münacatından Allaha ərz edir:

---

[1] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 77-ci cild, səh.23, 6-cı rəvayət.

"İlahi, Səni yad etməkdən başqa bir şeydən ləzzət aldığıma görə bağışlanmaq istəyirəm. Səninlə ünsiyyətdən savay hər bir rahatlığa və Sənə yaxınlıq məqamından başqa hər bir şadlıq və sevincə görə bağışlanmaq istəyirəm."[1]

Onlar Allahın zikrində nə görmüşlər ki, başqa ləzzətlərə qarşı bu qədər e`tinasızdırlar? Bu sualın cavabını "Məni yad edin ki, sizi yad edəm" ayəsində tapmaq olar. Me`rac hədisində daha aydın şəkildə bəyan olunmuşdur:

"Ənzuru iləyhim kullə yəvmin səb`inə mərrəh".

Bu, həqiqətdə onların Allah zikrində tapdığı həmin ləzzətdir. Məhbubun onları düşünməsi!

***"Allahım, dilimi zikrinlə hərəkətə gətir, qəlbimi eşq və məhəbbətinlə məğlub et. Qəbulunun gözəlliyi ilə mənə minnət qoy."***[2]

**(6)**

***"Ey mənim Ağam, yalnız Səni yad etməklə qəlbim dirilir və Sənin münacatınla özümdəki qorxu (ayrılıq) dərdinə təskinlik verirəm".***

## *QƏLBİN BƏ`Zİ XÜSUSİYYƏTLƏRİ*

Allahı yad etmək və Allah zikri Qur`anın şərif ayələrində, imamların kəlamlarında xüsusi tə`kid və diqqətlə qeyd olunmuşdur. Allah zikri insanın müvəqqəti və məhdud həyatına sonsuz dəyər verən və insanın qəlbini həqiqətlərin qəbulu üçün işıqlandıran bir zinət kimi göstərilmişdir.

---

[1] "Məfatihul-cinan", Münacati Xəmsə Əşərə.

[2] "Məfatihul-cinan", Kumeyl duasından bir hissə.

Pak və sağlam qəlbin xüsusiyyətlərindən biri də onun həqiqətləri tam göstərə bilən bir güzgüyə bənzəməsidir. İnsanın qəlbi öz fitri və təbii halında qalaraq, günah və dünyaya şiddətli bağlılıq nəticəsində pas bağlamazsa, həqiqətləri özündə əks etdirər. Lakin qəlb öz fitri halından xaric olduqda həqiqətləri lazımınca dərk edə bilməz. Allah zikri belə qəlblərə zinət verir. Həzrət Əli (ə) buyurur:

***"Həqiqətən, sübhan Allah öz zikrini qəlblər üçün nur (cəla) qərar vermişdir. Bunun sayəsində karlığın yerini eşitmə, korluğun yerini iti baxış tutur."***[1] Bir şey paslandıqda onun pasının təmizlənib parıldadılması "cəla" adlanır. Məsələn, rütubətdə qalıb pas basmış dəmir parçası cəlalandıqda (cilalandıqda) parıltı verir. İnsan qəlbi də müəyyən səbəblərdən pas atır. Həzrət Peyğəmbər (s) buyurur: "Həqiqətən, qəlblər də dəmir kimi paslanır. Qur`an qiraəti və ölümü yada salmaq onlar üçün cəladır."[2]

Yuxarıdakı ifadələrdə həzrət Əli (ə) buyurur: Qəlbin gözü, qulağı var və bə`zi səbəblərdən kor və ya kar olur, həqiqətləri düzgün anlamır. Qəlb güzgüsü çirklənir və həqiqətləri əks etdirmir. Həzrət bu şeylərin əlacını Allahı zikr etməkdə görür və buyurur: "Zikr nəticəsində qəlb gözü işıqlı və qəlb qulağı eşidən olur. Bu zaman qəlb əvvəllər dərk etməkdə aciz olduğu həqiqətləri qavrayır". Bunun ardında həzrət buyurur: "Və yətənəssimunə biduaihi rəvhət-təcavuzi".

Sanki qəlbin qoxubilmə qabiliyyəti vardır. Bu hissiyyat həmin səbəblər nəticəsində bağlanır və ilahi zikr onu yenidən gücləndirir. Buna görə də buyurur: "Allahı zikr edən kəslər ilahi rəhmət nəsimini qoxulayırlar".

---

[1] "Nəhcül-Bəlağə", sübhi saleh, 222-ci xütbə.

[2] "Mustədrəkul-vəsail", 2-ci cild, səh.104, 1548-ci rəvayət.

Mə`lum olur ki, qəlbimizin gözü və hissləri naqisdir. İlahi övliyaların dərk etdiyi bir çox şeyləri bizim qəlbimiz hiss etmir. Əgər azacıq hissiyyatı olsaydı, günah yükünün ağırlığını hiss edərdi.

Allahın övliyaları bir günahın nə qədər ağır və necə də pis aqibətlə tamamlandığını bilirlər. Buna görə də həddindən artıq tabdan düşüb lərzəyə gəlirlər.

Günah çoxalan zaman (bir iki olur, iki üç, bu qayda ilə minə çatır) insan qəfildən çiynində dağ olduğunu hiss edib ixtiyarsız olaraq fəryad çəkir. Çünki bunun üçün onda dözüm yoxdur. Əgər ucadan fəryad çəkmiriksə, deməkv, günah yükünün ağırlığını anlamırıq. Qəlbimizin hissləri işdən düşmüş, korlaşmışdır. Qəlbimizin iy bilmə duyğusu günahın üfunətli iyini hiss etmir. Biz murdarları yeyir, iyini belə hiss etmirik.

***"Məgər öz ölmüş qardaşının ətini yemək istəyən bir kəs varmı?"***[1] Biz qeybət etdikdə nəinki üfunət hiss etmir, hətta ləzzət alırıq. Mə`lum olur ki, bizim qəlbimizin iybilmə duyğusu zəifdir. Həzrət Əli (ə) buyurur: "Allah düşüncəsini özlərinə məşğuliyyət etmiş şəxslər ilahi rəhmət nəsimini qoxulayırlar. İlahi rəhmət nəsiminin xoş qoxusu var. Lakin biz onu dərk etmirik və onunla tanışlığımız yoxdur. Çünki qəlbimizin iybilmə duyğusu zəifləmişdir.

Şübhəsiz, Allahı zikr etmək dedikdə dil zikri nəzərdə tutulmur. Qəlb iştirakı olmadan dil ilə sözlər tələffüz etmək hər bir münafiq və kafirin əlindən gələr. Demək, həqiqi zikr üçün me`yar və mehvər dil yox, qəlbdir. Həqiqi zikr qəlbə nüfuz edib onu işıqlandırır.

---

[1] "Hucurat" surəsi, ayə 12.

Əlbəttə, zikr əslində qəlbə aid düşüncə və diqqət olsa da, dil zikri də faydasız, tə`sirsiz deyil. Dillə olan zikr bir çox faydasız və boş sözlərdən üstündür. Hidayət imamları həmişə (səhabələrlə söhbət edib, onların suallarına cavab verməyə məşğul olmayan vaxtlar) dillə zikr edirdilər. İmam Sadiq (ə) buyurur: “Atam imam Baqirin (ə) dili damağına yapışmışdı.”[1] Yə`ni həmişə “la ilahə illəllah” zikrini deyirdi.

Qəlb dərya kimidir. Zikr onda tə`sir qoyur. Bə`zən zikr kiçik bir daş kimi dəryaya düşməklə səthi dalğa yaradır və tez bir zamanda ötüb keçir. Bu bizim etdiyimiz bir çox zikr və ibadətlərə bənzəyir. İbadət və zikrlərimiz səthi dalğa kimidir və qəlbimizin dərinliyində yer tapmamışdır. Dilimizdə uyğun sözləri deyirik, lakin fikrimiz başqa yerdə olur. O zaman özümüzə gəlirik ki, ibadətimiz başa çatıb. Lakin bə`zən zikr ağır tufan kimi qəlbi alt-üst edir və əbədi tə`sir qoyur. Deməк, qəlbin xüsusiyyətlərindən biri də budur ki, pak və sağlam olduqda həqiqətləri düzgün dərk edə bilir.

İnsan qəlbinin digər bir xüsusiyyəti onun hər şey üçün keçid ola bilməsidir. İnsan qəlb cilovunu boşladıqda o hər an kiminsə və ya nəyinsə ixtiyarına keçir. Qəlb elə bir məkr bazarına çevrilər ki, insan özü bundan xəbərsiz qalar. İnsanın bir neçə dəqiqə öz-özlüyündə düşünməsi və qəlbindən keçənləri yadda saxlaması kifayətdir. Bu zaman qəlbində, xəbərsiz qaldığı böyük bir qırğın getdiyini anlayacaqdır! Bə`zən neçə dəqiqəlik bir ibadətdə (məsələn, iki rəkətlik namazda) insanı cürbə cür fikirlər məşğul edir. Bu fikirlər onu o tərəfə-bu tərəfə çəkir. İnsan özü bundan

[1] Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar”, 46-cı cild, səh.297, 29-cu rəvayət.

xəbərdar olduqda heyrətlənir. Bu iş yalnız ayıqlıqda yox, insanın yuxusunda da özünü göstərir.

## *QƏLB DƏYƏRİ*

Qəlb və ürəyin dəyəri onun yol tapdığı həqiqətdir: Həqiqətən də, qəlb ona tapşırılmış şeydən dəyərlənir. Buna görə də bə`zən o qədər süqut edib, dəyərsiz olur ki, tövlə və ondan da çirkin hala düşür! Bə`zən isə o qədər ucalır ki, "rəhman ərşi" olur. Bu hal insanın öz ixtiyarındadır. Daim mal, məqam, inək, qoyun və öz tarlasının fikrində olub, başqa heç bir şey düşünməyən şəxsin qəlbi tövlədən savay bir şey deyil. Daim torpaq, mülk, ev, alver və ticarətdə hiyləgərlik fikrində olan qəlb mülkü müamilələr aparılan müəssisədən savay bir şey deyil. Daim bu maşın, o maşın, filan model fikrində olan şəxsin qəlbini avtomobil parkı adlandırsaq, əbəs söz demiş oluruqmu?

Bunun müqabilində qəlbi "qəlbəl-mö`min ərşər-rəhman" nümunəsi olan kəsə tapşırmaq olar. Əgər Allah qəlbimizdə olsa və qəlbimiz Ona tapşırılsa, həyatımızın günləri Onun zikri ilə keçər. Belə bir qəlb Allahın yeri və Onun ərşidir. Deməк, Allah zikri qəlbi bu qədər ucaldıb dəyərləndirir.

Beləliklə, qəlbi özbaşına buraxsan qapısız bir məhəllə (karvansara) olacaqdır. Ona ətrafdakı bütün karvanlar girib-çıxasıdır. Mümkündür ki, şəxsin özünün də bu işdən xəbəri olmasın. Lakin insan öz qəlbini ixtiyarında saxlayarsa, necə qiymətli ünsür olduğunu və nə qədər inkişaf və təkamül iste`dadı olduğunu anlayacaqdır. Torpaq qəlbdə gizli və qiymətli bir almaz var. Məharətli mə'dənşünas onu torpaqdan çıxarıb qiymətli olduğunu sübuta yetirir.

Bu diyarın gövhər axtaranları peyğəmbərlər və mə`sum övliyalardır. İnsan qəlbinin almazşünası həzrət Əlidir (ə). O buyurur: "Qəlbə Allahın zikri ilə cəla verin ki, həqiqətlər aşkar olunsun". Bu dəryanın həqiqi gövhər tanıyanı imam Səccaddır (ə). O isə belə buyurur: "Qəlbin həyatı və diriliyi Allahın zikri və Onu yad etməklədir". Əgər qəlbdə Allah zikri olmasa, başqa şeylər olasıdır. Qəlbin dəyəri onun düşündüyü şeylərdədir.

Hər halda Allahı yad etməyin bir çox tə`sirləri vardır ki, onların hamısını izah etməyə fürsətimiz yoxdur. Ən mühüm tə`sirlərdən biri isə imam Səccadın (ə) buyurduğu kimi "qəlbin diriliyidir".

## *İNSANIN MƏ`NƏVİ HƏYATI*

Həyatın mərtəbələri var. Onun bir mərtəbəsi nəbatatla bağlıdır və bitkilərə aid edilir. Bu səbəbdən də bitki "diri" və "ölü" olmaqla iki yerə bölünür. İnkişaf və artım bitki həyatının səciyyələridir. Bu sayaq həyat "nəbati" həyat adlanır. Həyatın daha üstün mərtəbəsi heyvani həyatdır. Belə bir həyatın inkişaf və artımdan əlavə hərəkət və idrak səciyyələri var. Bu səciyyələrə malik mövcud heyvani həyat yaşayır.

İnsanın həm nəbati, həm heyvani həyatı var. O həm inkişaf edir, həm artır, həm hərəkət edir, həm də qavrayır. Əlbəttə ki, ondakı bu səciyyələr heyvan və bitkidə olduğundan daha dərin və daha genişdir. Bu səciyyələrə görə insan bitki və heyvan növü ilə müştərəkdir. Biz həyat dedikdə, adətən, yuxarıda deyilənləri düşünürük. Qidalanma və inkişaf nəbati həyatın şərtidir. Heyvani həyat üçün isə idrak və iradi hərəkət zərurətdir. Yalnız bu səciyyələrə malik mövcuda diri deyirlər. Bu səciyyələrdən məhrum mövcud ölü sayılır. Lakin Qur`ani-Kərim və Əhli-

beyt (ə) göstərişlərindən mə`lum olur ki, insan nəbati və heyvani həyatdan da üstün bir həyat yaşaya bilər. Bu mə`nəvi həyatdır. Bu üstün həyatın şərtləri vardır. Əgər insanda bu şərtlər ödənməsə, əslində o insan olmayacaqdır. Baxmayaraq ki, heyvani həyat baxımından diri sayılır. Bizim insanın diriliyi üçün götürdüyümüz me`yar adətən insani birlik yox, heyvani birlik me`yarıdır. Yemək, nəfəs almaq, dərk etmək, hərəkət və bu kimi şeylər nəbati və heyvani həyatın şərtləridir. Lakin insani həyat ayrı bir həqiqətdir. Qur`an buyurur:

***"Heç ölü ikən dirildiyimiz, sonra insanlar arasında gəzmək üçün özünə bir nur verdiyimiz adam zülmət içində qalıb oradan çıxa bilməyən şəxs kimi ola bilərmi?"***[1]

Bu ayədən mə`lum olur ki, insan nuraniyyət ilə şərtlənən bir həyat yaşaya bilər. Beləliklə, əgər insan nuraniyyət sahibi olarsa diri, əgər ondan məhrum olarsa ölü insan sayılır. Baxmayaraq ki, nəbati və heyvani həyatı vardır!

***"Onun surəti insan surətidir. Lakin qəlbi heyvan qəlbidir. Nə qurtuluş yolunu tanıyır ki, onu keçsin, nə də azğınlıq yolunu tanıyır ki, ondan qaçsın; belə bir şəxs dirilər arasında bir ölüdür."***[2]

"Əbu-Həmzə" duasının "Sənin zikrinlə qəlbim diridir" cümləsində də imam Səccad (ə) bu üstün həyata işarə etmişdir. Bu həyatın sütunları Allahın zikridir. Necə ki, nəbati həyatın möhkəmliyi inkişafda, heyvani həyatın möhkəmliyi şüur və idrakdadır.

Oksigen insana çatmadıqda qısa bir müddətdə onun həyatına son qoyulur. Mö`minin qəlbi də ilahi zikrdən

---

[1] "Ən`am" surəsi, ayə 122.
[2] "Nəhcül-bəlağə", sübhi saleh, 87-ci xütbə.

uzaq düşüb, maddiyyata qərq olduqda öz həyatını əldən verir.

Deyildiyi kimi, bizim tanıdığımız həyat, adətən, hər birinin tə`siri və şərtləri olan heyvani və nəbati həyata həsr olunur. Lakin Qur`an və Əhli-beyt (ə) kəlamlarının göstərdiyi kimi və ağılın hökmünə əsasən, bizim naqis ağlımızla dərk etmədiyimiz həyat da vardır.

Həyat mərtəbələrindən biri də iman həyatıdır. İnsanın həqiqi həyatının belə bir həyat olduğunu desək yanılmarıq. Rəvayətlərə əsasən, mö`mində "ruhul-iman" adlı bir ruh vardır. Bu ruh onun həyat mənşəyidir. Bu ruhun kölgəsində mö`min insan günah edənədək digər bir həyatda olur. Lakin günah edən zaman bu ruh ondan ayrılır. Tövbə və Allaha tərəf qayıdışla yenidən bu ruh mö`minə qayıdır.

Ruhul-imandan başqa bir ruh da vardır. Məsələn, peyğəmbərlər və ilahi övliyalara məxsus olan "ruhul-qüds". Girami peyğəmbər və pak imamlar belə bir ruha sahib idilər. Bizim gördüyümüz və öz heyvani idraklarımızla dərk etdiyimiz həqiqətlərdən başqa Allahın, peyğəmbərin və imamların xəbər verdiyi həqiqətlər də vardır. Əgər biz Allah və Onun peyğəmbərini qəbul ediriksə, göstərişlərə də e`tiqadlı olmalıyıq. Belə həyatın dəyəri bizim tanıdığımız heyvani və nəbati həyatla müqayisə olunası deyildir. Yalnız onlara sahib olan şəxslər bu həyatın dəyərini bilirlər.

## *HƏYAT MƏRTƏBƏLƏRİNİN FƏRQLƏRİ*

Diri, nəfəs alıb inkişaf edən bitki ilə öz həyatını əldən vermiş quru bitkini müqayisə etdikdə onların arasında çox fərq olmadığını görürük. Lakin diri bir heyvanla ölmüş bir

heyvanı müqayisə etdikdə onlar arasında diqqəti cəlb edən fərq olduğunu müşahidə edirik.

Bu fərq diri insan ilə ölü insan arasında daha çoxdur. İnsanın maddi həyatının (ən aşağısı özü üçün) bir çox dəyərləri vardır. Milyardlarla ölçülən sərvəti olan bir kəs az bir müddət ömrünü uzatmaq üçün bütün sərvətini verməyə hazırdır. Hətta göz, qulaq və sair bədən üzvlərindən birinin sağlam olması üçün milyonlarla pul xərclənilir.

Bu, insanın maddi həyatı heyvan və bitki həyatından üstün və fərqli olduğu üçündür. Maddi həyatda insan öz maddiyyat və mülkündən həyatının azca uzanması üçün əl çəkir. Həmin fərq insanın maddi və mə`nəvi həyatı arasında da vardır. İnsanın mə`nəvi həyatı onun maddi həyatından çox qiymətlidir. Hətta müqayisə olunmaz dərəcədə fərqlidir. Əlbəttə, bu, həyatın dəyərini dərk edən şəxs üçün belədir. Mə`nəvi həyatın dəyərini anlayıb, onun ləzzətini dadmış şəxslər bir an Allahın yadında olmaq üçün bütün dünyanı fəda etməyə hazırdırlar. Bu dəyəri necə anlaya bilərik? Gecə-gündüz bir neçə dəqiqə Allahı yad edib namaz qılmağa hazır oluruqsa və bu işdə hətta minnət belə qoyuruqsa, demək, bu cür şəxslərlə çox fasiləmiz vardır!

Bir çox insanlar bu mə`nəvi həyatdan məhrumdurlar. Hətta bu mövzunu anlamaq belə, onlar üçün çətindir. Öz meyllərindən başqa bir şey tanımayan qafil insana insan həyatının heyvani və nəbati həyatdan ibarət olmadığını necə anlatmaq olar?! Onlara necə demək olar ki, insanın insanlığı yemək, yatmaq, maddi və heyvani ləzzətlərlə xülasələşmir?

Allah bu insanları vəsf edərək buyurur: “Onlar dördayaqlılar kimi, bəlkə onlardan da azğındırlar”. Necə

ki, bitkilər heyvanların həyatı və onların şüurlarlından xəbərsizdirlər, heyvanlar da insanların xüsusiyyətlərindən qafildirlər. Hansısa bir heyvana bir sənət əsərinə baxmaqda olan ləzzəti başa salmaq mümkün deyil. Təfəkkürün, kəşfin, ixtiranın ləzzətli olduğunu heyvana dərk etdirmək olmaz. O yalnız heyvani həyata aid olanları dərk edir. Biz də üstün insani həyata münasibətdə bu vəziyyətdəyik. İlahi övliyalar Allah zikrinin, Onu düşünməyin ləzzətli olduğunu, heç bir maddi ləzzətin ona bərabər olmadığını, insanın heyvani həyatı ilə müqayisə olunmayacaq bir həyata sahib ola bilməsini, insaniyyət cövhərinin yemək, yatmaq və şəhvətdən savay bir şey olduğunu və bu şeylərin ruhani ləzzət qarşısında uşaq oyuncağını xatırlatdığını hər nə qədər desələr də hal əhli olmayanlar dərk edə bilməyəcəkdir. Hətta bə`zən bu sözlər onlara məsxərə kimi görünəcək! Allah bizi hidayət etdiyi üçün və bu mövzunun həqiqət olduğunu anladığımız üçün məsələyə e`tinasız olmamalıyıq. Bilməliyik ki, imamlar və din böyükləri bu məsələni bizə qəlbimizin onlara yaxın olması və onların ardınca getməyimiz üçün demişlər. Bu sayaq həqiqətlər olduğunu anlamalı və ləzzətlərin yalnız maddiyyat, yemək və yatmaqla xülasələşmədiyini bilməliyik.

Yemək, yatmaq insanın heyvaniyyət tə`sirlərin-dəndir. Bunlar insanın insaniyyət kamilliyi deyildir. İnsanın kamilliyi heyvani ləzzətlərdən çox üstündür. Ümid edirik ki, Allaha, İslama, peyğəmbərlərə və imamlara itaət etdiyimiz üçün belə bir həyat və mə`nəvi ləzzətlər bizə də qismət olacaq!

***"İlahi, bizi zikrinlə məşğul et, qəzəbindən pənah ver, əzabından amanda saxla, bəxşiş-lərindən ruzi ver, fəzlindən isə ən`am! Amin ya Rəbbəl-aləmin".***

**(7)**

***“Ey mənim Ağam, yalnız Sənin zikrinlə qəlbim diridir və Sənin münacatınla özümdəki qorxu (ayrılıq) dərdinə təskinlik verirəm”.***

Söhbət zikr və onun bə`zi tə`sirləri barəsində idi. Ən mühüm tə`sirlərdən biri də imam Səccadın (ə) buyurduğu “insanın mə`nəvi həyatı” hesab olunur. Bu həyat Allahı yad etmək nəticəsində insana nəsib olur.

Nəbati və heyvani həyat üçün vasitələr olduğu kimi, mə`nəvi həyat üçün də vasitələr var. Nəbati və heyvani həyatın davamı münasib qidalanmadan asılı olduğu kimi, bu növ həyat da xüsusi bir qidalanmaya ehtiyaclıdır. Bu həyatın qidası Allah zikridir.

## *ALLAH ZİKRİNİN MƏRTƏBƏLƏRİ*

Əvvəldə dediyimiz kimi insanın qəlbi bir dərya kimidir. Zikr ona tə`sir edir. Bə`zən zikr xırda bir daş kimi dəryaya düşməklə səthi bir dalğa yaradır və tez bir zamanda bu dalğa məhv olur. Bir çox zikr və ibadətlərimiz səthi dalğa kimidir. Qəlbimizin dərinliyi isə tamam başqadır. Sözləri dilimizdə deyirik, lakin fikrimiz başqa yerdədir. İbadətimiz sona çatdıqda özümüzə gəlirik. Lakin bə`zən zikr və Allahı düşünmək ağır bir tufan kimi qəlbimizin dərinliyini təlatümə gətirir və əbədi tə`sir qoyur. Bəli, insanların zikr və Allahı düşünməsi eyni deyildir. Allahı yad etmək və Onu düşünmək sahəsində xalqı müxtəlif qisimlərə bölmək olar: Xalqın bir qismi nəinki Allahı zikr etməkdən ləzzət almır, hətta Allahı düşünmək onların qəlbində sıxıntıya səbəb olur. Qur`ani-Kərim belələri barəsində buyurur:

***"Allah tək olaraq anıldığı zaman axirətə inanmayanların qəlbləri nifrətlə dolub sıxılar."*** [1]

İkinci dəstə o kəslərdir ki, şiddətli çətinliklərlə üzləşdikdə adi vasitələrə əlləri çatırsa, Allahı zikr edib, onu düşünürlər:

***"Gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub) Allahı kamil ixlasla çağırarlar. Allah onları sağ-salamat quruya çıxaran kimi yenə də (Ona) şərik qoşarlar."*** [2]

Üçüncü dəstə qiyamət günü öz aqibətləri üçün nigaran olan kəslərdir. Onlar günaha yol vermişlər. Bu günahların bağışlanmasını istədikləri üçün Allahı düşünürlər. İstəyirlər ki, Allah bu yolla onların günahlarını bağışlasın. Bu şəxslər bə`zəndə axirət savabları və ne`mətlərini əldə etmək üçün Allahı düşünürlər. Behişt, huri, qəsr istəyirlər. Buna görə də Allahı zikr edirlər. Həqiqətdə bu dəstə əzabdan qurtulmaq və axirət ne`mətlərinə çatmaq üçün Allahı yada salır. Bu növ diqqət nisbi şəkildə bəyənilmişdir və insanın Allaha imanlı olduğunu göstərir. Əslində bu növ zikrdə insan əvvəlcə özünü düşünür və sonra bu yolla Allahı düşünməli olur. Bir çox hallarda qeyri-ilahi yolla ehtiyacları ödəndikdə Onu düşünməkdən vaz keçir.

Dördüncü qisim insanlar isə Allahı düşünməyə ehtiyaclı olduqlarını hiss edirlər. Onlar öz şəxsi ehtiyaclarının aradan götürülməsi üçün bu işi görmürlər. Allahı düşünmədikdə nəsə itirdik-lərini hiss edir və yalnız Onu yad etməklə sakitlik tapırlar. Başqa sözlə, belələri üçün əsas məsələ ehtiyacların aradan qaldırılması yox, Allah zikrinin özüdür. İmam Səccadın (ə) tə`birincə, onlar

---

[1] "Zumər" surəsi, ayə 45.

[2] "Ənkəbut" surəsi, ayə 65.

hiss edirlər ki, Allah zikri ilə qəlb dirilir, bu zikr olmadıqda qəlb ölür.

Allah zikri onlar üçün həyat bünövrəsidir. İnsanın havası çatmadıqda o həyəcanlanır, narahat olur, hətta dünyasını dəyişir. Bu şəxslər də Allahın zikrindən uzaq düşdükdə iztirab çəkir, nigaran olurlar. Lakin Allahın zikri qəlblərinə yol tapan zaman onlarda xüsusi sakitlik və arxayınlıq yaranır. Qur`an bu barədə buyurur: “O kəslər ki, Allahı zikr etməklə ürəkləri rahat halda iman gətirmişlər. Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aramlıq tapar!”[1]

Saf hava bizim həyatımız üçün zəruri olduğu kimi, Allahın zikri də qəlblərin dirilməsi üçün lazımlıdır. Bu şəxslər biz ölümdən qaçdığımız kimi Allahdan uzaq düşməkdən qaçırlar. Biz ölümü yalnız heyvani və nəbati ölüm bilirik. Lakin bunlar öz ölümlərini Allahın zikrindən uzaq düşməkdə görürlər.

Bu hal zikrin üstün mərtəbələrindəndir, əvvəlki mərtəbədən də çox üstün və dəyərlidir. Lakin bu mərtəbədə də “mən”, insanın özü məqsəddir. Yə`ni insan bu halda Allahı düşünmək istəyir və Allahı zikr etməkdən ləzzət alır. Həqiqətdə, Allahı zikr etməklə onun “öz” qəlbi sakitləşir. Başqa sözlə, bu halda da ehtiyaclarının ödənməsi üçün (amma yuxarıdakı ehtiyaclardan üstün ehtiyacların) Allahı düşünür. Yə`ni məqsəd ehtiyacların ödənməsidir. Beləlpəri aramlıq tapmaq üçün Allahı düşünür. Buna görə də uyğun mərtəbədə də özünü istəmək niyyəti yerində qalır.

Lakin insan Allaha mə`rifət yolu ilə elə bir məqama çata bilər ki, nə özünü, nə də ehtiyaclarını düşünməz. Onun bütün diqqəti Allahda olar, özü və meyllərini

---

[1] “Rə`d” surəsi, ayə 28.

tamamilə unudar. Bu halda fərdi istək əsas olmur və ən önəmli yerdə Allaha məhəbbət dayanır. Uyğun məqamda insan Allahı özü üçün yox, özünü Allah üçün istəyir. Əslində o özünü tanımır və yalnız Allahı görür (İnsan elə bir məqama çatar ki, Allahdan başqa heç bir şey görməz).

Me`rac gecəsi Allah peyğəmbərinə buyurdu: "Bə`zi bəndələrim elə bir mərtəbəyə çatırlar ki, Mənim zikrim və ne`mətlərimin şükrü onların məşğuliyyəti olur. Onların bu işlərdən başqa heç bir sə`yləri olmaz". Sonra Allah həmin bəndələrlə xüsusi rəftar edəcəyini bildirir.

"Vələəstəğriqənnə əqləhu bi mə`rifəti vələəqumənnə ləhu məqamə əqlihi."[1]

Bunlar rəvayətlərdə gəlmiş həqiqətlərdir. Bu həqiqətləri dərk etmək bir çoxumuz üçün çətindir. Ümid edirik ki, Allah öz lütfi ilə bizim mə`rifətimizi artırsın və bizə belə hallar nəsib etsin.

## *DÜNYAYA BAĞLILIQ ALLAHI YAD ETMƏK ÜÇÜN MANEƏDİR*

İnsanın üstün insani kamilliklər barəsində düşünməsinə mane olan şeylərdən biri də dünyaya və dünyəvi ləzzətlərə bağlılıqdır. Bu bağlılıqlar davam etdikcə uyğun hallardan uzaq olacağıq. Me`rac hədisində Allah peyğəmbərinə buyurur: "Ey Əhməd, əgər bəndənin qəlbində zərrə qədər dünyaya, şöhrətə, rəyasətə, dünya bərbəzəyinə və məqamına maraq olarsa, yer və göy əhli qədər ibadət edib oruc tutsa, məlaikələr kimi yemək yeməyib ibadət libası geysə belə Mənimlə yaxınlığa yol tapmayacaqdır. Onun qəlbindən Öz məhəbbətimi

[1] "Mustədrəkul-vəsail", 12-ci cild, 61-ci bab, səh.36, 13446-cı rəvayət, "İrşadəl-qulub"da Deyləmidən nəql olunub.

çıxararam və qəlbini zülmətə bürüyərəm. Bununla da o Məni unudar və öz məhəbbətimin şirinliyini ona dadızdırmaram.”[1]

İlahi övliyaların sə`y və himməti o qədər ucadır ki, bizim qəlb bağladığımız şeylərə e`tina belə göstərmirlər. Hətta bizim nəhayət arzularımız olan axirət ne`mətləri də onların nəzərində dəyərsizdir. Onların iradəsi elə bir həddədir ki, Allaha ərz edirlər: “İlahi, əgər məni cəhənnəmə göndərsən, lakin qəlbimdə Sənin məhəbbətin olsa və Sən məndən razı qalsan, mən bu cəhənnəmi Sənin razılığından uzaq olan cənnətdən üstün tutaram.”

İnsanın qəlbində Allah məhəbbəti yarananadək belə bir iddia edə bilməz.

Qəlbdə Allah məhəbbətinin yaranması üçün dünyəvi bağlılıqlardan uzaqlaşmalı və Allahın razılığını cəlb etmək fikrində olmalıyıq. Mö`min yuxudan ayılan kimi Allaha bəndəlik fikrində olmalıdır. Allahın ondan nə istədiyini düşünməlidir. Əgər yemək yeyirsə, dərs oxuyarsa, qazanc əldə edirsə və ümumiyyətlə, hər hansı bir iş görürsə, Allahın fərmanını yerinə yetirmək və Onun razılığını əldə etmək niyyətində olmalıdır. Belə bir iş mümkündür. Amma güclü iradə lazımdır. Əgər bir şəxs bu şəkildə yaşayarsa, dünyəvi ne`mətlər, ləzzətlərdən də uzaqlaşmayacaq və onun asayişi pozulmayacaqdır. Hətta onun kədərli anları və çətinlikləri başqalarından daha az olacaqdır. Belə bir şəxs vəzifəyə, sərvətə və bu kimi şeylərə ürək bağlamır və onları itirdikdə heç bir qüssə çəkmir. Onun sə`yi yalnız Allah və Onun zikri üçündür.

Mö`min özünü Allahın bəndəsi bilir. Özünün heç bir şeyi olmadığına, hər nəyi varsa Allahdan olduğuna e`tiqad

---

[1] Təbərsi, “Mustədrəkul-vəsail”, 12-ci cild, 61-ci bab, səh.36, 13446-cı rəvayət, “İrşadul-qulub”da Deyləmidən nəql olunur.

edir. Onun nə malı, nə övladı, nə məqamı və nə başqa bir şeyi vardır! Hər nə var Allaha aiddir. Buna görə də, Allahın razılığını cəlb etmək üçün çalışır. Belə bir insan Allahın həqiqi bəndəsidir. Onun buyuruqlarını özünə fayda kimi qəbul edir. Haramlardan çəkinir və öz vəzifələrinə əməl edir. Bu zaman üstün insani həyatı əldə edir və həqiqi yaşayışa yiyələnir.

## *İNSAN MADDİ VƏ MƏ`NƏVİ EHTİYACLARLA ÜZBƏÜZ*

İnsan fitrətən öz səadət və kamilliyinin axtarışındadır. Nə qədər mümkündür öz eyb və nöqsanlarını aradan qaldırmaq istəyir. Allah hər canlı mövcudu, xüsusi ilə insanı elə yaratmışdır ki, zatən kamillik axtarsın, öz səadət və kamilliyi üçün zərərli şeylərdən çəkinsin. Bu mövzu "zatı sevgi" (özünüsevmə) adlanır. Yə`ni hər canlı mövcud özünü, öz həyatını və kamilliyini sevir.

Hər birimiz özümüzdə az-çox çatışmazlıqlar, nöqsanlar və eyblər görürük. Öz bacardığımız həddə bu eybləri və nöqsanları aradan qaldırmaq üçün çalışırıq. Lakin burada iki problem ortaya çıxır: Əvvəla, biz öz həqiqi eyb və nöqsanlarımızı düzgün dərk etmirik, öz əsas ehtiyaclarımızı yaxşı tanımırıq. İkincisi, ehtiyaclarımızı tə`min edən zaman arada ziddiyyət yaranır. Onların tezləşdirilməsi və ya tə`xirə salınmasında səhvə yol veririk. Adətən, maddi ehtiyacları mə`nəvi ehtiyaclardan qabağa salırıq. Çünki onlara daha yaxınıq.

Mə`nəvi və ya maddi bir nöqsanın aradan qaldırılması lazım olduqda bizim fikrimiz və təlaşımız maddi nöqsana yönəlir. Çünki maddi nöqsanları daha yaxşı anlayırıq. Maddi çətinliklərdən daha çox əziyyət çəkirik, maddi və dünyəvi ləzzətlərlə daha yaxşı tanışıq. Təsadüfən bə`zi

mə`nəvi çətinliklər və axirət ehtiyaclarından xəbər tutduqda onları tə`min etmək üçün çox da meyl göstərmirik.

Beləcə, Allah peyğəmbərləri göndərdi ki, əvvəla, insanları öz həqiqi ehtiyacları ilə tanış etsinlər. Onlar insanlara anlatsın ki, dünyəvi, maddi və heyvani nöqsanlardan da əhəmiyyətli çatışmazlıqlar var. İnsan daha çox mə`nəvi nöqsanların aradan götürülməsi və axirət ehtiyaclarının tə`mini üçün çalışmalıdır. Üçüncüsü, peyğəmbərlər insanlara axirət işlərinin əhəmiyyətli olması, maddi və dünyəvi işlərin dəyərsiz olmasını çatdırdılar.

Peyğəmbərlər gəldilər ki, maddi ləzzətlərdən başqa onlarla müqayisəyə gəlməyən başqa ləzzətlərin də olduğunu insana anlatsınlar. Onlar istəyirlər ki, insanın diqqətini maddi işlər, dəyərsiz və ötəri dünyəvi ləzzətlərdən çəkindirsinlər və onun bütün düşüncəsini mə`nəvi işlər və əbədi axirət ləzzətlərinə doğru yönəltsinlər.

Peyğəmbərlər bizə anlatmaq istəyirlər ki, əlaqədə olduğumuz və özümüz üçün mühüm bildiyimiz maddi ləzzətlər o qədər də dəyərli deyil. Onlardan uzaqlaşmalıyıq ki, daha mühüm ləzzətləri dada bilək, öz insani və həqiqi çatışmazlıqlarımızı anlayıb onları aradan qaldırmaq üçün çalışaq.

Peyğəmbərlər insana anladırlar ki, onun inkişaf və təkamül tutumu heyvandan daha çoxdur. Eyni zamanda, onun çatışmazlıq və ehtiyacları da heyvandan çoxdur. Allahın bizim üçün nəzərdə tutduğu ən üstün nöqtədən və iste`dadımıza uyğun yüksəklikdən çox uzağıq. Allah insana bizim təsəvvür etməyəcəyimiz qədər inkişaf və təkamül tutumu vermişdir. Peyğəmbərlər insanı bu nöqtəni düşünməyə çağırır və onu son kamillik nöqtəsinə çatmaq

üçün çalışmağa, çatışmazlıq və nöqsanlarını aradan qaldırmağa də`vət edirlər.

Demək, bizim çatışmazlıq və nöqsanlarımızın yalnız maddi və dünyəvi işlərlə tamamlanmadığını anlamalıyıq. İstər fərdi, istərsə də ictimai dünyəvi çatışmazlıqlar insanın əbədi səadətini təhlükəyə salan çatışmazlıqlar qarşısında dəyərsiz və çox kiçikdir.

Bəli, insan heyvandan fərqlənir. İnsan həyatı ilə heyvani həyatı eyni deyil. İnsani həyatın yemək, yatmaq və digər maddi ləzzətlərdən başqa şərtləri də vardır. Əgər biz Allahı, peyğəmbərləri qəbul ediriksə, onların dediklərini düzgün sayırıqsa, bu heyvani həyatdan savay başqa bir həyatın da olmasını qəbul ediriksə, rəftarlarımız da e`tiqadlarımızı təsdiq etməlidir. Gündəlik əməllərimiz uyğun düşüncəmizi təkzib etməməlidir. Bu həyata inanan şəxsin əməli ilə həyatı maddiyyata həsr olunmuş bilən şəxsin əməli arasında fərq olmalıdır. Biz qəti surətdə insani həyatın olmasına inanırıq. Lakin iradə süstlüyü v iman zəifliyi səbəbindən əməldə səhlənkarlıq edirik. İmanımız zəifdir, nəticədə onun əmələ tə`siri də çox zəif olur. Lakin güclü iman nəticəsində səadətə və kamillik məqamlarına çatmış şəxslər olmuşdur və indi də vardır.

## *DÜNYAYA ALDANIŞ MƏ`NƏVİ HƏYATA NAİL OLMAQ ÜÇÜN MANEƏDİR*

Biz öz əlimizlə kamillik dərəcəsindən tənəzzül üçün vasitələr yaratmışıq. Ağırlığı belimizi əyən yükləri çiynimizə almışıq. Əl-ayağımıza bizi hərəkət etməyə qoymayan zəncirlər bağlamışıq. Əmirəl-mö`minin (ə)

bəlkə də bizim dilimizdən "Kumeyl" duasında Allaha ərz edir:

***"Pərvərdigara, çətinliklərim firavandır, halımın pisliyi həddi aşıb, əməllərimsə çox az. Buxov və zəncirlər məni yerə oturtmuş, uzun-uzadı arzular məni faydalardan uzaq salmışdır. Bir tərəfdən dünyanın hiyləsi, digər tərəfdən məğrurluq. Nəfsim öz cinayətləri ilə, bu gün-sabaha salmaqla məni aldatmışdır".***

Görən bu cümlələri səmimi deyirikmi? Anlayırıqmı ki, günah yükü belimizi əymişdir? Bilirikmi ki, öz pis əməllərimizlə əl-ayağımızı zəncirləmişik, dünya və onun zinəti bizi aldadıb?

Qur`an buyurur: ***"Dünya həyatı aldadıcı matahdan başqa bir şey deyil."***[1] Başqa bir yerdə isə belə buyurur:

***"Dünya həyatı sizi aldadıb, Allah qarşısında məğrur etməsin."***[2]

Dünya həyatına aldanmaq nədir? Dünya həyatı insanı necə aldadır? Böyüklər uşağı aldatmaq istəyəndə onun istədiyi qiymətli şey əvəzinə ucuz bir konfet verərək başını qatırlar. Bizim əldə etməli olduğumuz mənfəətlər var. Lakin dünya və onun ləzzətləri qarşımızda gözəl və qiymətli cilvələnib bizi aldadır və əsas mənfəət və həqiqi ləzzətə çatmağımıza mane olur. Təəssüf ki, bizi təkcə dünya aldatmır. Bə`zən özümüz də özümüzü aldadırıq. Peyğəmbərlərlə eyni istəkdə olduğumuzu deyirik. Bə`zən isə şeytanın qəlbimizə saldığı şeyləri Allahın buyuruğu kimi qəbul edirik. Əgər peyğəmbərlər və imamların dediyi düzgün olarsa (əlbəttə ki, düzdür), biz həqiqətdən uzaq düşmüş, səhvə düçar olmuş və ünvansız gedirik. "Kumeyl"

---

[1] "Ali-İmran" surəsi, ayə 185.
[2] "Loğman" surəsi, ayə 33.

duası həzrət Əlidən (ə), “Əbu-Həmzə” və “Səhifeyi-Səccadiyyə” duaları isə imam Səccaddandır (ə).

Biz necə ardıcıllarıq ki, onlara heç bir oxşarlığımız yoxdur? Bu duaların məzmununa inanırıqmı? Görəsən bu məsələlər həqiqətdir, yoxsa yox? Bizi aldadan dünya, həqiqi xeyirə çatmağımızın qarşısını alan zahiri gözəlliklər ötəri ləzzətdən savay bir şeydirmi? Hər gün əvvəlki gündən daha dadlı yemək istəmirikmi? Hər gün həyat tərzimizi, evimizin görkəmini, maşınımızın modelini və başqa yaşayış vasitələrini dəyişmək istəmirikmi? Yoxsa dünyaya aldanmaq bundan başqa bir şeydir? Fikirləşməliyik ki, bizdən nəyi alıb əvəzində bunları veriblər? Dəyərli şeyləri əldə etmək üçün iste`dadımız var. Lakin ötəri işlərə meyl göstəririk? Bəli, həqiqətdə biz insani həyat və imanlı yaşayışdan məhrum olub, bünövrəsi Allah zikri olan üstün həyatdan uzaq düşmüşük!

**(8)**

***“Pərvərdigara, ölüm yatağına düşdüyüm, hərəkət üçün dostlara möhtac olduğum vaxt mənə rəhm et. Qüsl üçün uzadıldığım və saleh qonşularımın məni sola-sağa çevirdiyi vaxt mənə fəzlindən mərhəmət qıl. Qəbrə doğru aparıldığım və qonşularımın cənazəmi əhatə etdiyi vaxt mənə mehribanlıq göstər. Qəbrə qoyulduğum və hüzuruna tək-tənha gəldiyim vaxt mənə kərəm göstər. Bu təzə evdə qəribliyimə rəhm et ki, Səndən qeyrisi ilə üzləşməyim”.***

## *İNSANIN AXİRƏTİ DÜŞÜNMƏMƏSİNİN SƏBƏBİ*

İnsan Allahın onun vücudunda qoyduğu meyllər vasitəsi ilə öz maddi ehtiyaclarını dərk edir. Bu ehtiyacları tə`min etmək üçün maddi vasitələr axtarır və öz həmnövlərindən kömək istəyir. İnsan fitri olaraq aclıq, susuzluq, cinsi ehtiyac, məskənə ehtiyac kimi dünyəvi ehtiyaclarını dərk edir. O bu ehtiyacları tə`min etmək üçün çalışır. Buna görə də onun ehtiyaclarını ödəyən, onu dünyəvi ləzzətlərə çatdıran vasitələrə, həmçinin bu yolda ona kömək edib, çətinliklərini azaldan şəxslərə qarşı maraqlı olur, onlarla ünsiyyət yaradır. Adətən, insanın arvada, uşağa, dostlara, qohumlara, ümumiyyətlə, onunla həyatda şərikliyi olan bütün şəxslərə məhəbbəti bu səbəbdəndir. Dünyəvi və maddi işlərlə ünsiyyət insanı mə`nəvi işlər haqda düşüncədən uzaqlaşdırır. İnsan onun ehtiyaclarının dünyəvi, maddi ehtiyaclardan ibarət olduğunu təsəvvür edir.

Başqa bir tərəfdən, öz ehtiyaclarının maddi vasitələr və ünsiyyətdə olduğu şəxslərin köməkliyi ilə tə`min olunduğunu zənn edir. Lakin o tanıdığı ehtiyacların həqiqi ehtiyacların bir az hissəsi olduğundan xəbərsizdir. Onun tanıdığı ehtiyaclar məhdud dünya həyatına aid ehtiyaclardır. O əsil ehtiyaclarının tamam başqa şeylər olduğunu anlamır. Həmin ehtiyaclar əbədi axirət aləmi ilə bağlıdır. İnsan təsəvvür edir ki, bu dünyada ünsiyyətdə olduğu şəxslər həmişə onun yanında qalacaqlar. Lakin unutmamalıyıq ki, müdhiş bir gün həmin insanlar hamılıqla bizi boşlayasıdır.

Biz hamımız az-çox dünyəvi işlər, maddi ləzzətlər, ehtiyaclarımızı tə`min edən əşya və şəxslər ilə ünsiyyət saxlayırıq. Onlardan uzaqlaşdığımız zaman qəriblik və sıxıntı hiss edirik. Ümumiyyətlə, bütün diqqətimiz dünyəvi

və maddi işlər ətrafında cəmləşib. Lakin bu dünyanın daimi yox, ötəri olduğunu bilmək lazımdır. Bir gün bu fani evdən köçməli olacağıq. İndi isə əbədi ev fikrində olub, hansısa digər ehtiyaclarımızın olduğunu düşünməliyik. Əgər öz əbədi həyatımızda ehtiyaclarımız varsa, onları hansı vasitələrlə və hansı yolla tə`min etməliyik? Görək, bizim əbədi aləmdəki ehtiyaclarımız bu dünyadakı ehtiyaclarımız kimidirmi? Məgər insan bu dünyadan getdikdən sonra da geyim, yemək və digər maddi vasitələrə ehtiyaclı olacaqmı? Necə ki, bəşər bir vaxtlar belə təsəvvür edirdi. Ölülərin yanına bir qədər yemək və yaşayış vasitələri qoyub onları dəfn edirdilər. Guya bu şeylər bir zaman onların karına gələcək!

Axirət aləminin dünya aləmi ilə fərqli olduğu aydındır. Peyğəmbərlər gəlib insanlara anlatdılar ki, onun axirətdəki ehtiyacları dünyəvi ehtiyacları kimi deyil. Orada insanın başqa ehtiyacları var. Dünyəvi vasitələr orada ona heç bir fayda vermir və hətta bu vasitələri oraya apara da bilməz. Bir gün bütün dostlar, yaxınlar və qohumlar insanı tərk edəcək. Əgər ona kömək etmək istəsələr belə, yenə də əllərindən gəlməz. İnsan bu aləmi tərk etmək istədiyi gün, ölüm yatağına düşən zaman və ölümü gözləri önündə müşahidə etdiyi an topladığı bütün şeylərə göz yumub, yığdığı sərmayələrdən əl çəkməli, dostları, yaxınları və bütün istədiyi şəxslərdən ayrılmalıdır. Bu halda insanın başqa bir yerə və başqa bir kəsə qəlb bağlılığı olmasa onda ağrılı bir qəmginlik yaranacaq, qaçmağa heç bir yol tapmayacaqdır.

Bu zaman onun bədən üzvləri bir-birinin ardınca işdən düşəcək və sonda ruh bədənindən çıxacaqdır. Ruh ölümündən sonrakı cərəyanları müşahidə edir: Dostlar və tanışlar onun cənazəsini götürüb qəbristana tərəf aparırlar.

Cənazəni qəbirdə dəfn edir, onun üstünə bir yığın torpaq tökürlər və bir neçə saatdan sonra öz evlərinə qayıdırlar. Bu zaman o qəbirdə tənha qalır! İmam Səccad (ə) qəbir evini belə vəsf edir: "Vay olsun mənə, belə bir halda özüm üçün hazırlamadığım qəbrə köçəm. Saleh əməllə onun yerini döşəməmişəm. Necə ağlamayım ki, yolumun hara olduğunu bilmirəm. İndi görürəm ki, nəfs məni aldatmış, ruzgar mənə hiylə qurmuşdur. Bir halda ki, ölüm quşu başım üstə qanad açmışdır. Necə ağlamayım? Ruhumun bədənimdən çıxmasına ağlayıram, qəbrimin qaranlığına ağlayıram, mənzilimin darlığına ağlayıram".

Sərvət yığmaq, ev düzəltmək, yaşayış vasitələri almaq, başqaları ilə ünsiyyət yaratmaq üçün bir ömür əzab-əziyyət! Bütün bunlar bir anda məhv olur. O tənha və qərib halda qalmalıdır. Bu hal nə qədər çəkəcək? Müddəti çox uzundur. Ümumiyyətlə, dünya ömrü ilə müqayisə olunası deyil. Bərzəx aləmində, daha sonra qiyamət və axirət aləmində qalacağı bu uzun müddətdə yığdıqları şeyin heç biri onun karına gəlməyəcək. Nə etməlidir? Nə edə bilər?

## *ALLAHLA ÜNSİYYƏT ÖLÜMDƏN SONRA ÜÇÜN ƏN ÜSTÜN AZUQƏDİR*

İnsan bu dünyanı əliboş tərk etməmək üçün elə bu dünyada ölümdən qabaq axirət gününü fikirləşməli və münasib azuqə yığmalıdır. İnsan bütün sə`yini dünya və dünya ləzzətlərinə sərf etməməlidir. Öncədən bilməlidir ki, kiminlə ünsiyyət saxlasa qəriblik günü onu tənha qoymaz. Onun əsas ehtiyacını ödəyən şəxsiyyətlərlə ünsiyyət saxlamalıdır. Həmin şəxslər ki, bu dünyada bə`zi vasitələr yaratmaqla onun mə`nəvi və maddi ehtiyaclarını tə`min etmişlər. İmam Zeynəl-abidin (ə) "Əbu-Həmzə" duasının

bir hissəsində yuxarıdakı həqiqətə nəzər salaraq Allaha ərz edir:

"Pərvərdigara, ölüm yatağına düşdüyüm, hərəkət üçün dostlara möhtac olduğum vaxt mənə rəhm et. Qüsül üçün uzadıldığım vaxt saleh qonşularım məni sağa-sola çevirərkən mənə fəzl mərhəmət et. Aparılarkən qonşularım cənazəmin ətrafını tutduğu vaxt mənə mehribanlıq göstər. Aparılıb qəbrimdə hüzuruna tək-tənha daxil olan zaman mənə kərəm göstər. Həmin təzə evdə qəribliyimə rəhm et, Səndən başqası ilə üzləşməyim".

Duanın bu hissəsinin ən mühüm nöqtəsində Allaha ərz edir: "İlahi, həmin yeni evdə tənhalığıma rəhm et ki, Səndən başqası ilə əlaqə saxlamayım". Məgər bu dünyada Allah ilə ünsiyyətin tamını dadmış şəxsin qəbrə daxil olarkən Ondan başqası ilə ünsiyyət saxlaması mümkündürmü? Ya da dünyada Allahdan başqası ilə ünsiyyət yaratmış şəxsin qəbrə daxil olarkən yalnız Allahla ünsiyyətdə olması mümkündürmü?

Allah Davuda buyurdu:

***"Ey Davud, yer əhlinə de: Mən Məni sevən kəsin dostuyam. Mənim məclisimdə iştirak edənin yoldaşıyam. Mənim zikrimlə ünsiyyət saxlayanın munisiyəm və Mənimlə olan şəxsin müsahibiyəm."***[1]

İnsan dünyada kiminlə ünsiyyət yaradırsa, qəlbi də onunladır; qiyamət günü də onunla səhnəyə gətiriləcəkdir:

***"Sevdiyin kəslə olacaqsan və əldə etdiklərin Sənin üçündür."***[2]

---

[1] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 70-ci cild, səh.26, 28-ci rəvayət.

[2] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", 27-ci cild, səh.105, 75-ci rəvayət.

Dünya həyatında yalnız var-dövlət, dostlar, qadın və övlad haqqında düşünən şəxs qəbrə qoyulub tərk olunan zaman bir yığın həsrət və qəmlə qarşılaşacaqdır. Yalnız bu dünyada Allah ilə ünsiyyət yaratmış, Onu tanımış və Ona ürək bağlamış şəxslər axirət aləmində Allah ilə ünsiyyət saxlaya bilərlər. Qadın, övlad və ya dostlar bir neçə saat bizim yanımızda olmadıqda, evdə tək qalıb baş qatışdırmağa bir iş tapmadıqda tənhalıq hiss edir, qorxuya düşürük. Allah ilə ünsiyyətin mə`nasını bilmir, onun ləzzətini dərk etmirik. Dostlar və yaxınlardan birini bir müddət görmədikdə onun üçün darıxırıq. Amma indiyə qədər heç olubmu ki, namaz üçün darıxaq? İndiyədək dua və münacat üçün, Allah ilə raz-niyaz üçün fürsət yaranmasının intizarında olmuşuqmu?

Adətən, hansısa sakit bir yerdə olduqda qorxu hissi keçirir, söhbət etməyə bir şəxs axtarırıq. Bu şəxsi tapmadıqda xəyallar aləmində özümüzlə danışıb, hər nə yolla olur-olsun başımızı qatışdırırıq. Belə bir durumda təbii olaraq, qəbrə daxil olduqdan sonra tezliklə hər şeyi unudub Allah ilə ünsiyyət yarada bilmərik.

Əgər axirət aləmində qəriblik və narahatlığa düçar olmaq istəmiriksə, bu dünyada Allah ilə ünsiyyətin müqəddiməsini hazırlayaq ki, axirət aləmində bizimlə olsun və bizi tərk etməsin. Ən azı ünsiyyət saxladıqlarımızdan biri də Allah olmalıdır. Özümüz üçün proqram tərtib etməli, sakit bir vaxt ayırıb həmin vaxtda yalnız Allahı düşünməliyik. Dünya və onda olanları, iş, qadın, övlad, dostlar və tanışları unudub yalnız Onu düşünüb zikr etməliyik. Əgər bu işi görməsək bərzəx aləmində böyük bir həsrət çəkəcəyik. Qürbət, tənhalıq, əzab və kədər bizi dövrəsinə alacaq. Heç kəs və heç bir şey onu bizdən uzaqlaşdıra bilməyəcək.

Həzrət Fatimeyi-Zəhra (ə) həzrət Əliyə (ə) vəsiyyətində buyurur:

***"Əlican, öldüyüm zaman mənə özün qüsl ver və kəfənə bük. Məni dəfn edəndə isə başım üstə üzbəüz otur və çox Qur`an oxu."***[1] Həzrətin qəlbi Allahla ünsiyyətdə olduğu üçün həmişə Allah kəlamı eşitmək istəyir.

Bir neçə anlıq da olsa, imkan tapıb Qur`an oxumaq intizarında olan şəxslər var. Onlar Qur`anı oxuduqda, ona qulaq asdıqda ləzzət alırlar. Onlar namaz və ibadəti aşiqcəsinə yerinə yetirirlər: Məgər indiyədək hansısa bir aşiq öz mə`şuqu ilə söhbət etməkdən bezmişdirmi? Lakin bizim fikrimiz namaz zamanı ayrı yerdə olur. Qəfəsin açılması intizarında olan əsir bir quş kimi! Biz namazın və ya ramazan ayının nə vaxt tamam olacağının intizarını çəkirik. Namaz qılan zaman da daim o tərəf bu tərəfimizdən kimin ötüb-keçdiyini düşünürük. Bütün bunlar Allah və Onun zikri ilə ünsiyyətdə olmadığımızı göstərir.

## *ALLAH İLƏ NECƏ ÜNSİYYƏT YARADAQ?*

Allahdan diləyirik ki, bizə Öz lütfü ilə, qəlbizimin dərinliyində Ona qarşı ünsiyyət və məhəbbət yaranması üçün iradə əta etsin. Onunla ünsiyyət yarada bilək. Bu iş mümkündür, lakin Allahdan tövfiq istəməli və özümüz də iradəli olmalıyıq. Əlbəttə, bu məqsədlə çalışmaq da lazımdır.

Bu istəyin sadə yollarından biri proqram qurub sutkada bir neçə dəqiqə vaxt ayırıb, sakit bir yerdə yalnız Allahı düşünməyinizdir. Bu iş dua, namaz, münacat, Qur`an

---

[1] Əzizullah Ütaridi, "Musnədi-Fatimətuz-Zəhra, Ütaridi nəşriyyatı, birinci çap, səh.401.

qiraəti ilə müşayiət oluna bilər; Allahın hazır və nəzarətçi olduğunu, bizi gördüyünü, həmişə bizə lütf etdiyini unutmamaq mühümdür. Səmimi qəlblə günahlarımızdan tövbə etməli və tə`sirli olanadək bu proqramı davam etdirməliyik ki, axirət aləmində Allahın lütfünə ümidvar olaq.

İnsan dünyadan gedən kimi əməllərinin nəticəsini görəcəkdir; o zaman hər nə qədər desə: ***"Pərvərdigara! Məni geri qaytar! Bəlkə, tərk etdiyim saleh əməlləri yerinə yetirim,"***[1] cavabında belə deyiləcək: ***"Kəlla!"-"Heç zaman!"*** Onun vaxtı keçib. Ona görə də ömrün dəqiqələrini qənimət saymaq lazımdır. Minlərlə dünyəvi iş içində öz axirətimiz üçün bir iş görək. Minlərlə məhbub və ünsiyyət yaratdıqlarımız arasında, öz qəlbimizin bir guşəsində Allaha və Onun zikrinə yer ayıraq. Bütün qəlbimizi Allaha və Onunla ünsiyyətə bağlamırıqsa, ən azı Allahı işlərimizdə şərik edək.

Bir gün mərhum Şeyx Cə`fər Şuştəri minbərdə buyurdu: "Camaat, mən bu gün bütün peyğəmbərlər və övliyaların dediyinin əksinə bir söz demək istəyirəm". Camaat təəccüb etdi. Buyurdu: "Bütün peyğəmbərlər xalqı tövhidə də`vət ediblər, lakin mən istəyirəm sizi şirkə də`vət edim. Bütün peyğəmbərlər və övliyalar deyirdilər ki, işlərinizi yalnız Allah üçün görün. Lakin mən istəyirəm deyəm ki, Allahı da öz işlərinizdə şərik edin! Siz qəlbinizi Allaha məxsus etməyəcəksinizsə, ən azı qəlbinizin bir guşəsini ona tapşırın. Qəlbinizi tamamilə Allahdan başqasına verməyin. Çünki bir gün peşiman olacaqsınız!"

***«Allahım, qəlblərimizə məhəbbət rüşeymini ək. Mə`rifət nurunu bizə saçdır. Əfv şirinliyini və***

---

[1] "Mu`minin" surəsi, ayə 99, 100.

***bağışlanma ləzzətini bizə daddır və gözlərimizi qarşılaşma günü öz görüşünlə işıqlandır.»***[1]

## (9)
## *İMANIN DƏYƏRİ*

***"İlahi, Səndən həmişə qəlbimdə olası sabit iman və sadiq yəqin istəyirəm ki, təqdir qələminin yazdığından başqa bir şeyin mənə çatmayacağına inanam. Məni yaşayış vasitələrindən qismətimə verdiklərin üçün razı və xoşhal et. Ey mehribanların ən mehribanı".***

Bu hissə "Əbu-Həmzə" duasının axırıncı cümlələrindəndir. İmam Səccad (ə) duadan sonra, axırıncı və ən üstün istəyini bu iki cümlədə xülasələşdirərək Allahdan "sabit iman" və "ilahi qəzavü qədərə razılıq" tələb edir.

Mə`lum olur ki, iman çox əhəmiyyətli olduğundan imam Səccad (ə) bu uzun münacatdan sonra Allahdan ona iman əta etməsini istəyir. Həmçinin iman yarandıqdan sonra xətər qorxusu olduğu üçün Allahdan ona qəlbində sabit və əbədi qalacaq bir iman əta etməsini istəyir. Əgər insanda iman yaranarsa, o qürurlanıb bu imanın onda həmişəlik və sabit qalacağını təsəvvür etməməlidir.

İnsanın dili imanın dəyərini vəsf etməkdə acizdir. İman insan ruhunun sakitlik mayası, həyat çətinliklərində insanın pənahgahı, ən əsası, əbədi səadət və axirət əzabından qurtuluş səbəbidir.

İman (zəif də olsa) Allahın insana mərhəmət etdiyi ən böyük ne`mətdir. Belə bir imanın tə`siri çox zəif olsa da, o həm də çox dəyərli, dünya və axirət səadəti üçün

[1] "Məfatihul-cinan", imam Səccadın (ə) "Xəmsə Əşərə" münacatı, Zahidin münacatı.

əhəmiyyətlidir. İnsanın imanla münasibəti balığın su ilə münasibəti kimidir. Balıq nə qədər ki sudadır, suyun qədrini bilmir. Lakin sudan çıxan kimi necə də böyük ne`mət içində olduğunu, indi isə bu ne`mətdən məhrum qaldığını anlayır. Biz də, həmd olsun Allaha, bu böyük ilahi ne`mətdən bəhrələnirik. Zəif olsa da həyatımız onun əhatəsindədir. Əgər Allah eləməmiş, həmin zəif iman bizdən alınarsa, şəkk və zəlalət halına düçar olarıq. Bu zaman necə də böyük ne`mətə sahib olduğumuzu və bu ne`mətin bizdən alındığını anlayarıq.

Bir şəxs nəql edir ki, səfərdə bir nəfərlə tanış oldum. Onun bütün əməl və halları təbii idi. Lakin cümə gecələrini səhərə qədər oyaq qalır, əhya saxlayırdı. Bu işin səbəbini soruşdum. O dedi: “Bir çətinliklə qarşılaşmışdım. Əhd etdim ki, Allah onu aradan qaldıran gündən ömrümün axırınadək cümə gecələrini əhya saxlayım. Ondan soruşdum: “Sizin çətinliyiniz nə idi?” (Biz elə təsəvvür edirik ki, onun çətinliyi kasıblıq, xəstəlik və ya bu kimi başqa problemlər olduğundan əhd etməyə məcbur olub.)

O belə cavab verdi: “Bir e`tiqadda şəkk-şübhəyə düçar olmuşdum və imanım zəifləmişdi. Özümü bu haldan çıxarmaq üçün nə qədər çalışdımsa, bacarmadım. Bir çox şəxslərə müraciət etdim. Hərəsi bir kitab göstərdi. Çoxları ilə söhbət etdim. Amma bunların heç bir həqiqi tə`siri olmadı. Əksinə, iztirabım artırdı. Eşitdim ki, müqəddəs Məşhəddə şeyx Həsən Əli İsfahani adlı bir alim yüksək məqam və kəramət sahibidir, xalqın çətinliklərini həll edir. Ona bir məktub yazıb öz şərhi halımı açıqladım. Əhvaz əhalisindən olduğum üçün məktubun cavabında belə yazdı: “Filan gün, filan saat Karun çayının kənarına gedib, xurmalıqların bir guşəsində otur, bəlkə Allah sənin çətinliyini aradan qaldırdı!” Həmin gün tə`yin olunmuş

saatda ora gedib bir guşədə oturdum. Çaya tamaşa etdiyim vaxt bir camışın suyun ortasında üzdüyünü gördüm. Camış tədricən mənə tərəf gəlib sahilə çatdı. Sudan çıxıb bir neçə dəqiqə xurmalıqda dayandı və qarnında olan balasını doğdu. Sonra onu təmizləyib süd verdi. Bu mənzərəyə tamaşa etdikdən sonra bütün şəklərim aradan qalxdı, ruhum sakitləşdi. Yenidən imanımı tapdığım üçün bu ne`mətin şükrü olaraq özümlə əhd bağladım ki, hər cümə axşamı sübhə qədər oyaq qalam.

Bir müddət iman ne`mətindən məhrum olub, yenidən Allah tərəfindən bu ne`mətə çatan şəxslər iman ne`mətinin qədrini daha yaxşı bilirlər. İmansızlığın pis tə`sirini, e`tiqadın zəifləməsini və onun acısını dadan şəxslər imanı qənimət sayırlar. Lakin heç bir zaman imanımız bizdən alınmadığı üçün (zəif də olsa) onun nə qədər dəyərli olduğunu anlamırıq. Zərifinin dediyi kimi "Allahsızlıq görməmişik ki, Allaha imanın nə qədər böyük ne`mət olduğunu anlayaq!" Gərək imanımızın xətərə düşməməsi və möhkəm qalması üçün çalışaq. Beləcə, inşaallah, imanlı halda dünyadan gedək. Əgər bir gün insanın Allahla əlaqəsi kəsilsə və o yolu itirsə, yol tapmaq üçün çalışıb kiçik bir baca belə tapmadıqda necə böyük bəlaya düşdüyünü anlayar.

## *GÜNAH VƏ İMAN*

İman çox dəyərli olsa da, onun sabit və əbədi olduğunu düşünməməliyik. Bu ne`mətin də sair ne`mətlər kimi zay olması mümkündür. Bu ne`mətin bizdən alınmaması üçün Allaha pənah aparmalıyıq. Bir çoxları imanlı olub yaxşı işlər gördükləri halda, bir müddət sonra bə`zi səbəblərdən imanları zəifləmiş və dünyadan imansız getmişlər.

Allah kimsəyə verdiyi ne`məti geri almayacağını zəmanət verməmişdir. "İbrahim" surəsinin 7-ci ayəsində buyurulur: "Əgər Mənə şükür etsəniz, sizə olan ne`mətimi artıracağam. Yox əgər nankorluq etsəniz, Mənim əzabım həqiqətən şiddətlidir!"

Beləliklə, imanımız üçün daim bəla təhlükəsi olduğunu düşünməliyik. Bir tərəfdən şeytani vəsvəsələr və şübhələr, digər tərəfdən insanın pis əməlləri iman üçün ciddi qorxu yaradır. Rəvayətlərdə göstərilir ki, günah edən şəxsin qəlbində qara bir nöqtə yaranır. Həmin qara nöqtə qəlbdə genişlənib onu zülmətə bürüyür. Günahlar çoxaldıqca bütün qəlb zülmətə bürünür. Bu halda insanın qurtuluşu mümkünsüz olur.[1]

Allahdan imanımızı gücləndirməsini, onu cin və insan şeytanların qarətindən qorumasını istəməliyik. Allah eləməmiş, günah etdikdə dərhal tövbə qılıb, günah nəticəsində qəlbimizdə yer almış qaranlıqları təmizləməliyik. Qəlb qaranlıqlarının insana tə`sirli nəticələri var. Lakin biz bunu hiss etmir və sağlam olduğumuzu düşünürük. Günah nəticəsində qəlb bərkiyir, sonda insan Allahla münacat və duadan, Qur`an oxumaqdan və pak imamlara təvəssüldən ləzzət almır. Onda günaha, şəhvətə və boş-boş işlərə meyl yaranır. Günahkarlarla yaxınlıq, onların məclislərində iştirak etmək Allahın layiqli bəndələri ilə yaxınlığın yerini tutur. İnsan az-çox onun özü kimi olan insanlarla yoldaş olmaq istəyir. Bütün bunlar qəlbin bərkiməsi və zülmətə bürünməsinin nişanələridir.

Nurani və Allahla əlaqədə olan qəlb onu Allahdan və Onun zikrindən ayıran şeylərlə əlaqə saxladıqda əzab

[1] "Bihar", 73-cü cild, səh.327, 10-cu rəvayət.

çəkir. Dünya və əyləncə əhli ilə birlikdə oturduqda özünü zindandakı kimi hiss edir və bu cür məclislərdən azad olmağa çalışır.

*Tutu düşdü qarğa ilə qəfəsə,*
*Azadlıqçün bir də gəldi həvəsə.*

Beləliklə, bilməliyik ki, əvvəla, iman (hər nə qədər zəif olsa da) Allahın bizə verdiyi qiymətli bir gövhərdir. İkincisi, öz imanımızın təhlükədə olduğundan qafil qalmamalıyıq. Buna görə də, daim imanımızı gücləndirməyə çalışmalı və mümkün qədər öz e`tiqadlarımızı möhkəmləndirməliyik. Şübhələr və şübhəyə səbəb olan şeylərdən uzaqlaşmalıyıq. Hansısa bir şübhə ilə qarşılaşdıqda ona əlac etməli, qəlb və zehnimizin şeytani vəsvəsələr meydanı olmasına icazə verməməliyik.

Eyni zamanda, günah və insanı günaha yaxınlaş-dıran işlərdən çəkinməliyik. Allah eləməmiş, günah etdikdə dərhal tövbə qılıb, tam kiçiklik və yalvarışlar şəklində Allahdan imanımızı qoruyub gücləndirməsini istəməli və pak imamlara təvəssül etməliyik.

"Əbu-Həmzə" duasının bu hissəsi xatırlanan nöqtələrə yetərli dəlildir:

***"İlahi, mənə daim qəlbimdə qalan və qəlbimdən ayrılmayan iman və yəqin əta et".***

## *İMANIN BƏ`Zİ NƏTİCƏLƏRİ*

a) Yəqin: Qəlbdə iman sabitləşdikdən sonra onun səmərələri ortaya çıxır. İmam Səccad (ə) onun iki nəticəsinə işarə etmişdir: Allahın təqdirlərinə yəqin və ilahi qəzalarla razılıq: ***"İlahi, elə bir yəqin ver ki, Sənin təqdirin olmadan mənə heç nə çatmayacağına inanam".***

Yəqin imanın ən üstün və ən kamil mərhələsidir. İman mə`rifətə bağlıdır, kamil mə`rifət insanda yəqin sifətinin

yaranmasına səbəb olur. Yəqin mərhələsinə çatmış şəxs üçün rifahda və ya çətinlikdə olmağın heç bir fərqi yoxdur. O, maddi həyat hadisələri qarşısında e`tinasızdır. Çünki onun qəlbi başqa bir yerə bağlıdır. Kamil imana və yəqin mərhələsinə çatmış mö`min bütün işlərini Allahın öhdəsinə buraxır. O, mənfəətinin Allahın təqdir etdiyi şeylərdə olduğuna inanır.

Beləliklə, mö`min xəyalən həmişə rahatdır. Çünki Allah onun həyatını öhdəsinə götürmüşdür və onun xeyiri Allahın təqdir etdiyi şeylərdədir. Me`rac hədisində Allah buyurur: "Bəndəm yəqin mərhələsinə çatdıqda həyatın ona ağır və ya asan keçdiyinə əhəmiyyət verməz."[1]

İmam Rizadan (ə) "yəqinin" mə`nası soruşuldu. İmam buyurdu: İmam Baqir onu belə təsvir etmişdir:

***"Yəqin Allaha təvəkkül, Onun göstərişlərinə təslimçilik, ilahi qəzalardan razılıq və işləri ona tapşırmaqdan ibarətdir."***[2]

Beləliklə, imanın birinci nəticəsi insanın ona çatmalı olan şeylərin bir gün çatacağına və təqdir olmayanların çatmayacağına inanmasıdır.

İmam Sadiq (ə) nəql edir ki, həzrət Əli (ə) buyurdu:

***"Heç bir bəndə ona çatası şeylərin çatmamasının və ona çatmayası şeylərin çatmasının mümkün olmamasına (yəqin) elm tapmayana qədər imanın tamını dadmayacaqdır. (Ona çatmalı olan şeylər çatacaq və ya çatmışdır. Ona çatması qərarlaşdırılmayan şeylər ona çatmayacaqdır.) Yalnız böyük Allah fayda və ziyan verə bilər."***[3]

---

[1] "Biharul-ənvar", 77-ci cild, səh.27, 6-cı rəvayət.

[2] "Biharul-ənvar", 7-ci cild, səh.738, 4-cü rəvayət.

[3] Məhəmməd Təqi Məclisi, "Biharul-ənvar", 70-ci cild, səh.154, 12-ci rəvayət.

Çalışmaq və əziyyət nəticəsində hasil olan şeylərin yalnız özümüzdən olması əqidəsi şirk dolu bir baxışdır.

Təkallahçı insan vücudunun, əqli və cismi enerjisinin, sərf etdiyi vasitələri Allahdan olduğunu bilməlidir. Bundan əlavə, bu şeylərdən istifadə etmək də Allahın tədbiri əhatəsindədir. İnsan mal, sərvət yığıb Allahın istəyi olmadan istifadə edə bilməz. Bir çoxları sərvət toplayır (istər halal, istər haram yolla), lakin ondan istifadə etməyə müvəffəq olmur. Beləliklə, sərvətdən istifadə etmək də Allahın istəyinə bağlıdır.

Əlbəttə, "yəqin"i qəbul etməyin şərti cəbrə (məcburiyyətə) inanmaq deyil. Yə`ni elə də deyil ki, insan iş-güc dalınca getməyib tənbəllik etsin, dini e`tiqadları bəhanə gətirib, "işləsəm də, işləməsəm də Allahın təqdiri olan hər şey mənə çatacaq" desin. Burada cəbr-ixtiyar məsələsini geniş şəkildə açıqlamaq üçün imkan olmadığından, ümumi şəkildə qeyd edirik ki, təqdir olunan iş "vasitələrin səbəblər yolu ilə gerçəkləşməsidir". Allah işləri müəyyənləşdirdikdə vasitələr və səbəblər nəzərdə tutmuşdur. Bu vasitələrdən biri insanın öz iradəsidir.

Misal üçün, bir şəxs üçün 50 il ömür müəyyənləşdirilibsə, bu o deməkdir ki, Allah onun ömrü boyu hansı işlər görüb, hansıları görməyəcəyini bilir. Ömürü azaldan və ya uzadan şeylərə, məsələn, sileyi-rəhim (yaxınlarla əlaqə), qəti-rəhim (əlaqəni kəsmək), ana və atanın haqqını gözləmək, sağlamlığı gözləmək və bu kimi başqa məsələlərə nə qədər əhəmiyyət verəcəyini bilməsidir.

Beləliklə, Allah öz geniş elmi əsasında şəxsin ixtiyari rəftar və əməlləri əsasında məsələn 50 il yaşayacağını müəyyənləşdirmişdir. Lakin insanın "mənim ömrüm 50 ildir və işlərimin ömrümün uzanıb-azalmasına heç bir

tə`siri yoxdur" deməsi düzgün deyil. Allahın müəyyənləşdirdikləri insanın ixtiyari işlərinin əsasındadır.

İnsanın ixtiyari işlərinin Allahdan asılı olması bu işlərin onun özündən asılı olması ilə zidd deyil. Çünki bu əsaslanmalar bir xətt boyudur və bir-birlərinə maneə törətmirlər. Başqa sözlə, iş görənin insan olması bir səviyyədə və bu işin Allaha əsaslanması daha üstün bir səviyyədədir; bu səviyyədə insanın öz vücudu işin əsaslandığı maddələrin vücudu və iş vasitələrinin vücudu Allaha əsaslanır. Səbəblər toplumunun son tərkibi kimi insan iradəsinin işə tə`siri səbəblər toplumunun bütünlüklə Allaha aid olması ilə zidd deyil. Dünyanın, insanın, cismə aid bütün şə`nlərin ixtiyarı Allahın əlindədir. Allah daim onlara varlıq verir və heç bir mövcud hansısa zamanda ondan ehtiyacsız deyil. Belə ki, insanın azad şəkildə gördüyü işlər də Allahdan, Onun iradəsindən asılıdır. Bir işi müstəqil şəkildə insanın və ya Allahın iradəsindən asılı bilmək düzgün deyil. Çünki bu iki iradə bir-birindən ayrı deyil. İnsanın iradəsi də onun vücudu kimi Allahın iradəsinə bağlıdır. İnsanın iradəsinin gerçəkləşməsi üçün Allah-təalanın iradəsi zəruridir. ***"Aləmlərin Rəbbi olan Allah istəməsə, siz istəməzsiniz!"***[1]

Qur`an buyurur:

"Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun. Bu, Allah üçün çox asandır!"[2]

Sonra buyurur:

---

[1] "Təkvir" surəsi, ayə 29.
[2] "Hədid" surəsi, ayə 22.

“Bu sizin əlinizdən çıxana görə kədərlənməməyiniz və sizə verilənə görə sevinib qürrələnməməyiniz üçündür.”[1]

Dünyada əzizlərimizin birini itirsək, kasıbçılıq, xəstəliyə düçar olsaq və bu kimi başqa çətinliklərə düşsək, naümid olub, özümüzü uduzmamaq üçün bütün bu şeylərin müəyyənləşdiril-miş və yazılmış olduğunu bilməliyik. Bütün bu ne`mətləri Allahın verdiyini, sonra isə məsləhət əsasında bizdən aldığını düşünməliyik.

Allah həzrət Musaya (ə) buyurdu: “Bəndələrimdən ən sevimlisi o kəslərdir ki, sevimlilərini onlardan aldıqda Mənimlə müxalifət etmir və Mənə təslim olurlar.”[2]

Beləliklə, mö`min insan dünya ne`mətlərinə bağlanmamalı, onları itirən zaman qəmgin olmamalıdır. Mö`min daim bəndəlik və öz vəzifə-lərini yerinə yetirmək barədə düşünməlidir. Nəsə əldə edib, nəsə əldən vermək haqqında çox düşünməyə dəyməz.

b) İlahi qəzavü-qədərə razı olmaq: İmanın ikinci tə`siri ilahi qəzavü-qədərə razılıqdır: “Ey mehribanların ən mehribanı, məni həyatımda qismət etdiyin şeylərə razı sal”

Allah-təala öz bəndələri üçün işlər müəyyənləşdirmişdir. Bə`zən bu müəyyənləşdirmə insanın istəyinə müvafiq olur, bə`zən isə insan bu təqdirlərdən narazı qalır. Allah istəyir ki, insanlar Onun müqəddəratından razı qalsın və Onun qəzavü-qədərinə boyun əysinlər. Bu təqdir bə`zən şər`i işlərdə, bə`zən isə təkvini (təbiət) işlərdə gerçəkləşir.

Şər`i işlər həmin göstərişlər, vaciblər və haramlardır. Bu yerdə razılıq vacibləri yerinə yetirmək və haramlardan çəkinmək mə`nasını bildirir.

---

[1] “Hədid” surəsi, ayə 23.

[2] “Bihar”, 82-ci cild, səh.90.

Təkvini işlərdə razılıq Allahın bəndə üçün müəyyənləşdirdiyi şeylərlə razılaşmadır. İstər pis hadisələr, istərsə də xoşa gələn hadisələr müəyyənləşdirilsin! İnsanlar xoşgəlməz hadisələr qarşısında necə reaksiya göstərəcəkləri ilə bağlı yoxlanılırlar. Bə`zi yoxlamalar imanın birinci mərhələsinə aiddir. Burada insanın ağır hadisələr qarşısında ilahi hökmlərə riayət edəcəyi, yoxsa üsyan qaldıracağı yoxlanılır. Daha üstün mərtəbə isə üstün bəndələrə aiddir. Bununla onların acı hadisələr qarşısında dözəcəyi, yoxsa Allaha şikayət edəcəyi yoxlanılır. Onların bu hadisələrə dözməsi "səbr" məqamı sayılır. Səbrdən daha üstün isə "razılıq" məqamıdır. Yə`ni razılıq əhli həm çətinliklərə və əziyyətlərə səbr edir, həm də razılıq bildirirlər. (Qəlblərinin dərinliklərində heç bir narahatçılıq çəkib şikayət etmirlər.) Çünki bütün olaylar Allah tərəfindəndir. Bu, imanın ən üstün mərhələsidir. Bu mərhələdə insan Allahın təqdiratından qəlbən razı qalır və ilahi müqəddəratın hikmətə əsaslandığına inanır. Buna görə də Allah me`rac gecəsi öz peyğəmbərinə buyurdu: "Mənim yanımda ən gözəl iş təvəkküldür.[1]

Əlbəttə, bu o demək deyil ki, insan iş-gücdən əl çəksin. Çalışmaq özü ilahi təqdirin nəticələrindəndir. Məqsəd baş vermiş hadisələrə razı olmağımızdır. Hər bir hadisənin hikmət əsasında olduğunu bilməliyik. Allah Musaya buyurur: ***"Ey Musa, mənim yanımda mö`min bəndədən sevimli heç bir yaranmış yoxdur. Ona bəla və ya çətinlik göndərirəmsə, bu onun xeyirinədir. Çünki mən bəndəmin məsləhətindən xəbərdaram."***[2]

---

[1] Ondan da üstünü təqdir etdiklərimə "razılıqdır"; "Biharul-ənvar", 77-ci cild, səh.21.

[2] "Bihar", 13-cü cild, səh.348, 36-cı rəvayət.

Xəstə uşağına acı dərmanlar verən ana, şübhəsiz ki, övladını sevir. Ana bu işi övladına düşmən olduğu üçün yox, onu sevdiyi üçün edir. Allahın da işləri bu cürdür.

Bir çox rəvayətlər göstərir ki, bə`zən Allah öz bəndəsinin məsləhətini yoxsulluqda bilir. Bə`zən din kasıblıqla islah olunur. Allah məhəbbət üzündən bəndəni yoxsul edir. Bə`zilərinin isə imanı sərvət və varlılıqdan başqa heç bir şey ilə qorunmur. Allah bu cür şəxsləri varlı edir. Bə`zən isə Allah kasıblıq və varlılığı bəndələri üçün imtahan vasitəsi edir.[1]

Yenidən tə`kid edirik ki, insan əlini əlinin üstünə qoyub, heç bir sə`y göstərmədən "Allahım, hər nə xeyirdir mənə yetir" deməməlidir! Vəzifəni yerinə yetirmək bir mövzu, işləri Allahın öhdəsində qoymaq və Onun qəzavü-qədərinə razı olmaq isə başqa bir mövzudur.

Hər halda insan Allahın ona qismət etdiklərindən (istər az, istər çox) razı olmalıdır. Bu razılığın həm dünyəvi, həm də axirət nəticəsi var. Razı insan dünyada sakitlik və aramlıq hissi keçirir, axirətdə də "razılıq" məqamına nail olur.

Təəssüf ki, bir çox insanlar iman zəifliyi nəticəsində öz yaşayış vəziyyətlərindən razı deyillər və şikayət edirlər. Allahın onlara verdiklərinə qane olmurlar. Buna görə də heç zaman aramlıq və sakitlik tapmır, daim nigaranlıq hissi keçirirlər. Lakin mö`min insan inanır ki, xalqın arzuladığı və əldə etmək istədiyi bir çox şeylər çox vaxt onların xeyrinə olmur, bə`zən isə onların narahatlıqlarına və çətinliklər yaranmasına səbəb olur.

"İftitah" duasında oxuyuruq: "İlahi, Səndən bə`zi şeylər istəyirəm, Sən isə onların qəbulunu tə`xirə salırsan.

[1] "Bihar", 72-ci cild, səh.327, 12-ci rəvayət.

Bu tə`xirə görə narahatlıq hissi keçirirəm. Lakin bir çox hallarda duamın tə`xirə düşməsi mənim üçün daha yaxşı olur. Çünki Sən işlərin sonundan agahsan".

Qur`ani-Kərim buyurur:

***"Bə`zən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bə`zən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər."***[1]

Bir çox hallarda insan özü də əldə etməyə maraqlı olduğu şeylərin ziyanına olduğunu və xoşuna gəlməyən şeylərin gerçəkləşdikdən sonra onun xeyrinə olduğunu anlayır.

Qur`an zövcələr barəsində buyurur:

"Əgər qadınlarınız xoşunuza gəlməzsə, (nifrət etməyin). Ola bilsin ki, sizin xoşunuza gəlməyən (nifrət etdiyiniz) hər hansı bir şeydə Allah (sizin üçün) çoxlu xeyir nəzərdə tutmuş olsun."[2]

Beləliklə, bütün hallarda insan öz işlərini Allahın öhdəsinə qoymalı və başına gələnlərlə razılaşmalıdır. Buna görə də, kamil imanın nəticələrindən biri yəqin, digəri ilahi qəzavü-qədərə razılıqdır.

---

[1] "Bəqərə" surəsi, ayə 216.
[2] "Nisa" surəsi, ayə 19.

# DÖRDÜNCÜ HİSSƏ

## *“MƏKARİMUL-ƏXLAQ” DUASINDAN SEÇMƏLƏRİN ŞƏRHİ*

**(1)**

***“Əllahummə səlli əla Muhəmmədin və alih”.***

## *SALEHLƏR DUASI*

Pak imamlar tərəfindən nəql olunmuş bütün dualar Allah-təalaya yaxınlaşmaq üçün qiymətli vasitələrdir. Lakin bə`zi duaların əlavə məziyyətləri də vardır.

Bu dualarda Əhli-beyt maarifindən xəzinələr mövcuddur. Bu dualara diqqətlə nəzər saldıqda öz tutumumuz, düşüncəmiz, mə`rifətimiz və diqqətimiz qədərində onların qiymətli maarifindən bəhrələnə bilərik. “Məkarimul-əxlaq” duası[1] bu növ dualardan sayılır. Bu böyük duanın hər cümləsi insan üçün mühüm dərslər və xəbərlərlə zəngindir. Adından mə`lum olduğu kimi, duanın əsas mövzusu əxlaqi məsələlərdir. Duanın məzmununa diqqət yetirdikdə dəyərli əxlaqi nöqtələr nəzəri cəlb edir.

Duanın adı bizə Allaha dua zamanı yalnız dünyəvi və maddi işləri düşünməməyi öyrədir. Əksər dua edənlər çox zaman maddi, dünyəvi ehtiyaclarının aradan qaldırılmasını istəyirlər. Əxlaqi fəzilətlərin əldə olunması üçün Allaha dua etməyin zəruri olduğunu çox az düşünürlər. Əxlaqi fəzilətlər maddi işlərdən üstün olduğundan onların əldə olunması üçün daha çox dua etmək lazımdır.

Biz, adətən ehtiyaclarımızın ödənməsi üçün maddi vasitələr olmadıqda dua edib Allahdan kömək istəyirik.

---

[1] “Səhifeyi-Səccadiyyə”, 20-ci dua.

“Gəmiyə mindikləri zaman (dəryada batacaqların-dan qorxub, dində ixlas sahibi olan mö`minlər kimi) yalnız Allaha dua edərlər.”[1]

Dəryanın ortasında şiddətli dalğalar qalxdıqda insan boğulmaq təhlükəsi hiss edir. O bu zaman dua etməyə başlayır. İnsan çətin bir problemlə qarşılaşarkən onun aradan götürülməsi üçün gücü çatmayacağını gördükdə Allahdan kömək istəyir. Lakin hər bir ehtiyacımızı və olanlarımızın davamlılığını Allahdan istəməliyik. Çünki varlıq aləmi Onun qüdrəti altındadır. Bütün vasitə və səbəblərin qaynağı Odur. Həmçinin Allahın bizə əta etdiyi şeylərin davamlı olması Onun əlindədir. Bu baxımdan, qarşıya çıxan ehtiyaclarla mə`nəvi və əsas ehtiyaclar arasında bir fərq yoxdur.

Halal ruzi əldə etmək üçün işlə məşğul olan fəhlə evdən çıxdıqda əl, ayaq, göz, ağıl, həyat və ixtiyarında olan digər saysız ne`mətlərin Allah tərəfindən olduğunu düşünməlidir. Bu vasitələrin istənilən birində nöqsan yarandıqda o istəklərinə çatmayacaqdır. Deməк, çalışmaqla yanaşı öz ehtiyaclarını Allahdan istəməlidir.

Elm öyrənən şagird təhsil almaq üçün çalışmalı, lakin müəllim, kitab, eşidən qulaq, düşüncə, sağlamlıq kimi vasitələrin Allah tərəfindən olduğuna inanmalıdır. Əgər bu vasitələr davamlı olmazsa, o elm öyrənməyə müvəffəq olmayacaqdır. Demək, insan Allahdan elm öyrənmək vasitələri əta etməsini istəməlidir.

İnsanın əsas ehtiyaclarından biri gözəl əxlaq və insani səciyyələrdir. Çalışıb kobud əxlaqdan uzaqlaşmaq, onun yerinə əxlaqi fəzilətləri canişin etmək lazımdır. Lakin bütün vasitələr və səbəblər Allahın ixtiyarında olduğu

[1] “Ənkəbut” surəsi, ayə 65.

üçün bu işdə də Allahdan tövfiq istəməliyik. Yaranış nizamındakı bütün vasitə və səbəblər ilahi feyzin axarıdır.

### *DUANIN QƏBULU ÜÇÜN SALAVAT ZİKRİ*

Məhəmməd və Ali-Məhəmmədə salavat zikr etmək peyğəmbər qarşısında ədəb göstəricisi və duanın qəbul olma səbəbidir. Bə`zi rəvayətlərdə bildirilir ki, duanın qəbulu üçün onu Məhəmməd və Ali-Məhəmmədə salavat göndərməklə başlayın. Çünki Məhəmməd və Ali-Məhəmmədə salavat həmişə qəbul olur. Allah isə birinci duanı qəbul edib, ikinci duanı qəbul etməməkdən daha kəramətlidir. Başqa bir rəvayətdə göstərilir ki, duanızı salavatla başlayıb, onunla qurtarın. Bununla da sizin duanız iki qəbul olunmuş duanın arasında qəbul edilsin. Çünki Allah duanın əvvəlini və axırını qəbul edib, ortasını qəbul etməməkdən daha kəramətlidir.

Bu böyük duanın da əvvəlində və hər hissəsindən sonra Məhəmməd və Ali-Məhəmmədə salavat zikr olunmuşdur.

### *İMAN VƏ YƏQİNİN ƏN ÜSTÜN VƏ KAMİL MƏRHƏLƏSİNƏ ÇATMA YOLU*

İmam (ə) salavat zikr etdikdən sonra buyurur: ***“İmanın ən kamil mərtəbəsini mənə mərhəmət buyur və mənim yəqinimi ən üstün yəqin et”.***

İnsan Allahdan mə`nəvi ne`mətlər tələb etdikdə onların ən üstün mərtəbəsini istəməlidir. Adətən, biz maddi və dünyəvi ehtiyaclarımızı tələb etdikdə onların ən üstününü istəyirik. Lakin insani səciyyələri əldə etdikdə onların aşağı mərtəbəsi ilə kifayətlənirik. Yüksək təlaş göstərdikdə vacib göstərişlərə əməl edib haramlardan

çəkinirik ki, cəhənnəm oduna düçar olmayaq. Amma imam (ə) bu duada bizə öyrədir ki, himmətli olaq və öz dualarımızda peyğəmbərlərin imanı kimi iman və sadiqlərin yəqini kimi yəqin istəyək. Əgər bu məqamı kəsb etməyə layiq olmasaq, Allah öz tutumumuz qədər bizə əta edəcəkdir.

Həmişə böyük maddi ne`mətlərlə yanaşı bəla olur. Maddi ne`mətlər nə qədər çox olarsa, onun başağrısı və qüssəsi də çox olar. Lakin mə`nəvi ne`mətlər bu cür deyil. Mə`nəvi ne`mətlər nə qədər üstün olarsa, onların ləzzəti, səadəti və kamilliyi də bir o qədər çox olar. Beləliklə, iman və yəqinin ən üstün mərtəbəsini əldə etmək üçün himmət göstərməli və Allahdan kömək istəməliyik.

İmanın dərəcələri var. Bu dərəcələr artıb-azala bilər. Qur`ani-Kərim buyurur: "Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar. . ."[1]

İmam bu duada Allahdan imanın heç bir əskikliyi olmayan, ən üstün dərəcəsini istəyir. İmam yəqin barəsində "ən yaxşı" tə`birini işlədir. Bu bəlkə də yəqinin yüz faiz qəti e`tiqad olmasından irəli gəlir. Beləliklə, yəqinin üstün və ya aşağı mərtəbələri olduğunu demək olmaz. Lakin onun üçün növlər tə`yin etmək olar. Yəqinlərin keyfiyyəti fərqlidir. Onun növlərindən biri dəlil yolu ilə hasil olur. Bu "elmül-yəqin"dir. Başqa bir növ isə kəşf və müşahidə ilə əldə olunur. Bu isə "eynül-yəqin" adlanır. Üçüncü növ isə həqiqəti tapmaq və ona qovuşmaq ilə əldə olunur. Buna isə "həqqul-yəqin" deyilir.

Mövzunun yaxşı anlaşılması üçün stəkanda dadlı bir şərbət təsəvvür edək: Bir şəxs onu görməyib, lakin sadiq bir xəbər vasitəsi ilə onun mövcudluğuna inanıb; ikinci

[1] "Ənfal" surəsi, ayə 2.

şəxs şərbəti stəkanda görür; üçüncü şəxs isə bu şərbəti içir. Burada hər üç nəfərin şərbətin olmasına "yəqin"liyi var. Lakin onların yəqinləri fərqlidir. Bəlkə də, duada "əfzəl" sözündə məqsəd yəqinin ən üstün və ən kamil növüdür. Bunu isə adətən əxlaq alimləri "həqqül-yəqin" kimi tə`bir edirlər.

## *İMANLA E`TİQADIN FƏRQLƏRİ*

Elm, düşüncə və e`tiqad ixtiyari olaraq əldə olunmur. Onların sadə müqəddimələrinin ixtiyari olması mümkündür. Lakin müqəddimələr hazırlan-dıqdan sonra insanda istəmədən ona e`tiqad yaranır. İnsan qarşısında bir şəxsi görür və o şəxsin olmasına inanır, yəqin edir. Ya da ixtiyarsız olaraq, əli oda dəyir və yanır. Bununla da onda odun yandırıcı olması üçün yəqin hasil olur. İnsan istəmədən nəsə öyrənə bilər. Hətta bə`zən insan nəsə bildiyi üçün narahat olur. Lakin iman əldə etmək üçün yəqin və ya gümanla olan e`tiqaddan əlavə qəlb də hazır olub, istəməlidir.

Sevməyi nəfsani keyfiyyət biliriksə, bu meyl və istək elm sayılmır. Bu yerdə ixtiyar ünsürü tə`sirlidir. Mümkündür ki, bir şəxs yəqin etdiyi halda qəbul etməsin. Qur`ani-Kərim fir`onçular barədə buyurur: ***"İnandıqları halda, zülm, inadkarlıq və təkəbbür üzündən inkar etdilər..."***[1]

Həzrət Musanın böyük mö`cüzələri və ilahi ayələrini gördükdən sonra fir`onçular onun həqiqətən də Allahın peyğəmbəri olmasını və bu mö`cüzələrin Onun tərəfindən gəlməsini yəqin etdilər. Lakin inadkarlıq, zülm və təkəbbür üzündən onları inkar etdilər. Allahın

---

[1] "Nəml" surəsi, ayə 14.

peyğəmbərini sehrbaz və sehrlənmiş adlandırdılar. Onlar qəlblərində yəqin tapmışdılar, lakin iman gətirmədilər və inkar etdilər. Həzrət Musa (ə) Fir`ona belə deyir:

***“Yəqin bilirsən ki, bu ayələri yerin və göylərin Rəbbi nazil etmişdi...”***[1]

Bu ayədə iki tə`kid (“lam” və “qəd”) işlənmişdir. Yə`ni, “həqiqətən” və “yəqin” bilirsən ki, bu ayələri aləmlərin Rəbbi nazil etmişdir. Buna baxmayaraq Fir`on belə cavab verdi:

***“Ey qövm böyükləri! Mən özümdən başqa heç bir kəsi sizin Allahınız bilmirəm...”***[2]

Beləliklə, Fir`on iman gətirmədi. Lakin o dəryada qərq olan zaman dedi:

***“İman gətirdim və şəhadət verirəm ki, Bəni-İsrailin iman gətirdiyi Allahdan başqa heç bir Allah yoxdur, mən də Onun əmrinə təsliməm.”***[3]

Lakin onun bu sözü çarəsizlikdən olduğu üçün qəbul edilmədi. Deməк, iman məcburi müqəddimələr vasitəsi ilə hasil olmur. Onun gerçəkləşməsində ixtiyar ünsürü rol oynayır.

İmanın gerçəkləşməsi üçün yüz faiz yəqin lazım deyil. Güclü zənn ilə də iman gətirmək olar. Yə`ni qəlbi həmin güclü zənnə uyğunlaşdırıb, onun olmaması ehtimalına əhəmiyyət verməyərək, qəbul edirsən. Lakin elm və ya hansısa mərtəbə gümanın olmadığı yerdə iman gətirmək olmaz. İslamın əvvəllərində peyğəmbərə iman gətirən şəxslərin bir çoxu əvvəldə kamil yəqin sahibi deyildilər. Buna görə də onların bə`ziləri özlərində yaranmış şübhələrə görə mürtəd olub İslamdan xaric çıxırdılar.

---

[1] “İsra” surəsi, ayə 102.
[2] “Qəsəs” surəsi, ayə 38.
[3] “Yunus” surəsi, ayə 90.

Deməк, iman hansısa bir mö`cüzə, təmayül və e`tiqad nəticəsində yaranır. E`tiqad güclü və zəif ola bilər. E`tiqad gümandan tutmuş yəqinin ən kamil növünə kimi arta bilər. Təmayül də səthi meyldən eşqin ən üstün mərtəbəsinə qədər dəyişə bilər. Bu iki ünsür güclü və zəif olaraq iman qüvvəsinə tə`sir edə bilər. İnsanın mövzuya e`tiqad və meyli çox olarsa, həmin mövzuya olan imanın da gücü bir o qədər çox olar. Eyni zamanda təmayül və e`tiqadın azlığı iman gücünün zəifləməsinə səbəb olur.

Beləliklə, kamil iman kəsb etmək üçün e`tiqadımızı gücləndirməliyik. İman üçün daha möhkəm dəlillər tapıb, onun qəbulu üçün qəlbimizdə olan maneələri aradan götürməliyik.

## *ÜMMƏTLƏRİN PEYĞƏMBƏRLƏRLƏ MÜXALİFƏTLƏRİNİN SƏBƏBLƏRİ*

Əksər ümmətlərin peyğəmbərlərlə müxalifətinin səbəbi peyğəmbərlərin onları məadın qəbuluna də`vət etməsi idi. Bu də`vəti qəbul etmək bə`zi insanlar üçün çox çətin idi. Onlar özləri üçün tanrılar düzəldib, itaət edirdilər. Lakin həqiqi Allaha iman gətirmirdilər. Çünki tövhidi qəbul etmək üçün məadı və ölümdən sonrakı həyatı qəbul etmək lazım idi. Onlar Allahın qüdrətini məhdud bildikləri üçün öz tanrılarının onları yenidən dirildə biləcəyinə və əməllərinin nəticələrini başqa bir dünyada alacaqlarına inanmırdılar. Məad bütün insanların əməllərinin ölçülməsi, yaxşı və pis işlərin əvəzinin verilməsi mə`nasını daşıyır. Kafirlər güman edirdilər ki, əgər əvvəlcədən onu inkar etsələr, rahat və asudə şəkildə öz meyllərinin tə`mini ilə məşğul olacaqlar.

Məadın qəbulu üçün ən yaxşı yol Allahın qüdrəti haqqında düşünməkdir. O, insanları yoxdan yaratdığı kimi, bir də yenidən diriltdə bilər. Qur`ani-Kərim buyurur:

***“Məgər insan elə güman edir ki, onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, biz onun barmaqlarının ucundakı xətləri də (dünyada olduğu kimi) düzəltməyə qadirik! Lakin insan bundan sonra da günah etmək, pis işlər görmək (və qiyaməti danmaq) istəyir.”***[1]

## *YƏQİN ƏLAMƏTLƏRİ*

Rəvayətdə nəql olunur ki, imam Sadiq (ə) buyurdu:

“Bir gün Allahın rəsulu məsciddə camaatla namaz qıldı. Sonra başını aşağı salıb, fikrə dalmış bir cavana nəzər saldı. Onun rəngi saralmış, bədəni zəifləmiş, gözləri çökəyə düşmüşdü. Allahın peyğəmbəri ona buyurdu:

“Halın necədir?” O dedi: “Mən yəqinə çatmışam”. Allahın rəsulu onun sözlərinə təəccüb etdi (xoşu gəldi) və dedi: “Hər bir yəqinin həqiqəti var. Sənin yəqininin həqiqəti nədir?” O dedi: “Ey Allahın peyğəmbəri! Mənim yəqinimin əlaməti budur ki, gündüzlərim qəmgin, gecələrim oyaq və isti günlərim susuz keçir. Mən dünya və dünyada olanlara meylsiz olmuşam. Elə bil ki, Rəbbimin ərşini görürəm. Xalq hesab üçün düzülüb, mən də onların arasındayam. Behişt əhlinin ne`mətlər içində qərq olmuş, oturacaqlara söykənmiş və bir-birini tanıtdırdıqları halda görürəm. Cəhənnəm əhlini isə əzab içində və kömək axtaran vəziyyətdə müşahidə edirəm”. Allahın rəsulu

---

[1] “Qiyamət” surəsi, ayə 3-5.

buyurdu: ***«Bu bəndənin qəlbini Allah iman nuru ilə işıqlandır-mışdır...»***[1]

Xalqın razılığını Allahın qəzəbi bahasına qazanmamaq, Allahın onlara verdiklərinə görə onları qınamamaq müsəlmanın gerçək əminlik nişanələrindəndir."[2]

İlahi ayələrdən mə`lum olur ki, yalnız qeyb aləminə iman gətirib, axirətə yəqinlə inanan şəxslər Qur`andan faydalana bilər:

***"O kəslər ki, qeyb aləminə inanır, namaz qılır və onlara verdiyimiz ruzidən infaq edir axirətə də şəksiz inanırlar."***[3] Elmül-yəqin əldə etmək üçün Allahı tanımaq və qeyb aləmi barəsində güclü dəlillər əldə etmək lazımdır. Saleh əməllə yanaşı yəqin insanın qarşısından bir çox maneələri götürərək, onun nəfsini eynül-yəqin və həqqül-yəqin əldə etmək üçün hazırlayır.

## *ƏN YAXŞI NİYYƏT VƏ ƏN GÖZƏL ƏMƏL*

***"Niyyətimi ən gözəl niyyətlərlə və əməlimi ən yaxşı əməllərlə tamamla".***

Buradan mə`lum olur ki, niyyət də əməl kimi yaxşı və pis olur. Əməllərin nöqsanı və kamilliyi niyyətin naqisliyi və ya kamilliyindən asılıdır. Pak niyyət qəlbdə haqdan başqa heç bir şeyin olmamasıdır. Bunu əldə etmək çox çətin işdir. Nəql olunur ki, Əbi-Əbdillah buyurdu:

***"Niyyət əməldən üstündür, bəlkə də niyyət əməlin bütün həqiqətidir."***[4]

---

[1] "Üsuli-kafi", 2-ci cild, səh.53.
[2] "Biharul-ənvar", 70-ci cild, 7 və 143-cü hədis.
[3] "Bəqərə" surəsi, ayə 3, 4.
[4] "Üsuli-kafi", kitabul-iman vəl-küfr, babul-ixlas, 4-cü hədis.

Niyyət və əməldə məqsəd onların kəmiyyəti deyil. Məqsəd keyfiyyətdir. Necə ki, Qur`ani-Kərim buyurur:

***"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün Allah bu aləmdə ölüm və həyat yaratdı."***[1] Ayədə əməlin çox olması yox, yaxşı olması qeyd edilib.

## *ƏN ÜSTÜN İBADƏT*

Rəvayətdə nəql olunur ki, imam Sadiq (ə) buyurdu: "İbadət edənlər üç dəstədir: bir dəstə Allaha cəhənnəm əzabı qorxusundan ibadət edir - bu qulların ibadətidir; başqa bir dəstə isə Allaha behişt tamahı ilə ibadət edir - bu muzdurların ibadətidir; üçüncü dəstə isə Allaha məhəbbət və eşq səbəbindən ibadət edir - bu azad insanların ibadətidir və ən yaxşı ibadətdir."[2] Zəif iman və məhəbbətlə xalis niyyət intizarında olmamalıyıq. İnsanı işə vadar edən onun meylidir. Meyl isə mə`rifət və imana tabedir. Mə`rifət və iman niyyətin həqiqətini təşkil edir. Deməк, xalis niyyət əldə etmək üçün insanın iman və mə`rifəti inkişaf etməlidir. Xalis niyyətlə yanaşı saleh əməl gəlir. Çünki ən yaxşı əməl ən yaxşı niyyət gerçəkləşən əməldir. Buna görə də, bütün kamilliklərin açarı imanı gücləndirmək və mə`rifət kəsb etməkdir.

İnsan öz niyyətləri barəsində dərindən düşünməlidir. Əgər cəhənnəm və behişt olmasaydı, Allahın razılığını əldə etmək ilahi ne`mətlərin şükrünü yerinə yetirmək üçün günahlardan çəkinib, gecə yarı isti yataqdan qalxıb gecə namazı qılardıqmı? Ramazan ayının aclığına dözüb özümüzü maddi ləzzətlərdən məhrum edərdikmi?

---

[1] "Mulk" surəsi, ayə 2.

[2] "Üsuli kafi", 3-cü cild, kitabi-iman v küfr, babi ibadət, 5 və 131-ci hədis.

Bə`zi insanların mə`rifəti o dərəcədədir ki, əgər cəhənnəm olmasaydı da, behişt və onun bol ne`mətləri həvəsi ilə Allaha ibadət edərdilər. Bə`ziləri isə nə cəhənnəm qorxusu, nə də behişt həvəsindən ibadət edirlər. Onlar ibadətə layiq olduğu üçün Allaha ibadət edirlər. Çalışırlar ki, Ona yaxınlaşsınlar, Onun məhəbbətini əldə etsinlər və ne`mətlərinə şükür etsinlər.

Yüksək niyyət əldə etmək üçün dayanmadan çalışmaq lazımdır. Saleh əməl, varlıq sirləri haqqında təfəkkür, bütün aləmin Allaha məxsusluğu Ondan çox sevməli bir kəsin olmaması, yalnız Onun ibadətə layiq olması barədə düşünməklə və Allahınköməkliyi ilə iman və yəqinimizi artırıb, xalis niyyət əldə edə bilərik.

Əlbəttə, behişt və cəhənnəmin yaranması, behişt və`dəsi və ilahi əzabdan çəkindirmə Allahın öz bəndələrinə böyük lütfüdür. Çünki bir çox insanlar yalnız məhəbbət üzərində qurulmuş pərəstiş üçün üstün mə`rifət əldə edə bilmirlər. Onlar behişt həvəsi və ya cəhənnəm qorxusu ilə ibadət edirlər. Əgər behişt və cəhənnəm olmasaydı bu dəstə günahların tərki və ibadətin nəticəsində bəhrələnməyərək mümkün kamilliyə də çatmayacaqdı.

***"İlahi, öz lütfünlə niyyətimi üstün et və yəqinimi həqiqi yəqinlərdən qərar ver (Yəqinimi şəkkə aludə olmağa qoyma). Öz qüdrətinlə keçmişdə korladıqlarımı düzəltmək üçün mənə yol əta et".***

İlahi, mən öz zəifliyimlə ali niyyət əldə edə bilmirəm. Mənə bu iş üçün vasitələri Sən hazırlamalısan. "Lütfünlə" sözündə məqsəd Allahın xüsusi ne`mətləridir; yə`ni gərək məni öz mehribanlıq və rəhmətinlə himayə edəsən ki, düzgün və kamil niyyət əldə edəm. Kamil niyyət odur ki, Allaha yalnız şükür və bəndəlik vəzifəsinin ədası olaraq ibadət edilsin. Savaba çatmaq və ya axirət əzabı

qorxusundan olan ibadət düzgün sayılsa da, kamil niyyət hesab olunmur.

İmam duanın əvvəlində duadakı mövzuları və Onun istəklərini əks etdirən müqəddimə əvəzi bir fəsil vermişdir. İslamda dəyər ölçüsü iman və saleh əməldir. İman bağladığımız şeylərin əməl zamanı gerçəkləşməsi üçün müqəddimə lazımdır. Yəqinlə olan e`tiqad kamil iman şərtidir. İmanı əməllə əlaqələndirən niyyətdir.

Demək, çalışmaq, yeməkdən çəkinmək, borc vermək, borc almaq və sair işlər həmişə imanla müşayiət olunmur. Hər bir şəxs bu cür işlər görə bilər. İnsanın əməli ilahi niyyət əsasında olduqda yaxşı əməl sayılır və imanla əlaqələnir. Ən yaxşı niyyətlər ən dəyərli əməllərlə nəticələnir.

Kamil iman, yüksək yəqin mərtəbəsində e`tiqad üstün xalisanə niyyət, əməllərin ən dəyərliləri "Məkarimul-əxlaq" duasının əsas dörd mehvəri və sərlövhəsidir.

İmamın bu duadakı istəkləri kvadrat bünövrəli tikiliyə bənzədilə bilər. Öncə uyğun fəzilətlər və uca dəyərlər dörd nöqtədə xülasələşdirilir. Həmin dörd nöqtəni uyğun tikilinin tərəfləri kimi götürsək, hər tərəf eyni bir təpə nöqtədə başa çatır (piramida formasında). Həmin nöqtə Allaha yaxınlıq nöqtəsidir. Tikilinin (piramidanın) dörd tərəfi uyğun olaraq üstün iman, üstün yəqin, dəyərli niyyət və üstün əməllə müqayisə oluna bilər. Bu tikilinin çöl üzüdür. Amma uyğun dörd ünsür tikilinin daxilində də bir-biri ilə əlaqəlidir, bir-birinə tə`sir göstərir və digər bir dəyərli səciyyə yaradır.

İnsan fitrəti öz xeyir və səadətinə meyllidir. Buna görə də insan nə üçün yaradıldığını, həyat sərmayəsinin hansı məqsədlə onun ixtiyarına verildiyini və onun səadət yolunun hansı yönümdə olduğunu düşündükdə bütün

qüvvəsini öz kamillik və səadət qülləsinə çatmaq üçün sərf edəcək.

Zikr olunmuş əsas dörd mehvərdən sonra birinci məsələ bütün qüvvəni yaranış hədəfinə çatmağa sərf etməkdir. Yə`ni kamillik və səadətə səbəb olan işlər görmək! Gündəlik işlər, təhsil, ruzi əldə etmək üçün çalışmaq, başqaları ilə əlaqə və sair işlər insanın Allaha doğru səfərdən uzaq düşməsinə səbəb olmamalıdır. Bu fəsildə imam Allahdan istəyir ki, onu bütün qüvvəsini Allaha yaxınlığa çatmaq üçün sərf etməyə yönəltsin və bu hərəkətin süstləşməməsi üçün lazım olan şeylərlə onu tə`min etsin.

***"İlahi, qəlbimi məşğul edən şeyləri yolumdan götür ki, qəlbim yalnız Səni düşünsün. Məni sabahkı qiyamətdə barəsində sual edəcəyin vəzifələrimi yerinə yetirməkdə müvəffəq et".***

Əqli və qəlbi maneələr insanı Allah qarşısındakı məs`uliyyətlərini düşünməkdən çəkindirir. Həyat vasitələrinin hazırlanması, gözəlliklər, çətinliklər və sair işlər insanın öhdəsində olan vəzifələr barədə düşünməməsinə səbəb olur.

İnsanın zəruri ehtiyaclarının ödənməsi ilahi göstərişdir. Allahın razılığı üçün göstərişləri yerinə yetirmək ibadətdir. İbadət isə insanın kamala çatmasında tə`sirlidir. Bəs ruzi qazanan şəxs vacib qədərlə kifayətlənib, bu işi yalnız Allaha itaət niyyəti ilə görürmü? Evlənən şəxs yalnız Allahın razılığı xatirinə evlənib Onun şərtlərinə əməl edirmi? Yoxsa onun öz şəxsi istəkləri də var? Məgər bu işlər onun qəlbini məşğul edib ibadətinə və Allahı düşünməsinə mane olmurmu? İctimai-siyasi səhnəyə qədəm qoyan mö`minin bütün siyasi və ictimai fəaliyyətləri Allah xatirinədirmi? İctimai-siyasi işlər

insanın qəlbinin məşğulluğuna səbəb olarsa, həmin şəxs Allah ilə raz-niyaz edib, Onu düşünmək üçün vaxt tapmayacaq. Beləələri çətin ki, bütün enerjilərini ibadətə sərf etmək istəsinlər! Demək, uyğun çətinliyə çarə qılmaq üçün Allahdan istəməliyik ki, ehtiyaclarımızı tə`min etsin və ya bizim ehtiyaclarımızı sadə yolla aradan qaldırmağa müvəffəq buyursun. Elə bir şəkildə ki, ehtiyaclarımıza sərf olan qüvvə bizi bəndəlik vəzifəsini yerinə yetirməkdən, Allahı düşünməkdən və xalisanə ibadət etməkdən çəkindirməsin.

## *İNSANIN MƏS`ULİYYƏTİ*

İnsan yalnız Allah qarşısında məs`uldur. Yalnız Allah insandan sual etməyə haqlıdır. Çünki bütün varlıq Ona məxsusdur. O, insanın məs`uliyyət-lərini müəyyənləşdirir: Ata-ana qarşısında məs`uliyyət, qonşu, yoldaş, xalq, təbiət və s. qarşısında məs`uliyyət. Bütün bu məs`uliyyətlər əslində insanın Allah qarşısında məs`uliyyətidir və insan Allah qarşısında cavab verəcəkdir. Bu dünya insanın yoxlanış və imtahan yeridir. Qiyamət günü insandan onun ixtiyarına verilmiş şeylər barəsində sorğu günüdür. Demək, bütün qüvvələrimizi bu vəzifələrin ədası üçün sərf edib, Allahdan kömək istəməliyik ki, həyat zərurətləri qəlbimizin məşğulluğuna səbəb olmasın və bizi Allahı düşünməkdən, öhdəmizdə olan məs`uliyyətlərdən qafil etməsin.

***“İlahi, həyatım boyu bütün qüvvəmi yaranışımda qoyduğun məqsədlərə sərf etməyim üçün tövfiq ver”.***

Məs`uliyyətləri yerinə yetirmək üçün qəlb məşğuliyyətlərinin məhdudlaşması lazımdır. Hətta zəruri işləri görmək də insanı öhdəsində olan məs`uliyyətlərdən

uzaqlaşdırmamalıdır. Məs`uliy-yətləri yerinə yetirməklə insan yaranış hədəfinə yaxınlaşır.

## *QUR`AN BAXIMINDAN YARANIŞIN MƏQSƏDİ*

Qur`ani-Kərimdə insan yaranışının məqsədi barəsində müxtəlif tə`birlər vardır. Bir ayədə deyilir ki, sizin yaranışınız sizin yoxlanışınız üçündür: ***"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur."***[1]

Başqa bir ayə yaranış məqsədini Allaha ibadətdə görür: ***"Cin və insanı yalnız ibadətdən ötrü yaratdıq."***[2] Başqa bir yerdə isə yaranışın ilahi rəhmət və Allaha yaxınlıq üçün olduğu bildirilir: ***"Rəbbinin mərhəmət etdiyi kimsələr istisnadır. Rəbbin onları bunun üçün yaratmışdır."***[3]

Zahirən ayələr fərqli olsalar da, hər üç ayə bir həqiqətin mərhələlərini nəzərdə tutur. Başqa sözlə, onun yaxın, orta və son hədəfini bəyan edir. Əsas hədəf Allaha yaxınlıqdır. İnsan ixtiyari əməl və seçim etmək gücündədir. O, Allaha ibadət yolunu seçib, Ona yaxınlığa çatmalıdır. Əgər insan düzgün yol getməyə məcbur edilsəydi, onun bu hərəkəti kamilliyə doğru hərəkət hesab olunmazdı. Qur`ani-Kərim buyurur: ***"Doğru yol göstərmək Allaha aiddir. Haqdan kəc olan yol da vardır. Əgər Allah istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi."***[4]

---

[1] "Mulk" surəsi, ayə 2.
[2] "Zariyat" surəsi, ayə 56.
[3] "Hud" surəsi, ayə 119.
[4] "Nəhl" surəsi, ayə 9.

Allah insan qarşısında müxtəlif yollar qoyub. İnsan öz ixtiyari hərəkəti ilə öz kamillik yolunu tapıb, bu yolda addımlamalıdır. Bu yoxlanış və düzgün yolun seçimi ilə insan təkamülünün bir mərhələsi adlanır.

Həyatın Allah bəyənən şəkildə olması üçün digər kamillik mərhələlərinə qədəm qoymaq lazımdır. Həyatın başdan-başa Allaha bəndəlikdə ötüşməsi üçün iş görmək lazımdır. Hər nə varsa Ondandır və biz Onun bəndəsiyik. Bəndəyə bəndəlikdən başqa heç bir şey layiq deyil. Dünyəvi ehtiyaclar və maddi ləzzətlər insanın son hədəfləri sayılmır. Zəruri olan həddə bu işlərlə məşğul olmaq lazımdır. İbadət və bəndəlik üçün sə`y göstərmək, ibadət və Allaha pərəstişlə ilahi yaxınlığa çatmaq lazımdır.

İbadət ümumi məfhumdur, təkcə namaz və oruca aid deyil. Allah üçün görülən və Allah bəyənən hər bir iş ibadət hesab olunur. Ramazan ayında hətta oruc şəxsin yuxusu ibadətdir. Çünki oruc tutan şəxs səhər mə`budu ilə raz-niyaz etmək üçün istirahət edir.

***“İlahi, məni dünya malı ilə varlı et və ruzini artır. Məni varlıların malında gözü olmaqla imtahana çəkmə”.***

İnsan həyatının Allaha itaətdə keçməsi üçün maddi ehtiyaclar (yemək, geyim, məskən, ictimai münasibətlər və sair) onun hərəkətinə mane olmamalıdır.

Halal ruzi qazanmaq üçün çalışmaq ibadətdir. Lakin bu ibadətlə insan qəlbinin yalnız Allahla olduğu ibadət arasında çox fərq vardır. İbadət zamanı Allahdan başqasını düşünmək insanın Allaha doğru hərəkətini süstləşdirir. İnsan aləmlərin Mə`buduna nə qədər diqqətli olarsa, onun Allaha doğru hərəkəti daha sür`ətli olar. Əgər halal ruzi əldə etmək üçün çalışmaq insanın Allahdan qeyrisini düşünməsinə və Allahı unutmasına səbəb olmursa, o daha yaxşı ibadət edib həqiqi təkamülə çata bilər.

Qüdrət və bol ruzi insanın məğrur olmasına səbəb olur. Bununla insan Allahdan qafil olub, Onun qarşısında inadkarlıq göstərir. Beləliklə, halal ruzi üçün təlaşın öhdəmizdəki məs`uliyyətlərə mane olmaması üçün sə`y edib Allahdan kömək istəməliyik.

"İlahi, məni xalqın yanında əziz et və məni təkəbbürə düçar etmə".

İnsanın cismani (fizioloji) ehtiyacları olduğu kimi, psixoloji ehtiyacları da var. Bunlardan biri hörmətli olmaq ehtiyacını hiss etməkdir (Əlbəttə, üstün mə`rifət məqamına çatmış şəxslər Allahdan qeyrisinə e`tina etmir və başqalarının hörmətinə ehtiyac duymurlar. Bə`zən bu təbii ehtiyacın ödənməsi ilə insanda təkəbbür yaranır, bu isə onun inkişafının qarşısını alır.

Təkəbbürün bir çox fəsadları vardır. Təkəbbürdən yaranmış fəsadların əlacı insan varlığının həqiqəti barəsində təfəkkürlə əldə olunur. Əgər insan heç nəyi olmadığını və vücudunun aləmləri Yaradana bağlı olmasını anlasa özünü başqalarından üstün saya bilərmi?

"İlahi, Sənə ibadət etmək üçün mənə tövfiq ver. İbadətimi təkəbbürümlə puç etmə".

İbadət üçün tövfiq əldə etmək kifayət etmir. İbadət zamanı şeytani vəsvəsələrin insanda təkəbbür yaratması mümkündür. Təkəbbür yaxşı əməlləri böyük saymaq, özündənrazılıq və özünü savablara tam layiqli hesab etməkdir. Təkəbbür bir neçə mərhələdən ibarətdir:

Öz yaxşı əməllərinə görə Allaha minnət qoymaq. Bu, təkəbbürün ən qorxulu mərtəbələrindəndir;

Allah qarşısında etdiyin yaxşı əməllərə görə xoşhal olmaq;

Özünü savaba tam layiqli bilmək;

Özünü başqa mö`minlərdən üstün hesab etmək. Bu alçaq sifətin bir çox fəsadları var. İmam Əli (ə) buyurur: ***"Təkəbbürə uğrayan şəxs həlak olar."***[1]

"Mənə xalqa xidmət üçün tövfiq ver və xidmətimi minnət qoymağımla məhv etmə".

İnsanın ilahi tövfiq taparaq Allahın razılığı üçün ehtiyaclıya kömək etməsi, xəstəyə yardım göstərməsi, fəqirə əl tutması, borclunun borclarını ödəməsi və sair xeyirxah işlər görməsi mümkündür. Lakin insan bir müddət sonra hansısa bir söz və ya əməllə həmin şəxsə minnət qoya bilər. Məsələn, ona deyər: "Əgər sənə kömək etməsəydim, çətinlikdə qalacaqdın." Bu söz bütün göstərilən xidmətləri məhv edir. Qur`ani-Kərim buyurur: ***«Ey iman gətirənlər, yaxşı işlərinizi minnət qoymaq və əziyyət verməklə batil etməyin...»***[2]

***"Mənə gözəl əxlaq əta et və məni qürrələnməkdən qoru".***

Mühüm və zərif bir nöqtəni qeyd edək: İbadətdə riya və yaxşı işlərdə minnət insanı fəlakətə düçar edən yeganə bəla deyil. Bə`zən insan özünü qoruyur, başqalarına minnət qoymur və riya edərək öz ibadətini özgələrə göstərmir. Lakin qəlbində özünü başqalarından böyük və əzəmətli hiss edərək, onlardan üstün bilir. Bu nöqsanın aradan götürülməsi üçün dayanmadan çalışmaq və Allahdan kömək istəmək lazımdır.

***"Pərvərdigara, məni başqalarının gözündə nə qədər ucaltsan, öz gözümdə bir o qədər kiçilt".*** Alimin elmi nə qədər artsa, o öz cahilliyindən bir o qədər çox xəbərdar olar. Elmi mə`lumatı olmayan bir şəxsdən neçə elmdən

---

[1] "Vəsailuş-şiə", 1-ci cild-321.
[2] "Bəqərə" surəsi, ayə 264.

xəbərsiz olduğunu soruşsaq, 10, ya 20 elm adı çəkər. Lakin onun mə`lumatı artdıqca öz cahilliyini daha çox dərk edəsidir. Alim şəxs qarşısında xəbərsiz olduğu elm dəryası görür.

Mə`rifət baxımından insan Allahı nə qədər yaxşı tanısa, öz nadanlığı, acizliyi və çarəsizliyini bir o qədər çox dərk edər. İnsan nöqsanlarını e`tiraf edərsə, təkəbbürdən uzaqlaşar. Başqa halda nəfs tüğyan edər və insan əxlaqi fəsadlara düçar olar. İmam Səccad (ə) özünü Allah qarşısında hamıdan günahkar bilərək deyir:

***“Məndən də pis halda kim var?”***

***“Məni öz gözümdə kiçiltməyincə başqaları qarşısında izzət mərtəbəsinə çatdırma”.***

Allahın dostları Ona yaxınlaşdıqca təvazökar olurlar. Cahil insanlar isə bir şey öyrəndikdə, yaxşı və savab iş gördükdə məlaikələrdən də qabağa düşür, bütün aləmin yaxşı işlərini öz adlarına çıxırlar.

Layiqli bəndələr mə`rifətləri artdıqca özlərini Allah qarşısında kiçik görürlər və onların həqiqi təvazösü yüksəlir. Həqiqi təvazö insanın qəlbində də özünü kiçik bilməsidir. Onlar özünü yalnız zahirdə, xalqın gözü qarşısında təvazökar göstərmirlər. Əks hal nifaq və ikiüzlülükdür. Həqiqi təvazö yalnız Allahın lütfü ilə müyəssər olur. Çünki insan nəfsi azğındır və tez bir zamanda qürura düçar olur.

## *DAVAMLI HİDAYƏT*

Duanın bu hissəsində imam sadalanan kamilliklərin davamlı olmasını Allahdan istəyir. İmam istəyir ki, ömrün sonunadək bu kamilliklər davam etsin, onlarda heç bir nöqsan olmasın və insan düzgün yolda sabitqədəm olsun.

Seyyid Əli Xanın şərhində bildirilir ki, qədim bir səhifədə "bihudyən salih" əvəzinə "bihədyin salih" yazılmışdır. "Hədy" üsul mə`nasını verir. Həmin nəqlə əsasən duanın bu hissəsi belədir: "Pərvərdigara, məni heç zaman dəyişməyəcəyim ləyaqətli üsuldan bəhrələndir". Əgər bu ifadə "bihudyən salih" olarsa: "Pərvərdigara, məni saleh hidayətlə bəhrələndir" mə`nasını verəcək. Hidayət əgər hidayətdirsə, deməli, saleh hidayətdir. Buna görə də uyğun sözləri demək düzgün deyil. Əlbəttə, bunu hansısa şəkildə yozmaq olar. Lakin "bihədyin salihin" ifadəsini daha münasib olması nəzərə çarpır; başqa bir rəvayətdə də bu ibarət "hədyin salih" şəklində verilmişdir.

***"Məni düzgün yoldan bəhrələndir ki, bu yoldan azmayam (Həmişə bu yolda sabitqədəm olum).***

***"Məni elə bir xeyir niyyətdən faydalandır ki, onda şəkkə düşməyim".***

Çox güman ki, burada "şəkk" sözünün lüğət mə`nası, yə`ni "iztirab" nəzərdə tutlmuşdur. Yə`ni elə bir niyyət ki, onda dəyişiklik yoxdur. İnsanın niyyət edərkən şəkkə düşməsi mümkündür. Amma, adətən, niyyət özü şəkk və yəqin olaraq iki yerə bölünmür.

Duanın bu hissəsində imam Allahdan üç şey istəyir: 1. Ləyaqətli və sabit rəftar; 2. İnsanın azmadığı haqqa doğru yol; 3. Düzgün və savab işlərdə daimi əzm. Bu cümlə bizə öyrədir ki, Allahdan istədiklərimiz və onun bizə əta etdiyi ne`mətlərin davamlılığı da Allahın əlindədir. Ne`mətlərin davamlı olmasını da Allahdan istəməliyik.

Duanın bu hissəsi "Ali-İmran" surəsinin 8-ci ayəsinin oxşarıdır: ***«Pərvərdigara, bizi hidayət etdikdən sonra düzgün yoldan azmağa qoyma...»***

Allah bizi hidayət etdikdən sonra düzgün yolda istiqamətləndirməlidir. Allah Qur`anda buyurur: "Çox olub

ki, bir peyğəmbərin ardıcıllarından böyük bir cəmiyyət savaşda öldürülüb. Onlar heç bir çətinlikdə Allahdan başqasına sığınmamış və yalnız bunu demişlər: ***"Pərvərdigara! Sənə qarşı yol verdiyimiz günahları öz kərəminlə bağışla, bizi sabitqədəm et, bizə kafirlərin məhvində yardım göstər, qalib buyur."***[1]

Allah yolunda peyğəmbərlərə itaət edərək öz mal və canlarını verən şəxslər belə dua edirdilər: "Pərvərdigara, bizi düzgün yolda sabitqədəm et"

İnsan hər an xəta və çaşqınlıq sərhəddinə yaxındır. İbn-Mülcəm Muradi gecə namazı qılan bir şəxs idi. Lakin öz qılıncını Əmirəl-mö`mininin (ə) mübarək başına endirdi. Zübeyr əziz Peyğəmbərin (s) və həzrət Əlinin əmisi oğlu idi. O uzun illər peyğəmbərlə çiyin-çiyinə qılınc çaldı. Peyğəmbər onun qılıncı və qoluna dua etdi. İllərlə döyüşüb, mücahidlərdən və rizvan bey`ətinin səhabələrindən oldu. Peyğəmbərin vəfatından sonra məqam sevgisi onu elə bir uçuruma yuvarlatdı ki, Cəməl döyüşündə həzrət Əlinin (ə) üzərinə qılınc çəkdi.

Mərhum hacı Mirza Əbdül-Əli Tehrani (Allah ondan razı olsun) deyirdi: "Mən cavan vaxtlarımda Allahdan üstün mə`rifət mərtəbəsi istəyib, aşağı mə`rifət mərtəbələri haqda düşünmürdüm. Həmişə Allahdan istəyirdim ki, məni öz yaxınlığına, qonşuluğuna və rizvanına çatdırsın. Lakin indi, bu qoca vaxtımda Allahdan istəyirəm ki, məni dünyadan müsəlman kimi aparsın". Dünyadan mö`min getmək asan iş deyil. İnsanı əməlləri, rəftarı, imanı, əqidəsi və fikri daim dəyişə bilər. İnsanın bir şübhə ilə imanını əldən verməsi mümkündür. Demək, Allahdan istəməliyik ki, hidayət edib, düzgün yol göstərdikdən sonra bizi bu

---

[1] "Ali-İmran" surəsi, ayə 146-147.

yolda sabitqədəm etsin. Bununla da düzgün yolu adladıqda bizdə heç bir şübhə yaranmasın. Əgər insan ölümdən əvvəl şəkk-şübhəyə düçar olarsa, onun bütün saleh əməlləri aradan gedər. Qur`ani-Kərim buyurur:

***"...Sizdən hər kəs öz dinindən çıxıb kafir olaraq ölərsə, onun bütün əməlləri dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar."***[1]

"İlahi, məni həyatım Sənin ibadətinə sərf olanadək diri saxla. Əgər ömrüm şeytanın otlağı olacaqsa, həmin an, qəzəbinə düçar olacağım zaman mənim canımı al".

Biz imamı dərk etmək qüdrətində deyilik. Bu sözləri onun hansı halda və hansı səbəbdən dediyini düzgün təsəvvür edə bilmirik. İmam bu tə`birləri hansı məqsədlə işlətmişdir? İmamla bağlı belə bir ehtimal vermək olarmı? İmam dua edərkən özünü nəzərdə tutur, yoxsa başqalarını öyrədir? Bütün bunları kənara qoyaraq diqqət yetirməliyik ki, uyğun tə`birlər bizə aid ola bilər. Biz mə`sum deyilik, bizim ömrümüz şeytan üçün otlaq ola bilər. Bizim həyatımız, ruhumuz və qəlbimiz şeytanın daxil ola biləcəyi torpaq kimidir. Əgər həyatımızın hər bir anı bizi günaha aparıb süquta uğradacaqsa, eləcə də, əldə etdiyimiz kamillikləri məhv edəcəksə, belə bir ömür nə qədər tez sona çatsa, bir o qədər yaxşıdır.

İnsan axirətin varlığına inanırsa, bu duanı səmimi qəlbdən oxumalıdır. İnsan günah hücumuna mə`ruz qalaraq, şəhvət, qəzəb, dünyəvi məqamların tə`siri altına düşə bilər. Onun qəlbinə qəflət pərdəsi çəkilər, gözü və qəlbi kor olar. Bu an o nəfsani istəklərindən başqa heç bir şey görüb, tanımaz, geriyə qayıdış yolu qalmaz. Lakin belə

---

[1] "Bəqərə" surəsi, ayə 217.

bir vəziyyətə düşməmişdən öncə Allahdan, onun canını almasını istəməlidir.

Bu dua insanın əməllərinin islahına, islah barədə fikirləşməsinə, şeytanın nüfuzuna imkan verməməsinə və heç bir şəkk-şübhənin daxil olmaması üçün qəlb sərhədlərini möhkəmləndir-məsinə səbəb olur. Qur`ani-Kərim bu barədə buyurur: ***“Ayələrimizdə eyb axtarıb tə`nə edənləri gördüyün vaxt söhbəti dəyişənədək onlardan uzaqlaş. Əgər şeytan sənə unutdursa, Allahın kəlamını yada saldıqdan sonra bir daha sitəmkar güruhla bir yerdə qalma.”***[1]

Qur`an peyğəmbər kimi şəxsiyyətə də belə bir sifarişin yersiz olmadığını bildirmək istəyir. Çünki batil söz peyğəmbərdə də tə`sir edə bilər.

Bu sözlərin azadlıqla heç bir ziddiyyəti yoxdur. Əgər bir yeniyetmə 200 kq-lıq daşı qaldırsa beli ağrıyacaq. Ona ağırlıqqaldıran olmaq istəyirsənsə, “uzun illər məşq edib tədricən ağır daşları qaldıra bilərsən” deyilərsə, onun azadlığına heç bir təcavüz olunmur.

Düzgün yolu tanımışıqsa, batil sözlər ardınca getməməliyik. Bu sözlər bizdə şəkk-şübhə və iztirabdan savay heç bir şey yaratmır. İmam bu duada Allahdan istəyir ki, əgər həyatım şeytanın otlağına çevriləcəksə, qəzəbinə düçar olmazdan öncə mənim canımı al. Əgər Səni qəzəbləndirərəmsə, qayıtmağım və səhvlərimi düzəltməyim üçün mənə kömək et ki, qəzəbinə düçar olmayam. Allah Qur`anda buyurur: ***“Qəzəbimə düçar olan kəs mütləq həlak olacaqdır.”***[2]

***“İlahi, xalqın məndə eyb axtarmasına səbəb olacaq hər bir sifəti məndən uzaqlaşdır, islah et”; “Başqalarının***

---

[1] “Ən`am” surəsi, ayə 68.
[2] “Taha” surəsi, ayə 81.

***məni danlamasına səbəb olacaq hər bir eybi məndən uzaq et, yaxşı xasiyyətə çevir”; “Məndə olan bütün naqis fəzilətləri kamilləşdir”.***

«Başqalarının danlağına və eyb axtarmasına səbəb olacaq eyb və sifətlər» dedikdə saleh insanların bəyənmədiyi sifətlər nəzərdə tutulur. Burada məqsəd pis insanların danlaq və qınağına səbəb olacaq yaxşı əməllər deyil!

**(3)**

İslam baxımından insan ictimai bir mövcuddur. İnsan yalnız fərdi ibadətlərlə həqiqi kamilliyə çatmır. Kamilliyin bütün yönümlərini əldə etmək üçün xalq arasında yaşayıb cəmiyyətlə əlaqə saxlamaq lazımdır. İnsan öz ictimai həyatının bütün sahələrində, həyat yoldaşı, övladlar, dostlar, düşmənlər, qonşularla əlaqədə, müamilələrdə, cihadda, millət və dövlətlərlə əlaqədə və sair işlərdə Allahın göstərişlərinə itaət edərək Allaha yaxınlaşa bilər.

Bə`zən bu əlaqələr narahatçılıqlara, qəlb məşğuliyyətlərinə və qarşıdurmalara səbəb olur. Düşmənçilik bə`zən dünyəvi, bə`zən dini işlərə xatir olur. Bə`zən isə bu düşmənçiliklər Allahın insana verdiyi ne`mətlərə paxıllıqdan irəli gəlir. Bə`zən insan heç kimlə düşmən olmur və heç kim ona qarşı paxıllıq etmir. Lakin bir-birləri ilə zövqləri uyğunlaşmır və bir-birlərini düzgün anlamırlar. Bu zövq, səliqə ixtilafı onlar arasında pis münasibət yaranmasına səbəb olur.

Demək, səliqə, zövq uyğunlaşmaması, bədbinlik, bədgümanlıq, həsəd, kin, düşmənçilik və bu kimi başqa qəlbi işlər insanın həyatda başqaları ilə dostcasına və səmimi rabitə saxlaya bilməməsinə gətirir. Bu mövzu insanın qəlb məşğuliyyətini, nigarançılığını və kin-

küdurətini artırır. Eyni zamanda, bu, ibadət zamanı insanda qəlb iştirakının azalmasına səbəb ola bilər. Həzrət duanın bu hissəsində uyğun halları nəzərdən keçirir.

## *ŞƏR VƏ BƏLANIN YAXŞILIQ VƏ XEYİRƏ ÇEVRİLMƏSİ*

***“...İlahi, müxaliflər və mənə qarşı kin saxlayanların düşmənçiliyini dostluğa çevir; paxıllıqdan həddi aşıb mənə zülm edənlərin həsədini səmimiyyətə çevir”,***

***“Saleh insanların mənə qarşı bədgüman-lığını e`timadla əvəz et”.***

***“Yaxın qohumların düşmənçiliyini dostluğa çevir”.***

“Ədnəyn” sözü yaxın qohumlar mə`nasını bildirir. İnsanların müxtəlif şəxslərlə rabitələri fərqlidir. Yaxın qohumlar, uzaq qohumlar, qonşular və sair şəxslərlə əlaqə xüsusi şəkildə olmalıdır.

***“Yaxın qohumların rəftarını gözəl rəftar et”.***

Yaxın qohumlar bir-biri ilə əlaqə saxlamalı və bu əlaqəni kəsməməlidirlər. Bir-biri ilə mehriban olub, kobudluğa yol verməməlidirlər.

***“Yaxınlarımın məni köməksiz qoymasını köməyə çevir”.***

Bə`zən insan öz yaxınlarının köməyinə ehtiyaclı olur. Onlar isə kömək etmirlər.

***“Səmimi qəlblə yox, zahirən məhəbbət göstərən şəxslərin məhəbbətini həqiqi məhəbbətə çevir”.***

***“Mənimlə əlaqə saxlayıb, təkliflərimi rədd edən şəxslərin rəftarını böyüklüklə əvəz et”.***

***“Zalımlardan qorxu acılığını asudəlik şirnisinə çevir”.***

İlahi, zülmkarların və insanları hədələyən-lərin hədəsi əməli şəkildə olmasa da bizim qəlbimizdə qorxu yaradır, bu qorxunu aramlığa çevir!

## *ŞƏRİN UZAQLAŞMASI VƏ XEYİRİN GƏLMƏSİ ÜÇÜN KÖMƏK DİLƏMƏK*

Duanın bu hissəsi zalım və ya paxıl bir insanın zülm və təcavüz etmək istəyinə aiddir. İmam Allahdan istəyir ki, zalımın zülmü onda heç bir pis tə`sir qoymasın.

***"İlahi! Mənə zülm edən şəxslərin zülmü qarşısında müqavimət üçün qüdrət əta et".***

***"Mənə elə bir dil ver ki, düşmənlərimin tə`nəsi və sözlərinə cavab verə biləm (İslami əxlaqa uyğun cavab)".***

***"Hiyləgərin məkr və hiyləsi tə`sirinə düşməmək üçün mənə kömək et".***

***"Hiyləgərlərin hiyləsini batil etmək üçün mənə qüvvə ver";***

***"Məni məhv etmək istəyən şəxslərə qarşı müqavimət üçün qüdrət əta et";***

***"Başqalarının rəva olmayan eyb axtarışına cavab üçün qüdrət ver";***

***"Məni hədələyənlərin hədəsindən qoru";***

***"Bütün bunların qarşısında mənə yol göstərib səadətə yönəldən şəxsələrə itaət üçün tövfiq ver".***

## *BAŞQALARININ PİSLİYİ QARŞISINDA YAXŞILIQ*

Bu hissə bizə zülm olunan zamana aiddir. Zülm qarşısında nə etməliyik? Onlardan intiqam alıb, əməllərinə uyğun cavab verməliyikmi? Yoxsa onların günahlarını bağışlamalıyıq? Qur`ani-Kərim buyurur: ***"Yaxşılıqla pislik eyni ola bilməz! (Ey peyğəmbər! Sən və ümmətin) daim***

***xalqın pisliyini yaxşılıqla dəf et. Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!"***[1]

"Pərvərdigara, mənə hiylə qurmaq istəyənlərə qarşı xeyirxah olmağım üçün tövfiq ver";

"Məndən uzaqlaşmaq istəyən şəxslərin əməllərinə yaxşılıqla cavab verim";

"Mənə paxıllıq edənlərin həsədinə bəxşişlə cavab verim";

"Bədgümanlıq, bədbinlik və ya düşmənçilik səbəbindən mənimlə əlaqələri kəsən şəxslərlə əlaqə saxlayam";

"Qeybətimi edən şəxslərin arxasınca onların yaxşılığından danışım";

"Mənə yaxşılıq edənlərə təşəkkür edim və pis rəftar edənlərin pisliklərini bağışlayım".

## *ABIR-HƏYANIN QORUNMASI*

"Pərvərdigara, Məhəmməd və onun ailəsinə salam göndər və mənim abrımı varlılıqla qoru. Kasıblıq üzündən məni e`tibarsız məqama salma ki, Sənin ruzini yeyənlərdən kömək istəməyə məcbur olum". "Nəhcül-bəlağə"də duanın bu hissəsinin əvvəlki cümlələrinə oxşar bir çox tə`birlər gəlmişdir. Bütün mə`sumlar vahid bir nurdur. Bir neçə imamdan eyni bir duanın inşası təəccüblü deyil. Bəlkə də,

---

[1] "Fussilət" surəsi, ayə 34.

imam Səccad (ə) bu duanı Əmirəl-mö`minindən (ə) öyrənib.

"Aberu" sözü "ab" və "ru" ("üzün suyu") sözündən təşkil olunmuşdur. Az və ya çox bütün dinlərdə bu cür terminlərdən istifadə olunur. Bütün insanlar cəmiyyətdə abırlı olmaq istəyir. Yə`ni ətrafdakı insanlar ona hörmətlə yanaşsın və təhqiramiz baxışlarla baxmasınlar. Qiyafə, paltar, rəftar, xasiyyət və əməllər başqalarının insana hörmətinə səbəb olarsa, o, cəmiyyətdə abırlı hesab olunar. Əgər şəxsin əməlləri, xasiyyəti, qiyafəsi insanların nifrətinə səbəb olarsa, bu şəxs cəmiyyətdə abırsız və hörmətsiz olar.

Bə`zi sufilər zahirən bəzənməyi düzgün hesab etmirlər. Onların fikrincə, paltar, üz-göz və cisim təmiz, səliqəli olmamalıdır. Guya, bədənin üfunətli, paltarların çirli və saçların pırtlaşıq olması mə`nəviyyatdır. Onlar öz xam xəyalları əsasında nəfsləri ilə mübarizə aparıb bir növ ruhi kamilliyə çatmaq istəyirlər. Əslində onların bu əməlləri bir növ şeytanla əlaqə səbəbidir. Şeytan onlara arabir kömək edir ki, qəlbləri rahat olsun və bu köməklərin haqlılıq nişanəsi olduğunu düşünsünlər.

Qur`an və mə`sum imamların göstərişlərindən mə`lum olur ki, bu sayaq əməllər çox pislənilmişdir. Hətta Qur`anda özlərini ehtiyaclı göstərməyən kasıblar tə`rif olunmuşdur:

"Onlar çox iffətli olduqlarından tanımayanlar onları ehtiyacsız sayar. Siz onların simalarından yoxsulluqlarını anlayarsınız. Çünki onlar nəfsitox olduqlarından kimsədən bir şey istəməzlər."[1]

---

[1] "Bəqərə" surəsi, ayə 273.

İslam baxımından, insan geyimində, başqaları ilə münasibətdə (ailə və ictimai münasibətlərdə) elə rəftar etməlidir ki, insanların hörmətini qazana bilsin. Rəvayətlər iki növ paltarı olan (bayram günləri, cümə günləri və ya cəmiyyət içinə çıxmaq üçün təmiz paltarlar və iş üçün paltar) şəxsləri məzəmmət etmir və onların bu əməllərini dünyagirlik kimi göstərmir. Əksinə, rəvayətlər bu cür insanları tə`rifləyir. İslami cəmiyyətdə insanlar bir-birləri ilə daha çox əlaqə saxlayıb, bir-birlərini sevməlidirlər. Bu əməl onların maddi və mə`nəvi təkamülü üçün inkişaf zəminəsi yaradır. Rəvayətlərdə mö`minlərin görüş zamanı bir-birlərinin əlini sıxıb, bir-birlərinə məhəbbət göstərmələri sifariş olunur. İmam Baqir (ə) buyurur:

"İki mö`min qarşılaşıb bir-biri ilə görüşdüyü zaman Allah-təala əlini onların əlinin arasına daxil edər. Allah bu iki nəfərdən dostunu daha çox sevənə nəzər salar."[1]

Bütün bu sifariş və həvəsləndirmələr mö`minlərin bir-birləri ilə əlaqə saxlayıb, bir-birlərini sevmələri üçündür. İnsanların nifrətinə səbəb olan şeylərdən çəkinmək bu növ əlaqələrin, dostluq və mehribanlığın şərtidir. Heç kim çirkin, pis, qoxulu və saçları pırtlaşıq şəxslə görüşmək istəmir. Hətta insanın belə bir şəxsə baxmaq istəməməsi də mümkündür. Çətin ki, kimsə belə bir şəxslə oturub söhbət etsin və onun sözlərinə qulaq assın!

Əziz peyğəmbər dostları ilə görüşə getmək istədikdə saçlarını darayar, özünü ətirləyər, dişlərini yuyar və paltarını qaydasına salardı. Bundan əlavə, güzgüyə baxardı ki, üz-gözündə və paltarlarında eyb olmasın. Ayna olmadıqda qabda suya baxırdı. Təmizliyə olan bağlılıq və xalqın bu işə həvəsləndirilməsi insanların bir olub, bir-

---

[1] "Üsuli-kafi", 2-ci cild, səh.179.

birlərini sevmələri üçündür. Bu qayda ilə insanlar bir-birlərindən istifadə edə bilərlər. Mö`min ilə kafir arasında fərqlərdən biri də budur ki, abır-həya səciyyəsindən mö`min dinin tə`yin etdiyi ictimai vəzifələri yerinə yetirmək, kafir isə çirkin məqsədlərinə çatmaq üçün istifadə edir. Bir çoxlarının ağılı gözlərindədir. Adətən, xalq kasıb insana münasibətdə e`tinasız olur. Bu cür insan üçün cəmiyyətdə, hətta mö`minlərin arasında mövqe tutmaq çox çətindir. Var-dövlətin imam üçün heç bir dəyəri yoxdur. Lakin o bunu abır-həyasını qorumaq üçün istəyir. Bununla da ictimai mövqe sayəsində islami və iman vəzifələrini yerinə yetirə bilsin.

Başqalarına möhtac olan şəxs insanlara ehtiyac əlini açmağa məcburdur. Bu halda, insanlar ona kömək etsələr, o yoxsul qalır, əgər ona kömək etməsələr daha çox əziyyətə dözməli olur. Lakin yer və göylərin xəzinəsi Allahın əlindədir. O öz sonsuz kərəm və lütfü ilə insanın ehtiyaclarını ödəyib onun abır-həyasını qoruya bilər.

“Pərvərdigara! Olmasın ki, alçaq və şər fərdlərə ağız açım, mənim ehtiyacımı yerinə yetirənlərə sitayiş edib borclu qalım. Məcbur olum ki, ehtiyacımı yerinə yetirməyənlər haqqında pis söz deyim. Axı bəndələrinə ne`mət əta edib, bu ne`məti kəsə bilən yalnız sənsən”.

Bə`zən dünyada ehtiyaclarının açarı alçaq insanların əlində olur. Allahdan istəməliyik ki, bu növ ehtiyaclarımızı öz qeyb xəzinəsi vasitəsi ilə ödəsin. Belə ki, alçaq insanlardan kömək istəməyə ehtiyacımız olmasın. Qur`an buyurur: ***“Əgər Allah sənə bir zərər yetirsə, səni Allahdan başqa heç kəs qurtara bilməz. Əgər Allah sənə bir xeyir diləsə, heç kəs Onun ne`mətinə maneçilik edə***

***bilməz. Allah onu bəndələrindən istədiyinə nəsib edər."***[1]

***"Pərvərdigara, Məhəmməd və onun ailəsinə salam göndər. İbadətlə yanaşı sağlamlıq, təqva ilə yanaşı rahatlığı mənə ruzi et".***

Rahatlıq və sağlamlığın özü imam üçün əhəmiyyət kəsb etmir. İmam sağlamlıq və rahatlığı Allaha ibadət üçün vasitə hesab edir. Sağlamlıq və asudəlik ibadət və təqva ilə yanaşı olmalıdır.

***"Mənə daim əməllə yanaşı olan elm əta et. Mənə ifrata varmayan təqva və pəhrizkarlıq əta et".***

Təqvalı olmaq istəyən bə`zi şəxslər lazım olmayan yerlərdə ehtiyat edirlər. Hətta bu ehtiyat onların vaciblərdən uzaqlaşmasına səbəb ola bilər. Beləliklə, zöhd və təqva dairəsinə daxil olmamışdan öncə onun sərhədlərini yaxşıca tanımalıyıq.

***"Pərvərdigara, ölüm zamanı mənə əfvini nəsib et";***

***"Sənin rəhmətinə ümidvarlıq arzumu həyata keçir".***

İnsan günahlarına nəzər saldıqda Allahın mərhəmətinə olan ümidi yox olur. Bu an Allahın rəhmətinə ümidvar olmaq bir arzu şəklinə düşür.

***"Sənin razılığına çatdıran yolları mənim üçün hamar et";***

***"Bütün hallarda əməlimi xeyirli et";***

***"Pərvərdigara, Məhəmməd və onun ailəsinə salam göndər. Məni qəflət və unutqanlıq zamanı öz zikrinlə oyat".***

İnsan üçün daim qəflət təhlükəsi var. Bundan əlavə, bə`zən insanın Allahı tamamilə unutmasına səbəb olan hadisələr baş verir. Bu zaman fəryadımıza çatıb, öz zikrini bizə ilham etməsini və qəlbimizi ayıltmasını Allahdan

---

[1] "Yunus" surəsi, ayə 107.

istəməliyik.

***"Ömrümün qalan hissəsində məni öz itaətinə yönəlt";***

***"Məhəbbətinə çatmaq üçün mənə asan və sadə yol hazırla ki, öz məhəbbətinlə dünya və axirət xeyirini mənim üçün tamamlayasan";***

***"Mənim hədəfim Sənin məhəbbətinə çatmaqdır. Bu məhəbbətə çatmaq üçün dolanbaclı yollar var. Mənim üçün asan yol hazırla. Bu duaları qəbul etmək və məhəbbətinə doğru asan yol açmaqla mənim üçün dünya və axirət xeyirini kamilləşdir".***

***"Pərvərdigara! Peyğəmbər və onun Əhli-beytinə (ə) öz salamını nazil et. Məhəmməd və onun ailəsinə varlıq aləmində əvvəldən axıra az yaratdığına göndərdiyin ən üstün salamı göndər. Bizə dünya və axirətdə yaxşılıq əta buyur. Öz rəhmət və mehribanlığınla məni cəhənnəm əzabından qoru".***

## (4)
## *QUR`ANDA BƏ`Zİ MƏKAN VƏ ZAMANLARIN ÜSTÜNLÜYÜNƏ İŞARƏ*

Allah-təala bə`zi məxluqlarına digər məxluqla-rından daha çox şərafət və mərhəmət əta etmişdir. Onlara başqa mövcudların layiq olmadıqları məqam, izzət və şərafət və kəramət vermişdir. Qur`ani-Kərim, peyğəmbər və imamların rəvayətlərindən mə`lum olur ki, üstün fəzilət mərtəbələrinə sahib olan mövcudlardan əlavə, bə`zi məkan və zamanların da xüsusi üstünlükləri vardır. Qur`ani-Kərimdə bə`zi məkanların adı xüsusi ehtiramla çəkilmişdir. Bu məkanlardan birinci dərəcəlisi "Kə`beyi-mükərrəmə" sayılır:

"Həqiqətən insanlar üçün ilk bina olunan ev Məkkədəki evdir. O, şübhəsiz, bütün aləmlər üçün bərəkət və doğru

yol qaynağıdır.”[1]

İkinci müqəddəs məkan “Məscidul-əqsa” hesab olunur. Qur`anda Məscidul-əqsa və Məscidul-həramın adları yanaşı zikr olunub: ***“Bəndəsini (peyğəmbər (ə)) bir gecə Məscidul-həramdan ətrafını mübarək etdiyimiz Məscidul-Əqsaya aparan Allah pak və müqəddəsdir.”***[2]

Allah buyurur ki, onun ətrafını da özü kimi mübarək etdik. Başqa bir ayədə isə buyurur: ***“Ey qövm! Allahın sizin üçün müəyyən etdiyi müqəddəs torpağa daxil olun...»***[3]

Üçüncü müqəddəs məkan “Turi-Sinadır”. ***Bu yer Qur`anda “Turi-Sinin” kimi tə`bir olunmuşdu: “And olsun Tur dağına.”***[4]

Tur dağı həzrət Musanın münacat etdiyi bir dağ idi. İlk dəfə ilahi vəhy həmin şərafətli məkanda həzrət Musaya nazil oldu. Bu məkanların zatən pak olması və təkvini xüsusiyyətlərə malik olması mümkündür.

Hansısa bir zaman bəşəriyyətin onların xüsusiyyətlərindən xəbər tutması mümkündür. Eyni zamanda, bu məkanların paklığı orada baş vermiş hadisələrlə əlaqəli ola bilər. Ümumiyyətlə, bu məkanların xüsusi paklıq və şərafəti var.

Qur`ani-Kərimdə müəyyən zaman kəsiklərinə xüsusi ehtiramla yanaşılır. Qur`an ayələrindən mə`lum olur ki, İslam vaxtın ay təqvimi əsasında bölünməsini daha məqsədə müvafiq sayır.

---

[1] “Ali-İmran” surəsi, ayə 96.

[2] “İsra” surəsi, ayə 1.

[3] “Maidə” surəsi, ayə 21.

[4] “Tin” surəsi, ayə 2.

***"Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri kitabda 12-dir. Onların dördü haram aylardır."***[1]

Allah bu 12 aydan dördünü (zil-qə`də, zil-hiccə, məhərrəm, rəcəb) haram aylar etmişdir. Bu dörd ayın hörmətini saxlamaq vacibdir. Bu aylarda döyüşə başlamaq hətta peyğəmbər və imamlar üçün də haramdır. Lakin döyüş kafirlər və düşmənlər tərəfindən başladıqda müsəlmanlar müqavimət göstərə bilərlər. Bütün bunlar Allahın bu aylara qoyduğu hörmətə görədir.

Qur`ani-Kərimdə zil-hiccə ayı özündən əvvəlki iki ayla (şəvval və zil-qə`ddə) yanaşı (bu aylarda hacılar adətən həcc ziyarətinə gedirlər.) həcc ayları adlandırılır. Qur`anda "Həcc" adlı surə var. Bundan əlavə, Qur`anın digər surələrində həccin qaydaları barəsində danışılır. Lakin Qur`anın heç bir yerində bu ayların adı çəkilməyib.

## *RAMAZAN AYI VƏ QƏDR GECƏSİNİN FƏZİLƏTİ*

Qur`ani-Kərimdə ilin ayları arasından yalnız ramazan ayının adı çəkilmişdir. Lakin ramazan ayı nə haram aylardan, nə də həcc aylarındandır. Bununla belə, Qur`anda bu ay xüsusi hörmətlə yad edilmişdir: ***«Qur`an ramazan ayında nazil edilmişdir...»***[2] Ramazan ayında peyğəmbərin mübarək qəlbinə Qur`anın nazil olduğu gecə mübarək gecə adlandırılmışdır: ***«Biz Qur`anı mübarək bir gecədə göndərdik...»***[3] Bu mübarək ay təkvini (təbii) xüsusiyyətlərə malikdir. Çünki ilahi şəriət xeyir və fəsadlar nəzərə alınmadan tə`yin olunmur. Deməк, bu ayda xüsusi

---

[1] "Tövbə" surəsi, ayə 36.

[2] "Bəqərə" surəsi, ayə 185.

[3] "Duxan" surəsi, ayə 3.

faydalar olduğu üçün Allah onu başqa aylardan üstün etmişdir. Qədr gecəsi bu aydadır və orucun şər`i hökmü də bu ayda gəlmişdir. Qur`ani-Kərim buyurur: ***«Ey iman gətirən kəslər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi...»***[1]

Sonra isə buyurur: ***"Qur`an ramazan ayında nazil edilmişdir."***[2]

Bu iki aydan mə`lum olur ki, oruc insana Qur`anın nazil olduğu ayda vacib olub. Qur`anın bu bəyanından istifadə edərək, demək olar ki, bəklə də Allah Qur`anın bu ayda nazil olma şərəfinə orucu insanlara vacib etdi. Orucun bu ayda insanlara vacib olması səbəbini tamamilə Qur`anın nazil olmasında görməsək də, lakin Qur`anın nazil olması orucun vacibliyinə tə`sirsiz olmamışdır.

Qur`an bu ayədə buyurur: "Qur`an ramazan ayında nazil olmuşdur". Başqa bir ayədə isə buyurur: "Qur`an mübarək bir gecədə nazil olmuşdur". Demək, Qur`an ramazan ayının gecələrinin birində nazil olmuşdur. Bu gecə "Qədr gecəsi" adlanır. Qur`ani-Kərim buyurur: ***"Ha, mim! Açıq-aydın və hikmətli kitaba and olsun ki, biz onu mübarək bir gecədə nazil etdik. Biz o kitab vasitəsi ilə xalqı qiyamət əzabından agah edib qorxuduruq. Hər bir hikmətli iş o gecə hökm olunur."***[3]

"Yufrəqu" sözü ayrılmaq mə`nasını bildirir. Ayrılmaq üçün fərqləndirmə, fərqləndirmə üçün müəyyənləşdirmə və təqdir şərtdir. Müəyyənləş-dirmə və təqdir hər ikisi ölçü götürmək mə`nasını bildirir. İslam leksikonunda, hətta Qur`anda təqdir sözü ölçü götürmək mə`nasında işlədilmişdir. Əgər bir şeyin ölçüsü tə`yin olunsa, onun

---

[1] "Bəqərə" surəsi, ayə 183.
[2] "Bəqərə" surəsi, ayə 185.
[3] "Duxan" surəsi, ayə 1-4.

hüdudu müəyyənləşsə o başqalarından ayrılar, qeyri-müəyyənlik aradan qalxar. “Həmin gecə hikmətə əsaslanan işlər təqdir olunur” ayəsindən görünür ki, Qur`an qədr gecəsində nazil olmuşdur. “Qədr” surəsində də bu gecə əzəmətli gecə sayılmışdır: ***“Biz Qur`anı qədr gecəsi nazil etdik.”***[1]

“Qədr” sözü təqdir mə`nasını bildirir. Qur`an yenidən buyurur: ***“Qədr gecəsinin əzəmətindən səni nə agah edə bilər?!”***[2]

Bəlkə də, burada peyğəmbərə xitab olunmur. Əgər bu bəyan peyğəmbərə ünvanlaşmışsa, Qədr gecəsinin əzəmətini göstərir. Qədr gecəsinin necə də əhəmiyyətli olmasının aşkarlanması üçün bu üç qısa ayədə “ləylətul-qədr” kəlməsi üç dəfə təkrar olunur. Qur`an buyurur: “İnna ənzəlnahu fi ləylətul-qədr və ma ədrakə ma ləylətulqədr”. Qısaca bir tə`birdə hansısa bir şeyin əzəmətini bundan yaxşı göstərmək olmaz. Bu bəyan qədr gecəsinin sonsuz əzəmətini göstərir. Qur`an bu gecənin əzəmətini xalqın daha yaxşı hiss etməsi üçün buyurur: “və ma ədrakə ma ləylətul-qədr”. Qədr gecəsi adi insanların düşüncəsindən üstün bir həqiqətdir. Qur`an sonra isə belə buyurur: ***“Qədr gecəsi min aydan üstündür.”***[3]

Min ay səksən ildən çoxdur. Tam bir insan ömrü! Bu üstünlük iki cəhətdəndir:

1. Bu gecə Allahın öz bəndələrinə olan rəhməti Onun səksən illik rəhmətindən artıqdır;
2. Bu gecədə xalqın əməlləri onların səksən il ərzində əməllərindən (hər il qədr gecələrini nəzərə

[1] “Qədr” surəsi, ayə 1.
[2] “Qədr” surəsi, ayə 2.
[3] “Qədr” surəsi, ayə 3.

almamaqla) daha fəzilətlidir. Bu, Qur`anın mö`təbər sözüdür və onda heç bir şübhəyə yer yoxdur. Amma bu gecənin neçənci gecə olması bizə mə`lum deyil.

İnsan zehni əşyaların kəmiyyətini onların keyfiyyətindən daha yaxşı dərk edir. Allah Qədr gecəsinin əhəmiyyətini insanlara bildirmək üçün onun üstünlüyünü min ayla bildirmişdir. Lakin bu gecənin həqiqi dəyəri bizim anlamadığımız bir dəyərdir. Bu həqiqətə iman gətirmək bizim üçün vəzifə sayılır. Qur`an bu barədə buyurur: ***«Yaxşı əməl üzünüzü şərqə və qərbə tərəf çevirməkdən ibarət deyil. Yaxşı əməl əslində Allaha, axirət gününə, mələklərə, kitaba və peyğəmbərlərə inanmağınızıdır...»***[1]

Allah buyurduğu üçün axirət gününə, mələklərə, səmavi kitaba və peyğəmbərlərə iman gətirməliyik. Əslində isə bizim ağlımız mələk və onların yaranışdakı rolunu dərk etməyə qadir deyil. Əgər bu sahədə vəhy və ilahi övliyaların açıqlamaları olmasaydı, biz bu şeylər barəsində heç bir tanışlıq əldə edə bilməzdik. Qur`ani-Kərim buyurur: ***«Halbuki onların həqiqi izahını Allahdan başqa heç kəs bilməz. Elmi qüvvətli olanlar isə: "Biz onlara inandıq, onların hamısı Rəbbimiz tərəfindəndir - deyərlər...»***[2]

Allah buyurduğu üçün qəbul edirik. Qur`an ayələri və pak imamların rəvayətləri vasitəsi ilə mələklər barəsində bə`zi şeyləri anlamağımız mümkündür. Lakin biz onların həqiqətini dərk edə bilmərik. Mələyin həqiqəti, onun məqamı, aləmdə oynadığı rol, onun enməsinin mə`nası və sair. Bütün bu kimi şeylər bizim üçün qaranlıqdır. Biz

[1] "Bəqərə" surəsi, ayə 177.
[2] "Ali-İmran" surəsi, ayə 7.

“nüzul” (nazil olma) sözünü hansısa bir şeyin yuxarıdan aşağıya gəlməsi kimi anlayırıq. Lakin mələklərin necə enməsi bizim üçün məchuldur. Biz hətta bu işi təsəvvür belə etməyə acizik. Bizim bildiyimiz budur ki, mələklər yüksək məqamlı mövcudlardır və Allahın izni ilə dünyanın işlərini idarə edirlər. Onlar ruzinin nazil olmasında və ruhun alınmasında vasitə olur, insanların əməllərini yazırlar. Qur`an buyurur:

***“And olsun (kafirlərin canını) zorla alan mələklərə; and olsun (mö`minlərin canını) rahatlıqla alan mələklərə; and olsun Allahın göstərişlərini sür`ətlə yerinə yetirən mələklərə; and olsun (aləmin nəzmində) bir-birlərini ötdükcə ötən mələklərə və (kafirlərlə cihadda) bir-birlərini ötdükcə ötən mö`minlərə; and olsun Allahın əmri ilə dünyanın işlərini idarə edən mələklərə.”*** [1]

***«Göyləri və yeri yoxdan yaradan, iki qanadlı, üç qanadlı və dörd qanadlı mələkləri (peyğəmbərlərə) elçi edən Allaha həmd olsun! Allah yaranışda istədiyini artırar...»*** [2]

Lakin bütün bunlara baxmayaraq məlaikələrin vücudunun həqiqəti bizim üçün məchul, qaranlıqdır. Qur`an buyurur: ***“Sizə elmin yalnız az bir hissəsi verilmişdir.”*** [3]

Səma elminin inkişafı sübut etmişdir ki, bu cismani aləm vəsfolunmaz və dərkolunmaz bir əzəmətə malikdir: bə`zi ulduzlardan işığın yer kürəsinə çatması üçün milyardlarla il vaxt lazımdır. Lakin işıq səkkiz dəqiqə ərzində günəşdən yer kürəsinə çatır. Bə`zi alimlər başqa

---

[1] “Naziat” surəsi, ayə 1-5.
[2] “Fatir” surəsi, ayə 1.
[3] “İsra” surəsi, ayə 85.

planetlərdən yerə gəlib çatan işıqların öz ömürlərini sona vurmuş ulduzlar olduğunu deyirlər. Hər gün vüs`ət və əzəmətindən bir guşəsi kəşf olunan bu aləm öz əzəməti ilə insan tərəfindən dərk olunmayan həqiqətlərlə müqayisədə ucsuz-bucaqsız səhrada itmiş üzük kimidir. Nəql olunur ki, əziz peyğəmbər buyurdu:

***«...Ey Əbuzər! Yeddi qat göy kürsü ilə (varlıq aləmi ilə) müqayisədə səhrada itmiş üzük kimidir...»***

İnsanlar (peyğəmbərlər, mə`sum imamlar və Allahın qeyb elmi əta etdiyi bə`zi övliyalar) maddi aləmin əzəmətini dərk edə bilmirlərsə, insan hissləri ilə dərk olunmayan və maddi aləmdən daha əzəmətli və daha həssas olan mə`nəvi məfhumları necə dərk edəcəklər?! Mələklərin yuxarı aləmdən peyğəmbərin qəlbinə nazil olması adi insanların düşüncəsinin fövqündədir. Biz yalnız deməliyik: ***«Biz onlara inandıq, onların hamısı Rəbbimiz tərəfindəndir...»***[1]

Bu bizim üçün sonsuz fəxr hesab olunur. Çünki Allah bizi hidayət edib, biz Onun hidayətini qəbul etmişik, buyurduqlarını göz üstə qoymuşuq və mələklərin varlığına, eyni zamanda, Qədr gecəsi peyğəmbərin qəlbinə nazil olmasına inanmışıq. Bu gecə min aydan fəzilətlidir. Bu gecədə qılınan bir rəkət namaz başqa zamanlar qılınan 30 min rəkət namazdan üstündür. Allah bu gecə üçün belə bir şərafət tə`yin etmiş və qısa bir zamanda böyük fayda əldə etmək üçün mö`minlərə yol açımışdır.

## *QUR`ANIN BİR GECƏDƏ NAZİL OLMASI İLƏ BAĞLI ŞÜBHƏYƏ CAVAB*

Otuz cüz`dən ibarət olan Qur`anın bir gecədə

---

[1] "Ali-İmran" surəsi, ayə 7.

peyğəmbərin qəlbinə nazil olması şübhə doğura bilər. Görən, belə bir iş mümkündürmü? Bu söz Qur`anın 23 il ərzində nazil olması ilə uyğunlaşırmı?

İslam düşmənlərinin peyğəmbərə qarşı e`tirazlarından biri də Qur`anın nə üçün bir dəfəyə nazil olmaması idi. Qur`an bu barədə buyurur: ***"Sənin ürəyinə səbat, qətiyyət vermək üçün biz onu ayə-ayə tədriclə nazil etdik."***[1] Qur`ani-Kərim altı mindən çox ayədən ibarətdir. Cəbrailin bu qədər ayəni bir gecədə təbii şəkildə peyğəmbərə oxuması təsəvvürolunmazdır.

Bu cür məsələlərin cavabında Qur`ani-Kərimin istifadə etdiyi üsullardan biri şübhələrə cavab üsuludur. Qur`an buyurur: ***"...Yeri bitkilər öləndən sonra yenidən diriltdir. Siz də torpaqdan belə çıxardılacaqsınız."***[2]

Ölmüş yerdən bitkiləri canlandıran Allah ölmüş insanları, çürümüş və torpağa qatışmış bədənləri yenidən dirildə bilər. Bu növ açıqlama şübhələrə cavabdır və bir növ dəlil hesab olunur. Qur`an bununla bağlı başqa halları da nəzərdən keçirir. Məsələn, həzrət İbrahim tərəfindən başları kəsilən və yenidən dirilən canlılar; kəsildikdən sonra yenidən dirilən Bəni-İsrailin inəyi. Bu hallar göstərir ki, Allah üçün axirət aləmində mövcudları diriltmək heç də çətin deyil.

Bu yerdə də şübhələrə cavab üsulundan faydalanmaq olar. Yadda saxlamalıyıq ki, bizim mühakimələrimiz gündəlik müqayisələrimiz əsasında olur. Biz oxumaq və eşitməyi öz həyatımızdakı oxumaq və eşitmək hesab edirik. Elə fikirləşirik ki, kimsə söhbət etmək istəsə, bizim kimi və bizim qədər danışmalıdır. Lakin yaşadığımız bu aləmdə bə`zi hallarda qısa bir zamanda bir çox mətləbləri

---

[1] "Furqan" surəsi, ayə 32.
[2] "Rum" surəsi, ayə 19.

dərk etməyə layiq oluruq. Bu hallardan biri yatanda gördüyümüz yuxudur. Bə`zən insan qısa müddətdə elə bir yuxu görür ki, bu hadisələr ayıq vaxtı baş verərdisə bir neçə gün çəkərdi. Az bir vaxtda yuxuda uzun bir macəra görürük və bir çox sözlər eşidirik. Əgər ayıq vaxtı bu sözləri təkrarlasaq, bir neçə saat çəkər. Qur`anın bir gecədə nazil olması onun hava dalğaları vasitəsi ilə eşidilən sözlər şəklində peyğəmbərə nazil olması deyil. Qur`an buyurur: ***"Onu Cəbrail endirdi: Qorxudan peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi)."***[1] Qur`an bu ayədə ayələrin peyğəmbərin qulağına yox, qəlbinə nazil oluduğunu göstərir.

Bu şübhənin aradan götürülməsi üçün kompüteri misal çəkmək olar. Bir neçə cildlik ensik-lopediyanın maarifini bir kompüter disketində yerləşdirmək olar. Bu disketi aldıqda ensik-lopediyanın bütün maarifi bizim ixtiyarımızda olur. Biz istədiyimiz vaxt bir kompüter aparatından istifadə etməklə disketdə olan mövzulardan fayadalana bilərik. Bu iş həmin ensiklopediyanın bütün sözlərini üstün səviyyədə bizə oxunması demək deyildir. Demək, maddiyyat aləmində bə`zi hallarda oxumalı və ya eşitməli mə`lumatlar toplusunu balaca bir şeyə sığışdırmaq olur. Təfriqə aləmi olan bu aləmdə belə bir imkan varsa, şübhəsiz ki, daha üstün vəhdətin mövcud olduğu qeyri-maddi aləmdə həqiqətləri məcmuə şəklində daha yaxşı toplamaq olar.

Əlbəttə, bu işin necə baş verməsi bizim üçün qaranlıqdır. Lakin belə bir işin mümkünsüz olmadığını bilirik. Eyni zamanda, bu dünyada onun nümunəsini tapmaq olar. Demək, Qədr gecəsi qısa bir müddət ərzində

---

[1] "Şüəra" surəsi, ayə 193-194.

(bir neçə dəqiqə və ya daha az) bütün Qur`an peyğəmbərin müqəddəs qəlbinə nazil olub və peyğəmbər də onu qəbul edib. Mərhum Əllamə Təbatəbai Qur`anın nazil olması barəsində "Təfsirul-Mizan" kitabında buyurur: "Qur`ani-Kərim peyğəmbərin qəlbinə iki şəkildə nazil olmuşdur: Bir dəfəyə nazil olma; tədricən nazil olma. Rəvayətlərin "nüzuli ila bəytil-mə`mur", "nüzuli iləssəmaid-dünya" və "nüzuli əla qəlbin-nəbiyy" kimi xatırlatdığı bir dəfəyə nazilolma girami peyğəmbərə xüsusi münasibətlərlə ayə-ayə nazilolma ilə fərqlidir. Bu iki nazilolma arasında olan əlaqə "əl cəm vət-təfriq" əlaqəsidir. Peyğəmbərin qəlbinə 23 il ərzində nazilolma ətraflı nazil olmadır. Qədr gecəsində Qur`anın nazil olması birdəfəyə və cəm şəkildə olan nazil olmadır. Qur`anın cəm şəkildə olan nazil olmasının mə`nasını anlatmaq üçün bizim düşüncəmiz naqisdir.

***"Sizə elmin yalnız cüz`i bir hissəsi verilmişdir."***[1]

Qur`anın nazil olduğu gecədə mələklər də enir. Bu gecə çox əzizdir və insanlar üçün ümid mayasıdır. Girami peyğəmbər və pak imamların bəyanatlarına diqqət yetirən insanlar, il boyu özlərini qədr gecəsini dərk etmək üçün hazırlayırlar. Əgər insan bir gecədə otuz min gecə-gündüzün dəyərini əldə edə bilərsə, belə bir gecəni dərk etmək üçün bir il çalışmağa dəyər. İl boyu "Qədr" surəsini oxumaq, ramazan ayının gecələrində min dəfə "Qədr" və ya yüz dəfə "Duxan" surəsini oxumaq Qədr gecəsinin dərk olunmasında tə`sirli işlərdəndir.

---

[1] "İsra" surəsi, ayə 85

Mündəricat

ÖN SÖZ ..... 3
BİRİNCİ HİSSƏ ..... 6
DUA BARƏSİNDƏ SÖHBƏTLƏR ..... 6
DUANIN HƏQİQƏTİ NƏDİR? ..... 7
DUANIN MÜSTƏQİL TƏ`SİRİ ..... 10
DUANIN SƏBƏBİYYƏT PRİNSİPİ İLƏ ZİDDİYYƏTİ VARDIRMI? ..... 12
MƏGƏR DUA XALQ ÜÇÜN SÜSTLÜK VƏ TƏNBƏLLİK SƏBƏBİDİR? ..... 17
DUANIN TƏ`SİRLƏRİ ..... 23
DUANIN QƏBUL OLMA ŞƏRTLƏRİ ..... 27
ALLAHIN MÖ`MİNLƏR ÜZƏRİNDƏ VİLAYƏTİ ..... 36
NƏTİCƏSİNDƏN ASILI OLMAYARAQ DUA ETMƏK ..... 38
DUANIN QAYDALARI ..... 39
DUA EDƏNLƏRİN NÖVLƏRİ ..... 43
DUA AMİLLƏRİ ..... 49
DUAYA MÜNASİBƏTDƏ TƏKƏBBÜRÜN MƏ`NASI ..... 53
TƏ`SİRLİ DUALAR ..... 55
DİNİ HÖKMLƏRƏ İTAƏT ZƏRURƏTİ VƏ EHTİRAMSIZLIĞIN TƏ`SİRLƏRİ ..... 59
İKİNCİ HİSSƏ ..... 70
“İFTİTAH” DUASINDAN SEÇMƏLƏRİN ŞƏRHİ ..... 70
RAMAZANI QƏNİMƏT SAYAQ ..... 70
RAMAZAN AYINI NECƏ QƏNİMƏT SAYAQ? ..... 71
DUA HƏQİQƏTİNƏ DİQQƏT ..... 72
RAMAZAN VƏ “İFTİTAH” ..... 73
ALLAHA SİTYAİŞ BAŞLANĞIC NÖQTƏDİR ..... 74
DÜZGÜN YOL SEÇİMİ VƏ İLAHİ KÖMƏK ..... 75
ALLAHIN HİKMƏTLİ QƏZƏB VƏ RƏHMƏTİ ..... 75
QORXU VƏ ÜMİD ZƏRURƏTİ ..... 76
İBADƏT TÖVFİQİ, ALLAHIN BƏNDƏYƏ MİNNƏTİ ..... 77
BƏNDƏNİN GÜNAHI VƏ İLAHİ FEYZİN DAVAMI ..... 79
DUANIN HƏQİQƏTİ, ALLAHI QƏLBƏN DÜŞÜNMƏK ..... 80
İLAHİ NE`MƏTLƏRİN YADA SALINMASI ..... 80
NE`MƏTLƏRİN DAVAMLILIĞI ALLAHIN ƏLİNDƏDİR ..... 83
İLAHİ NE`MƏTLƏR HAQQINDA TƏFƏKKÜR ZƏRURƏTİ ..... 84
A-CƏZADAN QORXU ALLAHIN NE`MƏTİDİR ..... 85

B-ÇƏTİNLİKLƏR ALLAHIN NE`MƏTİ............................................85
DUANIN QƏBULUNDA TƏ`XİRİN HİKMƏTİ.................................86
İNSANIN ALLAHA QARŞI TƏKƏBBÜR VƏ DİQQƏTSİZLİYİ .....88
ALLAHLA MÜNACAT VƏ ÜNSİYYƏTİN DƏYƏRİ .......................89
HƏMİŞƏ AÇIQ OLAN İLAHİ RƏHMƏT QAPILARI........................90
İBADƏT ZAMANI QƏLB İŞTİRAKININ ZƏRURƏTİ......................93
EŞQ VƏ MƏHƏBBƏT MƏ`RİFƏT SÖVQATIDIR ...........................94
ALLAHA ÜMİD VƏ ONA GÜVƏNMƏK............................................96
ALLAHA ÜMİD BARƏSİNDƏ ƏLİNİN (Ə) SÖZÜ ...........................97
FƏRƏC, ZÜHUR İNTİZARI ...............................................................101
İNTİZAR AMİLİ ...................................................................................103
KEÇMİŞ ÜMMƏTLƏRDƏN ÖYÜD GÖTÜRMƏK ........................106
PEYĞƏMBƏR VƏ İMAMLAR ƏN DƏYƏRLİ NE`MƏTLƏRDİR.109
ƏSRİN İMAMINDAN BİXƏBƏRLİK ...............................................111
QEYB ZAMANI BİZİM VƏZİFƏMİZ................................................114
ÜÇÜNCÜ HİSSƏ ...................................................................................116
ƏBU-HƏMZƏ SOMALİ DUASINDAN SEMƏLƏRİN ŞƏRHİ .......116
ƏBU-HƏMZƏ DUASI .........................................................................116
ALLAH İLƏ MƏXLUQ ARASINDA TƏKVİNİ ƏLAQƏ ................118
ƏYLƏNCƏLƏR TƏKVİNİ RABİTƏNİ DƏRK ETMƏK ÜÇÜN MANEƏDİR..........................................................................................119
ALLAHIN MEHRİBANLIĞINI DÜŞÜNMƏKLƏ ONA QARŞI MƏHƏBBƏTİN ARTMASI.................................................................120
DUADA ALLAHIN SİFƏTLƏRİNƏ DİQQƏT ................................124
“QƏBZ” VƏ “BƏST” HALLARI, İLAHİ CAMAL VƏ CALAL SİFƏTLƏRİNİN TƏCƏLLASI ...........................................................125
GÜNAHLARIN E`TİRAFI ALLAHA YAXINLAŞMAQ SƏBƏBİDİR.........................................................................................128
İLAHİ BARİGAH BƏNDƏLƏRİN İBADƏTİNDƏN DAHA ÜSTÜN MƏRTƏBƏDƏDİR...........................................................................135
İNSANIN İLAHİ YARDIMDAN MƏHRUMLUĞUNUN SƏBƏBLƏRİ..........................................................................................136
ƏMƏLLƏRİN NƏTİCƏSİ ..................................................................138
QORXU VƏ ÜMİD İMAN ŞƏRTİDİR .............................................141
İMAM SƏCCADDA QORXU VƏ ÜMİDİN KAMİL TƏCƏSSÜMÜ142
ALLAH MƏHƏBBƏTİNİ QAZANMA YOLU.................................144
ALLAHIN ZİKRİ ...................................................................................148
ZİKRİN HƏQİQƏTİ.............................................................................149
ARAMLIQ YALNIZ ALLAHI DÜŞÜNMƏKLƏ YARANIR ...........151

ALLAHIN ÖZ DOSTLARINA (ÖVLİYALARINA) XÜSUSİ DİQQƏTİ....153
BÜTÜN HALLARDA ALLAH ZİKRİ....155
ALLAHLA ÜNSİYYƏT ÖVLİYALARA LƏZZƏTDİR....157
QƏLBİN BƏ`Zİ XÜSUSİYYƏTLƏRİ....158
QƏLB DƏYƏRİ....162
İNSANIN MƏ`NƏVİ HƏYATI....163
HƏYAT MƏRTƏBƏLƏRİNİN FƏRQLƏRİ....165
ALLAH ZİKRİNİN MƏRTƏBƏLƏRİ....168
DÜNYAYA BAĞLILIQ ALLAHI YAD ETMƏK ÜÇÜN MANEƏDİR....171
İNSAN MADDİ VƏ MƏ`NƏVİ EHTİYACLARLA ÜZBƏÜZ....173
DÜNYAYA ALDANIŞ MƏ`NƏVİ HƏYATA NAİL OLMAQ ÜÇÜN MANEƏDİR....175
İNSANIN AXİRƏTİ DÜŞÜNMƏMƏSİNİN SƏBƏBİ....178
ALLAHLA ÜNSİYYƏT ÖLÜMDƏN SONRA ÜÇÜN ƏN ÜSTÜN AZUQƏDİR....180
ALLAH İLƏ NECƏ ÜNSİYYƏT YARADAQ?....183
İMANIN DƏYƏRİ....185
GÜNAH VƏ İMAN....187
İMANIN BƏ`Zİ NƏTİCƏLƏRİ....189
DÖRDÜNCÜ HİSSƏ....197
"MƏKARİMUL-ƏXLAQ" DUASINDAN SEÇMƏLƏRİN ŞƏRHİ....197
SALEHLƏR DUASI....197
DUANIN QƏBULU ÜÇÜN SALAVAT ZİKRİ....199
İMAN VƏ YƏQİNİN ƏN ÜSTÜN VƏ KAMİL MƏRHƏLƏSİNƏ ÇATMA YOLU....199
İMANLA E`TİQADIN FƏRQLƏRİ....201
ÜMMƏTLƏRİN PEYĞƏMBƏRLƏRLƏ MÜXALİFƏTLƏRİNİN SƏBƏBLƏRİ....203
YƏQİN ƏLAMƏTLƏRİ....204
ƏN YAXŞI NİYYƏT VƏ ƏN GÖZƏL ƏMƏL....205
ƏN ÜSTÜN İBADƏT....206
İNSANIN MƏS`ULİYYƏTİ....210
QUR`AN BAXIMINDAN YARANIŞIN MƏQSƏDİ....211
DAVAMLI HİDAYƏT....215
ŞƏR VƏ BƏLANIN YAXŞILIQ VƏ XEYİRƏ ÇEVRİLMƏSİ....221
ŞƏRİN UZAQLAŞMASI VƏ XEYİRİN GƏLMƏSİ ÜÇÜN KÖMƏK DİLƏMƏK....222

BAŞQALARININ PİSLİYİ QARŞISINDA YAXŞILIQ ....................222
ABIR-HƏYANIN QORUNMASI .......................................................223
QUR`ANDA BƏ`Zİ MƏKAN VƏ ZAMANLARIN ÜSTÜNLÜYÜNƏ İŞARƏ.....................................................................228
RAMAZAN AYI VƏ QƏDR GECƏSİNİN FƏZİLƏTİ .....................230
QUR`ANIN BİR GECƏDƏ NAZİL OLMASI İLƏ BAĞLI ŞÜBHƏYƏ CAVAB ..........................................................................235